*A K İ F   K A M A L*

# KƏLBƏCƏR BATALYONU
# VƏ ƏFSANƏVİ ALAY

BAKI - 2012

**BBK 45.2.2**
**K-21**

**Akif Kamal**
(Kamalov Akif Haqverdi oğlu)

**K-21** *"KƏLBƏCƏR BATALYONU VƏ ƏFSANƏVİ ALAY"*
Bakı, Azərnəşr, 2012, 330 səh.

*"Kəlbəcər Batalyonu və Əfsanəvi Alay" Qarabağ müharibəsinin iştirakçısı olmuş Akif Kamalın ikinci kitabıdır. Kitabda xalqımızın qəhrəmanlıq və döyüş ənənələri, vətənə məhəbbəti, düşmənə nifrəti, qələbəyə inamı, torpaq, yurd, bayraq sevgisi yüksək vətənpərvərlik hissləri ilə tərənnüm edilmişdir.*

*Kitab Qarabağ müharibəsi tarixinin kiçik bir hissəsini əhatə etməklə, müasir Azərbaycan ordusunun və onun bölmələrinin yaradılmasından və keçdiyi şərəfli döyüş yollarından bəhs edir. Kitabda erməni işğalçılarına qarşı xalqımızın igid oğullarının apardığı çoxsaylı döyüşlər haqqında xatirələr, şəkillər və sənədli hekayələr toplanmışdır.*

*"Kəlbəcər Batalyonu və Əfsanəvi Alay" kitabı şanlı döyüş salnaməsi olmaqla gənc nəslin vətənpərvərlik və qəhrəmanlıq ruhunda təlim-tərbiyəsinə mühüm töhfədir.*

__4502020000___ qrifli nəşr ©Akif Kamal, 2012

M-651(7)2012

*Məndən yəhərimi istəyin-verim, atımı istəyin-verim, amma heç kəs vətənimdən bir qarış torpaq istəməsin - vermərəm!*

*Mete Xaqan*

# *Müəllifdən*

Qarabağ müharibəsi rusların 18-ci əsrdən başlayan 300 illik işğalçılıq müharibələrinin davamıdır. Tarixə nəzər yetirsək görərik ki, bu müharibə, hələ 18-ci əsrdən-I Pyotrun dövründə başlayan rusların Qafqaz siyasətinin, yəni, Qafqazın işğal edilməsi planlarının biridir. Bu planların içərisində ermənilərdən və digər millətlərdən istifadə etməklə işğalçılıq məqsədlərinin hayata keçirilməsi aydın olaraq göstərilmişdir. Biz tarixi əsərlərdən və I Pyotrun vəsiyyətlərindən də bu bu fikirləri aydın görə bilərik. Bu planlar rusların, heç də erməniləri çox istəməsindən irəli gəlmirdi.

Əlbəttə, ərəb ölkələrində, İranda, Türkiyədə və başqa yerlərdə dağınıq halda, digər millətlərin kölgəsində yaşamağa adət etmiş erməniləri 1828-ci ildə ruslarla farslar arasında bağlanmış Türkmənçay müqaviləsi əsasında gətirib Qafqazda yerləşdirməsi rusların onlara yazığı gəlməsi demək deyildi. Çinki həmin dövrdə rusların özlərinin Qafqazda yerləşmələri və ya möhkəmlənmələri şübhə altında idi. Çünki imperiya torpaqlarının hamısını əllərində saxlamaları ruslara xəyal kimi gəlirdi.

Dayaqsız və gələcəyə ümidsizlik ermənilərin Qafqaza köçürülmələri üçün ruslara lazım idi. Çünki ermənilər həm xristian idilər, həm də Qafqaz xalqlarına düşmən münasibət bəsləyirdilər. Ruslara isə sərfəli idi ki, imperiyanın sərhədlərində xaçlıların sayını artırsınlar. Digər tərəfdən, ermənilərin saylarının az olması, gələcəkdə ruslara qarşı ziyan törətməzdilər. Buna görə də əvvəllər az olduqları üçün ermənilər türklərə qarşı düşmənçiliklərini büruzə verməyə qorxurdular.

Köçürüləndən sonra azərbaycan xanlıqlarının torpaqlarında məskunlaşdırılan ermənilər, yararsız torpaqlarda yerləşdirilirdilər. Çünki torpaq sahibləri onlara xoşluqla torpaq vermək istəmirdilər. Hal-hazıradək ermənilərin məskunlaşdıqları və ya saldıqları kəndlərin əksəriyyətinin qayalıqlarda, dar dərələrdə, əkinə yararsız torpaqlarda olması bu fikirlərimizin sübutudur. Ermənilər məskunlaşdıqları yerlərdə yerli türklərə düşmən münasibət bəsləsə də azlıqda olmaları, onların əl-qollarının açılmasına imkan vermirdi. Ruslar onlara nə qədər dayaq dursa

da ermənilər 1905-ci ilədək türklərə qarşı ciddi heç bir iş görə bilmədilər. Ermənilər yerli türklərin qapılarında nökərçilik, pinəçilik, nalbəndlik, dəlləklik etmiş, bizimkilərin süfrəsinin qalıqları ilə dolanmışlar. Onlar öz çirkin məqsədlərinə çatmaq üçün çox uzun bir zaman gözləmişlər. Bu zaman ərzində ermənilər ruslara yaltaqlanır, onlardan vəzifə alır, yerli

*İnsanı düşmənlə döyüşməyə vadar edən – vətən, torpaq sevgisidir.*

*M ü ə l l i f*

əhalinin sıxışdırılmasına, həbs olunmasına, sürgün olunmasına, repressiyalara məruz qalmasına nail olurdular. Bu çirkin yolda ermənilər, hətta, öz arvadlarından və qızlarından da istifadə etmişlər.

Beləliklə, ruslar 1828-ci ildən Azərbaycanın Qarabağ, İrəvan, Naxçıvan adlanan torpaqlarında erməniləri yerləşdirdilər. Onu da qeyd etmək lazımdır ki, ruslar Azərbaycanda təkcə erməniləri deyil, hələ onlardan bir az əvvəl almanları, malakan ruslarını və digər millətləri də Şimali Azərbaycan torpaqlarına köçürmüşlər. Bununla da bu torpaqlarda yerli əhaliyə qarşı dəfələrlə ermənilərin törətdiyi soyqırımlara ruslar şərait yaratdılar, kömək etdilər və ya göz yumdular. Tarixlər boyu öz dövlətləri olmayan ermənilər məhz rusların atalıq qayğıları ilə bu xülyalara düşdülər. Ruslar isə həm ermənilərdən istifadə etmiş, həm də yüz illərlə ermənilərin özlərinin dövlət yaratmalarına razı olmamışlar.

Sovetlər imperiyası çar imperiyasının davamı idi. 1920-ci ildə ermənilər-müstəqil olmasa da-tarixdə ilk dəfə özlərinə dövlət yaratdılar. Bu rusların tarix qarşısında bağışlanmaz səhvlərindən biri idi. Çünki ermənilər etibarsız, ikiüzlü və ayağı sürüşkən olduqları üçün gələcəkdə rusların özlərindən də üz çevirə bilərlər. Beləliklə, sovetlər dövründə də ermənilər dinc durmadılar. Belə ki, sərhəd bölgələrindəki Azərbaycar Respublikasının bəzi ərazilərinin hissə-hissə qoparılıb Ermənistana birləşdirilməsinə nail ola bildilər. 1918-ci ildə ərazisi 10 min kv. km kimi nəzərdə tutulan Ermənistan respublikası, sovetlər dövründə onlara veriləcək ərazini Azərbaycan torpaqları hesabına üç dəfə genişləndirərək 28 min kv. km-ə çatdırdı. İndi isə onun ərazisi 44 min kv. km-dir. 1991-ci ildə Sovetlər imperiyası dağılan kimi, ermənilər yeni-yeni torpaqlar zəbt etməyi qarşılarına məqsəd qoydular, daha doğrusu, çirkin məqsədlərinin həyata keçirilməsi üçün məqamın yetişdiyini yəqin etdilər.

Qarabağ müharibəsinin başlanmasına biləvasitə ruslar rəhbərlik edirdilər. İmperiya dağıldıqdan sonra ruslar Bakı neftini və digər sərvətləri birbaşa daşıyıb apara bilməyəcəklərini başa düşdülər və həmin sərvətləri dolayı yollarla daşımaq qərarına gəldilər. Bunun üçün ən əlverişli yol müharibə idi. Belə ki, müharibə yolu ilə həm ermənilər, həm

də biz zəifləyə bilərdik. Bundan başqa ruslar silah-sursat, döyüş texnikası satmaqla hər iki tərəfdən qazanc götürə bilərdi.

Ruslar erməniləri ona görə əllərində saxlamağa çalışdılar ki, əgər onlar ermənilərə arxa durmasalar bölgəyə Amerika, İngiltərə və s. gələ bilər və ermənilərin yeni arxası ola bilərdi. Bunun isə yolverilməz olduğunu bilən ruslar bizə qarşı növbəti nankorluq etdilər...

*Övladlarıma üç şeyi əmanət qoyuram: dilimiz, qeyrətimiz, vətənimiz! Şah İsmayıl Xətai*

Təəssüf ki, müxtəlif tarixi dövrlərdə parçalanmış Azərbaycan adlanan-doğma torpağımızın bir hissəsi də 20-ci əsrin sonlarında erməni və rus işğalçıları tərəfindən işğal edildi. Itirilmiş ərazilərlə bərabər işğalçılara qarşı 1988-1994-cü illərdə apardığımız azadlıq mübarizəsində və Qarabağ müharibəsində xalqımız iyirmi mindən çox şəhid vermişdi. Bu müharibədə on minlərlə döyüşçümüz yaralanmış, əlil və şikəst olmuş, minlərlə mülki əhali və hərbçi əsir düşmüşdür. Qarabağ müharibəsində Azərbaycanın ən rəşadətli oğulları böyük ruh yüksəkliyi ilə döyüşmüş, yeri gəldikcə ermənilərə öz həddini göstərmiş, hətta Vətən uğrunda öz canlarını qurban verməkdən çəkinməmişlər.

Qarabağ müharibəsi haqqında çox yazılıb və bundan sonra da yazılacaq. Bu müharibənin başlanması, müharibənin aparılması, uğurlar və ya uğursuzluqlar zaman-zaman insanları düşündürməyə vadar edəcək.

1993-cü ilin fevralınadək ermənilər Qarabağ müharibəsində yenə də uduzmuşdular. 1992-ci il döyüşləri-Ağdərə və digər bölgələrin azad edilməsi- buna misal ola bilər. Lakin rusların birbaşa hərbi yardımı ilə - "Qarabağ" ümidləri demək olar ki puç olmuş ermənilər - yenidən dirçəlməyə başladılar. Həmin ildən ruslar bizim ölkə ilə demək olar ki, bütün əlaqələri kəsdilər. Onlar hətta bizə ərzaq və digər malların Rusiyanın ərazisindən keçirilməsini də qadağan etmişdilər. Bundan başqa Xankəndində və Ermənistanda yerləşdirilmiş rus ordusu bölmələrinin birbaşa müdaxiləsi ilə Şuşa, Laçın, Kəlbəcər və digər bölgələr işğal olundu, Xocalı **soyqırımı** törədildi. Müharibənin gedişində ermənilərin dönüş yaratmasına, Azərbaycandakı daxili çəkişmələr də yardım göstərdi. Elə bu çəkişmələri də ruslar təşkil etmişdilər.

Torpaqlarımızın əsas işğal səbəblərini, məhz ruslarla ermənilərin işğalçılıq planlarında axtarmaq lazımdır. Məğlubiyyətimizin səbəblərini biz-"piyadaların" güclü və ya gücsüzlüyündə deyil, şahmat taxtasında daha böyük "fiqurların" at oynatmasında axtarmaq lazımdır.

Döyüşlər zamanı düşmənə borclu qalmamışıq. Bunu ermənilərin özləri də yaxşı bilirlər. Məlumdur ki, bu müharibədə ermənilər, heç də bizdən az itki verməmişlər. Azərbaycan Ordusunun ermənilərə qarşı

apardığı Qarabağ müharibəsində şanlı səhifələr çoxdur. Bu şanlı səhifələr Azərbaycan tarixi salnaməsinə Laçında, Ağdamda, Qubadlıda, Fizulidə, Cəbrayılda, Zəngilanda, Goranboyda, Şuşada, Ağdərədə, Kəlbəcərdə, Murovdağda rəşadətli oğulların qanları ilə yazılmışdı. Təkcə onu qeyd etmək kifayətdir ki, 1992-ci ilin yayında  Dağlıq Qarabağ adlanan ərazinin yarısı-Ağdərə bölgəsi, Əsgəranın və Xocavəndin bir çox



kəndləri düşməndən azad edilmiş, ermənilər Xankəndi ətrafına qədər sıxışdırmışdı. Müharibə meydanlarında ermənilərə divan tutan da, onları həm canlı qüvvə, həm də döyüş texnikası  itkilərinə məruz qoyan da, Azərbaycanın qalan ərazilərinin-80 faiz ərazisinin- işğal olunmasının qarşısını alan da, məhz həmin Azərbaycan ordusu idi. Bu barədə yüzlərlə-minlərlə döyüş faktları və hadisələr var. Bu müharibədə bir çox qəhrəman oğullarımız həlak olsa da, həmin döyüşlərin canlı şahidləri-müharibə veteranları da çoxdur və hələ yaşayırlar.

Bəzən 1991-1994-cü illərdəki Azərbaycan ordusu nizamsız, zəif təchiz olunmuş, peşəkar hərbçilərin çatışmadığı bir ordu kimi xatırlanır. Təbii ki, 71 ildən sonra yenicə müstəqillik əldə etmiş Azərbaycanın yeni yaradılan ordusunda da çatışmamazlıqlar var idi. Peşəkar zabitlər çatışmır, ordu silah və sursatla tam təchiz edilmir, bəzən əsgərlər hazırlıqsız döyüşə cəlb edilirdi. Lakin bütün bunların əvəzində əlinə silah alıb düşmən üzərinə gedən hər bir kəsdə yüksək döyüş əhval-ruhiyyəsi var idi. Beləliklə, Azərbaycanın  igid oğulları bu çətinliklərə sinə gərərək ordu yaradır və eyni zamanda erməni və rus işğalçılarına qarşı müharibə aparırdı. Nizami ordu tam hazır olmasa da, döyüşən igidlər var idi. Az bir vaxtda heçdən ordu yaratmaq, bu ordunu döyüş texnikası ilə, silah-sursatla, geyimlə və ərzaqla təchiz etmək, həm onlara hərbi təlim keçmək, həm də eyni zamanda erməni və ruslarla müharibə aparmaq-bu, əlbəttə, çox çətin idi. Bütün bu çətinlik və çatışmamazlıqlara baxmayaraq Azərbaycanın vətənpərvər oğulları, babalardan bizə miras qalmış iqidlik, qeyrət, namus və şərəfi yaddaşlarında yaşadaraq, 71 ildən sonra milli ordu yaratmağa nail ola bildilər.

Azərbaycan ordusunun ilk bölmələrindən biri kimi 1991-ci ilin oktyabrında Kəlbəcərdə yaradılan Kəlbəcər Ərazi Müdafiə Batalyonu - "Kəlbəcər Batalyonu"- erməni işğalçılarına qarşı amansız döyüşlər aparmış, Kəlbəcəri 1993-cü ilin aprelinədək mərdliklə müdafiə etmiş, bununla bərabər Laçın, Ağdərə, Fizuli, Ağdam, Tərtər, Goranboy, Murovdağ bölgələrinin düşməndən azad edilməsi əməliyyatlarında da fəal iştirak etmişdur. Bu batalyon Qarabağ müharibəsinin sonunadək ön cəbhədə olmuşdur. 1991-ci il oktyabr ayından yaradılmasına başlanılan

Kəlbəcər Ərazi Müdafiə Batalyonu, sonralar 809-cu Əlahiddə Batalyon, 1992-ci ilin may-iyun aylarında 701-ci hərbi hissə ("Əfsanəvi Alay") ilə birləşərək əvvəlcə onun tərkibində 712-ci batalyon, sonralar isə 3-cü tabor adlandırılmışdır.

Ayrı-ayrı adlar və nömrələr daşımasına baxmayaraq, bu tabor-" Kəlbəcər Batalyonu" - adı ilə məşhurlaşmış və həmişə ön cəbhədə

*Öz vətənindən üz döndərən adam, öz vicdanından da üz döndərmiş olur.  Y. Q a l a n*

olmaqla, ən çətin döyüş əməliyyatlarında iştirak etmiş, çox mühüm və çətin tapşırıqları yerinə yetirmiş, dəfələrlə düşmən arxasına göndərilmiş, bir neçə dəfə düşmən mühasirəsini yarıb çıxmışdır. Kəlbəcər Batalyonunun 1993-cü ilin dekabrında Murovdağ silsiləsinin qarlı zirvələrini aşaraq düşmən arxasına-Kəlbəcərin Bozdu və Təkəqayası kəndlərinə etdiyi yürüş isə əfsanəyə çevrilmişdir. Qış fəslində 3600-3700 metrlik yüksəklikləri-Murovdağın tamamilə qarla örtülmüş zirvələrini fəth edərək düşmən üzərinə hücum etmək, əlbəttə, ağılasığmaz bir yürüş idi. Bu cür hərbi yürüşlər dünya hərb tarixində az-az ordulara nəsib olmuşdur. Belə bir şərəfli döyüş yolu, məhz, Kəlbəcər Batalyonuna və Bakı şəhərində yaradılmış Birinci Batalyona-"Əfsanəvi Alay"a məxsusdur. "Əfsanəvi Alay" və onun taborlarının döyüş yolları müharibə gedən bütün Qarabağ torpaqlarından keçmişdir. Bu briqada 1992-ci ilin yazınadək Qarabağ bölgəsinin Şuşa şəhərində, Kərkicahan, Malıbəyli, Quşçular, Kosalar, Qaybalı, Umudlu, Daşaltı, Kəlbəcərin Ağdaban kəndlərində və sonralar Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ, Fizuli, Tərtər, Ağdam bölgələrində erməni işğalçılarına qarşı aparılan müharibədə şərəfli bir döyüş yolu keçmişdir. Bu hərbi hissəyə çox vaxt Birinci Batalyon da deyirlər. Şəmistan Əlizamanlının oxuduğu "Birinci Batalyon" mahnısı da elə "Əfsanəvi Alay"-a həsr olunmuşdur.

Kəlbəcər Batalyonunun yaradılması, onun keçdiyi döyüş yolları haqqında, döyüşçü yoldaşlar, onların bir çoxunun göstərdiyi igidlik, qəhrəmanlıq və qoçaqlıqlar barədə yaddaşımda qalanları və kiçik cəbhə gündəliyimdə olan məlumatları bu kitaba köçürməyə çalışmışam. Bu kitab Qarabağ müharibəsi tarixinin kiçik bir hissəsini əhatə etsə də Azərbaycan ordusunun şərəfli döyüş yollarından bəhs edir. Burada xalqımızın igid oğullarının erməni və rus işğalçılarına qarşı apardığı azadlıq mühəribəsinin bir hissəsi yazılmışdır.

Bu da bir tarixdir, özü də şərəfli bir tarix. Əgər bu tarixləri indidən gələcək nəsillərin yaddaşına çatdırmasaq, gələcəkdə bu tariximiz də unudulacaq, saxtalaşdırılacaq və yalanlar içərisində itib-batacaq, torpaqlarımız yenə də təcavüzlərə, xalqımız isə növbəti soyqırımlara

məruz qalacaqdır. Biz indidən ayağa qalxıb erməniləri torpaqlarımızdan qovmasaq, erməni və rus işğalçılarına öz gücümüzü göstərməsək, torpaqlarımız yenidən bölünəcək və ya "güzəştə" gediləcək, Azərbaycanın xəritəsi beləliklə bir əsrdən, bəlkə də bir neçə ildən sonra "Azərbaycan" adlı ölkə dünya xəritəsindən silinəcəkdir!..

*Başında şir duran qoyun ordusu, başında qoyun duran şir ordusuna qalib gələr. X a b r i*

Lakin, mən xalqımın qəhrəmanlıq ənənələrinə və qeyrətinə inanıram. Biz heç vaxt vətənimizi erməni əlində qoymayacağıq, mütləq itirilmiş torpaqlarımızı düşmən tapdağından azad edəcək, Göyçədən, Dərələyəzdən, Vedidən, Ağbabadan, Zəngəzurdan, Kəlbəcərdən, Laçından, Qubadlıdan, Zəngilandan, Cəbrayıldan, Fizulidən, Ağdamdan, Şuşadan, Dağlıq Qarabağ mahalından qovulmuş soydaşlarımızı öz doğma yurdlarına qaytaracağıq!

Qoy ermənilər bilsinlər ki, tarixin gerçəkliyi olaraq, ya bizə qarşı torpaq iddialarından əl çəkərək, verdiyimiz torpaqlarda yaşayaraq, bizimlə qonşuluq etməlidirlər, ya da Qafqazda-qədim türk torpaqlarında-onlara yer qalmayacaq!

Qarabağ müharibəsində Kəlbəcər Batalyonunun və eləcə də, Əfsanəvi Alayın erməni işğalçılarına qarşı apardığı çoxsaylı döyüş əməliyyatlarının hamısı, əlbəttə ki, bir kitaba sığmaz. Bunlar üçün cild-cild kitablar yazılmalıdır.

Bu kitabda bəzi döyüşlər və döyüşçülər barədə məlumatın az olması və ya olmaması üçün döyüş yoldaşlarımdan üzr istəyirəm.



*Qırx il miskin qul kimi yaşamaqdansa,*
*bir gün azad yaşa! B a b ə k*

# Kəlbəcər müdafiədə: 1988-1991-ci illər

Kəlbəcər bölgəsi Azərbaycanın qərbində yerləşir, qərbdən Göyçə mahalı, şimaldan Göygöl və Daşkəsən bölgələri, şərqdən Qarabağ mahalı, cənubdan Laçın bölgəsi və Zəngəzur mahalı ilə həmsərhəddir. Kəlbəcər yeraltı, yerüstü sərvətləri ilə Azərbaycanın incisi idi. Qızıl, civə və mərmər yataqları, isti suyu, turş suyu-dörd yüzdən çox mineral bulaqları, min cür bəzək daşları, qoz və palıd meşələri, təmiz havası, təbii gözəllikləri ilə məşhur olan Kəlbəcəri - bəzən "Azərbaycanın İsveçrəsi" də adlandırırdılar. Azərbaycanın ən geniş və zəngin yaylaqları - Sarıyer, Qaraarxac, Sultan Heydər, Gülü düzü, Keyti-Mehdi, Alagöllər, Çalmalı, Söyüdlü, Qara Qaya, Dəlidağ, Murovdağ, Qoçdaş və s. yaylaqlar da– Kəlbəcərdə idi. Azərbaycanın 28 bölgəsinin mal-qoyun sürüləri yayda Kəlbəcər yaylaqlarına gətirilərdi. O, Kəlbəcər ki, indi düşmən onun can dərmanı olan bulaqlarından içir, güllü-çiçəkli yaylaqlarında at oynadır, saysız-hesabsız sərvətini daşıyıb xarici ölkələrdə satırlar və əvəzində silah-sursat alıb bizə qarşı müharibə edirlər. Kəlbəcərin ərazisi o qədər genişdir ki, ərazinin bu başından o biri başına getmək üçün 70-80

kilometr məsafəni qət etmək lazım gəlir. Saysız-hesabsız əlçatmaz dağlar, dərin dərələr, keçilməz meşələr, sərin yaylaqlar, sərt qayalar, aşırımlar-hamısı təbiət səngərləridir.

Hərbi baxımdan çox əlverişli mövqeyi olan Kəlbəcər bölgəsini işğal etdikdən sonra, ermənilər qüvvələrini bir yerə toplayaraq, asanlıqla Ağdam, Fizuli, Cəbrayıl, Qubadlı, Zəngilan bölgələrini zəbt edə bilərdilər. Kəlbəcərin düşmən tərəfindən zəbt edilə biləcəyini heç ağlımıza gətirmirdik; düşünürdük ki, hər dağda, hər təpədə bircə erməni quldurunu öldürə bilsək, bütün erməni ordusunu Kəlbəcər bölgəsində məhv edə bilərik. Hələ 20-ci əsrin əvvəllərində ermənilər dəfələrlə Kəlbəcərə hücum etsələr də hər daşı, qayası bir səngər olan bu torpaqlara girə bilməmişlər. O, zaman Kəlbəcər igidlərinə başçılıq edən Məşədi Cəmil laçınlı Sultan bəylə və Xosrov bəylə əlaqə saxlayaraq əhalini silahlandırıb düşməni bu torpaqlara buraxmamış, qorumuşdu bu torpaqları. 1905-1918-ci illərdə erməniləri Kəlbəcərə buraxmayan babalarımız-Məşədi Cəmil, Məşədi Kamal, Məşədi İsmayıl qardaşlarının nəvə-nəticələrindən çoxlu əsgər və zabit silah götürərərək vətəni müdafiəyə qalxdılar. Həmin döyüşçülərdən: Akif, Habil (şəhid olub), Sənani və İlqar Kamalovları, Vidadi Cəmilovu, Ramiz Əhmədovu, Vahib və Vidadi Allahverdiyevləri, Nəriman və Həsən Məmmədov qardaşlarını, Qalib Mustafayevi, Vahid İbrahimovu (şəhid olub), Elman

*Düşmən çox olsa, qorxma, düşmənin birliyindən qorx.*

Salmanovu, Sərdar və Əli Cəfərovları, Kamil Mehdiyevi və onlarla başqalarını göstərə bilərik. Lakin, "Sən saydığını say, gör fələk nə sayır". Bəs necə oldu ki, biz – Məşədi Cəmilin, Məşədi Kamalın, Məşədi İsmayılın, Qaçaq Mehdinin, Qaçaq Əmiraslanın nəvələri - qoruya bilmədik gözəl Kəlbəcərimizi, bilmədik onun qədir-qiymətini...

O, mənim Kərbəlam, o, mənim Kəbəm,
İmanım Kəlbəcər, dinim Kəlbəcər!
Qəlbim onu, dilim onu haraylar,
Səsim Kəlbəcərdi, ünüm Kəlbəcər!
Ayrılıq atəşi sinəmi deşir,
Buz bulaq, gur bulaq yadıma düşür.
Bir günə dözməzdim, illər ötüşür,
Ayım Kəlbəcərdi, günüm Kəlbəcər!

1988-ci ilin fevralından başlayan ermənilərin torpaq iddiaları və terrorçuluq hərəkətləri artıq Qarabağın hüdudlarından kənara çıxmışdı. Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirilməsini tələb edən ermənilər Kəlbəcərə gedən yeganə avtomobil yolunu

bağlamağa çalışırdı. Bu vaxtlar Kəlbəcəri milis dəstələri qoruyurdu. Həmçinin Kəlbəcərə rus ordusu da gətirilmişdi. Onlara isə etibar yox idi. Çünki həm Ermənistanda, həm də Azərbaycanda sərhəddə yerləşdirilmiş rus ordusunun bölmələri vahid komandanlıqdan idarə edilir, onların iştirakı ilə ermənilərə hər cür yardımlar göstərilir, türk əhaliyə hədə-qorxu gəlirdilər. 1988-ci ilin payızinda ermənilər rus zabit və əsgərlərinin təzyiqi ilə Qərbi Azərbaycandan-Göyçədən, Zəngəzurdan, Dərələyəzdən, Vedidən, Ağbabadan soydaşlarımız qovdular. Həmin torpaqlarda bir nəfər də olsun türk qalmadı. Əli yalın, silahsız əhali neyləyə bilərdi? Bu köçürmələrdə rus hərbçiləri biləvasitə ermənilərə kömək etdilər.

1988-ci ilin payızında Göyçə mahalının ermənilər tərəfindən işğalı Kəlbəcərin də vəziyyətini ağırlaşdırdı. Kəlbəcərin Azərbaycanın digər bölgələri ilə əlaqəsi yalnız Kəlbəcər-Ağdərə-Tərtər yolu idi ki, artıq 1989-cu ildən Ağdərədən keçən bu yolu da erməni və rus hərbçiləri bağladılar. 1988-1989-cu illərdə ziyalılardan Təhməz Cəfərovun təklifi və rəhbərliyi ilə Murov dağının Ömər aşırımından yeni yol açıldı. Kəlbəcəri Gəncə ilə birləşdirən 100 km-lik bu yolu haqlı olaraq kəlbəcərlilər “Həyat yolu” adlandırırdılar. Murov dağının insan ayağı dəyməyən yamaclarına traktorla çıxaraq, quşqonmaz qayaları, daşları söküb insan ağlına gəlməyən yamaclara traktor çıxaran traktorçular əsl qəhrəmanlıq göstərdilər. Xüsusən də traktorçu Nəsirəddin və onun

*Öz döyüş ənənələrini, döyüş ruhunu yaşadan xalq-məğlub ola bilməz.*

*M ü ə l l i f*

sənətkar yoldaşlarının zəhməti daha çox olmuşdu. Ölkənin digər bölgələri ilə Kəlbəcərin əlaqəsi həmin Murovdağın Ömər aşırımı (bu aşırıma telegüzgü qoyulduğu üçün bəzən, “Güzgü” aşırımı da deyirdilər) ilə, vertalyotlarla və Laçın bölgəsi ilə mümkün idi. Qışda isə Murovdağ aşırımı və Laçın aşırımları qarla örtülür, həftələrlə, aylarla kəlbəcərlilərin başqa bölgələrlə əlaqəsi tamamilə kəsilirdi. Bu dövrdə ruslar açıq-aşkar ermənilərə həm silah-sursat, həm də mənəvi cəhətdən yardım edirdilər. Kəlbəcərin sərhəd kəndlərində yerləşdirilmiş rus hərbçilərinin bir tikə ərzağı yox idi. Kəlbəcərlilər mühasirə şəraitində yaşadıqları və ərzağı çətinliklə əldə etdikləri bir vaxtda, öz çörəklərini onlarla bölür və hər cəhətdən onlara kömək edirdilər ki, ermənilər Kəlbəcəri də işğal etməsinlər. Bəzən rus əsgərləri ilə bərabər əhali növbə ilə səngərlərdə keşik çəkirdi. Lakin ruslar bizim çörəyimizi yeyib ermənilərə havadarlıq edir, onlarla gizli-gizli görüşür, lazımi məlumatları onlara ötürürdülər. Özlərini elə göstərirdilər ki, guya ermənilərə gücləri çatmır.

Bu yerdə yadıma bir rus aliminin sözləri düşdü: “Rusiya böyük bir dövlət kimi qurtardı. Öz qonşularına təzyiq göstərən bir dövlət kimi onun gələcəyi yoxdur və hələ uzun müddət də olmayacaq”.

1988-ci ildə ermənilər Ağdərə ərazisində dəfələrlə Kəlbəcərə gedən avtomobil yolunu bağlayaraq, yolda olan əhalini daşa basır, döyür, sonra isə azğınlaşaraq öldürməyə başlayırdılar. Həmin vaxtlar bir çox kəlbəcərlilər Ağdərə yolunda ermənilər tərəfindən güllələnmişdilər.

Artıq ermənilər rusların havadarlığı ilə günü-gündən azğınlaşırdı. 1989-1991-ci illərdə onlar Dağlıq Qarabağda yaşayan azərbaycanlıları da dədə-baba yurdlarından qovmağa başladılar. Ermənilər azərbaycanlıları nəinki qovur, hətta onları öldürür, əsir aparır, cürbəcür işgəncələr verirdilər. Bütün bunlar rus hərbçilərinin gözü qabağında və ya bioləvasitə onların iştirakı ilə baş verirdi. Onlar ermənilərin terrorlarının qarşısını almaq istəmir, hətta ermənilərə silah və sursat verir, onlara arxa dururdular. Xocalıda azərbaycanlılara qarşı törədilən **soyqırımını** ermənilər ruslarla birlikdə etmişdilər.

Beləliklə 1989-1991-ci illərdə Dağlıq Qarabağın türk əhalisi öldürüldü, qovuldu, əsir aparıldı, evləri qarət edildi, yağmalandı və nəhayət, nə Zəngəzurda, nə Dərəyəyəzdə, nə Ağbabada, nə Vedidə, nə Göyçədə, nə də Dağlıq Qarabağda onlardan əsər-əlamət qalmadı.

1991-ci ilin yayında Kəlbəcərin Sarıyer yaylağına basqın etmiş iki erməni quldur tutulmuşdu. Həmin erməniləri aparmağa gəlmiş rus ordusunun vertalyotu Kəlbəcər stadionunda qəza törədərək səkkiz nəfər

*Sərtlik tələb olunan yerdə yumşaqlıq zərər gətirə bilər. Yumşaqlıqla düşməni dost eyləyə bilməzsən, əksinə, onun iddialarına qol-qanad vermiş olarsan. _S ə d i  Ş i r a z i*

uşaq öldürdü. Onlar ilk kəlbəcərli şəhidlər idilər: Salmanov Razim Tofiq oğlu-8 yaşında, Orucov Azər Zakir oğlu-7 yaşında, Məmmədov Sahib Soltan oğlu-10 yaşında, Valehov Anar Qardaşxan oğlu-7 yaşında, İbişov Cahid Telman oğlu-10 yaşında, Əsgərov Səxavət Dəmir oğlu-14 yaşında, Əsgərov Natiq Məhəmməd oğlu-14 yaşında, Xəlilov Bəxtiyar Rəhim oğlu-11 yaşında.

1991-ci ilin sentyabrınadək Kəlbəcərin sərhədlərini qoruyan rus hərbçiləri və yerli polis dəstələrinin sayı az olduğundan və Kəlbəcər ərazisinin sərhədləri çox uzun olduğundan, əlbəttə, onlar bütün bu ərazini qoruya bilməzdilər. Çünki Göyçə ilə 120 kilometrdən çox olan sərhəd xəttini qorumaq çətin idi. Ermənilər 1989-cu ildən ordu yaratmağa başladıqları halda, bizim rəhbərlər hələ də gözlərini Moskvaya dikərək ruslardan kömək gözləyirdilər. Belə bir vaxtda Azərbaycana öz ərazi bütövlüyünü və müstəqilliyi ni müdafiə etmək üçün **milli ordu** lazım idi.



*İstisu qəsəbəsində Kəlbəcər batalyonunun yerləşdiyi bina, 1992-ci il*

*Ana torpaq üçün düşmənlə döyüşdüyüm aylar, günlər, saatlar, dəqiqələr-ömrümün ən şərəfli anlarıdır.*

# Özünümüdafiə Batalyonu yaradılır

*Cəbhə gündəliyindən*

***22 sentyabr 1991-ci il***

Iki gündür ki, Kəlbəcər rayon İcraiyyə komitəsinə Özünümüdafiə Batalyonu təşkil etmək barədə məktub gəlib. Dünən rayon İcraiyyə komitəsində iclas keçirildi. Bizə-yəni, rayon İcraiyyə komitəsinin işçilərinə özünümüdafiə batalyonunun yaradılması barədə göstəriş verildi. Bu işə müavin Hilal müəllim rəhbərlik edəcək. Konkret tapşırıqlar verildi. Mən, Bayramov Ələkbər, Sadıqov Fərhad, Mehdiyev Əbülfəz, Quliyev Seyfəddin, Əhmədov Tofiq və digər yoldaşlar Özünümüdafiə Batalyonu təşkil etmək üçün işə başladıq. Əvvəlcə 3 saylı orta məktəbin bir hissəsini və idman zalını əsgər yataqxanası üçün uyğunlaşdırmalıyıq.

Buna görə biz məktəbin bir hissəsinə ara kəsdik, Qılışlı peşə məktəbindən və İstisu sanatoriyasından çarpayı, yorğan-döşək, qab-qacaq

və digər əşyalar gətirdik. Biz bu işləri bircə gündə yerinə yetirdik. Bütün bu əşyaların hamısını özümüz maşınlara yüklədik, boşaltdıq və idman zalına daşıdıq. Artıq məktəbin bir hissəsi və idman zalı qaydaya salınıb.

Axşam İcraiyyə komitəsinin sədrinə məlumat verdik. Əsgər və zabitlərin batalyona çağırılması üçün hərbi komissarlıq qarşısında tapşırıq qoyuldu. 400 nəfər rus ordusunda xidmət etmiş, silahla davranış qaydalarını bilən, ehtiyatda olan bacarıqlı əsgər və zabitlər batalyonda xidmətə çağırılacaq. Biz öz öhdəmizə düşən işləri vicdanla və həvəslə yerinə yetirir, artıq öz ölkəmizin ordusu olacağına sevinirik.

### *1 oktyabr 1991-ci il*

Bu gün rayon hərbi komissarının çağırışı ilə qərərgaha gəlmiş 450 nəfərədək gənci 3 saylı məktəbdə-qərərgahda qeydiyyata aldıq. Bununlayanaşı, demək olar ki, Kəlbəcərin əli silah tutan gənclərinin əksəriyyəti orduya yazılmaq və döyüşlərə getmək üçün qərərgaha gəlmişdilər. Biz seçdiyimiz əsgər və zabitləri batalyonun şəxsi heyətinə daxil etdik. Ərzaq olmadığından və yataq yerləri tam hazır olmadığından biz onların oktyabrın 4-də yenidən qərərgaha gəlmələrini tapşırdıq. Mən və Fərhad bütün günü onları qeydiyyata almaqla məşğul olduq. Biz əsasən zabitlərin və bacarıqlı əsgərlərin seçilməsinə diqqət yetirirdik. Lakin komandirin təyin edilməməsi və batalyonun ştat cədvəllərinin olmaması ucbatından çətinliyimiz var. Çağırılan zabit və əsgərlərin hansı vəzifəyə təyin edilməsində çətinlik çəkirik.

*Kişi və qadın duyğularının ən böyük fərqi ondadır ki, kişilərdə daha çox döyüş ruhu vardır. M ü ə l l i f*

Biz-İcraiyyə komitəsinin işçiləri-hamımız batalyonu yaratmağı, həmin batalyonda xidmət etməyi və beləliklə, Kəlbəcəri qorumağı qarşımıza məqsəd qoymuşuq. Hərbçi olmaq üçün, əvvəlcə, hər bir kəsdə həvəs və maraq olmalıdır.

### *8 oktyabr 1991-ci il*

Oktyabrın ayının 4-də qərərgaha gələnləri qeydiyyata almaqla məşğul olduq. Amma batalyonun komandiri və digər zabitlər təyin olunmayıb. Müvəqqəti qərərgah yaratmışıq. Artıq hərbi hissə üçün məktəbin bir hissəsi qaydaya salınıb. Bunun üçün su, işıq xətti çəkilib, əl-üz yuyulan yer, mətbəx, və əsgər yeməkxanası hazır vəziyyətdədir. Hər gün gecəyarıyadək işləyirik.

### *9 oktyabr 1991-ci il*

Oktyabrın 4-dən etibarən Kəlbəcər Özünümüdafiə Batalyonu fəaliyyət göstərir. Konkret vəzifə bölgüsü olmadığından və komandir təyin edilmədiyindən, mən, Fərhad və Ələkbər bu işi öz öhdəmizə götürməklə Batalyonu idarə edir, 150 nəfərədək könüllü döyüşçülərlə

Batalyonun təşkili işində gecəli-gündüzlü çalışırıq. Kəlbəcər Batalyonu ilə eyni vaxtda Bakı, Ağdam, Tərtər, Goranboy, Xanlar, Şuşa, Qazax, Tovuz, Gədəbəy, Zəngilan, Laçın, Qubadlı, Fizuli, Cəbrayıl və s. bölgələrdə də özünümüdafiə batalyonlarının yaradılmasına başlanılıb.

### *21 noyabr 1991-ci il*

9 oktyabr 1991-ci il tarixdə Azərbaycan Müdafiə Nazirliyinin yaradılması barədə qərar verilib. Bir neçə gün əvvəl general Dadaş Rzayev Kəlbəcərə gəldi və batalyonun artıq fəaliyyət göstərdiyini gördü. Hərbi komissarın təqdimatı ilə baş leytenant Asif Yusif oğlu Süleymanovu-komandir, baş leytenant Tahir Yusif oğlu Mehdiyevi-qərərgah rəisi, leytenant Akif Haqverdi oğlu Kamalovu-(məni) təchizat üzrə komandirin müavini vəzifələrinə təyin etdi. General digər zabitlərin xidmətə çağırılması, onların vəzifələrə təyin edilməsi, əsgərlərin hazırlığı, silah və sursatın əldə olunması, Kəlbəcər ərazisinin qorunması işlərini bizə həvalə edib getdi...

Bir aydan artıq dövr ərzində fəaliyyət göstərən batalyonla Kəlbəcərin müdafiəsini təşkil etməyə çalışırıq. Şəxsi heyətin sayı-zabitlər və könüllü döyüşçülərlə birlikdə-250 nəfərdir. Bunların içərisində rus ordusundan yarımçıq qayıdan əsgərlər də var. Bununla belə 300 nəfər 18 yaşlı çağırışçı əsgər qəbul etməyə hazırlaşırıq. Bunu qeyd edim ki, 1991-ci ildə Azərbaycanın heç bir bölgəsində əsgəri çağırış olmayıb. Lakin biz

*Ən uzun ömür sürən o kəslərdir ki, onlar, hətta ölümündən sonra da insanların yaddaşında uzun müddət yaşaya bilir. M ü ə l l i f*

könüllü döyüşçülərlə bərabər çağırış yaşında olan əsgərləri də şəxsi heyət sıralarına qəbul edəcəyik.

Komandir, qərərgah rəisi və mən birlikdə məsləhətləşərək 26 nəfər zabiti vəzifələrdə yerləşdirmişik. Mənim iş yoldaşlarımdan heç kim batalyonda xidmət etmək üçün qalmadı...

Biz hər gün könüllü döyüşçülərlə təlimlər keçir, silahlardan istifadə qaydalarını öyrənir və öyrədirik. Batalyon komandiri baş leytenant Asif Süleymanov zabit və əsgərlərin siyahısını-ştat cədvəlini-təsdiq edilməsi üçün Bakıya Müdafiə Nazirliyinə aparıb, lakin əmr hələ gəlməyib. Batalyona 117 ədəd kiçik çaplı TOZ-8 tüfəngi gətirmişik, məktəblərdə olan təlim avtomatlarını toplayıb usta Dumana düzəltdiririk. Bundan başqa ruslardan 24 ədəd avtomat almışıq.

Əsgər yeməkxanası qaydaya salınıb. Ərzaq və mətbəx sobalarının gətirilməsi üçün baş leytenant Üzeyir Şahbazovu Bakıya göndərmişəm. 50 nəfərin eyni vaxtda yuyunması üçün yer düzəltdirmişəm. Zabitlər üçün Gəncə şəhərindən 15 dəst hərbi paltar alıb gətirmişəm, 10 dəst paltarı isə komandir Bakıdan gətirib. Batalyona 30 ədəd güclü yük maşını

götürmüşük. Onların sürücülərini də şəxsi heyətin siyahısına daxil edəcəyik və onlara əmək haqqı veriləcək.

Batalyonun əsas çətinliyi isə silah və sursat əldə etməkdir. Bunun üçün əhalidən xeyli pul toplanıb. Gündəlik yazmağa isə vaxt yoxdur. Əsgər və zabitlərin döyüş hazırlığı təlimlərini təşkil edir, təchizat işləri ilə məşğul oluram. Başımı qaşımağa vaxtım olmur. Gecə-gündüz işləyirəm, bəzən elə batalyonda öz otağımda yuxulayıram.

Hər hansı görülən iş insana zövq verir.

***13 dekabr 1991-ci il***

Bu gün Batalyona 300 nəfər çağırışçı əsgər qəbul etmişik. Rayon İcra hakimiyyətində toplanış oldu və həmin toplanışda rayon rəhbərliyi və valideynlər zabitlərə və Azərbaycan ordusunun ilk əsgərlərinə xeyir-dua verdilər. Bu il yalnız Kəlbəcərdə həqiqi əsgəri çağırış oldu. 1991-ci ildə Azərbaycanın heç bir bölgəsində əsgəri çağırış olmayıb. Mən əsgərlərin hərbi komissarlıqdan gətirilməsini, geyindirilməsini və onların hamama aparılmasını təşkil etdim.

Müdafiə Nazirinin 02 dekabr 1991-ci il tarixli 028 saylı əmrinə əsasən bizim Müdafiə nazirliyinə təqdim etdiyimiz ştat cədvəli təsdiq edilib. Ştat cədvəlinə əsasən Batalyonun şəxsi heyəti 550 nəfərdir ki, bu da beş bölük, avtomobil xidməti, təsərrüfat tağımı, rabitə tağımı və digər xidmət bölmələrindən ibarətdir. Müdafiə Nazirliyindən zabitlərin

*Anadan ayrılanda çətin yaşarsan,*
*Vətəndən ayrılsan, ölərsən, canım.*
*Bəhmən Vətənoğlu*

və yuxarı yaşlı əsgərlərin vəzifələrə təyin edilməsi barədə əmrlər də gəlib. Bəzi tağım komandirlərinin zabit rütbələri olmasa da onlar ali təhsilli, hərbi məktəblərdən yarımçıq gələnlər idi. Tağım komandirlərinin müavinləri və manqa komandirləri yuxarı yaşlı əsgərlərdən-könüllülərdən təyin edilmişdi. Onlar demək olar ki, batalyonun əsas işlərini yerinə yetirir, əsgərlərə təlimlər keçir, bizə yaxından kömək edirlər. Hələlik döyüş əməliyyatlarına onlarla gedirik. Onlardan bir neçəsinin adını qeyd edirəm: Vahib Allahverdiyev, Elxan Əliyev(İstisu), Elxan Qilvəli oğlu, Bədir Xıdırov, Zakir Abdullayev ("Alazan Zakir"), Ədalət Rəhimov, Oqtay Məmmədov, Ədalət Mehdiyev, İslam Qasımov, Ələkbər Ələkbərov, Ramiz Abışov, Qəzənfər Quliyev, Qalib Şükürov, İsmayıl İsmayılov, Əli Məmmədov, Fazil Şirinov, Nemət Nadirov, Çingiz Qadir oğlu Bayramov, Şakir Cabbarov, Natiq Əhmədov, Mübariz Mikayılov, Xəqani Bayramov, Ərşad İbrahimov, Kamil Mehdiyev ("Spartak"), Qorxmaz Əsədov, İlqar Əsədov, Həsən Məmmədov, Habil Bayramov,

Mətləb, Ənvər, Niyazi, Malik, sürücülər: Fehruz, İlqar Kamalov, Bəhmən, Ziyad, Sənani Kamalov və başqaları.

**_25 dekabr 1991-ci il_**

Dekabrın 21-də Ağdərənin Çapar kəndini düşməndən azad etmək üçün hücum əməliyyatı keçirdık. Lakin bu əməliyyatda kəndi azad etmək mümkün olmadı. Çünki ermənilərə həm rus ordusu öz texnikası ilə kömək edirdi, həm də Çərəkdar dəstəsinin əməliyyatda iştirak etməməsi bu planımızı pozdu. Batalyon haqqında Müdafiə Nazirliyi tərəfindən əmr verilsə də, hələ də ərzaq verilmir. İcra hakimiyyətinin köməkliyi ilə əsgərlərin yeməyini təşkil edirəm. Bəzi çatışmamazlıq olsa da vəziyyət yaxşıdır. Yeməkxana qaydasındadır, hər gün ət kombinatından ət gətirirəm. Əsgərlər üçün 1-ci, 2-ci xörəklər hazırlanır və kompot verilir. Əsgərlərin yataqları öz qaydasındadır, hər bir əsgərə yorğan-döşək, iki döşəkağı, diş pastası, diş fırçası, əl dəsmalı, ayaqqabı kremi və fırçası verilib. Mən əsgərlərin nəinki geyim və yeməklərini təşkil edir,
hətta onların döyüş hazırlığı təlimlərinə də nəzarət edirəm. Əsgərlərin silah və sursatdan istifadə qaydalarının mənimsəmələrinə daha çox diqqət yetiririk. Batalyonda çox yaxşı nizam-intizam yaratmışıq.

Biz Kəlbəcər kimi Azərbaycanın ucqar bir bölgəsində ən vacib olan avtomobil yanacağı qıtlığı ilə qarşılaşdığımız bir vaxtda Bakıda yaşayan və işləyən həmyerlilərimizdən Cavid Qurbanovun bizim batalyon üçün göndərdiyi 50 ton yanacaq dadımıza çatdı. Mən həmin

*Son aqibətini düşünə-düşünə döyüşə girəndən igid olmaz.*

*Ş e y x   Ş a m i l*

yanacağın hamısını "Həyat yolu" ilə maşınlarla daşınmasını təşkil edirəm. Bununla əlaqədar iki ədəd 25 tonluq yanacaq çəni gətirib yerə basdırmışıq və yanacağı onlara doldururuq. Bu yanacaq olmasaydı biz çıxılmaz vəziyyətdə qala bilərdik. Cavid müəllim hətta bizə yanacaq daşıyan bir maşın da bağışlayıb.

Artıq batalyonda bütün komandaları öz dilimizdə verir, nizamnamələri rus dilindən öz dilimizə çevirir, zabit və əsgərlərə öyrədir, təlimlər keçirik. Ana dilində komanda vermək və ana dilində mahnı oxumaq bəzən bizim özümüzə də qəribə gəlir. Axı, biz buna adət etməmişik. Bütün bunlara baxmayaraq biz öz dilimizdə komanda verir, əsgərlərə təlim keçirik. Artıq əsgərlərimiz öz dilimizdə marş da oxuyur. Biz Kəlbəcər batalyonu üçün əsgər marşı da bəstələmişik və həmin marşı bir neçə gün ərzində əsgərlərə öyrətdik:

**_Əsgər marşı_**

Sözləri: Əhməd Cavadındır

*Yoğruldu Vətən torpağı öz al qanımızla,*
*Ömr eləmişik daima pak vicdanımızla!*

*Düşmən bizə neylər, əgər hər işdə bir olsaq?*
*Ayrılsaq əgər, qoy qənim olsun bizə torpaq!*

*Dilimin əzbəri, ey andım-Vətən!*
*Mən sənin adına güvəndim, Vətən!*

*Sənsən bu dünyada qüdrətim mənim!*
*Şərəfim, şöhrətim-Azərbaycanım!*
*Şərəfim, şöhrətim-Azərbaycanım!*

Ilk dəfə bu marş oxunanda sevindiyimdən gözlərim yaşardı. Bundan gözəl, bundan ülvi, bundan müqəddəs hissi təsəvvür etmək mümkün deyil. Ona görə ki, 71 ildən sonra Azərbaycan müstəqillik əldə etmiş, rus əsarətindən qurtulmuş və bununla yanaşı müstəqilliyin dayağı olacaq milli ordu yaradılırdı. 71 ildən sonra ilk dəfədir ki, öz əsgərimiz var, onlara öz ana dilimizdə komanda verir və öz ana dilimizdə əsgər marşı oxuyuruq. Mən Azərbaycanın ilk ordu hissələrinin yaradılmasında iştirak etdiyim üçün qürur hissi keçirirəm...

**_7 yanvar 1992-ci il_**

Bu gün batalyonun bütün əsgər və zabitləri stadionda qar yağışı altında and içdik. Əvvəlcə şəhidlər abidəsi önünə əklil qoyduq, sonra stadionda düzüldük. Hərbi paradı mən düzdüm və qərargah rəisinə

*Əgər analar öz uşaqlarını döyüşə göndərmək istəmirlərsə, onda vətən torpağı mütləq düşmənlərin işğalına məruz qalacaq.*
*M ü ə l l i f*

məlumat verdim. Azərbaycanın üçrəngli bayrağı gətirildi. Rayon rəhbərləri, ağsaqqallar və valideynlər çıxış edərək bizi təbrik etdilər. Sonra andiçmə başlandı. Azərbaycan televiziyasından çəkiliş də var idi. Andiçmə günü hər bir əsgər və zabitin həyatında ən yadda qalan və əhəmiyyətli bir gün sayılır. Biz isə Kəlbəcər batalyonunu yaradaraq Vətən üçün böyük bir şərəfli iş gördüyümüzə görə fərəh hissi keçiririk. Daha torpaqlarımızı ruslara deyil öz əsgərlərimizə etibar edəcəyik.

**_25 yanvar 1992-ci il_**

Bizim batalyon, yəni Kəlbəcər Özünümüdafiə Batalyonunun adı dəyişdirilərək 809-cu Əlaiddə Batalyon (809 nömrəli hərbi hissə) adlandrılıb. Çətinliyimiz çoxdur. 3-4 aydir ki, batalyon yaradılıb, amma, Müdafiə Nazirliyi tərəfindən batalyona nə ərzaq, nə də silah-sursat verilir. Buna baxmayaraq biz həvəslə işləyir, əsgərlərə təlimlər keçir, Azərbaycanın digər bölgələrindən kristal və alazan raketləri gətirir, qrad qurğuları düzəltdirir və onların mərmilərini daşıtdırırıq. Ağdamın

Uzundərə hərbi bazasından xeyli sursat daşıtdırmışam. Təchizat üzrə komandirin müavini kimi bu işlərin əksəriyyəti mənim üzərimə düşür.

Bundan başqa 1992-ci ilin yanvar ayında İstisuda və Taxta düzdə rus hərbçilərini tərksilah edərək xeyli avtomat, pulemyot, qumbaraatan, patron və mərmi ələ keçirdik. Bu "əməliyyat"da batalyonun könüllü döyüşçülərdən olan Elxan Əliyevin fəaliyyəti çox böyük idi. Lakin rayon rəhbərləri, prokuror və digərləri bildirdilər ki, biz silahları ruslara qaytarmasaq, onlar dinc əhalini girov götürəcək və Xankəndinə aparacaqlar. Biz dinc əhalinin zərər çəkməməsi üçün məcbur olub silah və sursatı ruslara qaytardıq.

Həmin gecə məlum oldu ki, rus batalyonunda xidmət edən və bu işlərdə bizə kömək etmiş azərbaycanlı əsgər Elşadı (Mingəçevirdəndir) həbs edib Xankəndinə aparmaq istəyirlər. Gecə saat 3-də mən batalyonun bir qrup əsgəri ilə rusları maşınının qabağını kəsib Elşadı bizə təhvil verməlerini tələb etdim. Rus ordusunun zabiti mayor İlqar Əliyev həmin əsgəri bizə təhvil verməkdən imtina etdi və bildirdi ki, mən həmin əsgəri həbs edib Xankəndinə aparacam, Azərbaycan ordusunu isə tanımıram. Bir rus əsgəri isə əlində qumbaranı hazır vəziyyətdə tutaraq Elşadı da yanında saxlayır, yaxına gələcəyimiz təqdirdə qumbaranı partladacağını bildirirdi. Vəziyyət döyüş həddinə çatmışdı. Bu vaxt rusların qərərgah rəisi olan bir mayor gəldi və bizimlə razılaşaraq əsgər Elşadı bizə təhvil verdi. İndi Elşad bizim batalyonda xidmət edir.

<u>Təhlükə qorxusu, təhlükənin özündən on min dəfə qorxuludur.</u><br><u>D.D e f o</u>

---

Bir neçə gündən sonra ruslar atıcı silahları vertalyota yükləyərək, Kəlbəcəri tərk etdilər. Onlardan qənimət kimi 20-dək yük maşını, 4-5 ədəd zirehli döyüş maşını qaldı. Lakin, onlar həmin texnikanı yararsız hala salıblar. Biz həmin texnikanı təmir etməliyik. Maşınlardan birini əsgər Nəsimi Mehdiyevə, birini isə əsgər Elçin Məmmədova təhkim etmişik. Onlar gənc əsgər-sürücülərdir. 529 nömrəli zirehli transpartyoru özüm gedib Şaplar körpüsünün yanından batalyonun həyətinə gətirdim. Mühərrikinin biri işləmirdi, elə bircə mühərriklə çətinliklə sürüb gətirdik. Hazırda onu təmir etməyə çalışırıq. İndi bütün Kəlbəcər sərhədlərinin qorunması bizim öhdəmizə düşür.

***15 fevral 1992-ci il***

Bakıdan bu gecə gəlmişəm. Müdafiə Nazirliyinə çağırmışdılar. Mənimlə bərabər qərərgah rəisi, baş leytenant T.Mehdiyev, tibb xidməti rəisi, baş leytenant M.Fərzanov, avtomobil xidməti rəisi, kiçik leytenant M.Şahüseynov da getmişdilər. Biz tamamilə buz bağlamış Murov yolu ("Həyat yolu") ilə getdik və qayıdanda isə Arazboyu dolanaraq Laçın

yolu ilə gəldik. Murovdağda 20-30 km yolu tamamilə qarın, buzun üzəri ilə maşın sürürdük. Sürücü Fehruzun ustalığı nəticəsində Murovdağın döngələrində bir neçə dəfə qəzadan qurtardıq.

İlk dəfədir ki, Müdafiə Nazirliyindən ərzaq gətirmişəm. Bu vaxtadək əsgərləri rayon İcra hakimiyyətinin öz hesabına yedizdirirdik. Mən əsgər və zabitlər üçün geyim, ərzaq, soyuducu, sobalar, qab-qacaq, stol və stullar gətirilməsini təşkil etdim və indi bir neçə maşınla həmin yüklərin gətirilməsi üçün ərzaq xidməti rəisi gizir Tofiq Rzayevi və əşya xidməti rəisi Üzeyir Şahbazovu Bakıya göndərmək istəyirəm.

Nazirlikdə olarkən batalyonun sənədləşmə qaydaları ilə tanış oldum. Orada məni Müdafiə Nazirliyinin əməliyyat bölməsinə çağırdılar və məndən bizim batalyonun qoruduğu ərazini, düşmən mövqelərini, onların qüvvələri haqqında, bizim bölüklərin harada yerləşdiklərini, hansı silah və texnika ilə təchizatını və s. məlumatları soruşdular. Mən bu məlumatları xəritə üzərində qeydlər etməklə bildirdim. Orada bizə bildirdilər ki, bizim batalyona 500 ədəd avtomat silah ayrılmış və həmin silahları həmin gecə Yevlaxdan götürməyimizi tapşırdılar. Bundan başqa mən polkovnik V.Musayevdən Kəlbəcər üzərindən Ermənistandan Dağlıq Qarabağa uçaraq silah-sursat daşıyan düşmən vertalyotlarını vurmaq üçün əlavə silah istədim. Polkovnik mənə söz verdi ki, “strela” tipli raketlərlə təchiz olunmuş zenitçilər dəstəsini tezliklə Kəlbəcərə göndərəcək.

Həmin gecə qərərgah rəisi, baş leytenant T.Mehdiyev 500 ədəd

*<u>Vətənini və ailəsini qorumaq-kişilərin vəzifəsidir.</u>*

*M ü ə l l i f*

avtomat silahı təhvil götürmək üçün Yevlaxa getdi. Həmin gecə T.Mehdiyev təhvil götürdüyü 500 avtomatı Kəlbəcər rayon xalq cəbhəsinin sədri, həm də Kəlbəcər Müdafiə şurasının üzvü olan İlham Həsənova verib ki, Fazil Şirinovla birlikdə Kəlbəcərə gətirsin. Silahları Kəlbəcərə gətirən kimi İ.Həsənov onları batalyona verməkdən imtina edib, silahları öz tərəfdarlarına paylayıb və bildirib ki, özüm batalyon yaradacağam. İndi bizim batalyon üçün ayrılmış silahları onlardan geri almağa çalışırıq. Lakin, İlham silahları vermir, özü batalyon yaradacağını deyir...

Bakıdan iki ədəd maşınların üzərində rabitə qurğusu gətirmişik. Bir qurğu ZİL-131 markalı maşında, digəri isə QAZ-66 markalı maşının üzərindədir. Lakin, mütəxəssis olmadığı üçün onları quraşdıra bilmədik. Buna görə Bakıdan Universitetin hərbi kafedrasından iki rus zabitini gətirərək həmin rabitə qurğularını işə salmağa çalışırıq. İş başa çatandan sonra həmin rus zabitlərinə öz maaşımız hesabına 6000 manat pul verəcəyik.

Batalyonun həyatində ilk hərbi mağaza da fəaliyyətə başlayıb. Mağazanın satıcısı Səmayə Alı qızı hərbçilər üçün mümkün olan əşya və malları Bakı şəhərindən gətirib.

Artıq bölükləri sərhəd məntəqələrində yerləşdirməyə başlamışıq. Biz 3-ci bölüyü Aşağı Ayrım və Alçalı kəndlərində, 4-cü bölüyü Zəylikdə, 5-ci bölüyü Ağdabanda, Mərciməkdə və Çərəkdarda, 1-ci bölüyü Söyüdlüdə yerləşdirmişik, 2-ci bölüyü ehtiyatda saxlamışıq. Silah-sursat isə çatışmır...



*Yalnız etiraz etməyən xalqı əsarət altına almaq olar.*

*G. L i x t e n b e r q*

# Kəlbəcər Batalyonunun ilk komanda heyəti

Komandir-kapitan Asif Yusif oğlu Süleymanov
Qərərgah rəisi-baş leytenant Tahir Yusif oğlu Mehdiyev
Komandirin təch. üzrə müavini-leytenant Akif Haqverdi oğlu Kamalov
Komandirin tərb. iş.üzrə müavini-baş leytenant Xalid Əli oğlu Hümbətov
Qərərgah rəisinin köməkçisi-leytenant Fehruz Bəyiş oğlu Alışov
Rabitə rəisi-leytenant Seyfəli Orucov
Avtomobil xidməti rəisi-kiçik leytenant Mehdi Əli oğlu Şahüseynov
Ərzaq xidməti rəisi-gizir Tofiq Qasım oğlu Rzayev
Əşya xidməti rəisi-baş leytenant Üzeyir Şahbazov
Maliyyə rəisi-Fəxrəddin Heydər oğlu Mikayılov
Silah və sursat rəisi-baş leytenant Firudin Məhəmməd oğlu Mehdiyev
Istehkam tağımı komandiri-leytenant Rəsul Sultan oğlu Əmirov
Tibb xidməti rəisi- baş leytenant Muradxan Fərzanov
Tibb xidməti feldşeri-Mələk İsmayıl qızı Əliyeva

**1-ci bölük komandiri**-leytenant Ziyafət Tağıyev
Müavin-baş leytenant Çıraq Bayramov
1-ci tağım komandiri-Dadaş Cəmil oğlu Hacıyev
2-ci tağım komandiri-Vüqar Qənbər oğlu Qurbanov
3-ci tağım komandiri-leytenant Hicran Asif oğlu Abbasov
**2-ci bölük komandiri**-leytenant Akif Bəhmən oğlu Mirzəliyev
1-ci tağım komandiri-baş gizir Arif Abbas oğlu Abbasov
2-ci tağım komandiri- baş leytenant Akif Şikar oğlu Quliyev
3-ci tağım komandiri-Tahir Misir oğlu Həşimov
**3-ci bölük komandiri**-leytenant Məzahir Əli oğlu Sadıqov
1-ci tağım komandiri-Habil Əli oğlu Sadıqov
2-ci tağım komandiri-İlqar Əsədov
3-ci tağım komandiri-Nemət Əjdər oğlu Nadirov
Baş çavuş-Nəriman Hüseyn oğlu Məmmədov
**4-ci bölük komandiri**-leytenant Hüseyn Məmməd oğlu Nəbiyev
1-ci tağım komandiri- Sərdar Məhəmməd oğlu Cəfərov
2-ci tağım komandiri- Habil Rəşid oğlu Mürsəlov
3-ci tağım komandiri- Nizami Məmməd oğlu Məhərrəmov
Baş çavuş-Şəmsəddin Əli oğlu Məmmədov
**5-ci bölük komandiri**- baş l-nt Ələddin Ələsgər oğlu Əhmədov
Müavin- Zahid Əlif oğlu Quliyev
1-ci tağım komandiri-leytenant Nəsib Kərimov
Baş çavuş-Əjdər Nəsibov...



***Kapitan Süleymanov Asif Yusif oğlu***

1960-cı ildə Kəlbəcərdə anadan olmuşdur. Bakı Dövlət Universitetini bitirmişdir. Kəlbəcər Ərazi Müdafiə Batalyonunun yaradıcılarından biri və Batalyonun ilk komandiri olmuşdur. Baş leytenant rütbəsi ilə oktyabr 1991-ci il tarixdən Azərbaycan ordusunun ilk bölmələrindən olan Kəlbəcər Batalyonunun ilk komandiri vəzifəsində fəaliyyətə başlamış, batalyonun təşkilinə rəhbərlik etmişdir. Ağdərə və Kəlbəcər bölgələrində erməni işğalçılarına qarşı aparılan döyüş

əməliyyatlarında iştirak etmişdir. 1992-ci ildə ordu sıralarından tərxis olunmuşdur.



***Kapitan Kamalov Akif Haxverdi oğlu***

1960-cı ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olmuşdur. Ali təhsil almışdır. Kəlbəcər Ərazi Müdafiə Batalyonunun yaradıcılarından biridir. Leytenant rütbəsində Azərbaycan ordusunun ilk bölmələrindən olan Kəlbəcər Batalyonunda təchizat üzrə komandir müavini vəzifəsində xidmətə başlamış, sonralar bölük komandiri, taborun qərərgah rəisi, tabor komandiri vəzifələrində xidmət etməklə Kəlbəcər, Laçın, Ağdərə, Murovdağ,, Fizuli, Ağdam, Tərtər bölgələrində erməni işğalçılarına qarşı aparılan çoxsaylı döyüş əməliyyatlarında iştirak etmişdir. 1997-ci ildə kapitan rütbəsində ordu sıralarından tərxis olunmuşdur.



***Kapitan Mehdiyev Tahir Yusif oğlu***

1958-cı ildə Kəlbəcərin Otaqlı kəndində anadan olmuşdur. Ali təhsil almışdır. Kəlbəcər Ərazi Müdafiə batalyonunun yaradıcılarından biridir. Baş leytenant rütbəsi ilə oktyabr 1991-ci il tarixdən Azərbaycan Ordusunun ilk bölmələrindən olan Kəlbəcər Batalyonunun ilk qərərgah rəisi vəzifəsində fəaliyyətə başlamış, batalyonun təşkilinə rəhbərlik etmişdir. Ağdərə və Kəlbəcər bölgələrində erməni işğalçılarına qarşı aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. 1992-ci ildən hərbi komissarlıqda

xidmət etmişdir. 1996-cı ildə həlak olmuşdur.



***Polkovnik-leytenant Həsənov Eldar Valeh oğlu***

1947-ci ildə Kəlbəcərin Seyidlər kəndində anadan olmu.dur. 1968-ci ildə Qılışlı kənd orta məktəbini bitirib və həmin il hərbi xidmətə çağırılıb. 1972-ci ildə Rusiyada Ali hərbi məktəbi, fərqlənmə ilə bitirmiş, 20 il xidmət etmiş və 9 medalla təltif olunmuşdur. 1992-ci ilin avqust ayında-ölkəmizin ağır günlərində vətənə qayıtmış və Kəlbəcər batalyonuna komandir təyin edilmişdir. 1993-cü ilin avqustundan "Əfsanəvi Alay"ın qərərgah rəisi, 1994-cü ildən isə isə daxili qoşunlarda alay komandirinin müavini vəzifələrində xidmət etmiş, Kəlbəcər, Laçın, Ağdərə, Murovdağ döyüşlərinin iştirakçısıdır. Murovdağ döyüşləri zamanı "Hərbi xidmətə görə" medalı ilə təltif olunmuşdur. 1995-ci ildə ordu sıralarından tərxis olunmuşdur.



***Kapitan Alışov Fehruz Bəyiş oğlu***

1964-ci ildə Kəlbəcərin Qaraçanlı kəndində anadan olmuşdur. 1989-cu ildə Neft və Kimya İnstitutunu bitirib və Tomsk şəhərinə göndərilib. 1991-ci ildə Kəlbəcərə qayıdaraq leytenant rütbəsində Kəlbəcər Batalyonunda qərərgah rəisinin köməkçisi vəzifəsində xidmətə başlayıb. Murovdağ uğrunda gedən döyüşlərdə taborun qərərgah rəisi kimi tabor komandirini əvəz edərək döyüşlərə qatılıb. Kəlbəcərin Susuzluq, Lev, Çəpli, Qanlıkənd, Seyidlər, Təkəqayası və s. kəndlərinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş və "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir. 1994-cü ildə Murovdağ döyüşlərində

### *Balay Xasay oğlu*



1963-cü ildə Kəlbəcərin Zülfüqarlı kəndində anadan olmuşdur. 1986 –cı ildə Kiyev Ümumqoşun Komandirlər məktəbini bitirib. 1992-ci ilin mart ayında kapitan rütbəsi ilə 701 saylı hərbi hissənin 1-ci taborunda xidmətə başlamış və həmin il Kəlbəcər batalyonuna qərərgah rəisi təyin edilmişdir. Kəlbəcər, Ağdərə, Laçın, Murovdağ bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 2003-cü ildə ordu sıralarından tərxis edilmişdir.

### *Polkovnik Nəsibov*

itkin düşmüşdür.



### *Kapitan Nəbiyev Hüseyn Məmməd oğlu*

1964-cü ildə Kəlbəcər şəhərində anadan olmuşdur. Ali təhsil almışdır. 1991-ci ilin oktyabrında leytenant rütbəsi ilə Kəlbəcər batalyonunda xidmətə başlamışdır. Bölük komandiri, taborun (4-cü tabor) qərərgah rəisi vəzifələrində xidmət etməklə, Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.
2009-cu ildə həlak olmuşdur.



***Kapitan Hümbətov***

***Xalid Əli oğlu***

1960-cı ildə Kəlbəcərin Nadirxanlı kəndində anadan olmuşdur. Ali təhsilli idi.Baş leytenant rütbəsi ilə 1991-ci ildən Kəlbəcər batalyonunda komandirin tərbiyə işləriüzrə müavini vəzifəsində fəaliyyətəbaşlamış, Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ uğrunda erməni işğalçılarına qarşı aparılan döyüş əməliyyatlarında iştirak etmişdir.1994-ci ilin fevralında Murovdağ əməliyyatlarında itkin düşmüşdür.



***Mikayılov Fəxrəddin Heydər oğlu***

1950-ci ildə Kəlbəcərin Dalqılışlı kəndində anadan olmuşdur. Ali təhsilli maliyyəçidir. 1991-ci ilin oktyabrında Kəlbəcər batalyonunda maliyyə xidməti rəisi kimi xidmətə başlamış, 1992-ci ilin may ayında tağım komandiri təyin edilmiş və Kəlbəcər bölgəsində gedən döyüşlərdə iştirak etmişdir. 01 aprel 1993-cü ildə Dikyurd məntəqəsində gedən döyüşlərdə yaralanmışdır. 1993-cü ilin avqustunda ordu sıralarından tərxis olunmuşdur.



***Kapitan Mehdiyev Firudin Məhəmməd oğlu***

1946-ci ildə Kəlbəcərin Alıkənd kəndində anadan olmuşdur. Ali təhsil almışdır. 1991-ci ilin oktyabrında Kəlbəcər batalyonunda baş leytenant rütbəsində kimya xidməti rəisi kimi xidmətə başlamış, sonra xidmətini silahlanma üzrə komandir müavini vəzifəsində davam etdirmişdir. Ağdərə, Kəlbəcər, Laçın və Morovdağ bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



*Gizir Rzayev Tofiq Qasım oğlu*

1950-ci ildə Kəlbəcərdə anadan olmuşdur. Uzun illər rus ordusunda gizir kimi xidmət etmişdir. 1991-ci ilin oktyabrında Kəlbəcər batalyonunda ərzaq xidməti rəisi vəzifəsində xidmətə başlamış, Ağdərə, Kəlbəcər, Laçın və Morovdağ bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



*Baş leytenant Bayramov Çıraq*

1961-ci ildə Kəlbəcərin Qılışlı kəndində anadan olmuşdur. Ali təhsil almışdır. 1991-ci ilin oktyabrında Kəlbəcər batalyonunda bölük komandirinin müavini kimi xidmətə başlamış, Ağdərə, Kəlbəcər, Laçın və Morovdağ bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



### *Leytenant Şahüseynov Mehdi Əli oğlu*

1951- ci ildə Kəlbəcərin Daşbulaq kəndində anadan olmuşdur. 1991-ci ilin oktyabrında
Kəlbəcər batalyonunda Kiçik leytenant rütbəsində
avtomobil xidməti rəisi
kimi xidmətə başlamış, Ağdərə, Kəlbəcər, Laçın və Morovdağ bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



### *Baş leytenant Əhmədov Əlәddin Ələsgər oğlu*

1961-ci ildə Kəlbəcərdə anadan olmuşdur. Ali təhsil almışdır.
01 oktyabr 1991-ci il tarixdən Kəlbəcər Ərazi Müdafiə
Batalyonunda bölük komandiri kimi xidmətə başlamışdır. 1991-1992-ci illərdə Ağdərə və Kəlbəcər bölgələrində erməni işğalçılarına qarşı aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. 1992-ci ildə ordu sıralarından tərxis edilmişdir.

*14 ildi, doğma yurdsuz təpiyibdi dil-dodağım,*
*14 ildi, barsız qalıb "Xarı bülbül" adlı bağım.*
*14 ildi, ürəyimə xal salıbdı Qarabağım,*
*14 ildi, qol-qanadsız, dərdli-sərli Əläddinəm!*
*14 ildi, Kəlbəcərsiz-kəlbəcərli Əläddinəm!*



## *Leytenant Sadıqov Məzahir Əli oğlu*

1956-cı ildə Kəlbəcərin Daşbulaq kəndində anadan olmuşdur. Orta məktəbdə hərbi rəhbər işləmişdir. 1991-ci ilin oktyabrından Kəlbəcər batalyonunda bölük komandiri kimi xidmətə başlamış, Ağdərə, Kəlbəcər, Laçın bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



## *Leytenant Hüseynov Zahid İsmayıl oğlu*

1956-cı ildə Kəlbəcər şəhərində anadan olmuşdur. Ali təhsil almışdır. 1992-ci ilin fevralından Kəlbəcər batalyonunda tağım komandiri kimi xidmətə başlamış, Laçın, Ağdərə, Kəlbəcər, Murovdağ Tərtər, Ağdam uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1998-ci ilədək Tərtər, Ağdam bölgəsində xidmətini davam etdirmiş və baş leytenant rütbəsində ordu sıralarından tərxis olunmuşdur.



***Cəfərov Sərdar Məhəmməd oğlu***

1970-ci ildə Kəlbəcər şəhərində anadan olmuşdur.
Ali təhsil almışdır. 1991-ci ilin oktyabrından Kəlbəcər batalyonunda tağım komandiri kimi xidmətə başlamış və Ağdərə, Laçın, Kəlbəcər uğrunda döyüşlərdə iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



***Məmmədov Nəriman Hüseyn oğlu***

1959-cu ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olmuşdur. 1991-ci ilin oktyabrında Kəlbəcər Özünümüdafiə Batalyonunda 3-cü bölüyün baş çavuşu kimi xidmətə başlamış və həmin batalyonun yaradılmasında fəallıq göstərmişdir. Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ döyüşlərində iştirak etmişdir. 1992-ci ildə ordudan tərxis olunsa da, 1993-cü ildə yenidən könüllü olaraq döyüşlərə qatılmış, 4-cü taborun tərkibində Murovdağ əməliyyatlarında iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



***Kapitan Bayramov Ələkbər Abbas oğlu***

1945-ci ildə Kəlbəcərin Dəmirçidam kəndində anadan olmuşdur. 1964-1968-ci illərdə rus ordusunda tank komandiri kimi xidmət etmiş, sonralar Balakən və Kəlbəcər hərbi komissarlıqlarında xidmətini davam etdirmiş, 1991-ci ildə Kəlbəcər batalyonunun yaradılmasında fəallıq göstərmiş və batalyonda tağım komandiri kimi xidmətə başlamışdır. Kəlbəcər, Laçın, Ağdərə, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1994-1998-ci illərdə ön mövqedə xidmətini davam etdirmiş, 1998-ci ildə kapitan rütbəsində ordu sıralarından tərxis olunmuşdur.

Şah İsmayıl Xətai adına Fəxri Fərmanla təltif edilmişdir.



***Kapitan Məmmədov Mürşüd Ağa oğlu***

1960-cı ildə Kəlbəcərdə anadan olmuşdur. Ali təhsilli idi. Baş leytenant rütbəsi ilə

1992-ci ildə Kəlbəcər Batalyonunda bölük komandiri vəzifəsində xidmətə başlamış, Ağdərə, Kəlbəcər, Laçın və Murovdağ uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. 24 yanvar 1994-ci ildə Kəlbəcərin Qanlıkəndi uğrunda gedən döyüşdə mühasirəyə düşərək qəhrəmancasına həlak olmuşdur.



***Gizir Hacıyev Kamal Hüseyn oğlu***

1965-cı ildə Kəlbəcərin Çaykənd kəndində anadan olmuşdur. Rus ordusunda gizir rütbəsində xidmət etmişdir. 1992-ci il tarixdən Kəlbəcər Batalyonunda tağım komandiri vəzifəsində fəaliyyətə başlamış, Ağdərə, Kəlbəcər, Laçın və Murovdağ uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. 24 yanvar 1994-ci ildə Kəlbəcərin Qanlıkəndi uğrunda gedən döyüşdə mühasirəyə düşərək qəhrəmancasına həlak olmuşdur.



***Gizir Bəxtiyarov Şahin Bəxtiyar oğlu***

1965-ci ildə Kəlbəcərin Nadirxanlı kəndində anadan olmuşdur. 5 il Almaniyada Rus ordusunda gizir kimi xidmət etmişdir. 1992-ci ildə Kəlbəcərə qayıtmış və Kəlbəcər batalyonunda xidmətə başlamış, Laçın, Ağdərə, Füzuli, Ağdam, Tərtər, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 2002-ci ildə ordu sıralarından tərxis edilmişdir.



***Kapitan Abbasov Əziz Kamran oğlu***

1968-ci ildə Kəlbəcərin Cəmilli kəndində anadan olmuşdur. !986-1988-ci illərdə hərbi xidmətini Əfqanıstanın Qəndəhar vilayətində davam etdirmiş və döyüşlərdə özünü bacarıqlı minaatan kimi göstərmişdir. 1992-ci ilin aprelində Kəlbəcər Batalyonunda leytenant rütbəsində minaatan batareyasında xidmətə başlamış, Laçın, Kəlbəcər, Ağdərə, Fizuli, Ağdam, Tərtər, Murovdağ uğrunda gedən çoxsaylı döyüşlərdə iştirak etmişdir. 2000-ci ildə ordu sıralarından tərxis edilmişdir.



***Hacıyev Dadaş Cəmil oğlu***

1969-cu ildə Kəlbəcərin Nadirxanlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Ali Hərbi məktəbə daxil olmuş, lakin, Kəlbəcərin ağır günlərində hərbi məktəbi yarımçıq qoyub, doğulduğu Kəlbəcərə dönərək, 1991-ci ilin oktyabrında Kəlbəcər Batalyonunda tağım komandiri kimi xidmətə başlamışdır. Ağdərə, Laçın, Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmiş və yaralandığı üçün 1994-cü ildə ordu sıralarından tərxis edilmişdir.



***Leytenant Həşimov Tahir Misir oğlu***

1961-ci ildə Kəlbəcərin Abdullauşağı
kəndində anadan olmuşdur. Ali təhsil almışdır. 1991-ci ildən Kəlbəcər batalyonunda xidmətə başlamış, Ağdərə, Laçın, və Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmişdir.
1993-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



***Baş leytenant Yusifov Yusif Hüseyn oğlu***

1951-ci ildə Kəlbəcərdə anadan olmuşdur. Ali təhsil almışdır.
1992-ci ildən Kəlbəcər batalyonunda avtomobil xidməti rəisi kimi xidmətə başlamışdır. Kəlbəcər, uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü ildə ordu sıralarından tərxis olunmuşdur.

*Ağrılı-acılı keçdiyim yollar,*
*Həyatımdı mənim, dərsimdi mənim.*
*Bəyaz vərəqlərdə sorğu-suallar,*
*Arzumdu, hissimdi, səsimdi mənim...*



## *Kapitan Sarıyev Qurban Heydər oğlu*

1951-ci ildə Kəlbəcərdə anadan olmuşdur. Ali təhsilli, ehtiyatda olan baş leytenant 15 iyun 1992-ci il tarixdən 701 saylı hərbi hissədə avtomobil xidmətində xidmətə başlayıb. Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 2002-ci ildə ordu sıralarından tərxis olunmuşdur



## *Kapitan Şirinov Arif Aydın oğlu*

1960-cı ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olmuşdur. Ali təhsil almışdır. 1992-ci ildə ordu sıralarına çağırılmış, "Əvsanəvi Alay"ın 713 saylı taborunda bölük komandiri kimi xidmətə Başlamış, Ağdərə bölgəsinin bir sıra kəndlərinin düşməndən azad edilməsində və eləcə də Laçın, Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1993-1994-cü illərdə Türkiyədə hərbi təhsil aldıqdan sonra xidmətini davam etdirmiş və 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.



***Kapitan Ismayılov Əhəd Qarakişi oğlu***

1963-cü ildə Qəbələdə anadan olmuşdur. Ali təhsil almışdır. 1993-cü ildə Kəlbəcər batalyonunda xidmətə başlamış, Kəlbəcər, Murovdağ, Fizuli, Tərtər, Ağdam bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.



***Azərbaycanın Milli Qəhrəmanı baş leytenant Nəcəfov Yunis İsa oğlu***

1966-cı ildə Kəlbəcər şəhərində anadan olmuşdur. Rusiyada hərbi məktəb bitirmişdir. 1991-ci ildən 701-ci döyüş briqadasında bölük komandiri kimi xidmətə başlamış və Ağdərə, Kəlbəcər bölgələrində gedən çoxsaylı döyüşlərdə iştirak etmişdir. 1992-ci ildə Ağdərə bölgəsində qəhrəmanlıq göstərərək şəhid olmuşdur.



### Kapitan Quliyev Mahir İbrahim oğlu

14 mart 1969-cu ildə Kəlbəcərdə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakı Ali Hərbi Ümumqoşun məktəbinə daxil olmuş və oranı bitirdikdən sonra hərbi xidmətini Rusiyanın Samara şəhərində davam etdirmişdir. 1991-ci ildə Vətənə dönmüş və "Goranboy batalyonu"nda xidmət etməklə Goranboy, Ağdərə, Tərtər bölgələrinin erməni işğalçılarından azad edilməsində iştirak etmiş, hərbi bacarığı ilə seçilmişdir. 1992-ci ildən "Əfsanəvi alayda tabor komandiri təyin edilmiş və Laçın bölgəsindəki döyüş əməliyyatlarına rəhbərlik etmişdir. 1993-cü ilin aprelində Kəlbəcər uğrunda gedən döyüşlərdə həlak olmuşdur.



### Baş leytenant Balakişiyev Hüseyn Müstəcəb oğlu

1957-ci ildə Kəlbəcərin Hopurlu kəndində anadan olmuşdur.
Ali təhsil almışdır. 1993-cü ildə ordu sıralarına çağırılmış, Kəlbəcər batalyonunda rabitə tağımı komandiri kimi Füzuli, Tərtər, Ağdam bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1997-ci ildə ordu sıralarından tərxis olunmuşdur.



## *Gizir*
## *Həsənov Əlövsət*

1969-cu ildə Beyləqanda anadan olmuşdur. 1993-cü ilin payızında Azərbaycan Prezidentinin çağırışını eşitmiş və Türkmənistandan Azərbaycana gələrək ordu sıralarına qoşulmuşdur. Fizuli, Ağdam, Tərtər bölgələrində gedən döyüşlərdə iştirak etmiş, göstərdiyi igidliklərə görə ona gizir hərbi rütbəsi verilmiş və tağım komandiri təyin edilmişdir.



## *Leytenant*
## *Ağayev Yadigar*

1968-ci ildə Kürdəmirdə anadan olmuşdur. 1992-ci ildə ordu sıralarına çağırılıb, Ağdam uğrunda gedən öyüşlərdə fərqləndiyinə görə ona kiçik leytenant hərbi rütbəsi verilmişdir. 1994-1995-ci illərdə əfsanəvi alayda xidmətini davam etdirmiş və 2002-ci ildə ordu sıralarından tərxis edilmişdir.




*Şəkildə sağdan: Leytenant Mehdi Şahüseynov, könüllülərdən: Natiq Əhmədov və İslam Qasımov*



*Leytenant Akif Kamalov, noyabr-1991-ci il*



*Döyüşçülərdən:*
*Elçin, Dadaş Hacıyev və Şahin -1992-ci il*



*Şəkildə: könüllü döyüşçülərdən*
*soldan-Şakir Cabbarov və Nemət Nadirov, 1992-ci il*



*Könüllü döyüşçülərdən,*
*Kamalov Ələsgər Sultan oğlu, 1992-cü il*



*Şəkildə soldan: gizir Tofiq Rzayev, kiçik leytenant Mehdi Şahüseynov və könüllülərdən İslam Qasımov. Kəlbəcər, 1992-ci il*



*Könüllü döyüşçülərdən Allahverdiyev Vahib Allahverdi oğlu-1991-ci il*



*Könüllü döyüşçülərdən Bayramov Xəqani Ələkbər oğlu-1991-ci il*



*Kəlbəcərdə Özünümüdafiə Batalyonu yaradılır, noyabr 1991-ci il*
*Şəkildə: ayaq üstə sağdan gizir Tofiq Rzayev, leytenant Məzahir Sadıqov, leytenant Akif Kamalov. Könüllülərdən: Nemət Nadirov, Şakir Cabbarov, oturanlar: Ədalət Rəhimov və Şəmsəddin Məmmədov*



*Kəlbəcərdə Özünümüdafiə Batalyonu yaradılır,*
*şəkildə: sağdan ikinci kapitan  Tahir Mehdiyev*

*Biz onda yenilməz olarıq ki, hər bir oğul vətən harayına qalxa bilsin!*
M ü ə l l i f

# “Əfsanəvi Alay” və ya “Birinci Batalyon”

Yuxarıda qeyd etdiyimiz kimi 1991-ci ilin oktyabrından Qarabağ və ətraf bölgələrdə özünümüdafiə batalyonları yaradılmağa başlanıldı və eyni zamanda həmin batalyonlar ermənilərlə müharibəyə cəlb edildilər. Bakıda yaradılan “Birinci Batalyon” və onun şəxsi heyəti Qarabağa göndərilərək yerli batalyonlarla erməni işğalçılarına qarşı döyüşlərə başladılar. Bu hərbi hissə əvvəlcə 18110 saylı Motoatıcı Desant hücum briqadası adlandırıldı. Ayrı-ayrı adlar və nömrələr daşımasına baxmayaraq, biz bu kitabda həmin hərbi hissəni – öz şərəfli adıyla- “Əfsanəvi Alay” kimi təqdim edəcəyik.

**Əfsanəvi Alayın komanda heyəti:**

Hərbi hissə komandiri- polkovnik Zadir Rza oğlu Rzayev
Qərərgah rəisi-polkovnik-leytenant Süleymanov Zəfərşah
Arxa cəbhə üzrə müavin- polkovnik-leytenant Rəhimov Zakir
Əməliyyat bölməsinin rəisi- polkovnik-leytenant Məmmədov Qəzənfər
Əməliyyat bölm. rəisinin baş köm-si-mayor Əhmədov Süleyman Rəhim o
Əməliyyat bölm. rəisinin baş köməkçisi-mayor Abdullayev Müzəffər
Əməliyyat bölm. rəisinin köməkçisi-leytenant Yusibov Səyad Yəhya oğlu
Kadrlar bölməsinin rəisi-baş leytenant Fərəcov Rəhim İsmayıl oğlu
Kadrlar bölməsi rəisinin köməkçisi-leytenant Qayıbov İlqar İsmayıl oğlu
Plan təşk. xidməti rəisi-mayor Əsgərov Zeynalabdın Rza oğlu
Rabitə xidməti rəisi-kapitan Fətəliyev Mübariz
Avtomobil xidməti rəisi-leytenant Rzayev Məmmədmirzə
Tibb xidməti rəisi-kapitan Əliyev Əhliman Pənah oğlu
Topoqrafiya xidməti rəisi-leytenant Qurbanov Vaqif Şaban oğlu
Əşya xidməti rəisi-baş leytenant Mürsəlov Firuz Məmmədəli oğlu
Ərzaq xidməti rəisi-leytenant Abdullayev Natiq Ənvər oğlu
Maliyyə xidməti rəisi-leytenant Hacıyev Qırımxan Əsgər oğlu
Yanacaq xidməti rəisi-leytenant Hüseynov Rafiq Fərəməz oğlu
Mühəndis xidməti rəisi-baş leytenant Nəcəfov Valeh Qurban oğlu
İdman və fiziki hazırlıq rəisi-leytenant Bəylərov Rauf
Orkestr rəisi-mayor İsmayılov Eduard
Komendant bölüyünün komandiri-baş leytenant Xanbutayev Mübariz
Briqada komandirinin adyutantı-Məmmədov Rəşid

Bununla bərabər hərbi hissənin könüllülərdən ibarət ilk taboru da yaradıldı və tezliklə döyüş bölgələrinə göndərildi.

*Qəhrəmanlıq düşünülmədən, bir anda baş verir.*
M ü ə l l i f

**1-ci batalyonun komanda heyəti:**

Batalyon komandiri-mayor Abdullayev Nurəddin Əjdər oğlu
Qərərgah rəisi-kapitan Yaqubov Zəfər Hüseyn oğlu
Müavin-kapitan Əliyev Ələkbər Ələsgər oğlu
Müavin-baş leytenant Məmmədov Altay Cəmil oğlu
Müavin-baş leytenant Rəcəbov Rəşid Ağasəf oğlu
Qərərgah rəisinin köməkçisi-leytenant Məmmədov Oruc Məhərrəm oğlu
Rabitə rəisi-kapitan Əliyev Şamo
1-ci bölük komandiri-baş leytenant Mövsümov Seyidağa Fəyyaz oğlu
Müavin-baş leytenant Hacıyev İsmayıl Məhəmməd oğlu
1-ci tağım komandiri-baş leytenant Hacıyev Azər Muxtar oğlu
2-ci tağım komandiri-baş leytenant Babayev Cavanşir Şirin oğlu
3-cü tağım komandiri-leytenant Qurbanov Qurban Temirxan oğlu
Tank əleyhinə tağım kom.-leytenant Məmmədov Əli Şükür oğlu
2-ci bölük komandiri-baş leytenant Məmmədov Akif Həsən oğlu
Müavin-baş leytenant İsmayılov Nizami Məhər oğlu
1-ci tağım komandiri-leytenant Əhmədov Firudin Hüseyn oğlu
2-ci tağım komandiri-leytenant Qasımov İlham Məhəmməd oğlu
3-cü tağım komandiri-leytenant yarəliyev Zakir Alay oğlu
Tank əleyhinə tağım kom.-leyt. Alməmmədov Şakir Mürsəl oğlu
3-cü bölük komandiri-baş leytenant Hüseynov Mehman Bəhrəm oğlu
Müavin-baş leytenant Mürsəlov Akif Gülmirzə oğlu
1-ci tağım komandiri-Zeynalov Nəriman Vilayət oğlu
2-ci tağım komandiri-leytenant Nuriyev Eldəniz Məmməd oğlu
3-cü tağım komandiri-leytenant Salmanov Nəsimi Həsən oğlu
Tank əleyhinə tağım komandiri-leyt. Qocayev Oktay Qoca oğlu
Minaatan batareyası komandiri-baş leytenant Əliyev Hidayət Məcid oğlu
1-ci tağım komandiri-leytenant Quliyev İsmayıl Kərim oğlu
2-ci tağım komandiri-leytenant Əhmədov İmamqulu Sultan oğlu
İdarəetmə tağımı kom.-leyt. Həsənov Sədrəddin Qardaşxan oğlu
Baş çavuş-gizir Məmmədov Arif Bilal oğlu
Tank əleyhinə bölük komandiri-leytenant Nəcəfov Yunis İsa oğlu
1-ci tağım kom.-leyt. Məmmədov Sənan Məlikməmməd oğlu
2-ci tağım komandiri-leytenant Mahmudov Vilayət Şükür oğlu
Qumbaraatan tağımı kom.-baş leyt. Ləzimov Bəhrəm Valeh oğlu
Minaatan tağımı komandiri-leytenant Namazov Azər Rəhim oğlu
ZRA komandiri-baş leytenant Hüseynov Qulamhüseyn
Rabitə bölüyü komandiri-baş leyt. Mirsadıqov Miryaqub Mirəziz oğlu

*Məni vətənimin sərhəddində basdırın. Övladlarımın qeyrəti olsa qoymaz qəbrimi düşmən ayaqlasın!*

C a v a n ş i r

Kəşfiyyat bölüyü komandiri-baş leytenant Seyidov Seyidrza Heydər oğlu
Komendant bölüyü komandiri-leytenant Nəsirov Şirinəli İslam oğlu
Təminat bölüyü komandiri-baş leytenant Namazov Murad Həmdulla oğlu
Tibb xidməti rəisi-baş leytenant Ağayev Oktay Abuzər oğlu

9 dekabr 1991-ci il tarixdə briqadanın ilk döyüşçülərindən ibarət ilk döyüş tağımı Şuşaya ezam edildi.

**Döyüş tağımının tərkibi:**

1. Komandir: baş leytenant Məmmədov Altay Cəmil oğlu
2. Müavin: baş leytenant Mövsümov Seyidağa Fəyyaz oğlu
3. Gizir Məmmədov Firdovsi
4. Sıravı Quliyev Bahəddin Hafiz oğlu
5. Sıravı Abdullayev İlqar Niftalı oğlu
6. Sıravı Ağakişiyev Asif Xankişi oğlu
7. Sıravı Əliyev Şahlar Nəriman oğlu
8. Sıravı Salahov Nofəl Sərməst oğlu
9. Sıravı Əlisoltanov Xalıx Poladxan oğlu
10. Sıravı Salehov Viktor Saleh oğlu
11. Sıravı Bədəlov Köçəri
12. Sıravı Ağayev Hüseyn Xəlil oğlu
13. Sıravı Abbasov Malik Rizvan oğlu
14. Sıravı Xalıqov Vaqif Sərxan oğlu
15. Sıravı Mirzəliyev Novruz Xanmirzə oğlu
16. Sıravı Rzayev Zərdan Məhərrəm oğlu
17. Sıravı Məhərrəmov Nizami Mövsüm oğlu
18. Sıravı Cəfərov Yəhya Mahmud oğlu
19. Sıravı Məmmədov Lütfi Rza oğlu
20. Sıravı Əhədov Şamil Səməd oğlu
21. Sıravı Mustafayev Tofiq İmkan oğlu
22. Sıravı Quliyev Qərib Adil oğlu
23. Sıravı Orucov Tahir Rafiq oğlu
24. Sıravı Cavadov Etibar Əlisəfa oğlu
25. Sıravı Novruzov Bəhruz Abbasqulu oğlu
26. Sıravı Əliyev Elmir Novruz oğlu

Bundan sonra briqadanın digər taborları da təşkil edilərək döyüş bölgələrinə - Qarabağın Kərkicahan, Malıbəyli, Quşçular, Kosalar, Qaybalı, Umudlu və Kəlbəcərin Ağdaban kəndlərinə - göndərildi...

<u>*Döyüş meydanında ən yaxşı tank- ən yaxşı heyəti olan tankdır.*</u>
<u>*A m e r i k a   g e n e r a l ı*</u>

02 yanvar 1992-ci il tarixdə briqadanın yenicə təşkil edilmiş 2-ci taboru Qarabağ cəbhəsində 1-ci taboru əvəz etdi...

**2-ci batalyonun komanda heyəti:**

Tabor komndiri-kapitan Cəfərov Zəfər Camal oğlu
Müavin-baş leytenant İsmayılov Rauf Tofiq oğlu
Müavin-baş leytenant Dadaşov Əbülfəz
Müavin-mayor Əliyev U.
Müavin-kapitan Şirinov Elmir
Tibb xidməti rəisi-baş leytenant Əmiraslanov Sabir
1-ci bölük komandiri-leytenant Cəbiyev Kamal Xanoğlan oğlu
2-ci bölük komandiri-baş leytenant Əliyev Afiq Qasım oğlu
2-ci bölük komandirinin müavini-baş leyt. Cəfərov Qənbər Yaqub oğlu
3-cü bölük komandiri-baş leytenant Məmmədov Eyvaz Həbib oğlu
Tank əleyhinə bölük komandiri-baş leyt. Abbasov Allahverdi Cəmil oğlu
Mühəndis bölüyünün komandiri-baş leytenant Ağayev Adil Fikrət oğlu
Təminat bölüyü komandiri-baş leytenant Rəhmanov Tofiq





*Əfsanəvi alayın zabitlərindən Fazil Ramazanov,*
*Yunis Nəcəfov və Bəhrəm Lazımov*

ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN



▲ ***ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN***

***01 oktyabr 1991-ci il*** - Kəlbəcər Ərazi Müdafiə Batalyonu yaradılmağa başladı.

***09 oktyabr 1991-ci il*** – Bakı şəhərində 18110 saylı Motoatıcı Desant hücum briqadası yaradılmağa başlandı:

***9 dekabr 1991-ci il*** - 18110 saylı briqadanın ilk döyüşçülərindən ibarət ilk döyüş tağımı Şuşaya ezam edildi.

***10 dekabr 1991-ci il*** - Kərkicahanda ermənilərə qarşı ilk döyüş müvəffəqiyyətlə aparıldı, tağım itki vermədən düşmənin xeyli canlı qüvvəsini məhv etdi.

***12 dekabr 1991-ci il*** - Kərkicahan kəndinə hücum edən ermənilərlə döyüş oldu. Düşmən 8 nəfər itki verdi. Gizir Məmmədov Firdovsi həlak oldu.

***15 dekabr 1991-ci il*** - briqadanın digər bölmələri də Qarabağa-Kərkicahan, Malıbəyli, Quşçular, Kosalar, Qaybalı, Umudlu və Kəlbəcərin Ağdaban kəndlərinə göndərildi. Həmin gün düşmənin Kərkicahana hücumu dəf edildi.

***21 dekabr 1991-ci il*** - Əlahiddə Kəlbəcər Batalyonu (komandir: kapitan A.Süleymanov, müavin leytenant A.Kamalov, qərərgah rəisi baş leytenant T. Mehdiyev, bölük komandiri baş leytenant Ə.Əhmədov, tağım-komandiri baş leytenant B.Lazımov) Ağdərənin Çapar kəndini düşməndən azad etmək üçün hücuma keçdi. Bu əməliyyatda düşmənin xeyli canlı qüvvəsi məhv edildi. Lakin, kəndi azad etmək mümkün olmadı. Batalyon itki vermədən əvvəlki mövqelərə çəkildi.

***28 dekabr 1991-ci il*** - düşmən Kərkicahana hücum etdi və 1-ci tabor tərəfindən (komandir-mayor Abdullayev Nurəddin, qərərgah rəisi-mayor Yaqubov Zəfər) bu hücum dəf edildi. Döyüşdə düşmən 40 nəfərədək itki verdi, tabordan isə 4 nəfər həlak oldu, 4 nəfər əsir düşdü, baş leytenant Altay Məmmədov və daha 10 nəfər yaralandı.

***02 yanvar 1992-ci il*** - briqadanın yenicə təşkil edilmiş 2-ci taboru Qarabağ cəbhəsində 1-ci taboru əvəz etdi.

*Vətənini və ailəsini qorumaq-kişilərin vəzifəsidir.*
*M ü ə l l i f*

   

# "Çapar" əməliyyatı

Kəlbəcərin Ağdaban kəndi bölgənin şimal-şərqində Dağlıq Qarabağın Ağdərə bölgəsinin ermənilər yaşayan Çapar, Kərəmli, Həsənriz kəndləri ilə sərhəddə yerləşir. Ağdabanda Kəlbəcər Batalyonunun 5-ci bölüyünüyn bir tağımı yerləşdirilmiş və silah-sursatla təmin edilmişdir. Həmin tağım Ağdaban kəndinin ermənilərlə sərhəd yüksəkliklərində ön mövqedə keşik çəkirdi. Bundan başqa 1991-ci ilin sonlarında Bakıdan-701 saylı hərbi hissədən 36 nəfərlik bir dəstə Kəlbəcərin müdafiəsini möhkəmləndirmək üçün göndərilmişdi. Komandiri baş leytenant Bəhrəm Lazımov olan həmin dəstəni də Ağdaban kəndində yerləşdirmiş və onlar ərzaqla, yatacaqla təmin etmişdik.

Ağdabanla həmsərhəd olan Çapar, Həsənriz və Qozlukörpü kəndlərində rusların silahlandırdığı ermənilər 1988-1991-ci illərdə Kəlbəcərin Ağdərədən keçən yolunu bağlayaraq dəfələrlə azərbaycanlılara qarşı hücumlar təşkil etmiş, onları öldürmüş, yaralamış, bir neçə dəfə Ağdaban və Çərəkdar kəndlərini gülləboran etmişlər. Həmin illərdə Kərəmli, Umudlu və digər kəndlərin əhalisi ermənilər və rus əsgərləri tərəfindən qovulmuş və evləri qarət edilərək yandırılmışdı.

Dekabr ayının 21-də Ağdərənin Çapar kəndini düşməndən azad etmək üçün qərərgah rəisi baş leytenant Tahir Mehdiyevlə mən əməliyyat planı qurduq. Döyüşə ümumi rəhbərlik mənə tapşırılmışdı. Bu döyüşə baş leytenant Əhmədov Ələddinin komandirlik etdiyi 5-ci bölüyün Ağdabanlılardan ibarət tağımı (bölük komandirinin müavini: Quliyev Zahid, tağım komandiri leytenant Nəsib Nəsibov, baş çavuş Əjdər Nəsibov), Çərəkdar kəndindəki tağım, zabitlərdən: leytenant Hüseyn Nəbiyev, leytenant Akif Mirzəliyev, leytenant Seyfəli Orucov, baş leytenant Çıraq Bayramov, kiçik leytenant Mehdi Şahüseynov, baş leytenant Xalid Hümbətov, leytenant Rəsul Əmirov, leytenant Fehruz Alışov, gizir Tofiq Rzayev, leytenant Ziyafət Tağıyev, leytenant

Hicran Abbasov, baş gizir Arif Abbasov, batalyonun digər bölüklərində xidmət edən könüllülərdən: Nemət Nadirov, Dadaş Hacıyev, Vahib Allahverdiyev, Habil Mürsəlov, İlqar Əsədov, Habil Sadıqov, Vüqar Qurbanov, Nəriman Məmmədov, Natiq Əhmədov, Sərdar Cəfərov, Elxan Əliyev, Mətləb, Ədalət Rəhimov,və s.-cəmi 120 nəfərədək döyüşçü cəlb olunmuşdu. Batalyonda əsgər çox idi, lakin hamını silahlandırmağa silahımız çatmırdı. Biz bəzi əsgərləri kiçik çaplı tüfənglə-TOZ-8, beşaçılan və əldə düzəldilmiş təlim avtomatları ilə silahlandırmışdıq.
Əsas ümidimiz; baş leytenant Bəhrəm Lazımovun komandirlik etdiyi və yaxşı silahlanmış 36 nəfərlik Bakı dəstəsi idi.

Əməliyyat gecə keçirilməli idi. Çapar kəndi Ağdaban kəndinin üst tərəfindəki yüksəklikdə yerləşdirilmiş top və alazan raketləri ilə vurulmalı, Kərəmli dəstəsi Çapar kəndinin şimal tərəfindən Həsənriz kəndinə gedən yolu bağlamalı və Çapara kömək gələsi təqdirdə onları atəşlə məhv etməli idi. Çərəkdar kəndindən olan dəstə Çaparın cənub tərəfindən hücum etməli, əsas hücum qüvvəsi olan Kəlbəcər batalyonunun və Bəhrəm Lazımovun döyüşçüləri isə kəndin qərb tərəfindən hücuma keçməli idilər. Üç tərəfdən hücuma məruz qalan ermənilər mütləq Çaparı tərk etməli idilər.

Axşam saat 11-də erməni və rusların mövqe tutduqları Qozlu kəndini topla, Çapar kəndini və kəndə gələn yolu isə "Alazan" raketləri ilə vurmağa başladıq. 1 saata qədər davam edən artilleriya atəşi Çapar və Qozlu kəndində 15-20 evi dağıtmış və yandırmışdı. Qozlu və Çapar kəndləri od içində idi. Artıq yanan evlərin işığında ermənilərin kənddən çıxıb qaçdıqlarını görürdük. Gecə gizlicə Çapara tərəf irəliləyən döyüşçülərimiz artıq evlərin yaxınlığında idilər. Bizim döyüşçülər sürünə-sürünə yaxınlaşırdılar. Çapar kəndindən rus və ermənilərin döyüş maşınları ilə, iri çaplı pulemyotlar və avtomatlarla bizə kor-koranə atəş açır, yerimizi dəqiq bilmirdilər. Əsgərlər hücum əmrini gözləyirdilər. Elə bu zaman pusqudakı dəstə Həsənrizdən Çapara köməyə gələn düşmən əsgərləri ilə dolu Kamaz markalı maşını atəşə tutaraq məhv etdi. 30 nəfərədək düşmən məhv edilmişdi. Bizim döyüşçülərdən isə ölən və yaralanan yox idi.

Əməliyyat planına uyğun olaraq Çərəkdar tərəfdən (Çapar kəndinin cənubundan) atəşin açılması ilə qəti hücuma keçməliydik. Biz oradakı döyüşçülərin kəndə yaxınlaşmalarını gözlədimiz bir vaxtda əsgərlərdən kimsə ehtiyatsızlıq edərək düşmən tərəfə işıqsaçan güllələrlə

atəş açdı. Ermənilər və kənddəki rus hərbçiləri yerimizi bildikləri üçün hər tərəfdən pulemyot, avtomat və PDM topları ilə bizim istiqamətə atəş aşmağa başladılar. Güllələr başımızın üstündən keçarək meşəyə səpələnir, ətrafımızda çovuyurdu. Başımızı qaldırmağa imkan yox idi. Güllələr üstümüzə dolu kimi yağırdı. Biz atəşi dayandırdığımız üçün düşmən bizim meşə ətəklərində olduğumuzu yəqin edərək, mövqelərimizin arxa tərəfini daha güclü atəşə tutmuşdu. Bizim lap yaxınlıqda olmağımızı onlar heç ağıllarına belə gətirmirdi...

Axşamdan xeyli keçmiş mən 12-13 nəfərlik bir dəstə ilə Çapar kəndinin yaxınlığında mövqe tutmuş bizimkilərin yanına gəldim. Biz sürünərək ön mövqedə yerə uzanmış döyüşçülərin yanına gəldik. Düşmən mövqelərini bir daha nəzərdən keşirdim. Sağ cinahdan Çərəkdar dəstəsinin hücuma keçməyini gözləyirdik. Oradan isə-heç bir atəş açılmırdı. “Onlar niyə başlamırlar, nəyi gözləyirlər?”-deyə öz-özümə onları qınayırdım. Çünki hücum əməliyyatı pozula bilərdi. Çərəkdar dəstəsi isə yoxa çıxmışdı. Səhərin açılmasına az qaldığına baxmayaraq, onlarla heç bir əlaqə yox idi. Bu vəziyyətdə hücuma keçsəydik rusların çoxlu sayda zirehli texnikası qarşısında heç nə edə bilməz, bunun qarşılığında “atəş kisəsi”nə düşə bilərdik. Səhərin açılmasına isə lap az qalırdı...

Bölük komandiri baş leytenant Ələddin Əhmədovun dediklərindən: “Ağdabandan Çaparadək olan 6-7 kilometrlik yolu demək olar ki, güllə yağışı altında irəliləyirdik. Düşmən başımızın üstündən yuxarı meşəni atşə tutmuşdu. Bizim bu qədər kəndə yaxınlaşmağımız onların ağlına gəlməzdi. Dairəvi şəkildə irəliləyərək düz düşmən mövqelərindən 40-50 metr məsafədə sərbəst gizləndik. Hücuma keçmək üçün son hazırlıqları apardıq. Sol cinahdan Həsənrizdən Çapar kəndinə köməyə gələn ermənilərlə dolu maşını məhv etdik. Çapardakı ermənilər bundan xəbər tutmadılar. Yaxınlıqda tövlə pəncərəsindən səsini kəsməyən iri çaplı pulemyotu susdurmağa isə qumbara lazım idi. Qumbara isə heç kimdə yox idi. Elə bu vaxt tağım komandiri leytenant Nəsib Kərimov mənə yaxınlaşıb ermənilərin danışığını tərcümə etdi. Dedi ki, komandir, onlar deyir ki, Aterk kəndindən kömək çağıraq və türkləri tutaq. Onlar bilmirdilər ki, Aterkdən onlara gələn kömək isə artıq məhv edilmişdi. Lakin ermənilərin köməyinə Qozlikörpü kəndindən 3-4 ədəd rusların PDM-i gəldi. Biz dar bir çökəkdə toplaşmışdıq. Gecə yarıdan ötmüşdü. Hava işıqlaşsa, düşmən bizi görər və çıxılmaz vəziyyətdə qala bilərdik. Kəndin sağ tərəfindən Çərəkdar dəstəsinin atəş açacağını gözləyirdik.

*Döyüş vaxtı düşmənin fikirini bilmək-*
*hər bir komandir üçün vacib şərtdir. M ü ə l l i f*

Onların atəşi ilə düşmən çaş-baş qalar və hücum müvəffəqiyyətlə başa çatardı. Onlardan isə səs-soraq yox idi. Elə bu vaxt bizim əsgərlərdən kimsə işıqsaçan güllələrlə düşmən mövqelərini atəşə tutdu. Komandasız edilən bu hərəkət bizi pis vəziyyətdə qoydu. Yerimizi bilən düşmən hər tərəfdən bizi atəşə tutdu. Artıq düşmən üzərinə hücum etmək ağılsızlıq olardı. Itki verə bilərdik. Məcbur olub geri çəkilməyə başladıq. Artıq səhər açılırdı. İtki verməmək üçün meşəyə çəkilmək əmri verdim. Güllə yağışı altında sürünə-sürünə meşəyə çəkildik. Güllələr ağacların budaqlarına dəyərək vızıltı ilə ora-bura çovuyur, özünə qurban axtarırdı. Əməliyyat baş tutmamışdı. Meşədə bir az dincimizi alsaq da aclıq, susuzluq və yorğunluqdan yeriməyə taqətimiz yox idi. Qar yeyə-yeyə meşə cığırı ilə yuxarı-Ağdaban yüksəkliyinə tərəf qalxırdıq. Artıq səhər açılanda biz Ağdaban yüksəkliyində-topların yanında idik” .



*Tankçılar*

*İgidlik- taleyin zərbələrini heçə endirir.   D e m o k r i t*

## ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***26 yanvar 1992-ci il*** - Daşaltında əməliyyat keçirildi və əməliyyat uğursuzluqla nəticələndi. Bu əməliyyatda briqada mühasirəyə düşərək 85 nəfər şəhid verdi.

***21 fevral 1992-ci il*** - Müdafiə Nazirinin əmri ilə 18110 saylı hərbi hissə ləğv edildi. Batalyonun sağ qalmış bir çox döyüşçüləri isə fəaliyyətlərini davam etdirərək, yenidən təlimlərə başladılar (baş leytenantlar Zeynalov Nəriman, Ləzimov Bəhrəm, Qurbanov Qurban, leytenant Nəcəfov Yunis və başqaları).

***10 mart 1992-ci il*** - ləğv edilmiş briqadanın-18110 saylı hərbi hissənin adı dəyişdirilərək 701-ci hərbi hissə (briqada) adlandırıldı. Hərbi hissənin ilk komanda heyəti:

Komandir-polkovnik Rzayev Zadir Rza oğlu
Qərərgah rəisi-polkovnik-leytenant Tacibov Vahid
Müavin- polkovnik-leytenant Səmədov Ələsgər
Müavin- polkovnik-leytenant Səfərov Xəlifə
Müavin- polkovnik-leytenant Rəhimov Zakir
ƏB rəisi- polkovnik-leytenant Məmmədov Qəzənfər

Eyni zamanda briqadanın ilk taboru olan 710 saylı tabor da təşkil edildi: Komandir-mayor Seyidov Seyidrza
Qərərgah rəisi-kapitan Hüseynov Zamin
Müavin-baş leytenant Sadıqov Rasim
Müavin-kapitan Zərbəliyev Elşad

***10 may 1992-ci il*** -Hərbi hissə bütün şəxsi heyətlə Kəlbəcərə göndərildi.



*Batalyonun ilk zabitlərindən:*
*leyt. A.Kamalov, leyt. M.Sadıqov, gizir T.Rzayev*

*Hər kəs bütün varlığı ilə torpağa, yurda, vətənə bağlı olmalıdır.*
*M ü ə l l i f*






# Sərhədləri milli ordu qoruyur

1992-ci ilin mart ayında mənim xahişimlə Müdafiə Nazirliyi tərəfindən göndərilən zenitçilər dəstəsi tezliklə Murov, Qoçdaş və Dəlidağ istiqamətlərində ermənilərin iki vertalyotunu və iki təyyarəsini vurdular. Ermənistanın Dağlıq Qarabağla əlaqəsi yalnız təyyarə və vertalyotlarla olduğu üçün "Strela" raketləri ilə silahlanmış həmin dəstə erməniləri vahiməyə salmışdı.

Artıq bizim batalyonun bölük və tağımları Taxtadüzdə, Ağduzdaqda, Zəylikdə, Yellicədə, Dikyurdda, Ayrımda, Alçalıda, Qazuçanda, Söyüdlüdə, Qara Qayada, Ağdabanda, Çərəkdarda, Mərciməkdə, Narışdarda ön mövqelərdə və yüksəkliklərdə yerləşdirilmişdi. Ermənilər əsasən Söyüdlü, Ağdaban, Çərəkdar, Alaqaya və Narışdar istiqamətlərindən tez-tez hücumlar edir, lakin döyüşçülərimiz tərəfindən geriyə oturdulurdu. Hər kəndin qorunmasına bir tağım, yəni 30 nəfərədək əsgər düşürdü. Sərhəd xətti uzun olduğundan bu bölük və tağımlar isə ermənilərin planlı hücumlarının qarşısını almaqda çətinlik çəkirdilər.

Həmin vaxtlar mən bir dəqiqə belə itirmədən həm sərhəd məntəqələrinin silah-sursat, ərzaq və geyimlərlə təchiz edir, həm həmin silah-sursatın "Həyat yolu" ilə Bakıdan, Ağdamdan, Qazaxdan və başqa bölgələrdən daşınmasını təşkil edir, həm də vaxt ayırıb əsgərlərin hərbi təlimlərinə nəzarət edirdim. Bizim batalyonun iki ədəd maşınlar üzərində səyyar ratsiya qurğusu, 8 ədəd topu, 4 ədəd "Alazan" raketi, bir "Kristal" raketi, 8 ədəd "Qrad" qurğusu (Gəncədə düzəltdirmişdik), onların 2000-dən çox mərmisi var idi, hər növdən olan avtomat və pulemyot güllələrinin sayı isə bir milyondan çox idi. Mərmilərin əksəriyyətini Ağdamın Uzundərə hərbi bazasından daşıtdırırdım. Bu işdə Batalyonun digər zabit və gizirləri də mənə yaxından kömək göstərirdi. Maşın

*Ayaq üstə ölmək-diz üstə yaşamaqdan yaxşıdır. D. İ b a r r u r i*

karvanları ilə leytenant Akif Mirzəliyevi, leytenant Hüseyn Nəbiyevi, leytenant Hicran Abbasovu, kiçik leytenant Mehdi Şahüseynovu, Dadaş Hacıyevi Ağdama və Gəncəyə sursat daşımağa, qrad qurğuları düzəltdirməyə, gizir Tofiq Rzayevi və leytenant Üzeyir Şahbazovu Bakıya ərzaq, yanacaq, paltar və digər əşyaları gətirməyə göndərirdim. Bəzən 10-12 maşınla karvan təşkil edir, həmin zabit və əsgərlər üçün 3-4 günlük ərzaq ehtiyatı hazırlatdırır və onları yola salırdım.

Batalyonun bütün döyüş planlarını, təchizat məsələlərini və zabitlərin, gizirlərin vəzifələrə təyin olunmalarını batalyon komandiri-kapitan Asif Süleymanov, qərərgah rəisi-baş leytenant Tahir Mehdiyev və mən birlikdə məsləhətləşərək həll edirdik. Batalyonun zabitləri, gizirləri və yuxarı yaşlı əsgərləri maaş alır, əsgərlərə təqaüd verirdik. Aldığımız maaşın çoxunu batalyonun yaradılması üçün xərcləyirdik. Batalyonda 30-a qədər zabit və gizir fəaliyyət göstərirdi. Batalyonun yaradılması işlərində həmin zabit və könüllü əsgərlərin hər birinin öz zəhməti və xidməti var idi. Biz həmişə çalışırdıq ki, bacarıqlı gəncləri batalyona cəlb edək. Batalyona götürdüyümüz zabit və könüllülər can-başla xidmət edir, Kəlbəcərin müdafiəsi üçün öz köməkliklərini əsirgəmirdilər. Biz onlara başa salırdıq ki, hər kəs öz işinə vicdanla yanaşmalı və Batalyonun yaradılması üçün bütün tapşırıqlar mütləq yerinə yetirilməlidir. Biz batalyonun nümunəvi, nizam-intizamlı bir batalyon olması üçün çox zəhmət çəkirdik. Gecə-gündüz işləyir, işimizdə irəliləyiş olanda sevinir, daxili bir rahatlıq hissi keçirirdik. Belə də oldu.

Həm Batalyonun təchizatında, həm döyüş hazırlığında, həm də nizam-intizamda xeyli müsbət nəticələr əldə etmişdik. Artıq 1991-ci ilin mayında Batalyonda 8 ədəd top, 8 ədəd qrad qurğusu, 5 ədəd alazan və kristal raketi, xeyli miqdarda top, qrad, və digər raket mərmiləri, hər növdən bir milyona qədər patron və sursat, həmçinin 40-a qədər güclü yük maşını, 1500 dəst hərbi geyim və ayaqqabı, 1000 ədəd yataq dəsti, səyyar mətbəxlər və onların avadanlıqları, 1500 kq yağ, 1500 kq şəkər, 1500 kq düyü və s. ərzaq var idi.

Batalyonun yaradaılması işini uğurla davam etdirməklə yanaşı, biz eyni zamanda Kəlbəcərin müdafiəsini də təşkil edirdik. Toplar, raketlər və "Qrad" qurğuları və onların mərmiləri sərhəd məntəqələrində yerləşdirilmiş, batalyonun bölük və tağımları sərhəd məntəqələrinə göndərilmiş və şəxsi heyət silah-sursat, yatacaq və ərzaqla təchiz edilmişdir. Bununla yanaşı sərhəd məntəqələri telefonla və ratsiya ilə təmin edilsə də ratsiyaların elektrik mənbələri azlıq edir və ya bölgədə elektrik enerjisi olmadığından onları yenidən doldura bilmirdik. Sərhəd məntəqələri qərərgahdan və bir-birlərindən uzaqda olduğundan onlarla

əlaqə zəif idi. Həyəcan komandası verildikdə ən yaxın məntəqəyə ən tez bir saata çata bilirdik. Məntəqələrin bir-birindən və qərərgahdan uzaqda olmaları, həmçinin rabitə avadanlığının az olması isə yenə də əsas çətinliklərdən idi. Döyüş zamanı bəzən qərərgaha məlumatlar gec çatdırılır, göndərilən kömək isə gecikirdi. Buna baxmayaraq Kəlbəcər Batalyonunda olan yüksək intizam və təchizat bizi sevindirirdi.

Bütün bu irəliləyişlərə baxmayaraq, hələ də Azərbaycanın öz müstəqil ordusu olduğuna və oradakı zabit, əsgər və könüllü döyüşçülərin bacarığına şübhə ilə yanaşanlar var idi. Bəzən bizə lazım olan maşın və texnikanın batalyona gətirilməsinə etiraz edib verməyənlər də olurdu.
1992-ci ilin yanvar-aprel aylarında ermənilərin Kəlbəcər ərazisinə bir neçə hücumunun qarşısını aldıq. Aprelin əvvəllərində Ermənistandan qalxan rus vertalyotları Kəlbəcərə hücum edərək televiziya qülləsini, Yellicə, Dikyurd, Ayrım, Söyüdlü sərhəd məntəqəsini və digər mövqelərimizi bombaladılar. Onları vurmaq üçün raketimiz yox idi. Avtomat və pulemyotlarla düşmən vertalyotlarına atəş açsaq da, onları məhv etmək mümkün olmadı. Bu döyüşdə ölən və yaralanan olmadı. Teleqüllə və digər obyektlər isə zədələnmişdi. Həmin vaxt Azərbaycanda demək olar ki, rus ordusu qalmamışdı. Onların alay və diviziyaları Azərbaycanın əksər bölgələrindən çıxarılaraq həm Dağlıq Qarabağda, həm də Ermənistanda yerləşdirilmişdir. Onlar ermənilərlə birlikdə mövqelərimizi tez-tez atəşə tutur, mühasirə vəziyyətində olan Kəlbəcər əhalisini təşvişə salırdılar.



*Kəlbəcər batalyonunun rabitə qurğuları. Döyüşçü: Rizvan Muxtarov 1992-ci il*

# *K ö n ü l l ü   d ö y ü ş ç ü l ə r*



***Kapitan Mehdiyev Kamil Əmirxan oğlu -“Spartak”***

1950-cii ildə Kəlbəcərdə anadan olmuşdur. Ali təhsilli həkimdir. 1991-ci ildən könüllü olaraq Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ bölgələrində erməni işğalçılarına qarşı çoxsaylı döyüş əməliyyatlarında iştirak etmişdir. Kəlbəcər Batalyonu və “Əfsanəvi Alay”ın tərkibində müxtəlif kəşfiyyat və partizan dəstələrinin yaradıcısı olmaqla, bir neçə döyüşdə və kəşfiyyat əməliyyatlarında bacarıqlı komandir kimi uğur əldə etmişdir. 1993-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



***Allahverdiyev Vahib Allahverdi oğlu***

1970-ci ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olmuşdur. 1991-ci ilin oktyabrında Ilk könüllü döyüşçü kimi Kəlbəcər Batalyonunun 3-cü bölüyündə tağım komandirinin müavini kimi xidmətə başlamışdır. Ağdərə, Laçın, Kəlbəcər bölgələrində gedən döyüşlərin iştirakçısıdır. 1992-cü ildə digər könüllülər kimi ordu sıralarından tərxis olunmuşdur.



***Cabbarov Fazil Yusif oğlu***

1969-cu ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildə könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlamış və özünü bacarıqlı kəşfiyyatçı kimi göstərmişdir. 1992-ci ilin may ayında Laçının Piçəniç kəndində ermənilərlə döyüşdə igidlik göstərmiş və həlak olmuşdur.



***Könüllü döyüşçülərdən Əfqan Ellaz oğlu***



***Vəliyev İbad Səfiyar oğlu***

1969-cu ildə Kəlbəcərin Qanlıkənd kəndində anadan olmuşdur. 1992-ci ildən ordu sıralarına çağırılmış, əvvəlcə 703-cü briqadanın, 1993-cü ilin aprelindən isə 701 saylı hərbi hissənin 5-ci taborunun tərkibində tağım və bölük komandiri kimi Ağdərə, Kəlbəcər və Murovdağ döyüşlərinin fəal iştirakçısıdır.

Murovdağ döyüşləri zamanı Meydançay ətrafında düşmənin darmadağın edilməsində komandirlik etdiyi tağımla igidlik göstərmişdir.1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



***Şirinov Fazil Allahverdi oğlu***

1969-cu ildə Kəlbəcərdə anadan olub.1986-cı ildə Bakı Ali ümumqoşun məktəbinə daxil olmuş və iki il oxumuşdur.1991-ci ildə Kəlbəcər batalyonunda tağım komandirinin müavini kimi xidmətə başlamış, yeni çağırılmış əsgərlərin döyüşə hazırlanmasında fəal iştirak etmişdir. Kəlbəcər,Laçın, Ağdərə, Murovdağ döyüşlərinin iştirakçısıdır.



***Cəmilov Vidadi Cəmil oğlu***

1971-ci ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildə Bədən Tərbiyəsi İnstitutunu bitirmiş və həmin ildən Kəlbəcər batalyonunda tağım komandirinin müavini kimi xidmətə başlamışdır. Laçın, Ağdərə Kəlbəcər, Murovdağ bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.



***Həşimov Əfqan Ellaz oğlu***



***Könüllü döyüşçülərdən Şükürov Qalib Əvəz oğlu***



***Kərimov Ülfət  Ələkbər oğlu***

1970-ci ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildə rus ordusunda hərbi xidmətdən qayıdan kimi, könüllü olaraq Milli orduda xidmətə başlamışdır. Bacarıqlı bir döyüşçü-kəşfiyyatçı kimi Laçın, Ağdərə, Kəlbəcər bölgələrində gedən döyüşlərdə iştirak etmiş, igidliyi və qoçaqlığı ilə seçilmişdir. 1993-cü ildə Kəlbəcərin Ağdaban kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək həlak olmuşdur. Orden və medalla təltif olunmuşdur.



***Könüllü döyüşçülərdən***
***Vəliyev Asif Səfiyar oğlu***



***İbrahimov Vahid Həmid oğlu***

1962-ci ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olmuşdur. Kəlbəcər Ağdərə və Laçın bölgələrində gedən döyüşlərin iştirakçısıdır. 1994-cü ildə Murovdağ döyüşləri zamanı həlak olmuşdur.



***Aydınov Rəfi Telman oğlu***

1970-ci ildə Kəlbəcərin Mərcimək kəndində anadan olmuşdur. 1992-ci ildən könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlamış və Laçın, Ağdərə, Kəlbəcər, Murovdağ döyüşlərində iştirak etmişdir. 1994-cü ilin yanvarında Murovdağ döyüşləri zamanı qəhrəmanlıq göstərərək həlak olmuşdur.



***Nadirov Nemət Əjdər oğlu***

1969-cu ildə Kəlbəcərin Daşbulaq kəndində anadan olub. 1991-ci ildən könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlayıb və Laçın, Ağdərə, Kəlbəcər döyüşlərində iştirak edib. 1992-ci ildə ordu sıralarından tərxis olunub.



***Süleymanov Şahin Ənvər oğlu***

1966-cı ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildə könüllü olaraq erməni işğalçılarına qarşı döyüşlərə qatılmış və Kəlbəcər Ağdərə, Murovdağ döyüşlərində iştirak etmişdir. 1994-cü ilin fevralında Murovdağ döyüşləri zamanı itkin düşmüşdür.



***Əhmədov Natiq Oruc oğlu***

1991-ci ilin oktyabrında Kəlbəcər batalyonunda könüllü döyüşçü kimi xidmətə başlamışdır. Kəlbəcər Ağdərə və Laçın bölgələrində gedən döyüşlərin iştirakçısıdır.



***Qasımov İslam İdris oğlu***

1991-ci ilin oktyabrında Kəlbəcər batalyonunda könüllü döyüşçü kimi xidmətə başlamışdır. Kəlbəcər Ağdərə və Laçın bölgələrində gedən döyüşlərin iştirakçısıdır. 1992-ci ildə ordu sıralarından tərxis edilmişdir.



***Rəhimov Ədalət Hidayət oğlu***

1970-ci ildə Kəlbəcərin Nadirxanlı kəndində anadan olub. 1991-ci ildən könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlayıb və Laçın, Ağdərə, Kəlbəcər döyüşlərində iştirak edib. 1992-ci ildə ordu sıralarından tərxis olunub.



***Cabbarov Şakir Köçəri oğlu***

1991-ci ilin oktyabrında Kəlbəcər batalyonunda könüllü döyüşçü kimi xidmətə başlamışdır. Kəlbəcər Ağdərə və Laçın bölgələrində gedən döyüşlərin iştirakçısıdır. 1992-ci ildə ordu sıralarından tərxis edilmişdir.



***Çərkəzov Qəhrəman Əhməd oğlu “Topçu Qəhrəman”***

1956-ci ildə Kəlbəcərdə anadan olmuşdur. 1991-ci ildə könüllü döyüşçü kimi Kəlbəcər batalyonunda xidmətə başlamış, Kəlbəcər uğrunda gedən döyüşlərdə topçu kimi iştirak etmişdir. “Topçu Qəhrəman” kimi tanınmış və komandiri olduğu top heyəti ilə düşmən toplarının, zirehli maşınlarının və xeyli canlı qüvvəsinin məhv edilməsində qoçaqlıq göstərmişdir. 1993-cü ildə ordu sıralarından tərxis edilmişdir.



***Bayramov Xəqani Ələkbər oğlu***

1973-cü ildə Kəlbəcərdə anadan olmuşdur. 1991-ci ildə Kəlbəcər batalyonunda xidmətə başlamış, Ağdərə, Laçın Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü ildə ordu sıralarından tərxis edilmişdir.



***Hüseynov Köçəri Əhəd oğlu***

1992-ci ilin fevralında Kəlbəcər batalyonunda könüllü döyüşçü kimi xidmətə başlamışdır. Kəlbəcər Ağdərə və Laçın bölgələrində gedən döyüşlərin iştirakçısıdır. 1992-ci ilin oktyabrında ordu sıralarından tərxis edilmişdir.



***Mustafayev Qalib Rəhim oğlu***

1971-ci ildə Kəlbəcərin Yuxarı Ayrım kəndində anadan olub. 1992-ci ildə rus ordusundan tərxis edilən kimi könüllü döyüşçü kimi Kəlbəcər Batalyonunda xidmətə başlayıb. "Şilka" mexaniki kimi Ağdərə döyüşlərində Çapar, Həsənriz, Qozdu körpü və digər kəndlərin azad edilməsində, Kəlbəcər uğrunda gedən müdafiə döyüşlərində iştirak edib. 1993-cü ildə ordu sıralarından tərxis olunub.



***Könüllü döyüşçü* Nuru**



***Kamalov Sənani Allahverdi o.***

1970-ci ildə Kəlbəcərdə anadan olub. 1992-ci ildən könüllü döyüşçü kim Kəlbəcər batalyonunda xidmətə başlamış və Laçın, Ağdərə, Kəlbəcər bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü ildə ordu sıralarından tərxis olunub.



***Könüllü döyüşçülərdən Raquf Müzəffər oğlu***



***Mehdiyev Mirzəli Yahya oğlu***

1969-cu ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildən könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlamış, Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ döyüşlərində iştirak etmişdir. 1994-cü ildə Murovdağ döyüşlərində itkin düşmüşdür.



***Dadaşov Firuz Qara oğlu***

1972-ci ildə Kəlbəcərin Laçın kəndində anadan olub. 1992-ci ildə Kəlbəcər batalyonunda könüllü döyüşçü kimi xidmətə başlayıb. Laçın bölgəsində-Hoçaz dağı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1995-ci ildə ordu sıralarından tərxis olunmuşdur.



***Könüllü döyüşçülərdən Səxavət***



***Leytenant Məmmədov Hafiz Qədim oğlu***

1971-ci ildə Kəlbəcərdə anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda oxumuş, 1993-cü ildə sonuncu kursda ikən Türkiyədə hərbi kursu bitirmiş və leytenant rütbəsində döyüşlərə göndərilmişdir. 1993-cü ilin aprelində Murovdağ uğrunda gedən döyüşlərdə itkin düşmüşdür.



***Abışov Ramiz Abdulla oğlu***

1969-cu ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildə könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlayıb. Döyüşçü-kəşfiyyatçı kimi Laçın, Ağdərə, Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmişdir.



***Salmanov Elman Telman oğlu***



***Rəhimov İlqar Ələmdar oğlu***
1971-ci ildə Kəlbəcərdə anadan olub. 1992-ci ilin fevralında könüllü döyüşçü kimi Kəlbəcər batalyonunda xidmətə başlayıb. Kəlbəcər, Laçın, Ağdərə, Murovdağ uğrunda gedən döyüşlərdə, xüsusilə kəşfiyyat əməliyyatlarında iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis olunub.



***Muxtarov İlqar İsmayıl oğlu***
1971-ci ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildə könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlamış, Laçın, Ağdərə, Kəlbəcər, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis edilmişdir.



***Könüllü döyüşçülərdən Əsgər***



***Könüllü döyüşçülərdən Məmmədov Qurban***



***Şahverdiyev Uğurlu Aydın oğlu***
1969-cu ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olub. 1992-ci ildə könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlamış və Laçın, Ağdərə, Kəlbəcər uğrunda gedən döyüşlərdə İştirak etmişdir. 1993-cü ilin may ayında ordu sıralarından tərxis olunmuşdur.



***Kamalov Ələsgər Sultan oğlu***
1971-ci ildə Kəlbəcərin Yellicə kəndində anadan olmuşdur. 1992-ci ildə Bədən Tərbiyəsi İnstitutunu bitirən kimi könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlamış və Kəlbəcər uğrunda döyüşlərdə iştirak etmişdir. 1993-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



***Könüllü döyüşçülərdən***
***Zabil***



***Könüllü döyüşçülərdən***
***Hümbətov İlqar Məmməd oğ.***



***Məmmədov Şəmsəddin Əli oğlu***

1969-cu ildə Kəlbəcərdə anadan olub. 1991-ci ilin oktyabrında Könüllü döyüşçü kimi Kəlbəcər Özünümüdafiə Batalyonunun 5-cü bölüyündə bölüyün baş çavuşu kimi xidmətə başlamış və Ağdərə, Laçın, Kəlbəcər bölgələrində gedən döyüşlərin iştirakçısıdır. 1993-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



***Traktorçu Hidayət Süleymanov***



***Nəcəfov Əli İsa oğlu***

1966-cı ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildə könüllü olaraq Ağdərə uğrunda gedən döyüşlərdə iştirak etmiş və qəhrəmanlıq göstərərək həlak olmuşdur. Milli Qəhrəman Yunis Nəcəfovun qardaşıdır.



***Əliyev Ələddin İsa oğlu***

1946 cı ildə Kəlbəcərdə anadan olub. 1992-ci ildə könüllü döyüşçü kimi Kəlbəcər batalyonunda xidmətə başlayıb. Kəlbəcər, Laçın, Ağdərəuğrunda gedən döyüşlərdə iştirak edib. 1994-cü ildə ordu sıralarından tərxis olunub.



***Məmmədov Oktay Surxay oğlu***

1971-ci ildə Kəlbəcərin Nəcəfalı kəndində anadan olmuşdur. 1991-ci ildə könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlamış və Ağdərə, Laçın, Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü ilin yanvar ayının 5-də Laçın rayonunun Haxnəzər kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur.



***Əliyev Rasim Talıb oğlu***

1970-ci ildə Kəlbəcərdə anadan olub. 1992-ci ilin fevralında könüllü döyüşçü kimi Kəlbəcər batalyonunda xidmətə başlayıb. Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1992-ci ilin yayında ordu sıralarından tərxis olunub.





***Bayramov Habil Ələkbər oğlu***



***Məlikov Natiq Səyavuş oğlu***

1962-ci ildə Kəlbəcəri Nadirxanlı kəndində anadan olmuşdur. 1992-ci ildə könüllü olaraq ordu sıralarına qatılmış və Ağdərə, Laçın, Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmiş, qoçaqlığı ilə seçilmişdir. 1993-cü ildə Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

***Hüseynov Vəli Məmməd oğlu***

1972-cü ildə Kəlbəcərin Keçiliqaya kəndində anadan olmuşdur. 1992-ci ildə könüllü döyüşçü kimi Kəlbəcər Batalyonunda xidmətə başlamış və Ağdərə, Murovdağ, Laçın, Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.

*Müharibədə ölüm-itim çox ola bilər. Silahsız əhalinin öldürülməsi isə soyqırımıdır. Soyqırımından da təhlükəli olan şey – həmin soyqırımı unutmaqdır. M ü ə l l i f*

# Ağdaban faciəsi

Kəlbəcər Batalyonu bölgənin həm Ermənistanla, həm də Dağlıq Qarabağla olan çox uzun sərhədini qorumaqda davam edirdi. Bu qədər böyük ərazinin müdafiəsini təşkil etmək-bir batalyon üçün çox çətin idi. Həm canlı qüvvə, həm də hərbi texnika çatışmırdı. Sərhəd kəndlərinin hərəsində bir tağım yerləşdirmidik. Bölük və tağımlar arasında əlaqə demək olar ki yox idi. 12 ədəd sərhəd məntəqəsində yerləşdirilmiş bölük və tağımlar bir-birləri ilə şəhər telefonları ilə əlaqə saxlayırdılar.

1992-ci il fevralın sonu və martın əvvəllərində Kəlbəcərdə xalq cəbhəsi üzvlərindən ibarət ikinci bir batalyon yaradılmışdı. Həmin batalyona İlham Həsənov komandirlik edirdi. Bu batalyonda heç bir qayda-qanun və nizam-intizam yox idi. Onlar Müdafiə Nazirliyi tərəfindən bizim btalyona ayrılmış avtomat silahlarla silahlanaraq müstəqil fəaliyyət göstərirdilər. Bütün bunlara baxmayaraq biz Kəlbəcərin müdafiəsində onlardan da istifadə etməyi lazım bilirdik. Çünki bizim batalyonun qüvvələri 100 kilometrdən çox ərazinin müdafiəsində durmaq üçün azlıq edirdi. Bakıdan gəlmiş 60 nəfərlik dəstə isə çoxdan geriyə-Bakıya çağırılmışdı.

Mart ayının sonu idi. Xalq cəbhəsi batalyonunun komandiri İlham Həsənov bizə müraciət edərək, Ağdaban, Söyüdlü, Mərcimək və Çərəkdar mövqelərinin onlara təhvil verilməsini xahiş etdi. Çünki Kəlbəcərin sərhəddi çox uzun olduğuna görə bizim batalyonun şəxsi heyəti və silahımız bəs etmirdi ki, bütün ərazini qoruya bilək. Komandir, qərərgah rəisi və mən məsləhətləşərək onların təklifi ilə razılaşdıq. Beləliklə Söyüdlüdəki Qaraqaya, Ağdaban, Çərəkdar və Mərcimək mövqelərini xalq cəbhəsi batalyonuna təhvil verdik. Bununla da biz əsasən Ermənistanla sərhəd olan mövqelərimizi möhkəmləndirdik. Ağdaban, Çərəkdar və Mərcimək kəndlərində olan bizim batalyonun əsgərlərini hər ehtimala qarşı, elə həmin kəndlərdə ehtiyatda saxladıq.

Aprel ayının 7-dən 8-nə keçən gecə ermənilər rus ordusunun qüvvələri ilə birlikdə Ağdabana hücum etdilər. Onlar əvvəlcədən kəşfiyyat apararaq Ağdaban yüksəkliyində xalq cəbhəsi batalyonu döyüşçülərinin keşikdə olmadığını yəqin etmiş və kəndi mühasirəyə almışdılar. Səhər açılanda isə kəndi güllləboran etmişlər. Bu xəbəri eşidəndə əvvəlcə inanmadıq. Çünki demək olar ki, hər gün bizə belə zənglər edilir, yalan məlumatlar gəlirdi. Biz məlumatı dəqiqləşdirdikdən sonra dərhal silahlandıq və maşınlara minərək Ağdabana yola düşdük.

*Döyüş zamanı qaçmaq axmaqlıqdır. Gülləyə fərqi yoxdur harana dəyəcək - sinənə yoxsa kürəyinə. D. A n d r a ş i*

Kəndə yaxınlaşmaq mümkün deyildi. Kənd alovlar içərisində idi. Kəndin aşağı tərəfindən köməyə gəlmiş maşın atəşə tutulmuş və 9 nəfər şəhid olmuşdu. Ona gərə də biz kəndə Çayqovuşan tərəfdən girməyin mümkün olmadığını bilərək, Bağırlı kəndi tərəfdən irəliləməyi lazım bildik. Bir neçə əlverişli yüksəkliyə çıxdıq və ermənilәri atəşə tutduq. Ermənilərin kəndi tərk etmək fikri yox idi, onlar evləri, Mal-qaranı, maşınları qarət edib daşımaqla məşğul idilər. Bizim atəşimizlə düşmən çaş-baş qalaraq, yeni mövqelər tutmağa çalışdı. Lakin qarətlə məşğul olduqlarından bizə müqavimət göstərə bilmədilər və itki verərək kəndi tərk etməyə başladılar. Bu döyüşdə leytenant H.Abbaovun komandanlığı ilə yüksəkliklərin birinə çıxarılan "Qrad" qurğusunun atəşi isə daha səmərəli oldu. Hücum əmri ilə yüksəklik və qayalıqlardan yavaş-yavaş enərək kəndə yaxınlaşırdıq. Ağdabana yaxınlaşdıqda kəndin tamamilə yandrıldığını və evlərin hələ də tüstüləndiyini gördük. Artıq saat 3 olardı. Biz kəndə daxil olanda ermənilərin törətdikləri vəhşilikləri görüb dəhşətə gəldik. Ermənilər gecə kəndi mühasirəyə almış, hətta kəndə gələn yeganə yolu nəzarətə götürmüşdülər. Ağdabanlıların köməyinə gələn 9 nəfərlik dəstə elə kəndin girəcəyində gülləboran edilmişdi. Cəmi 32 nəfər kənd sakini öldürülmüş, beş nəfər əsir aparılmışdı. Ermənilər qocalara, qadınlara, uşaqlara aman verməmiş, hətta səkkiz yaşlı qız uşağını yabaya sancmışdılar. Kəndin silahlı gəncləri öz atəşləri ilə əhalinin əksəriyyətinin Bağırlı kəndi istiqamətində mühasirədən çıxıb qaçmalarına kömək etmişdilər. Ağdabanın müdafiəsində qəhrəmanlıq göstərən Mahmud kişi (kənddə ona "Mamoy" deyirdilər) Aşıq Şəmşirin qəbrini özünə səngər seçərək, kənd əhalisinin əksəriyyətinin düşmən əlinə keçməsinin qarşısını almışdı. O özünün beşaçılan tüfəngi ilə erməniləri yaxına buraxmamış və bir neçə erməni başkəsənini sərrast atəşlə öldürmüş, bir addım da geriyə çəkilməmişdir. Ermənilərin və rusların birləşmiş 500 nəfərədək bir ordusu ilə təkbətək döyüşən Mahmud kişi bir saatadək onları yaxına buraxmamışdır. Məkrli düşmən onu mühasirəyə almış və arxadan həmlə etmişlər. Mahmud kişi qəhrəmancasına döyüşərək şəhid olmuşdu. Bu qeyri-bərabər döyüşdə Ağdabanlı gənclərdən də bir neçəsi erməni və rus işğalçılarına qarşı tək-tək orda-burda döyüşsələr də düşmən hücumlarının qarşısını ala bilməmişlər. Kəndi ələ keçirən ermənilər bütün evləri qarət etmiş, əhalinin mal-qarasını, avtomobillərini aparmış və evləri yandırmışdılar. Həmin gün Aşıq Şəmşirin evi və əlyazmaları da

yandırılmışdı. Ermənilərin Ağdaban kəndində törətdikləri bu vəhşiliklər nəinki cinayət idi, bu həm də xalqımıza qarşı növbəti **soyqırımı** idi.

Ermənilərin növbəti hücumunun qarşısını almaq üçün həmin gecə biz Ağdaban kəndinin bütün yüksəkliklərində öz əsgərlərimizi mövqelərdə yerləşdirdik. Onlara həmin gecə əlavə silah-sursat və ərzaq gətirdim, gecə olsa da bütün mövqeləri gəzdim, komandir və əsgərlərə lazımi tövsiyələr verdim, səhərədək onların yanında qaldım.



*Kəlbəcər batalyonunun ilk əsgərləri - İSTİSU-1992-ci il*

*Iradə zəif olanda , ən güclü ağıl belə bir qara quruşa dəyməz.*
A n a t l i   f r a n s

   

# Əfsanəvi Alayın tərkibində

May ayının əvvəlində Bakıdan Kəlbəcərə polkovnik Z.Rzayevin komandanlığı altında 701 saylı hərbi (adlar və nömrələr şərtidir) hissə gəldi. Onların gəlişinə hamımız - o cümlədən, bütün Kəlbəcərlilər sevinirdi. Çünki həm Kəlbəcərin qorunmasını daha yaxşı təşkil edəcək, həm də Ağdərənin azad olunması uğrunda döyüşlər aparacaqdıq. Həmin hərbi hissədə peşəkar zabitlərin olması da müsbət hal idi. Bununla yanaşı briqadanın iki ədəd zenit topu və 200 nəfərədək şəxsi heyəti var idi. Təchizatları isə bizim batalyondan aşağı səviyyədə idi.

Mən Bakıdan gələnləri 1-ci bölüyün otaqlarında yerləşdirməklə, ərzaq və yatacaqla təmin etdim. Bölüyün şəxsi heyətini isə sərhəd məntəqələrində yerləşdirdik. Həmin gün polkovnik Z.Rzayev batalyon komandiri kapitan Asif Süleymanovu, qərərgah rəisi baş leytenant Tahir Mehdiyevi və məni yanına çağırdı. O, Kəlbəcər Batalyonunda olan nizam-intizamı və yüksək səviyyədə təchizatı görüb, batalyonu 701 saylı hərbi hissəyə birləşdirmək qərarına gəlmişdi. Bizdən əvvəl isə Kəlbəcər Xalq cəbhəsi batalyonunun (844 saylı hərbi hisə) komandiri İlham Həsənova da bu təklifi etmiş, lakin rədd cavabı almışdı. O, bu təklifi bizə bildirdi. Polkovnik Z.Rzayev döyüş əməliyyatlarının aparılması üçün birgə fəaliyyət göstərəcəyimizi də əlavə etdi.

Biz–batalyon komandiri A.Süleymanov, qərərgah rəisi T.Mehdiyev və mən həmin gün polkovnik Z.Rzayevin birləşmə təklifini götür-qoy etdik. Fikirləşdik ki, ayrı-ayrı batalyonlarla, pərakəndə hərbi qüvvələrlə Qarabağ müharibəsində qələbə əldə etmək çətin olacaq. Torpaqlarımızın erməni və rus işğalçılarından qorunması naminə və vahid komandanlıq ilə fəaliyyət göstərmək məqsədi ilə 809 saylı Əlahiddə Batalyonu ilə 701 saylı hərbi hissənin birləşdirilməsini lazım bildik. Biz, yalnız, Qarabağın və o cümlədən, Kəlbəcərin müdafiəsi üçün birləşməyi məqsədəuyğun saydıq...

# Qərərgah İstisuya köçürülür

Polkovnik Z.Rzayev bizim razılığımızı aldıqdan sonra Bakıya - Müdafiə Nazirliyinə getdi. O, nazirlikdən Əlahiddə Batalyonun (Kəlbəcər Batalyonunun) ləğv olunması və onun bütün heyətlə hərbi hissənin tabeçiliyinə verilməsi barədə əmr gətirdi. Bakıdan qayıdan kimi polkovnik Z.Rzayev batalyon komandiri kapitan Asif Süleymanovu və qərərgah rəisi baş leytenant Tahir Mehdiyevi vəzifədən çıxararaq hərbi xidmətdən uzaqlaşdırdı. Onların yerinə özü ilə gətirdiyi mayor Zəfər Yaqubovu batalyona komandir, kapitan Balay Nəsibovu isə qərərgah rəisi vəzifəsinə təyin etdi. Mən polkovnikin bu qərarına etiraz etdim və ona dedim ki, Kəlbəcər batalyonunun yaradılmasında kapitan Asif Süleymanov və baş leytenant Tahir Mehdiyevin çox zəhməti olub, bunun üçün əziyyətlər çəkmişik, yuxusuz gecələr geçirmişik, səbəbsiz olaraq onları nə üçün çıxarırsınız? O isə heç bir səbəb gətirməyərək məni də çıxaracağı ilə hədələdi.

Bununla bərabər, 1992-ci il may ayının əvvəlində polkovnik Z.Rzayev bizim qərərgahı İstisuya köçürməyi əmr etdi. Mən bir neçə gün ərzində İstisu qəsəbəsində yerləşəcək batalyon üçün əvvəlcədən kurort-sanatoriya binalarında yer təşkil etdim. Bu günlər ərzində qərərgahı, ehtiyatda olan bölükləri və və bütün təchizat anbarlarını; ocümlədən silah-sursatı, ərzaq, əşya, texnika və digər avadanlıqları İstisuya köçürüb yerləşdirmişdim. Əsgərləri 1-ci və 2-ci sanatoriya binalarında, zabitləri isə 3-cü sanatoriya binasında yerləşdirdim.

Bir neçə gündən sonra İstisuda sanatoriya binasının qabağında səhər toplanışında polkovnik Z.Rzayev heç bir səbəb göstərmədən məni də batalyon komandirinin təchizat üzrə müavini vəzifəsindən azad etdiyini bildirdi və məndən soruşdu ki, orduda qalıb xidmət emək istəyirsənmi? Mən ona dedim: "Biz batalyonu yaratmışıq ki, torpaqlarımızı müdafiə edək. Bura vəzifə üçün gəlməmişik, rayon İcra hakimiyyətindəki vəzifəmi ataraq batalyonu təşkil etməyə və döyüşməyə gəlmişəm. Mənə tağım komandiri vəzifəsi də versən, yenə qalıb xidmət edəcəyəm". O, bir az fikirləşdikdən sonra mənə 2-ci bölüyin komandiri vəzifəsini təklif etdi və mən bu təkliflə razılaşdım. Bir neçə gün ərzində bütün əşya, ərzaq, yanacaq və digər şeyləri mənim yerimə təyin olunmuş leytenant Hüseyn Nəbiyevə təhvil verdim və ikinci bölüyü təhvil götürdüm. İstisu qəsəbəsində bölüklə təlimlərə başladım. Batalyon komandiri kapitan Asif Süleymanov və qərərgah rəisi baş leytenant Tahir Mehdiyev isə bir daha orduya qayıtmadılar.

<u>*Ölməz o adamdır ki, ondan sonra vətən üçün*</u>
<u>*böyük və faydalı yadigarlar qalır.* L. V o v e n a r q</u>

Bunlarla yanaşı batalyona əlavə olaraq zabitlər çağırılmış və müxtəlif vəzifələrə təyin edilmişlər. Onlardan Çingiz Bayramovu, leyt. Vaqif Məhəmmədovu, leyt. Vaqifi, leyt. Zamin Həmid oğlunu, baş leyt. Qurban Sarıyevi, baş leyt. Mürşüd Məmmədovu, gizir Kamal Hacıyevi, baş leyt. Ələkbər Bayramovu, gizir Şahin Bəxtiyarovu, leyt. İsa Hüseynovu və başqalarını göstərmək olar.

May ayının 9-da İstisuda ratsiya ilə məlumat aldıq ki, Qarabağın bel sütunu sayılan Şuşa şəhəri işğal edilmiş və Laçın uğrunda döyüşlər gedir. Şuşa şəhəri və ətraf kəndlərin ermənilər tərəfindən işğalı Azərbaycan üçün ən ağır itki idi.

Şuşanın ermənilər və ruslar tərəfindən işğalından sonra Laçın bölgəsinin taleyi bizi çox maraqlandırır, tez-tez Laçın Batalyonu ilə əlaqə saxlayır, vəziyyəti soruşurduq. Son günlər ratsiyada top mərmilərinin səsini aydın eşidirdik. Artıq 17 may 1992-ci il tarixdə ratsiya susdu, Laçın bölgəsi də ermənilər tərəfindən işğal edildi. Ermənilərin xalqımıza qarşı apardığı növbəti deportasiyalara Laçın əhalisi də məruz qaldı. Evləri yandırılan, özləri ölümlə üz-üzə qalan, Laçın əhalisinin bir hissəsi Kəlbəcər ərazisindən-Murov dağından-“Həyat yolu”ndan keçərək Azərbaycanın digər bölgələrinə köçürdülər. Bu zaman vahiməyə düşən Kəlbəcər əhalisindən də ərazini tərk etmək istəyənlər olurdu. Polkovnik Z.Rzayev və biz zabitlər əhalini sakitləşdirir, qorxulu bir şey olmadığını onlara izah edir, Kəlbəcəri qoruyacağımıza söz verirdik. Beləliklə biz həmin il Kəlbəcər əhalisinin köçməsinin qarşısını aldıq.

1992-ci ilin may ayında Batalyona yeni zabitlər çağırılmış və müxtəlif vəzifələrə təyin edilmişdir. Mənə icazə verildi ki, bölüyə zabit və gizirləri özüm seçim. Mən batalyon komandiri ilə razılığa gələrək baş leytenant Ramiz Əhmədovu müavin, leytenant Ziyafət Tağıyevi və gizir Arif Abbasovu tağım komandiri, gizir Şahin Bəxtiyarovu isə bölüyün baş çavuşu vəzifələrinə təyin etdim. Hər gün bölüyün zabit və gizirləri ilə əsgərləri İstisu qəsəbəsinin üst tərəfindəki dağa çıxarır, silahlardan istifadə qaydalarını onlara öyrədir, əsgərlərin hərbi hazırlığının və hərbi vərdişlərinin artırılmasına çalışırdım.

May ayının sonu idi. Yazın gəlişi İstisuda təzəcə hiss olunurdu. Təlimdən sonra könüllü döyüşçülərdən biri olan Əjdərlə yuyunmağa getmişdik. Sanatoriya binasının yaxınlığına çatanda qəflətən poliklinika binasının üst tərəfinə bir qrad mərmisi düşdü, qəlpələr yağış kimi ətrafımıza töküldü. Poliklinikanın və digər binaların pəncərə şüşələri çiliklənib yerə töküldü. Qara tüstü ətrafımızı bürüdü. Bir anlıq nə baş

verdiyini bilmədik. Qəfil atılan mərmi bizi çaşdırmışdı. Qrad haradan atılırdı, düşmənin məqsədi nə idi? Biz bunları düşünməyə macal tapmadıq. Birdən dalbadal bir neçə mərmi də sanatoriyanın üst tərəfinə, dağın yamacına düşdü. Qəlpələr dolu kimi ətrafımıza yağırdı. Biz qaçaraq qərərgaha gəldik. Artıq həyəcan siqnalı verilmiş, bütün əsgərlər silahlanmışdı. Qrad atəşi isə 20 dəqiqəyədək davam etdi. İtki olmamış, heç kəs yaralanmamışdı. Mərmilərin çoxu isti su mənbəyinin yaxınlığındakı dağ yamacına-qəsəbədən kənara düşmüşdü. Sonra biz Taxtadüz və Sarıyerə kəşfiyyat dəstəsi göndərdik. Axşam onlar heç bir məlumat əldə etmədən geri döndülər. Sonralar məlum olacaq ki, qrad mərmiləri ermənilər tərəfindən, Ermənistan istiqamətindən-düşmənin Arpaçay sahilindəki mövqelərindən atılmışdır.

Həmin gün günorta yeməyini yeyən vaxt yenidən həyəcan komandası verildi. Komandir məni çağırdı və bildirdi ki, ermənilər Keyti dağı istiqamətində hücum edərək qoyun sürülərini aparmağa cəhd edirlər. Mənə tapşırıq verildi ki, bölüklə köməyə gedim. Mən cəld əsgərləri silahlandıraraq maşınla Taxta düzə və oradan Keyti dağı tərəfə hərəkətə başladıq. Bir ədəd kiçik çaplı minaatan da götürmüşdük. Dağın 3-4 kilometrliyinə çatanda maşının mühərriki dayandı və yenidən işə salmaq mümkün olmadı. Biz minaatanı da götürüb piyada getməli olduq. Çayı keçməli idik. Körpü olmadığından çayı piyada keçdik. Çayın keçərkən ayağım sürüşdü və mən üz üstə çaya ylxıldım. Dizim daşa dəyərək yaralandı. Bütün paltarım islanmışdı, dizimdən isə qan axırdı. Əsgərlərin köməyi ilə cəld dizimi sarıdım və yenidən hərəkətə başladıq. Hadisə yerinə yaxınlaşanda əsgərləri döyüşə hazır vəziyyətə gətirərək dağların yüksəkliklərində mövqe tutmuş ermənilərə atəş açmaq əmri verdim. Düşmən çox deyildi, cəmi 10-15 nəfər olardı. Ermənilər bizim güclü atəşə və minaatan mərmilərinə tab gətirməyərək qoyun sürüsünü aparmağa macal tapmadan mövqelərini qoyub dağın o biri üzünə qaçdılar. Qoyun sürüsünü kəndlilərə təhvil verib geri qayıtmağa başladıq. Həm ac idik, həm də bərk yorulmuşduq piyada getmək mümkün deyildi. Artıq axşam düşmüşdü. Ratsiya ilə qərərgaha məlumat verdim. Vəziyyəti bildirdim və bizə maşın göndərilməsini xahiş etdim. Bir az aşağıya-Keyti dağının ətəklərinə tərəf endik. Komandirin göndərdiyi maşın gəldi və biz axşamdan xeyli keçmiş İstisuya-qərərgaha qayıtdıq...

*Komandirin ən vacib keyfiyyətlərindən biri qətiyyətlilikdir. Qətiyyət hər bir komandirdə olmalıdır. M ü ə l l i f*

# Aşağı Ayrımda 3 gün

May ayının axırları idi. Mən İstisuda bölüklə təlim keçir, əsgərlərin fiziki və atəş hazırlığına daha çox diqqət yetirirdim. Hər gün əsgərlərlə qəsəbənin arxasındakı hündür dağa qalxır atıcılıq və digər taktiki təlimləri orada aparır, əsgərlərin güllə atmağına daha çox diqqət yetirirdim. Əsgərlər isə döyüş vərdişlərini yaxşı mənimsəyir, artıq döyüşə getməyə hazır olduqlarını bildirir, nə vaxt döyüşə gedəcəklərini soruşurdular.

Bir gün komandir mayor Z.Yaqubov məni çağıraraq Ayrım və Alçalı kəndləri ilə Göyçə ilə sərhəddə ön mövqedə yerləşmiş 3-cü bölüyün ehtiyata çıxması ilə əlaqədar onların mövqelərini təhvil götürməyi əmr etdi. O, bildirdi ki, bu polkovnik Z.Rzayevin əmridir.

Mən axşamdan hazırlıq barədə bölüyə tapşırıqlar verdim. May ayının 21-də maşınlarla bölüyü Ayrım sərhəd məntəqəsinə gətirdim. Orada olan silah və sursatı tağım komandiri Sadıqov Habildən təhvil aldım və həmin gün Göyçə ilə həmsərhəd ön mövqeləri gəzdim. Göyçə yalı deyilən aşırımda ön mövqedə üç keşikçi məntəqəsi yaratdım və gecə-gündüz daimi olaraq keşikdə durmaq üçün əsgərləri dəstələrə böldüm. Həmin əraziləri yaxşı tanıdığımdan, düşmənin haradan hücum edəcəyini, düşməni harada qarşılayacağımızı yaxşı bilirdim və keşikçi məntəqələrini yerini də müəyyən etməkdə çətinlik çəkmədim.

Hələ uşaq ikən yaşlı kişilərinin söhbətlərindən 1905-ci ildə və 1918-ci ildə ermənilərin Göyçə mahalına və Kəlbəcərə hücum etdikləri zaman babalarımız həmin Göyçə yalı adlanan yerdə səngər qazaraq düşməni ağır itkilərə məruz qoyduqlarını eşitmişdim. Onlar danışırdılar ki, ermənilər göyçə yalına top çıxarmış, oradan Kəlbəcəri və ətraf kəndləri atəşə tutur, oradan Qarabağa keçməyə can atırdılar. Kəndin yeniyetmə igidləri öz sərrast atəşləri ilə düşmənin bir neçə əsgərini və topçularını vurmuş və düşməni Göyçə mahalının içərilərinə-Basarkeçərə qədər-geriyə çəkilməsinə nail olmuşlar. Güllələri qurtardıqdan sonra Məşədi Cəmilin rəhbərliyi və biləvasitə iştirakı ilə laçınlı Sultan bəydən silah-sursat alıb gətirmişlər və Kəlbəcər torpağını qorumuşlar. Hətta deyirdilər ki, Sultan bəy öz mauzerini Məşədi Cəmilə bağışlamışdı...

Hər gün əsgərləri ön mövqeyə çıxarır, növbəni dəyişdirir, eyni zamanda təlim keçirdim. Atəş açmaq qaydalarını əsgərlərə öyrədir, minaatanlardan, onun mərmilərindən istifadə qaydaları ilə əsgərləri tanış edirdim. Bundan başqa əsgərlərin fiziki hazırlığını artırmaq məqsədi ilə onlar arasında qaçış və müxtəlif idman yarışları da təşkil edirdim. Hər

səhər saat 6-da əsgərləri yuxudan qaldırır, 3-4 kilometr məsafədə maşın yolu ilə Yuxarı Binə kəndinə qədər qaçırır, sonra buz kimi bulaq suyunda yuyundururdum.

Biz Aşağı Ayrımda üç gün qaldıq. Mən buradakı mövqeləri yerbəyer etdikdən sonra komandirin tapşırığı ilə sağ cinahdakı Alçalı mövqelərini də təhvil götürmək istəyirdim. Mayın 24-də komandir zəng edərək məni bölüklə birlikdə geriyə-İstisuya çağırdı. Əvvəlki bölük yenidən Aşağı Ayrıma qaytarılırdı. Göndərilən maşınlarla mən üç gün əvvəl təhvil götürdüyüm silah-sursat və ərzağı yenidən 3-cü bölüyə təhvil verərərək, əsgərlərlə bərabər İstisuya-qərərgaha qayıtdım. Bu qayıdış, əlbəttə mənim ürəyimcə olmadı, lakin nə etməli, əmrə tabe idik.

İstisuya qayıtdıqdan sonra yenə də əsgərlərin təlimləri ilə məşğul olurdum. Bir neçə gündən sonra komandir bildirdi ki, mənim bölüyümü ən çətin mövqe hesab edilən Sarıyer yaylağına göndərəcək. Beləliklə komandiri olduğum 2-ci bölüklə məni ən çətin mövqelərimizdən biri olan Sarıyerə göndərməyi qərara aldılar. Bununla əlaqədar biz bir neçə gün maşınlarla Sarıyer yaylağına gedir, orada əvvəlcədən müəyyən olunmuş yerdə səngərlər qazırdıq...



*Kapitan Ələkbər Bayramov(solda) –Murovdağ-1994-cü il*

*Hərbi hissənin gücü onun komanda heyətindən asılıdır.*

*M ü ə l l i f*

# Sarıyer yaylağında

14 iyun 1992-ci ildə bölüklə Taxta sərhəd məntəqəsinə, oradan da Sarıyer yaylağına köçdük. Bölüyü dağlara-20 km yaşayış məntəqələrindən uzağa çıxarmaqda məqsəd Sarıyer yaylağını və Aran bölgələrindən yaylağa gələn qoyun sürülərini və çobanları mühafizə etmək idi. Əvvəlcədən bir neçə gün ərzində səngərləri qazıb hazırlamışdıq.

Hündür bir dağın ətəyində, Sarıbulağın yanındakı çəmənlikdə çadırımızı qurduq. Əvvəlcədən qazılmış səngərlər taktiki cəhətdə əlverişli olmadığı üçün bu barədə komandirə məlumat verdim və mən həmin hündür və taktiki cəhətdən əlverişli olan dağın zirvəsində yenidən səngərlər qazdırdım və üç keşikçi məntəqəsi təşkil etdim. Səngərlərlə çadır arasında və çadırla İstisu qəsəbəsi-batalyon qərərgahı arasında telefon xətti çəkdirdim. Rabitə rəisi leytenant Orucov Seyfəli telefon çəkilişinə rəhbərlik edirdi. Bundan başqa bizim ratsiyamız da var idi.

Hər gün əsgərlərə silah-sursatdan istifadə edilməsi, minaatanlardan, qumbaraatanlardan, atıcı silahlardan, minalardan istifadə edilməsini öyrədir, güllə və daraqların yağışdan necə qorumalarını başa salır, taktiki hazırlıq hərbi təlimləri keçirdım. Bundan başqa əsgərlərin fiziki hazırlığına ciddi fikir verir, tez-tez həyəcan siqnalı verir onların səngərlərə neçə dəqiqəyə çıxa bilmələrini məşq edirdik. Bununla yanaşı hər bir əsgərin həyəcan siqnalı zamanı hansı mövqeyə çıxacağını, nə etməli olacağını əvvəlcədən təyin etmiş, döyüş baş verəndə onların bir-birinə mane olmadan hərəkətlərini bildirirdim. Ermənilər həm Göyçə tərəfdə, həm də Arpa çayının sağ sahilində mövqe tutmuşdular. Mən durbinlə müşahidə aparır, Sarıyer yaylağına düşmənin haradan hücum edəcəyini müəyyən etməyə çalışırdım. Onların Arpa çayı üzərində bir topu, bir qrad qurğusu, bir PDM-i görünürdü. Özüm bir neçə əsgərlə kəşfiyyat apararaq düşmənin silahı, texnikası və təqribi sayı barədə komandirə məlumat verdim və bizə artilleriya köməyi göstərməyi xahiş etdim. Çünki bizim mövqeyimiz digər bölüklərdən və yaşayış məntəqələrindən 20-25 kilometr aralıda yerləşirdi. Düşmən hücum etsəydi özümüzdən başqa heç kim bizə kömək edə bilməyəcəkdi. Kömək 3-4 saatdan tez bizim yanımıza çata bilməzdi. Bu isə çox gec ola bilərdi. Ən təhlükəli hesab etdiyim isə düşmən vertalyotları idi. Onları vurmaq üçün heç bir silahımız yox idi. Bir neçə gündən sonra komandir bizə kömək üçün “Kristal” raketini göndərdi. Bundan başqa bölüyün iki ədəd 82 və 60 millimetrlik minaatanı da var idi. Hava hücumundan müdafiə

üçün isə bizim heç bir silahımız yox idi.

Biz əsgər və zabitlər hamımız Sarıbulağın yanında çəmənlikdə qurduğumuz çadırda qalırdıq. Çadırda 10 ədəd ikimərtəbəli çarpayı yerləşdirmişdik. Bu isə üç əsgərə-bir çarpayı demək idi. Əsgərlər növbə ilə yatırdı. Bundan başqa bütün silah-sursatımız, ərzağımız da çadırda idi. Yağış yağanda çadırda tərpənməyə imkan olmurdu. Sobanı yandırır, paltarlarımızı qurudurduq. Yeməyimizi dizel yanacağı ilə işləyən səyyar mətbəxdə hazırlayırdıq. Bir ədəd QAZ-66 markalı maşınımız var idi ki, onunla həm ərzaq və sursat gətirir, həm də odun daşıyırdıq.

Mən hər gecə mövqeləri yoxlayır, əsgərlərə ayıq-sayıq olmağı tapşırırdım. Vertalyot hücumundan və artilleriya mərmilərindən qorunmaq üçün çadırın ətrafında hər bir əsgər üçün səngərlər qazdırdım. Hər vaxt düşmən hücum edə bilərdi. Keçən il ermənilər qəflətən hücum edərək burada bir neçə nəfər polisi və dinc əhalini öldürmüş, qoyun sürülərini aparmışlar.

Sarıyer yaylağında yayda havalar sərin keçir. Yay olmasına baxmayaraq, axşam, səhər və gecələr əsgər gödəkçələrini geyinməyə məcbur olurduq. Hər səhər əsgərlərlə idman edir, Sarıbulağın buz kimi suyunda qurşaqdan yuxarı yuyunurduq. Bölük komandirinin müavini baş leytenant Ramiz Əhmədov, tağım komandiri leytenant Ziyafət Tağıyev və bölüyün baş çavuşu gizir Şahin Bəxtiyarovla əsgərlərin təlimləri ilə məşğul olur, tez-tez əsgərlərin döyüş hazırlığını yoxlayır, hərbi təlimlər təşkil edir, silah və sursata baxış keçirirdim. Həyəcan siqnalı zamanı hər bir əsgərin harada səngər tutmasını, haradan ön mövqeyə çıxmasını və döyüşün aparılması qaydalarını dəqiqliyi ilə onlara öyrədir, atıcılıq yarışları təşkil edirdim.

Bir tərəfi Sultan Heydər, bir tərəfi Dik Pilləkən, digər tərəfi Keyti-Mehdi dağları ilə əhatələnmiş Sarıyer yaylağı mənzərəli, göz oxşayan, əvəzsiz bir yaylaqdı. Hər il bu yaylaqda Azərbaycanın 28 bölgəsinin bir milyon baş qoyunu bəslənirmiş. Çobanlardan biri söhbət edir ki, Qarabağ xanı Mehdiqulu xan da hər il Sarıyerə yaylağa gələrmiş. Hətta bir dəfə çobanlardan biri Mehdiqulu xanın pəhləvanını yıxıbmış...

Həmin il Ağdərə yolu ermənilərdən azad edildiyi üçün Sarıyer yaylağına Bərdə və Beyləqanın qoyun sürüləri gətirilmişdi. 4 il əvvəl Ağdərədən Kəlbəcərə gedən yolları ermənilər bağladığı üçün heç bir yerdən bu yaylağa gələn olmamışdır. Dörd ildən sonra təhlə-tərəkəmə elləri yenidən sarıyer yaylağına qayıdırdı. Digər rayonların tərəkəmə-

təhlələri ehtiyat edərək gəlməmişdilər. İndi boş qalmış həmin yurd yerıəri-arxac yerləri qaralırdı. Gəlinqaya, Qaraarxac, Gülü düzü, Xanım dərəsi, Sarıyer, Alagöllər, Sərçəlidağ, Qırmızıdağ, Keyti-Mehdi və digər yurd yerləri boş qalmışdı. Başından qonaq-qarası əskik olmayan Ceyran bulağı, Küpə bulaq, Ağbulaq, Sarıbulaq, Yüzbulaq, Məftilli bulaq da elə bil bu təklikdən bezmişdi. Elə bil ki, at belində gəlin aparan, qara zurnanın səsinə yallı gedən, cıdıra çıxan, çövkan və çomaq oynadan təhlə-tərəkəmə dəliqanlıları çoxdan unudublar Sarıyeri...

Ətrafda dağların quzey yamaclarında hələ əriməmiş qar qalmışdı. Çobanlar tez-tez bizə ət göndərirdi. Çörək və digər ərzaqları isə batalyondan gətirirdik. Bərdə təhlələrindən Əlizamin, Fərəc, Fərzalı və başqaları, həmçinin Zar kəndindən İsmayıl kişi, Mürvət, Ellaz kişi və başqaları da Sarıbulağın yaxınlığında çadır qurmuşdular. Onlar çox vaxt bizim yanımıza gəlir, çatışmamazlıqlarla maraqlanır, söhbət edir, maşın olmayanda öz atlarını əsgərlərə verir ki, gedib İstisudan çörək gətirsinlər. Odun qurtaran kimi leytenant Z.Tağıyevlə iki-üç əsgəri maşınla meşəyə göndərirdim. Yeməyimizi əsgərlərdən İbrahimov Kamal və Məhərrəmov Zabil hazırlayırdılar.

Çadırda darısqallıq idi. Həm komandirlər, həm də əsgərlər çadıra sığışmırdıq. Buna görə də bir neçə gündən sonra komandirə məlumat verərək bir ədəd ekskvatorun lazım olduğunu bildirdim. Həmin gün komandirin göndərdiyi ekskvatorla həm səngərlərimizi genişləndirdim, həm də Sarıbulağın yanında əsgərlər üçün qazma tikdirdim. Meşədən ağac gətirib qazmanın üstünü örtdük və əsgərləri ora köçürdük, biz zabitlər isə rabitəçi əsgərlərlə əvvəlki kimi çadırda qaldıq.

Boş vaxtlarımız demək olar ki az olurdu. Mən mümkün qədər əsgərlərin darıxmaması üçün də tədbirlər görürdüm. Əsgərlərin qarmonu var idi. Boş vaxtlarda gizir Ş.Bəxtiyarov qarmon çalır, əsgərlər oxuyub, oynayırdı. Bəzən çobanlar da bizə qoşulurdu. Tez-tez əsgərləri İstisuya hamama göndərirdim. Bir dəfə özüm də İstisuya enmişdim. Komandirimiz polkovnik-leytenant Eldar Həsənovla və zabit yoldaşlarla görüşüb söhbət etdik. Baş leytenantlar Sarıyev Qurban, Mirzəliyev Akif, Yusifov Yusif, Nəbiyev Hüseyn və digərləri ilə oturub yemək yedik. Qurbanla Yusif öz zarafatlarından qalmır, digər yoldaşlar və onların aşlarına gələn məzəli əhvalatlardan danışırdılar. Onlar hətta, hər kəsə bir ləqəb qoşaraq gülməli bir şer də yazmışdılar...

* * *

Sarıyerdə bizim mövqelərə ermənilər dəfələrlə hücum etmiş, səngərlərimizi top atəşinə tutmuş, lakin əsgərlərimizin qoçaqlığı, sayıqlığı

<u>*Qəhrəmanlıq heç vaxt qabaqcadan düşünməklə əldə edilmir.*</u>
<u>*Qəhrəmanlıq bir anda baş verir. M ü ə l l i f*</u>

və müdafiə döyüşünün düzgün təşkil edilməsi nəticəsində düşmən istəyinə nail ola bilməmişdi.

...İyun ayının sonu idi. Mən əsgər Məmmədlə kəşfiyyata getmişdim. Məqsədim düşmənin Arpaçay sahilindəki ön mövqelərini və düşmən artilleriyasının yerini müəyyən etmək və hədəfləri dəqiqləşdirmək idi. Səhərəyaxın yuxudan qalxdıq və səngərlərimizə doğru dırmaşdıq. Səngərdəki əsgərlərə bir sıra tapşırıqlar verdim, bizi izləməyi və diqqətli olmalarını bildirdim. Sonra qabağa keçərək bir qədər sola döndük və Sərçəlidağın ətəklərinə yaxınlaşdıq. Ora çatanda artıq səhər açılmış, dərələrdəki çən-duman çəkilib getmişdi. Biz Arpaçayın sol sahilindəki çox da hündür olmayan bir dağın üstünə qalxırdıq. Dağın zirvəsinə çatmamış qulağımıza maşın səsi gəldi. Səs dağın o biri üzündən gəlirdi. Elə bil maşın dağa qalxır, bizə tərəf irəliləyirdi. Ani olaraq fikirləşdim ki, düşmən bizdən tez dağın yüksəkliyinə çatsa məhv olarıq. Çünki, düşmən bizdən yüksəkliyə çıxsa, bizim heç bir gizlənmək və geriyə çəkilmək imkanımız olmaz, ovuc içi kimi görünən çökəklikdə qalardıq. Ona görə də mən tez “düşməni qabaqlayaq, dağın üstünə qalxaq”-dedim və Məmmədlə bərabər səs gələn tərəfə qaçmağa başladıq. Dağın üstünə çatıb uzandıq və Arpaçaya doğru uzanan yola baxdıq. Maşın və ya adam görünmürdü, səs də kəsilmişdi. Mən ətrafa diqqətlə baxmağa başladım. Birdən sağ tərəfimizdə bizdən təqribən 800-900 metr məsafədə, dərənin ayağında bir yük maşını və onun yanında 5-6 erməni gördük. Bizim tamamilə açıqlıqda uzanmağımıza baxmayaraq. onlar bizi görmürdülər. Düşmənə buradan da atəş açmaq olardı, lakin özümüzün mövqelərimizdən xeyli uzaqlaşmışdıq. Atəş açmaqla dümənin ehtiyat qüvvələrini ayağa qldıraraq burada məhv olardıq. Çünki səngərlərimizdə iki-üç kilometr uzaqlaşmışdıq. Ona görə biz sürünərək geriyə çəkilmək və xırda təpəliyin arxasından onlara yaxınlaşmaq istədik. Bir az geriyə çəkildik və ön mövqelərdəki əsgərlərini də xəbərdar etdik. Keşikdəki əsgərlər də düşmənləri görmüş və həyəcan siqnalı ilə bütün bölüyü səngərlərə qaldırmışdılar. Bizim səngərlərlə düşmənlərin arası 1500-1800 metr olardı. Mən Məmmədi göndərərək iki əsgərlə yanıma qayıtmasını və digər əsgərlərin bizi izləməsini tapşırdım. Məqsədim görünməyən yerlə düşmənin sağ cinahına keçmək və onlara daha da yaxınlaşmaq idi. Məmmədlə əsgərlər 20 dəqiqəyə gəldilər və biz xirda təpəliyin görünməyən tərəfi ilə düşmənin olduğu yerə yaxınlaşmağa başladıq.

Sürünə-sürünə sağ tərəfdəki təpənin başına çatdıqda ermənilərin maşına doluşaraq qaçmaq istədiyini gördük və qəfil atəşlə onları

*Hərbi işdə təsadüflər böyük qüvvəyə malikdir.*
*Bir alman generalı*

haqladıq. Yəqin ki, ermənilər bizim əsgərlərin çınqıllıqda gizlənmələrini görmüşdülər. Maşını atəşə tutduq. Məsafə 500-600 metr olardı, əsl avtomat mənzili idi. Leytenant Z.Tağıyevin tağımı isə uzaqdan-çınqıllıqdan atəş açmağa başladı. Yük maşınının üstündəki ermənilərin güllləboran etsək də maşını dayandıra bilmədik. Maşın təpənin arxasına keçib görünməz oldu. Mən əsgərlərə öz səngərlərimizə çəkilmək əmri verdim və biz boşalmış daraqları güllələrlə doldura-doldura yavaş-yavaş səngərlərimizə qayıtdıq. Əsgərlərin hamısına və leytenant Z.Tağıyevə təşəkkür etdim.

* * *

İyunun 30-dan 31-nə keçən gecə idi, saat iki olardı. Birinci və ikinci keşikdə atəş səsləri eşidildi. Səngərdəki telefon susurdu, üçüncü keşiyin əsgərləri isə təpənin sol tərəfində olduğu üçün nə baş verdiyini bilmirdilər. Mən onlara öz yerlərindən tərpənməməyi tapşırdım və dərhal həyəcan siqnalı ilə əsgərləri qaldırdım və dörd dəstəyə bölərək təpənin üstündəki və sağ tərəfdəki qayalara tərəf-əvvəlcədən müəyyən edilmiş mövqelərə tərəf qaçdıq. Leytenant Z.Tağıyevlə iki əsgəri isə çadırda saxladım ki, patron və mərminin ön mövqeyə daşınmasını təşkil etsinlər. 6-7 dəqiqəyə biz əvvəlcədən müəyyən edilmiş müdafiə mövqelərinə çatdıq. Birinci keşikçi mövqeyinin qarşısında-dağ yamacındakı qayalıqdan avtomat və pulemyotlarla bizi atəşə tutmuşdular. Hərdən qumbaraatan mərmiləri də bizim mövqelərdə partlayırdı. Mən komanda verərək pulemyot və avtomatlarla atəş açmağı və atəşin arasını kəsməməyi əmr etdim. Cavab atəşindən sonra düşmən bir qədər sakitləşdi. Amma döyüş dayanmadı. Mən iki əsgərlə gecə qaranlığında ikinci keşiyə doğru yaxınlaşırdım. Orada bizim əsgərlərdən heç kəs olmadığından atəş açılmırdı. Güman etdim ki, yəqin düşmən səngəri ələ keçirib, oranı tutub. Sürünə-sürünə səngərə tərəf yaxınlaşırdıq. Lakin səngərə çatanda məlum oldu ki, bizim əsgərlər orada yoxdur, səhra telefonu isə yerində idi. Yəqin etdim ki, düşmən kəşfiyyatı əsgərləri tutub aparıb. Zəng edib çadırda qalan leytenant Z.Tağıyevlə danışdım ki, batalyona məlumat versin. O isə bildirdi ki, ikinci keşiyin əsgərləri Kamal və Valehin patronları azaldığı üçün çadıra gəliblər. Onların dediyinə görə, guya birinci keşikdəki əsgərlərdən Cümşüdü vurublar, digər əsgəri-Şahvələdi isə əsir aparıblar. Onların sağ-salamat olmağı məni bir az sakitləşdirdi. Zəng edib sol cinahdakı keşikçilərlə də danışdım. Göndərdiyim əsgərlərin ora çatdığını dedilər. Bütün əsgərlərə əmr etdim ki, son 30 gülləni saxlasınlar. İki saat davam edən döyüşdə patronumuz

azalmışdı. Amma Cümşüdün PK pulemyotu susmurdu. Düşmən hücumumum qarşısını aldıq. Saat dörd olardı artıq döyüş dayanmışdı. Heç kəs yaralanmadı. Mən səhərədək səngərdə əsgərlərin yanında qaldım. Yağış yağdığı üçün paltarımız tamamilə islanmışdı.

Səhər açılanda düşmən çəkilib getmişdi. Mən iki əsgərlə düşmənin hücum etdiyi qayalıq və dağ yamaclarını gəzdim. Döyüş meydanından avtomat daraqları, əl qumbaraları tapdıq. Iki yerdə otların üstündə xeyli laxtalanmış qan var idi. Yəqin ki, düşmən itki vermişdi. Ön mövqelərə əlavə əsgərlər qoyaraq qalan əsgərlərlə çadıra qayıtdım. Batalyon komandiri ilə danışdım və döyüş barədə bir daha məlumat verdim. Komandirdən əlavə olaraq əl pulemyotu və patron istədim.

Səhər yeməyindən sonra əsgərləri cərgəyə düzüb onlara təşəkkür etdim. Döyüşdə fərqlənən əsgərlərə - Şahbəndəyev Cümşüd, Abdullayev Etibar, Musa, Bəxtiyarov Qahir, Zeynalov Qələndər, Vüqar, Hüseynov Xəqani, İsmayılov Adil, Məhərrəmov Zabil, Xəlilov İlham, Qasımov İsmət, Atayev Famil, Məmmədov Elçin, Pərviz, Məmməd, Sarıyev Fariz, Seyidov Fariz, Şahnəzərov Əli, Sarvan, Ramiz, Allahverdiyev Binnət, Şahvələd, Hüseynov Qərib, Hümbətov Eldar, Şükürov Nemət, Abbasov Mahir və digərlərinə qoçaqlıq göstərdikləri üçün təşəkkür etdim, manqa komandirlərinə isə növbəti hərbi rütbə elan etdim. Kamalla Valehi isə döyüş mövqeyini özbaşına tərk etdikləri üçün danladım. Sonralar leytenant Z.Tağıyev və əsgərlər bu əhvalatı yada salıb gülürdülər...

* * *

Bir neçə gündən sonra ermənilər bizim mövqeləri yenidən top atəşinə tutdular. Top Arpaçayın sağ sahilindəki erməni mövqelərindən atılırdı. Mərmilərdən birincisi ön səngərin yaxınlığına-1-ci keşikçi mövqeyinin qabağına-düşmüşdü. Orada olan əsgərlərdən Elçin Məmmədova və İsmət Qasımova qəlpə dəyməmişdi. Bütün əsgərlərə ön mövqedə öz yerlərini tutmaq üçün əmr verdim. Daha dəqiq məlumat almaq üçün səhra telefonu ilə 3-ci keşikçi məntəqəsinə zəng etdim və düşmənin canlı qüvvəsinin hücuma keçib-keçməməyini soruşdum. əsgər bildirdi ki, düşmən hücum etmir, ancaq uzaqdan top atır. Düşmənin fikrini bilmək hər bir komandir üçün ən vacib şərtlərdən biridir. Buna görə də səngərə qalxmaq və düşmənin top atəşlərini izləmək lazım idi. Mərmilərin bəzisi səngərdən 50-60 metr qabağa düşür, bəzisi isə başımızın üstündən vıyıltı ilə keçərək mövqelərimizdən xeyıi arxada partlayırdı. Mən düşmənin hücum etmədiyini, ancaq uzaqdan top atəşi ilə mövqelərimizi atəşə tutduğunu yəqin etdikdən sonra “Kristal” raketi və

minaatanlarla onlara tərəf atəş açmaq əmri verdim. 5-6 atəşdən sonra düşmən susduruldu. Ölən və yaralanan olmadı. Itki vermədik. Döyüşdən sonra top mərmilərinin düşdüyü yerləri nəzərdən keçirdim. Əsgərlər səngərin içərisindən top mərmisinin qəlpələrini tapıb gətirdilər. Qəlpələr əsgərlərə dəyməmişdi.

Döyüşün nəticəsi barədə batalyon komandirinə məlumat verdim. Raketçilərdən Şükürov Nemət, Həsənov İlqar, Hümbətov Eldar və digərləri qoçaqlıq göstərdikləri üçün onlara təşəkkür etdim.

Ikinci mövqeyə qalxıb minaatanlara və onların mərmilərini yoxlayarkən məlum oldu ki, mərmilərdən 3 ədədi əskikdir. Mən əsgərlərdən soruşsam da heç kəs boynuna almadı. Sonra əsgər Musa yanıma gələrək minaatanla erməni mövqelərinə atəş açdığını dedi. Sən demə Musa icazə almadan ermənilərin mövqelərini minaatanla atəşə tutduğu üçün onlar da bizim mövqelərimizi top atəşinə tutublar...

İyul ayının əvvəlləri idi. Bir neçə gün idi ki, hər gecə qalın duman çökürdü. Belə dumanda hətta ayağımızın altını da görmək belə mümkün olmurdu. Həmişə əsgərlərə tapşırırdım ki, belə vaxtlarda daha ayıq-sayıq olsunlar. Çünki düşmən kəşfiyyatı belə havada fəallıq göstərir, səngərlərimizə yaxınlaşmağa cəhd edirlər. Yenə də dumanlı bir gecə idi,. Gecə yarıdan keçmişdi, saat 3 olardı, 3-cü keşikdə güllə səsləri eşitdim. Elə bu vaxt telefon zəng çaldı. Qasımov İsmət və Ağalarov Sarvan orada keşik çəkirdilər. Sarvan telefonla bildirdi ki, sol cinahdan, Sərçəlidağ istiqamətindən mövqelərimizə tərəf adamların yaxınlaşdığını görüblər. Duman seyrələn vaxt gecənin qaranlığında kölgələrin göründüyünü bildirdilər. Mən onlara həmin ərazini atəş altında saxlamağı əmr etdim və “Həyəcan” - komandası ilə əsgərləri qaldırdım. Əvvəlcədən müəyyən etdiyimiz mövqeləri tutduq. Ermənilər 3-cü keşiyin qarşı tərəfindəki Sərçəlidağ istiqamətindən mövqelərimizi atəşə tutmuşdular. Dumanda güllələrin haradan atıldığını müəyyən etmək çətin idi. Buna baxmayaraq mən arasıkəsilmədən atəş açmağı əmr etdim. Bir saata yaxın döyüşdə düşməni mövqelərimizdən uzaqlaşdırdıq. Güllələrimiz azalmışdı, düşmən yenidən hücuma keçə bilərdi. Telefonla çadıra-leytenant Z.Tağıyevə zəng etdim ki, bizə patron göndərsin. Bir azdan əsgərlər patron gətirdilər.
Səhərəyaxın atəşi dayandırmaq əmri verdim. Artıq düşmən çəkilib getmişdi. Səhərədək əsgərlərin yanında qaldım. Hava işıqlananda ətrafı nəzərdən keçirdim. Səngərdən 6-7 metr aralıda ermənilərin patronla dolu bir avtomat darağını tapdıq və ayaq izlərindən məlum oldu ki, düşmən kəşfiyyatı bizim səngərlərə yaxınlaşırmış. Əsgərlərimiz sayıqlıq göstərəndə isə məqsədlərinə nail olmayaraq geriyə çəkilib uzaqdan

*Qələbə sevinci insana allah tərəfindən verilən ən gözəl nemətlərdən biridir. Bu nemətin dadını sözlə ifadə etmək çətindir, gərək onu özün dadasan. M ü ə l l i f*

mövqelərimizi atəşə tutublar. Lakin əsgərlərin qoçaqlığı nəticəsində heç bir itki vermədən düşməni mövqelərimizdən uzaqlaşdırdıq...

1992-ci il iyul ayının 11-də-yayın ortasında Sarıyerə qar yağdı. Yayın ortasında yağan qar çadırımızı az qala üstümüzə çökdürəcəkdi. Axşamdan yağan qar dayanmaq bilmirdi. Mən keşikçilərin bir saatdan bir dəyişdirilməsini əmr etdim və səhərədək yatmadım. Səhər açılanda hər tərəfin qarla örtüldüyünü gördük. Çobanlar qoyunların məhv olmaması üçün sürüləri Zar, Zivel və Mollabayramlı kəndlərinə tərəf aparmış və bununlada sürüləri məhv olmaqdan xilas etmişlər. Çünki aşağılarda-kəndlər ətrafında qar örtüyü nazik idi. Iki gün ərzində qar əridi. Yalnız dağların quzey yamaclarında bəlkə də yüz illərin qarı yenə də ərimədi.

Batalyona Polkovnik-leytenant Eldar Həsənov komandir təyin etmişdilər. O bir neçə dəfə Sarıyerə gəlib mövqeləri və bölüyün döyüş hazırlığını yoxladı, öz tövsiyələrini verdi, çatışmamazlıqları aradan qaldırmağı tapşırdı. Mən bölükdə xidmət edən əsgərlərin qoçaqlıqlıqlarından, döyüş vaxtı yüksək hazırlıqlı olmaları barədə komandirə məlumat verdim və döyüş epizodlarından danışdım. Bölük ön mövqedə ayıq-sayıq durduğu üçün komandir əsgərlərə və mənə təşəkkür etdi...

Bir dəfə də tabor komandiri polkovnik-leytenant E.Həsənov iki qadın jurnalistlə gəlmişdi. Adlarını unutmuşam, amma birinin soyadı Qonaqlı idi. Onlar əsgərlərlə görüşüb söhbət etdilər və sonra ön səngərləri görmək istədiklərini bildirdilər. Biz onlarla ön mövqeyə-dağların zirvəsinə qalxdıq, səngərlərə baxdılar, növbədə olan əsgərlərlə söhbətlər etdilər. Biz bütün yayı Sarıyerdə qaldıq. Bu müddət ərzində batalyonun Göyçə ilə həmsərhəd olan digər mövqelərində də tez-tez döyüşlər baş verir, ermənilər itki verərək geri çəkilirdilər.

1992-ci ilin yayında-biz Sarıyerdə ön mövqedə olduğumuz vaxtlar Ağdərə bölgəsi Əfsanəvi Alay və Goranboy, Tərtər batalyonları tərəfindən azad edilmiş, ermənilər sıxışdırılaraq Xankəndi ətrafına çəkilmişdilər. Bu döyüşlərdə Kəlbəcər Batalyonunun, yəni 712 saylı batalyonun əsgər və zabitləri də iştirak etmişlər. Belə ki, 10-13 avqustda Qozlu kəndi istiqamətində aparılan döyüş əməliyyatlarında Batalyon komandirinin əmri ilə mənim bölüyümün 10 nəfər əsgəri də iştirak etmişdi. Həmin döyüşə könüllü olaraq gedən bizim bölüyün döyüşçülərindən çavuş Qurbanov Zülfüqar, Sarıyev Fariz və Xəlilov İlham, Cabbarov Əkbər həlak oldular, leytenant Xəlilov Xəlil, sıravi

Abbasov Mahir, Musayev Nazim, Hüseynov Qərib, Seyidov Fariz yaralanmış, çavuş Atayev Famil, İsmayılov Adil, Hüseynov Xəqani və digərləri sağ-salamat bölüyə qayıtmışlar. Həmin döyüşdə batalyonun zabiti leytenant Əmirov Rəsul da həlak oldu. Ümumiyyətlə həmin döyüşdə bizim batalyonun 13 nəfər döyüşçüsü həlak olmuş, on nəfər yaralanmışdır.

Sarıyerdə ön mövqedə noyabr ayının sonunadək qaldıq. Artıq bütün təhlə-tərəkəmələr yaylaqları tərk etmiş, qoyun sürüləri çəkilib Arana getmiş, hər tərəf qarla örtülmüşdü. Külək qarı sovurur, dərələrə və yollara doldururdu. Kənd və qəsəbələrlə əlaqə tamamilə kəsilmişdi. Artıq maşın yolları qarla örtüldüyündən batalyonun qərərgahı ilə əlaqə tamamilə kəsilmişdi. Telefon xətləri zədələnmiş, ratsiyaların batareykaları zəifləmiş, qərərgaha gediş-gəliş mümkün deyildi. Ön mövqedə səngərdə keşikdə durmaq isə olduqca çətinləşmişdi. Səngərdə keşik çəkmək və dayanmaq mümkün deyildi. Ona görə keşikçiləri bir saatdan bir dəyişdirirdim. Qışda burada heç vaxt yaşamaq və ya ön mövqedə dayanmaq mümkün olmazdı. Ona görə də komandir ön mövqedən İstisuyun yaxınlığına-Taxta adlanan məntəqəyə köçməyi əmr etmişdi. Lakin hərbi sursatı və əşyaları daşımaq üçün traktor lazım idi. Avtomobil qarda hərəkət edə bilməzdi. Biz köçməyi gecikdirsəydik, yollarda qar daha da qalınlaşar, maşın və traktor hərəkət edə bilməz, bütün əşyalar, minaatanlar, sursat və digər ləvazimatlar orada qala bilərdi. Yolları qar doldurduğu üçün, yalnız, traktor hərəkət edə bilərdi. Traktor axtarmaq üçün yaxınlıqdakı kəndlərə getməli oldum. İstisu, Zar, Molla Bayramlı, Zəylik kəndlərində işlək vəziyyətdə olan traktor tapa bilmədim. Bəzi traktorçular traktorların nasaz olduğunu bəhanə gətirir, belə qar-çovğunda Sarıyerə getməkdən imtina edirdilər.

Nəhayət Ayrım kəndindən Hidayətin DT-75 markalı traktoru ilə Sarıyerə gedəsi olduq. Tuneldə traktoru işə salıb, qoşqusu ilə 40-45 km yolu İstisuya doğru hərəkətə başladıq. Axşam İstisuda traktora yanacaq doldurub gecə səhərədək Sarıyer istiqamətində yol getdik. Hər tərəf qarla örtülü idi, yol demək olar ki, seçilmirdi. Qar işığında uzaqda görünən dağlara görə səmti müəyyən edirdim. Bəzi yerlərdə yolu itirir, xəndəklərin üstündən keçir, bəzən isə geri qayıdıb yenidən yolu axtarırdıq. Bəzi yerlərdə isə yolu doldurmuş qarı kürüyərək özümüzə yol açır, yenidən hərəkətə başlayırdıq. Hidayətin qoçaqlığı və təcrübəsi sayəsində səhər açılanda Sarıyerə çatdıq. Traktorun mühərriki bütün gecəni dayanmadan işləmişdi. Mühərriki dayandırsaydıq, su donar və bir daha traktoru işə sala bilməzdik. Çadırın yanına çatanda səhərəyaxın idi. Baş leytenant Ramiz Əhmədov hərbi qaydada salam verərək heç bir

*Qələbə-komandirlə əsgərlərin vəhdətindən və onların hər ikisinin Vətən sevgisindən doğur. M ü ə l l i f*

hadisənin baş vermədiyini bildirdi. Gizir İlqar Məhərrəmov əsgərləri əvvəlcədən yuxudan qaldırmış və köç hazırlığı görmüşdülər. Mən silah-sursatı və əşyaları traktorun qoşqusuna yükləməyi əmr etdim. Səngərlərdən səhra telefonlarını və onların məftillərini yığışdırmağı tapşırdım. Bir azdan bütün yüklər qoşquya yükləndi. Bütün silah və sursatları, radio qurğularını bir daha yoxladım, qazmaya baxdım və yola düşmək barədə göstəriş verdim. Əsgərlərə piyada gedəcəyimizi bildirdim və Taxta-İstisu istiqamətində hərəkətə başladıq. Artıq səhər açılırdı. Günəş görünsə də şaxta idi. Qarşıda 20 kilometrlik qarlı yollar dururdu. Baş leytenant R.Əhmədov və əsgərlər traktordan qabaqda qalın qarı yara-yara gedirdilər. Mən isə traktorçunun yanında oturmuşdum. 5-6 kilometr yol getdikdən sonra onlar bizdən xeyli uzaqlaşmışdılar. Dərədən keçəndə traktorun mühərriki öz-özünə dayandı. Bütöv bir sutka ərzində dayanmadan işləyən traktorun mühərriki axır ki, tab gətirmədi. Traktorçu Hidayət bildirdi ki, yanacaq süzgəcləri çirklənib, onları tez dəyişmək lazımdır. Biz ona görə tələsirdik ki, bir az geciksək, mühərrikdə su donar və traktor yüklə birlikdə burda qala bilər. Biz cəld yanacaq süzgəclərini dəyişib mühərriki işə salmaq istədik, lakin köməkçi mühərrikdə benzin olmadığını görüb təəccübləndik. Axı biz İstisuda hər ehtimala qarşı köməkçi mühərrikə benzin də doldurmuşduq...

Çıxılmaz vəziyyətdə qalmışdıq. Yəqin ki, əsgərlər tonqal yandırarkən traktorçunun xəbəri olmadan ehtiyat benzinin hamısını ocağa töküb yandırmışlar. Bunun üçün mütləq İstisudan benzin gətirmək lazımdır. Əsgərlər isə xeyli uzaqlaşmışdılar. Mən yaxınlıqdakı təpəyə çıxdım ki, uzaqlaşan əsgərləri çağırım. Əsgərlərdən isə heç kəs görünmürdü. Elə bu vaxt gizir İlqar Məhərrəmovun bir əsgərlə geriyə qayıtdığını gördüm. Vəziyyəti başa saldım və onları geri qaytararaq İstisudan benzin gətirmələrini tapşırdım. Mən Hidayətlə qoşquya yüklədiyimiz odun qalıqlarını yandırıb soyuqdan donmuş əllərimizi isitdik və tonqalın ətrafında oturub konserv açıb yedik. Əsgərlərin geri qayıtmalarını gözləməli olduq. Axşamüstü iki əsgər iki butulka benzin gətirdilər. Traktoru işə salıb həmin gün axşam Taxtaya qayıda bildik. Yükü boşaltdıqdan sonra gecə İstisuya-qərərgaha enib batalyon komandiri polkovnik-leytenant E.Həsənova məlumat verdim...

*Ordunun vəzifəsi vətəni işğal etmək istəyən düşmənə qarşı ayağa qalxmaqdır. Belə ayağa qalxmaq yerində saymaq üçün deyil, düşmən üzərinə atılmaq məqsədilə edirlərsə, əlbəttə, ayağa qalxmağa dəyər.*
*M. K. A t a t ü r k*

# 1-ci Çərəkdar döyüşü

1992-ci ilin yayı idi. Qarabağ cəbhəsindən xoş xəbərlər alınmaqdaydı. Azərbaycan ordusunun bölmələri Tərtər, Ağdam və Goranboy batalyonları müxtəlif istiqamətlərdən hücuma keçərək Ağdarə bölgəsinin xeyli ərazisini düşməndən azad etmişlər. Ağdərə şəhəri, və onun ətrafındakı kəndlər-Tərtər batalyonları, tərtər çay boyunca olan ərazilər Goranboy, Xanlar və tərtər batalyonları tərəfindən azad edilmişdir. Eyni zamanda Ağdərə bölgəsinin qərbindən-Kəlbəcərdən isə Əfsanəvi hərbi hissə Ağdərənin Çapar, Həsənriz, Umudlu, Qozlu körpü, Çıldıran, Dovşanlı və s. istiqamətindən isə hücumlara başlamaq üçün Çərəkdar, Ağdaban, Mərcimək və Narışdar məntəqələrində toplaşmışdı. Hərbi hissə son hazırlıq işlərini görürdü.

Aprelin 8-də Ağdabanda vəhşiliklər törədən ermənilər daha da azğınlaşaraq 500 nəfərədək canlı qüvvə, tank, PDM və zirehli texnika ilə silahlanaraq Qozlu körpüdə toplaşmışdı. Bizim kəşfiyyatçılar düşmənin hücuma hazırlaşdıqlarını xəbər vermişdilər.

2 iyul 1992-ci il tarixdə ermənilər rus hərbi birləşmələri ilə birlikdə Çərəkdar kəndinə hücum etdilər. Polkovnik Z.Rzayevin komandanlığı altında Çərəkdar kəndində erməni və rus hərbi birləşmələri ilə döyüş başladı. Ermənilər Rusların artilleriyasının köməyi ilə beş tank, 2 PDM və 500 nəfərədək canlı qüvvə ilə hücum edirdilər. Lakin, əvvəlcədən əsas yüksəkliklərdə mövqe tutmuş döyüşçülərimiz düşmənləri duyuq salmamaq üçün yaxşı gizlənmişdilər. Düşmən onların yüksəkliklərdə olduğunu bilmirdi. Buna görə də onlar tank və PDM-lərin müşaiyəti ilə asfalt yol və onun ətrafı ilə arxayın Çərəkdar kəndinə yaxınlaşırdılar. Polkovnik Z.Rzayev bütün döyüşçülərə düşməni xeyli yaxına buraxmaq üçün əmr vermişdi. Düşməni gözləmədən yaxalamaq lazım idi. Artıq düşmən PDM-i kəndin girəcəyinə çatmışdı. Döyüş əmri verilən kimi erməni piyadalarının sıraları güclü pulemyot və avtomat atəşinə məruz qaldı. Lakin, ermənilərin PDM-i xeyli irəliləyərək öz atəşi ilə bizimkilərin mövqelərini xeyli sıxışdırmağa başladı. Bu zaman komandirin əmri ilə bizim PDM yolla düşmən PDM-nə doğru hərəkətə başladı. Bir azdan PDM-lər qarşı-qarşıya gələcəkdi. Amansız bir döyüş başlamışdı. Əsgərlərimiz qəhrəmanlıqla döyüşürdü. Sayca üstün olan düşmən elə zənn edirdi ki, Çərəkdar kəndini də Ağdaban kimi asan işğal edəcəkdir. Bizim döyüşçülər tərəfindən əvvəlcədən yüksəkliklər

tutulmuş, ermənilərin gözləmədikləri yerlərdə pulemyotçular və qumbaratanlar yerləşdirilmişdi.

Kəndin içərisində və güneydəki qayalarda mövqe tutmuş əsgərlərimiz asfalt yolla və onun ətrafı ilə 4-5 ədəd zirehli texnikanın köməyi ilə irəliləyən düşməni kəndin lap yaxınlığına buraxaraq qəfil atəşlə onları biçib yerə tökürdü. Kəndin qarşı tərəfindəki güney qayalıqlarında mövqe tutmuş Yunis Nəcəfovun bölüyünün əsgərləri aşağıdan yol ilə kəndə tərəf hərəkət edən düşməni bir qədər də irəli buraxıb arxa tərəfini kəsməyi nəzərdə tutmuşdular. Elə bu məqsədlə bir dəstə döyüşçü dağın yamacı ilə aşağı endirilmişdi. Düşmən Tərtərçay dərəsinə sıxışdırmaq lazım idi. Beləliklə, ermənilər demək olar ki, mühasirə vəziyyətində qala bilərdilər.

Kəndin girəcəyindəki döngələrin birində qəflətən düşmən PDM-i ilə bizim PDM üz-üzə gəldi. Hər ikisi eyni vaxtda atəş açdılar. Bizim döyüş maşınından atılan mərmi düşmən maşınının zirehinə dəyərək partlamadan çovudu. Lakin düşmənin atəşi ilə bizim maşın vuruldu, maşın tüstüləməyə başladı. Lakin düşmən irəliləməyə macal tapmadı. Tərtərçayın sağ sahilində, kəndin içərisində mövqe tutmuş bizim əsgərlərdən biri qumbaratanla düşmən PDM-nə atəş açdı. Düşmən maşını da alışdı. Sən demə həmin əsgər vurulan bizim PDM-in sürücüsünün qardaşı imiş. Amansız bir döyüş gedirdi. Geriyə qaçan düşmən isə yolun döngələrində məhv edilirdi... 4-5 saat davam edən döyüşdə düşmənin iki zirehli maşını, 54 əsgəri məhv edildi, onlar 106 yaralı ilə qaçmağa məcbur oldular. Bizim briqadanın bir PDM-i vuruldu, bir əsgər şəhid oldu və bir əsgər yaralandı. Bu döyüşdə Kəlbəcər batalyonunun döyüşçüləri də fərqləndilər. Onlar ərazini yaxşı tanıdıqları üçün döyüşün müvəffəqiyyətlə aparılmasına böyük kömək göstərdilər. Bu döyüşdən sonra ermənilər uzun müddət özlərinə gələ bilmədilər.



*1-ci Çərəkdar döyüşündə düşmən tərəfindən vurulmuş PDM.*

*Məni Vətənimin sərhəddində dəfn edin. Övladlarımın qeyrəti olsa, qoymazlar qəbrimi düşmən tapdalasın.*

*C a v a n ş i r*

# Ağdərədə düşmənə divan tutulur

1992-ci ilin oktyabrınadək Əfsanəvi hərbi hissə Kəlbəcər istiqamətindən Ağdərənin azad olunması əməliyyatlarında Qozlu körpü, Çapar, Həsənriz, Qozlu, Umudlu, Çıldıran və digər kəndləri erməni işğalçılarından azad etmişdi. Polkovnik Z.Rzayevin komandanlığı altında müvəffəqiyyətlə aparılan döyüşlərdə Kəlbəcər Batalyonunun əsgər və zabitləri də iştirak edirdi. Məhz onların bu yerlərə bələdçiliyi nəticəsində qələbələr əldə olunurdu. Bu döyüşlərdə Kəlbəcər batalyonunun bir neçə zabiti və onlarla əsgəri həlak olmuşdu. Bölük komandiri baş leytenant Yunis İsa oğlu Nəcəfov Qozlu kəndi uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdü. Onun qardaşı Nəcəfov Əli isə bir ay əvvəl Ağdərədə qəhrəmancasına həlak olmuşdu. Batalyonun döyüşçülərindən Ərşad Sarıyev, Akif Rzayev, İlqar Həsənov, Bəhrəm Nəsirov, Natiq Məlikov, Əli Quliyev, Habil Uğurluyev, Bəxtiyar İsayev və başqaları Ağdərə bölgəsində gedən döyüşlərdə həlak oldular. Bu döyüşlər nəticəsində Tərtər-Kəlbəcər yolu açılmış, rayona ərzaq və silah-sursat gətirilməsi asanlaşmışdı.

Tərtər, Goranboy batalyonları isə Ağdərə bölgəsinin şərqindən hücum edərək Ağdərə bölgəsinin demək olar ki, əksər ərazilərini düşməndən azad etmişdilər. Ağdərədə xeyli itki verən düşmən Rusiyadan kömək istəyirdilər. 19 iyul 1992-ci il tarixdə ermənilər rusların biləvasitə köməkliyi ilə öz qüvvələrini toplayaraq əks-hücuma keçdilər və Tərtərçayın sol sahilinə keçə bildilər. Həsənriz, Umudlu, Çapar və digər kəndlər yenidən düşmən əlinə keçdi. Bu döyüşlər zamanı bizim briqadanın iki PDM-i vurulmuş, əsgərlərdən 5 nəfər həlak olmuş və PDM sürücüsü Elxan əsir düşmüşdü. Həmin döyüşlərin iştirakçısı olmuş kapitan Balay Nəsibovun dediklərindən: “Ağdərənin Tərtərçayın sol sahilində yerləşən kəndləri düşməndən azad edilmişdi. Dovşanlı ətrafına doğru geri çəkilən düşmən rusların köməyi ilə qüvvələrini cəmləyib əks hücuma keçməyə hazırlaşırdı. Biz bunu bilirdik, lakin əlavə qüvvələr lazım idi ki, mövqeləri əldə saxlayaq. Bunun üçün bir neçə dəfə yuxarı komandanlığa məlumat verilmişdi. 19 iyulda briqadanın qərərgah rəisi təcili məni çağırıb Həsənriz kəndinə göndərdi ki, rabitə əlaqəsi itib, vəziyyəti öyrənməli idim. Xidməti maşınla Həsənrizə yaxınlaşanda kənd və onun ətrafı düşmənin top atəşi altında idi. Top atəşi altında olan yolu sürətlə keçib kəndə girdik. Qərərgaha çatanda oranın dağıldığını gördüm.

*Hədəfi vurmaq üçün sərrastlıq deyil, cəsarət tələb olunur.*
*M. J v a n e t s k i*

Kəndin şimal-qərb tərəfindəki mövqelərimizə tərəf yaxınlaşdıq. Orada da heç kim yox idi. Başa düşdüm ki, düşmən kəndə hücum edir. Vaxt itirmək olmazdı. Kənddən çıxmaq lazım idi. Lakin atılan minaatan mərmiləri bizə imkan vermədi ki, maşına oturaq. Düşmən bizi mühasirəyə alırdı. Atəş aça-aça taxıllığa doğru çəkildik. Düşmən lap yaxında idi. Taxıllıqda sürücü Adil ilə yan-yana uzanmışdıq. Biz atəşi dayandırıb taxıllıqla sürünürdük. Meşə bizdən 7-8 yüz metr aralıda idi. Məqsədimiz sürünərək meşəyə çatmaq idi. Bir qədər süründükdən sonra taxıl zəmisi qurtardı. İsti və susuzluq taqətimizi kəsmişdi. Açıqlığa çıxmaq isə ölüm demək idi. Lakin, başqa yolumuz qalmadığından biz qaçaraq meşəyə çatmağa çalışırdıq. Ermənilərin atdığı güllələr və minalar isə bizdən yan keçirdi. Meşədə bir neçə dəqiqə dincimizi aldıq və Çapar kəndinə-qərərgaha doğru getməyə başladıq. Qərərgah rəisinə məlumat verdim ki, düşmən Həsənrizi götürdü. Qərərga rəisi isə bildirdi ki, mənə məlumat verdilər ki, sizi öldürüblər. Biz qərərgahı Ağdabana köçürdük və yeni əməliyyat planı hazırlamağa başladıq".

1992-ci ilin iyun ayında Kəlbəcər bölgəsinin şərqində yerləşən Narışdar kəndi uğrunda döyüşlər başladı. Ermənilər bir neçə dəfə kəndə hücum etdisə də əsgərlərimizin sayıqlığı nəticəsində kəndə girə bilməmişdilər. Düşmənin aramsız hücumlarının qarşısının alınması üçün Narışdara əlavə qüvvələr göndərildi. Bu dəstələrdən biri Kəlbəcər Batalyonunun 3-cü bölüyünün Aşağı Ayrım kəndində-Göyçə ilə sərhəddə müdafiə döyüşləri aparan bir tağımı idi. Tağım komandiri çavuş Vahib Allahverdiyevin dediklərindən: "Yay günləri idi. Axşamüstü bizim tağımı Narışdar kəndinə gətirilən kimi ön mövqeyi 701-ci briqadanın bölmələrindən təhvil götürdük. Bir neçə gün mövqe döyüşləri və kəşfiyyat xarakterli döyüşlər apardıq. Sonra bizə Aydoğan yüksəkliyini düşməndən azad etmək tapşırığı verildi. Tağımda qoçaq əsgərlər çox idi: Aşağı Ayrım kəndindən Qənimət Süleymanov, Natiq İbrahimov, Yaşar Abdullayev, Kəlbəcərdən Xəqani Hüseynov, Adil İsmayılov, Çaykənddən Famil Atayev, Cavanşir, Daşbulaqdan Zabil, Allı kənddən Naib, Qanlıkənddən Mehdiyev Nəsimi, Famil Oruc oğlu və digər əsgərlərə güvənərək hücum əməliyyatını götür-qoy etdik. Əməliyyata ixtisasca həkim olan "Spartak" ləqəbli kapitan Kamil Mehdiyev rəhbərlik edirdi. Məhz bu əməliyyatı da o hazırlamışdı. Gecə saat 5-də Aydoğan yüksəkliyinə hücuma keçdik. Bizim mövqelərimiz olduqca əlverişsiz idi. Düşmən bütün yüksəkliklərdə mövqe tutaraq irəliləməyimizə imkan vermirdi. Hər tərəfdən üstümüzə avtomat və pulemyot gülləlləri yağırdı.

əvvəlcə irəliləyə bilmirdik. Sonra əvvəlki günlər apardığımız kəşfiyyat köməyimizə çatdı. Döyüşdən bir neçə gün qabaq kəşfiyyat (kəşfiyyatçılar: Abdullayev Yaşar və İbrahimov Natiq) apararkən qayalığın altındakı dərə ilə irəliləməyin əlverişli və düşmən üçün gözlənilməz olacağını müəyyən etmişdik. Döyüş zamanı belə də etdik və düşmənin gözləmədiyi yerə-qayalığa dırmaşaraq onların ən yüksəkdə yürləşən mövqelərini atəşə tutduq. Düzgün planlaşdırılan əməliyyat nəticəsində Spartakın uzaqgörənliyi və əsgərlərin qoçaqlığı və taktiki bir çəldliklə iki saatlıq döyüşdən sonra ermənilər yüksəklikdən qovduq. Səhər açılanda artıq biz yüksəlkikdən meşə aşağı qaçan ermənilərə atəş açırdıq. Ətrafda və meşəlikdə düşmən saqqallılarının meyidləri qalmışdı...”

1992-ci ilin yayında Kəlbəcərin Mərcimək kəndində təpədən-dırnağadək silahlanmış 6 rus zabitini tutulmuşdu. Onlar Kəlbəcər və Ağdərə bölgələrində casusluqla məşğul olan və təxribat törədən bir dəstə olmaqla dəfələrlə Kəlbəcərdən Tərtərə gedən maşın karvanlarını güllələmiş, yolları minalamış, ermənilərə məlumatlar ötürmüşlər. Əvvəlcə onları güllələmək istədik, lakin müəyyən məlumatlar əldə etmək məqsədi ilə Bakıya göndərdik. Həmin təxribatçı dəstə 1993-cü ildə ruslara təhvil verildi.

Avqust ayında polkovnik Z.Rzayevin əmri ilə Kəlbəcər batalyonundan bir qrup döyüşçü kapitan B.Nəsibovun və leytenant R.Əmirovun komandanlığı altında Ağdərə istiqamətinə, daha doğrusu Narışdar kəndinə göndərildi. Orada döyüş əməliyyatları aparan tabora Çingiz Əliyev komandirlik edirdi. Tabor əməliyyatlar zamanı itki verdiyinə görə Kəlbəcər batalyonunun döyüşçüləri onlara köməyə göndərilmişdi.

Həmin döyüşün iştirakçısı kapitan B.Nəsibovun dediklərindən: “Biz 55 nəfərdən ibarət xüsusi döyüş dəstəsi tabor komandiri Ç.Əliyevin sərəncamına göndərildik. Bizə tapşırıq verildi ki, Qozlu kəndi istiqamətində yerləşən yüksəklikləri ələ keçirilməliyik. Tapşırıq olduqca çətin idi. Buna baxmayaraq əvvəlcədən aparılmış düzgün kəşfiyyat nəticəsində biz əməliyyatın birinci hissəsini yerinə yetirə bildik. Belə ki, müəyyən yüksəkliklər ermənilərdən təmizləndi. Buradan hücumu davam etdirmək olardı. Lakin, düşmən əlverişli yüksəklikləri xoşluqla əldən vermək istəmirdi. Gecə hərəkətə başladıq və düşmən mövqelərinin bir neçəsini ələ keçirməyimizə baxmayaraq bizim dəstənin bir hissəsi ermənilərin pusqusuna düşdü. Bu döyüşdə 13 nəfər, o cümlədən, tağım

komandiri leytenant Əmirov Rəsul, Qurbanov Zülfüqar, Sarıyev Fariz, Xəlilov İlham, Cabbarov Əkbər və digərləri həlak oldular, leytenant Xəlilov Xəlil, Abbasov Mahir, Musayev Nazim, Hüseynov Qərib, Seyidov Fariz yaralandılar. Itki versək də mövqelərimizi əldə saxlaya bildik. Burada da vəziyyət yaxşı deyildi. Həm düşmən bizdən əlverişli yerdə idi, həm də bir neçə həlak olmuş döyüşçülərimizi götürə bilmirdik. Yuxarı komandanlıqdan kömək istədik. Köməyə gələn 3 tankın iştirakı ilə yenidən hücuma keçdik və ermənilərin mövqelərini darmadağın etdik. Çoxlu sayda itki verən düşmən Dovşanlı(Vəng) ətrafına sıxışdırıldı. Biz həmin yüksəkliklərdə müdafiəyə keçdik və bir neçə gündən sonra mövqeləri Ç.Əliyevə təhvil verib öz dəstəmlə Kəlbəcərə qayıtdım.

Sentyabrın 3-də yeni döyüş tapşırığı aldım: mənə təhkim olunmuş 60 nəfərlik Kəlbəcər batalyonunun döyüşçüləri ilə 713 saylı batalyona köməyə göndərildim. Tapşırıq belə idi: Qozlu kəndinin cənub-qərbindəki itirilmiş mövqeləri düşməndən geri almaq. Maşınlarla gedirdik, yaxınlaşanda maşınları topla atəşə tutan düşmən bizi məcbur etdi ki, piyada hərəkət edək. Biz silah-sursatımızı götürüb bir neçə yüksəkliyə qalxdıq. Oradan müşahidə apardım ki, bizdən irəlidə hələ bir neçə itirilmiş səngərlərimiz var. Mən tələsmədim, əvvəlcə buradakı səngərlərimiz qaydaya saldıq və sonrakı əməliyyat barədə planlarımızı götür-qoy etdik. Tabor çox itki vermiş və bir neçə yüksəklik əldən getmişdi. Mən başa düşdüm ki, əvvəlcə hazırkı yüksəkliklərdə müdafiə quraq və gələcək hücumlara şərait yaradaq. Axşama yaxın mövqelərimiz minaatanlarla və toplarla atəşə tutuldu. Kəşfiyyat məlumatımız var idi ki, düşmən hücuma hazırlaşır. Buna görə də bir daha əsgərlərə öz tapşırıqlarımı verdim. Artilleriya atəşindən sonra düşmən 3-4 yüz nəfərlik bir qüvvə ilə hücuma keçdi. Bütün növ silahlardan atəş açan düşmən başımızı qaldırmağa imkan vermirdi. Artıq bir neçə ölən və yaralanan var idi. Mən öz artilleriyamızı köməyə çağırdım və kordinatları bildirdim. Polkovnik Səlimov ratsiyada bildirdi ki, siz öz atəşimiz altında qala bilərsiniz. Mən təkid etdim və ilk mərmidən sonra kordinatları dəqiqləşdirib düşmən tərəfə bir neçə mərmi atlmasına nail oldum. Lakin vəziyyət yaxşı deyildi. Düşmən zirehli texnikası bizə aman vermirdi. Ratsiyada polkovnik Z.Rzayevin səsi eşidildi. O bizə əlavə qüvvə göndərdiyini dedi. Biz iri çaplı pulemyot və AQS-17 ilə daha yaxşı atəş açaraq düşməni bir qədər geri çəkilməyə vadar etdik. Bir neçə dəqiqədən sonra düşmən yenidən hücuma keçdi. Artıq sağ tərəfimdəki əsgər də vuruldu. Elə bu zaman baş leytenant Rəhman İsgəndərov bir dəstə

    

döyüşçü ilə özünü yetirdi. Amansız bir döyüş gedirdi. Sağ cinahda düşmən zirehli maşını göründü. Mən qumbaraatanla iki mərmi atdım. Elə bu zaman Ç.Əliyev tankla köməyə gəldi. Tankın gəlişi əsgərləri ruhlandırdı. Tankın hərəkət etməyi buralarda çətin olsa da bizimkilər ondan məharətlə istifadə edirdilər. Çaş-baş qalan ermənilər xeyli itki verərək geriyə çəkildilər. Biz tapşırığı yerinə yetirərək lazımi yüksəklikləri ələ keçirdik. Axşam düşürdü düşmənin 19 əsgəri öldürülmüş və bir PDM-i ələ keçirilmişdi. əsgərlərimizdə 8 nəfər şəhid olmuş, 17 nəfər yaralanmışdı."

Dovşanlı kəndi ətrafına sıxışdırılmış düşmən çıxılmaz vəziyyətdə idi. Həmin kəndin azad edilməsindən sonra ermənilər Xankəndində qala bilməyəcəkdi. 1992-ci ilin yayından 1993-cü ilin fevralınadək amansız döyüşlər gedirdi. Rusların birbaşa köməyi ilə ermənilər bərk dirəşmişdilər. Bu kənd ətrafında gedən döyüşlərin iştirakçısı Vəli Sabir oğlu Mehrəliyevin dediklərindən: "Mən 1992-ci ilin may ayında 713 saylı taborun tərkibində Laçın bölgəsinə göndərildim. Bir neçə kəndi azad etdikdən sonra bizi Ağdərə bölgəsinə- Dovşanlı (Vəng) kəndi ətrafına gətirdilər. Dovşanlı aşırımı uğrunda qanlı döyüşlər başladı. Bir dəfə 9 saatlıq döyüş zamanı 320 nəfərədək ermənini məhv etdik. Tabor komandiri Vaqif (ləqəbi "Qaçaq Nəbi" idi) və bir neçə igid yoldaşları itirdik, çoxlu əsgərimiz yaralandı. Həmçinin bölük komandirləri Etibar və Şəmil də yaralandılar. Bu döyüşdə həmin kəndi azad edə bilmədik. Biz uzun müddət Vəng ətrafında müdafiəyə çəkildik. Biz hücuma can atsaq da, yuxarı komandanlıq icazə vermədi ki, bu kəndi də azad edək. 1993-cü ilin martında erməni və rus hərbi birləşmələri bizi Narışdar kəndinə doğru sıxışdırdılar. Biz Narışdar kəndi ətrafında mühasirəyə düşdük. Qeyri-bərabər döyüşdə mühasirədən çıxmağa çalışırdıq. Düşmən itki versə də hücumlara ara vermirdi. Mühasirədən çıxmaq üçün amansız döyüşlər apardıq. Bir neçə döyüşçü itirsək də (Əli, Murad, Nəsimi) mühasirədən çıxmağa nail olduq. Bu döyüşdə iyirmiyədək erməni əsgərini məhv etdik".

*Məğlubiyyəti həzm edə bilən xalqın yaşamağa haqqı yoxdur.*
*M ü ə l l i f*



17 iyul 1992-ci il tarixdə Ağdərə bölgəsinin Vaquas kəndinə hücum planlaşdırılmışdı. Hücuma Kapitan Kamil Mehdiyev (Spartak) öz 84 nəfərlik dəstəsi ilə qoşulmuşdu. Kəlbəcərlilərdən ibarət olan bu dəstə Spartakın komandirliyi ilə bir neçə döyüşdə uğur qazanmışdı.

Spartakın dediklərindən: "Biz Vaquas yaxınlığındakı bir neçə yüksəkliyi ələ keçirsək də , kəndi düşməndən azad edə bilməmişdik. Mən meşəlikdə ciddi kəşfiyyat aparır, lazımsız itki verməkdən çəkinirdim. Kəşfiyyat apardığımız zaman ermənilərlə dolu bir maşın vurduq. Bu bizim həmin günə düşən qənimətimiz idi. Buna görə kəşfiyyatı növbəti günə saxladım. Səhərisi gün kənd yüksəkliklərinə doğru hücum əmri verdim. Çünki gecə özüm bir neçə əsgərlə kəşfiyyat apararaq , həmin yüksəkliklərdə düşmənin az bir qüvvəsi olduğunu aşkar etmişdim. Yüksəkliklərə doğru atəş açaraq gedirdik. Üç istiqamətdə qəfil yaxalanan düşmən bir neçə meyit qoyaraq qaçdı. Həmin gün kəndin yüksəkliklərində yeni atəş mövqelərində möhkəmləndik. Ertəsi gün düşmən böyük qüvvə ilə hücuma keçdi və biz mühasirəyə düşdük. Kömək isə gəlib çıxmadı. Bir sutka mühasirədə döyüşdük. Səhərisi gün yuxarı komandanlıqdan əlavə kömək gəldi və biz kəndə hücumu planlaşdırmalı olduq... Sonra mən 43 nəfərlə, o cümlədən Çingiz Qadir oğlu Bayramovla Laçın bölgəsinə köməyə göndərildim. Burada "Bərdə batalyonu" ilə döyüşlərə qatıldıq. Döyüş zamanı xeyli erməni döyüşçüsü məhv etdik və 13 nəfərini əsir götürdük...

1992-ci ilin sonunda könüllü döyüşçülər ordu sıralarından qovuldular və mən də öz dəstəmlə tərksilah edildim. Lakin 1993-cü ilin martında Kəlbəcərin erməni və rus hərbi birləşmələri ilə mühasirəyə alınaraq işğal edilməsindən sonra yenidən döyüşə getməyi qərarlaşdırdım. Lakin, bu qərarım 1994-cü ilin martında baş tutdu. Beləliklə Kəlbəcərlilərdən ibarət bir dəstə könüllü döyüşçü ilə yenidən Murovdağda xidmətə başladıq. Murovdağdakı qış döyüşlərindən- Kəlbəcərin ikinci dəfə itirilməsindən- sonra dağlarda don vurmadan və döyüşlər zamanı həlak olmuş əsgərlərimizdən 112 nəfərinin meyidini çıxara bildik..."

*Xalq onda böyük xalq olar ki, analar öz oğlunun*
*vətən uğrunda şəhid olmasına heyifsılənməsin!*
*M ü ə l l i f*

### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***2 iyul 1992-ci il*** – Hərbi hissənin 1-ci taboru Polkovnik Z.Rzayevin və kapitan Çingiz Əliyevin rəhbərliyi ilə (bölük komandirləri: baş leytenantlar Nəcəfov Yunis, İsmayılov Nizami, Məmmədov Afiq, tank komandiri baş leytenant Elşən) hücuma keçərək, Ağdərə bölgəsinin Həsənriz, Umudlu, Kərəmli, Çapar, Qozlukörpü və s. yaşayış məntəqələrini düşməndən azad etdi. Tərtərçayın sol sahili tamamilə düşməndən təmizləndi. Bu döyüşlər zamanı düşmən çoxlu sayda itki verdi və əsir götürüldü. Tabordan isə 15 nəfər şəhid oldu, 12 nəfər döyüşçü yaralandı.

***19 iyul 1992-ci il*** - 1-ci tabor düşmənin qəfil hücumu nəticəsində azad edilmiş kəndlərdən geriyə çəkildi.

***12 avqust 1992-ci il*** - 1-ci tabor (komandir kapitan Zərbəliyev Elşad, müavinlər kapitan Sadıqov Rasim, mayor Yaqubov Zəfər) yenidən hücuma keçərək Həsənriz, Umudlu, Kərəmli, Çapar, Qozlukörpü kəndlərini-Tərtərçayın sol sahilini tamamilə düşməndən azad etdi.

***13 avqust 1992-ci il*** - 3-cü taborun (Kəlbəcər Batalyonunun) bir dəstə döyüşçüsü (komandir: kapitan B.Nəsibov, tağım komandiri leytenant Rəsul Əmirov) Qozlu kəndi ətrafında əhəmiyyətli bir yüksəklik uğrunda düşmənlə qeyri-bərabər döyüşə girdi. Dəstə itkilər verərək geriyə çəkildi. Bu döyüşdə leytenant Rəsul Əmirov, Fariz Sarıyev, İlham Xəlilov, Əkbər Cabbarov, Zülfüqar Qurbanov-cəmi 13 nəfər həlak oldu, Mahir Abbasov, Fariz Seyidov, Qərib Hüseynov, Xəlil Xəlilov-cəmi 10 nəfər yaralandı.

***16 avqust 1992-ci il*** - 1-ci taborun 1-ci bölüyü (komandir baş leytenant Yunis Nəcəfov, tağım komandiri baş leytenant Qurban Qurbanov) Tərtərçayın sağ sahilindəki Qozlu yüksəkliyini ələ keçirdi. Bölük komandiri baş leytenant Yunis İsa oğlu Nəcəfov bu döyüşdə həlak oldu. Ona ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verildi.

***22 avqust 1992-ci il*** - Kəlbəcər Batalyonunun 3-cü bölüyünün 1-ci tağımı (kapitan Kamil Mehdiyevin ümumi komandanlığı altında, tağım komandiri Vahib Allahverdiyev) Narışdar kəndi yaxınlığındakı Aydoğan yüksəkliyinə hücuma keçdi və 2 saatlıq döyüşdən sonra yüksəklik ermənilərdən təmizləndi. Düşmən 11 nəfər itki verdi.

*Üç şeyi üç şeysiz əldə etmək mümkün deyil: kədərsiz insanpərvərliyi, səhvsiz biliyi və qorxusuz igidliyi.*

*Konfutsi*

### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***24 avqust 1992-ci il*** - 1-ci tabor hücum əməliyyatlarını genişləndirərək Tərtərçayın sağ sahilindəki Qozlu, Koçaqot, Verin Orataq, Drambon, Paqosomer, Çıldıran və s. yaşayış məntəqələrini düşməndən azad etdi. Düşmən çoxlu sayda canlı qüvvə və texnika itirdi.

***28 avqust 1992-ci il*** - 1-ci tabor döyüşləri davam etdirərək Dovşanlı-Vəng yüksəkliyinə çıxdı.



*Döyüşdən qabaq. Bölük komandiri baş leytenant A.Kamalov (sağda),gizir Ş.Bəxtiyarov (solda) və Q.Məmmədov*

*Döyüş vaxtı ümidsiz qalmaq- ölümdən betərdi.*

*M ü ə l l i f*

# Laçın uğrunda döyüşlər

12 sentyabr 1992-ci il tarixdə 701-ci briqadanın 2-ci, 4-cü və 5-ci taborları Laçın bölgəsinə döyüşə göndərildi. Briqadanın qərərgahı Pircahanda yerləşdirildi. Tezliklə döyüşlərdə dönüş yaradan briqada Z.Rzayevin komandanlığı altında Laçın bölgəsinin Piçəniç, Ərikli, Əliquluuşağı, Mişni, Alxaslı, Soyuqbulaq, Ağkənd, Seyidlər, Ərdəşəvil, Bülündüz, Haxnəzər, Qarıqışlaq, Fingə, Tiğik-ümumiyyətlə 40-dan çox yaşayış məntəqəsını düşməndən azad etmiş, düşmənin minlərlə canlı qüvvəsi və çoxlu texnikasını məhv etmişdir. Çox əhəmiyyətli olan Hoçaz dağının yüksəklikləri də ələ keçirilmişdir. Hoçaz dağında bir neçə dəfə düşmən hücumunun qarşısı alınmış, düşmən ağır itkilər vermişdir. Bu döyüşlərdə Kəlbəcər Batalyonunun yüzədək zabit və əsgəri iştirak etmiş və dağlıq ərazilərdə döyüş təcrübəsinə malik olmaqla briqadanın hücum əməliyyatlarına yaxından köməklik göstərmişdir. Kərimov Ülfətin bu döyüşlər zamanı göstərdiyi qəhrəmanlıqları xüsusilə qeyd etmək lazımdır. Döyüşlərin birində Ü.Kərimov erməni kapitanını və onunla bərabər üç erməni döyüşçüsünü əsir götürmüşdü.

1992-ci il oktyabr ayının sonunda briqada daha da irəliləyərək Laçın şəhərinin yaxınlığına-teleqüllənin yanına çatmış, Laçın dəhlizinə nəzarəti öz əlinə almışdı. Gündüzlər ermənilərin Laçın dəhlizi ilə bütün hərəkətləri dayandırılmışdı. Onlar ancaq gecələr dəhlizdən keçib gedə bilirdilər. Hücum əməliyyatlarında qarşısı alınmaz olan Əfsanəvi Alay döyüşləri davam etdirərək, ermənilərə ağır zərbələr vurmuş, onlar üçün məğlubedilməz bir qüvvə olmuşdur. Hoçaz dağında baş vermiş döyüşlərin iştirakçısı olmuş kapitan B.Nəsibovun dediklərindən: "məni müvəqqəti olaraq 714 –cü tabora komandir təyin etdilər və mən Laçın bölgəsinə getməli oldum. Sentyabr ayı idi. Yollar palçıq və sürüşkən olduğundan ehtiyatla maşını idarə edir, mümkün qədər qəzasız yol getməyə çalışırdıq. Yolda bizə tərəf gələn maşında yaralanmış 3-cü taborun keçmiş komandiri mayor Zəfər Yaqubovla qarşılaşdıq. Onlardan ilkin məlumat aldıq ki, Hoçazda gərgin döyüşlər gedir. Qüvvələr azalıb, kömək olmasa vəziyyət çətinləşəcək. Vaxt itirmək olmazdı. Mütləq özümüzü ora çatdırmalı idik. Biz hərəkətə başladıq. Maşını bölük komandirinin müavini Ülfət Kərimov idarə edirdi. Lakin maşın sürüşüb yanı üstə çevrildi. Biz əsgərləri düşürüb piyada dağa qalxmağa başladıq. 10-15 kilometr yol gəlib Soyuqbulaq kəndinə çıxdıq.

Tez şəxsi heyəti bizimkilər tərəfindən tərk edilmiş mövqelərə yerləşdirdim. Elə birinci gecə düşmənin mövqelərimizə doğru hərəkətini

müşahidə etdik. Onlar elə zənn edirdilər ki, həmin mövqelər boşdur. Lakin əsgərlərin atəşi ilə onları geri çəkilməyə məcbur etdik. Gündüz düşmən top və minaatanlarla mövqelərimizi atəşə tutdu. Lakin bizim tutduğumuz mövqelər etibarlı idi. Həmin gün polkovnik Z.Rzayev bütün komandirləri toplayıb hücum planı ilə tanış etdi. Hoçaz dağının ermənilərdən azad edilməsi əməliyyatına başlamalı idik. Mənə verilən tapşırığa əsasən mən düşmən qüvvələrinin atəşini öz üzərimə cəlb etməli idim. Deyilən vaxtda mən tabora hücum əmri verdim. Bir neçə xırda yüksəklikləri ələ keçirdikdən sonra doğrudan da düşmən bütün qüvvələrini mənim üzərimə tərəf cəmləşdirdi. Biz təpəni aşıb dərəni keçməliydik. Lakin hər bir hərəkətimiz top və minaatanlarla qarşılanırdı. Birinci bölüyün komandiri baş leytenant Əzimov Əzim və daha bir döyüşçümüz qəhrəmanlıq göstərərək həlak oldular. Eyni zamanda Ç.Əliyevin taboru isə düşmənin gözləmədiyi istiqamətdən hücum edərək düşmən qüvvələrini pərən-pərən saldı və düşmən tutduğu mövqeləri buraxaraq qaçmağa başladı...”

Artıq əfsanəyə çevrilmiş alay bütün ermənistanı vahiməyə salmışdı. Tezliklə Laçın şəhəri də azad ediləcək, ermənilərin qüvvələri parçalanacaq və Qarabağ düşməndən təmizlənəcəkdi. Lakin 28 oktyabr 1992-ci il tarixdə Müdafiə Nazirinin əmri ilə briqadanın bölmələri 16 kilometr geri çəkilərək Hoçaz dağında müdafiə mövqeyi tutmalı oldu və bütün qışı müdafiə döyüşləri aparmağa məcbur edildi. Ermənilərin Qarabağla yeganə əlaqəsi olan Laçın dəhlizi isə yenə də düşmənin əlində qaldı.

Hücum əməliyyatlarında püxtələşmiş, qarşısı alınmaz sayılan “Əfsanəvi Alay”-ı müdafiəyə çəkilməyə məcbur edənlər ermənilərə bir daha özlərinə gəlməyə imkan verdilər. Lakin briqada müdafiə döyüşlərində də düşmənə ağır zərbələr vurdu. Bu zaman əlverişli yüksəklik sayılan Hoçaz dağı uğrunda aparılan müdafiə döyüşlərində düşmən çox böyük itkilər verdi. Hoçaz dağı və onun ətrafında düşmənin böyük qüvvələrinin darmadağın edilməsi briqadanın gücünü bir daha sübut etdi.

Kəlbəcər Batalyonunun döyüşçülərindən Məmmədov Oktay, Cəfərov Ülfət, Hüseynov Qurban Laçın bölgəsində gedən döyüşlərdə həlak olmuşlar.

*Məğlubiyyətsiz qələbə olmur.*
*M ə s ə l*

ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN

### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***3 oktyabr 1992-ci il*** - 1-ci tabor (komandir: kapitan Elşad Zərbəliyev, müavin baş leytenant Zamin Hüseynov) Hoçaz dağında mövqe tutmuş düşmən üzərinə hücum etdi. Döyüş zamanı düşmən xeyli itki verərək tutduğu mövqelərdən geri çəkildi. 3 tank və bir PDM ələ keçirildi.

***5 oktyabr 1992-ci il*** - 1-ci tabor Hoçaz dağında yenidən hücuma keçdi. İtki verərək geriyə çəkilən düşməndən daha bir tank və bir ədəd PDM hərbi qənimət kimi götürüldü.

***9 oktyabr 1992-ci il*** - 18110 saylı ilk hərbi hissə fəaliyyətə başladığı gün - 9 oktyabr 1991-ci il - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yarandığı gün kimi bayram edilməyə başladı.

***9 oktyabr 1992-ci il*** - düşmən Hoçaz daçındakı mövqelərimizə hücuma keçdi. 2-ci tabor əks-hücuma keçərək, (komandir: kapitan Qorxmaz Qarayev) düşmənin 300 nəfərədək canlı qüvvəsini məhv etdi, 7 tankını, 2 PDM-ni vurdu, 5 tank, 3 PDM, və 3 ədəd 120mm-lik minaatanını ələ keçirdi. Bu döyüş zamanı briqada Hoçaz dağında 70 nəfər şəhid verdi.

***18 oktyabr 1992-ci il*** - düşmən 8 ədəd vertalyot, 8 ədəd tank və 3 ədəd PDM-in köməyi ilə 1000 nəfərədək canlı qüvvə ilə Hoçaz dağındakı mövqelərimizə hücuma keçdi. 2-ci tabor (komandir: kapitan Qarayev Qorxmaz, müavinlər: baş leytenant Bəkirov Azər, mayor Cəfərov Lütfi ) müdafiə döyüşü apararaq düşmənin iki vertalyotunu, iki tankını vurdu. Düşmən 400 nəfərədək meyid qoyub qaçmağa məcbur oldu. Bu döyüşdə taborun T-72 tankı (ekipaj-kapitan Həsənov Xəyyam, baş leytenant Vəliyev Xaliq və mexanik Vüqar) düşmənin iki tankını vurdu. Bizim bir tank da vuruldu, tankçılar: Vəliyev Xaliq və Vüqar yaralandılar.

***29 noyabr 1992-ci il*** - 5-ci tabor (komandir: leytenant Cəfərov Tahir) hücuma keçərək, Nurəddinkənd, Fərraş kəndlərini və Çilgəz yüksəkliyini ələ keçirdilər.

***23 dekabr 1992-ci il*** - düşmən Hoçaz dağına hücuma keçdi. 2-ci tabor (komandir: kapitan Qarayev Qorxmaz) düşmənin 47 nəfər canlı qüvvəsini məhv etdi və telekamera ilə Aşot adlı bir erməni operatorunu əsir götürdü.

# *Kəlbəcər batalyonunun ilk əsgərləri*



***Musayev Zahid Daşqın oğlu***

1974-cü ildə Kəlbəcərin Mərcimək kəndində anadan olmuşdur. 1992-ci ildən Kəlbəcər batalyonunda xidmətə başlamış, Ağdərə, Laçın, Kəlbəcər və Murovdağ döyüşlərində fəal iştirak etmişdir. 1996-cı ilin may ayının 19-da Ağdam bölgəsinin Mirəşelli kəndi yaxınlığında ermənilərin səngərlərimizə hücumu zamanı qəhrəmanlıq göstərərək 3 erməni silahlısını öldürmüş və özü də həmin döyüşdə həlak olmuşdur.



***Natiq***



***Məmmədov Gürşad Qiyas o.***

1973-cü ildə Kəlbəcərin Əsrik kəndində anadan olmuşdur. 1991-ci ildə Kəlbəcər batalyonunun ilk əsgəri kimi orduya çağırılmış və 1993-cü ilin aprelində Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Çaykənd yaxınlığında mühasirəyə düşən Gürşad son gülləsi qalanadək döyüşmüşdür. Erməni quldurlarına əsir düşən döyüşçümüz əsirlikdə olan daha 7 nəfərlə erməni hərbçilərini öldürərərək silahlarını ələ keçirmişlər. Lakin, məcbiri olaraq döyüşə atılmış, gülləleri qurtarmış və onlar yenidən əsir alınmışlar. Ermənilərin hədsiz işgəncələrinə məruz qalan Gürşad 7 nəfər yoldaşı ilə 1994-cü il fevral ayının 8-də ermənilər tərəfindən güllələnmişdir.



***Qurbanov Şahin İmran oğlu***

1974-cü ildə Kəlbəcərin Dalqı-lışlı kəndində anadan olmuşdur. 1992-ci ildən Kəlbəcər batalyonunda xidmətə başla-mışdır. 1993-cü il aprel ayının 1-də Kəlbəcərin Yellicə kəndi uğrunda gedən döyüşlərdə itkin düşmüşdür.



***Gizir Əsgərov Abdulla Allahverdi oğlu***

1973- cü ildə Kəlbəcərdə ana-dan olub. 1991-ci ildən Kəlbəcər batalyonunda xidmətə başlamış, Kəlbəcər, Ağdərə, Laçın, Tərtər, Ağdam, Füzuli, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1996-cı ildə ordu sıralarından tərxis olunsa da, gizir kimi yenidən ordu sıralarına qayıtmışdır.



***Abdullayev Etibar Əyyub oğlu***

1971-ci ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildə Kəlbəcər batalyonunda xidmətə başlamış, Ağdərə, Laçın, Kəlbəcər uğrunda döyüşlərin iştirakçısı olmuşdur. 1993-cü ildə Kəlbəcərin işğalı zamanı mühasirədə qalan bir neçə döyüşçü ilə Murovdağ ətəklərində ermənilərlə döyüşdə qəhrəmanlıq göstərərək həlak olmu şdur.



***Nəsibov Sərdar***



***İsgəndərov İslam Hətəm oğlu***



***Salmanov Ələddin Ələmdar o.*** 1973-cü ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olmuşdur. 1992-ci ildə Kəlbəcər batalyonunda xidmətə başlamış, Kəlbəcər, Ağdərə, Laçın, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.



***Əsgər Əsədov Ramiz***



***Ələkbərov Fikrət***



***Əkbərov Habil***



***Muxtarov Rizvan İsmayıl oğlu***
1972-ci ildə Kəlbəcərdə anadan olmuşdur.1992-ci ildə Kəlbəcər batalyonunda xidmətə başlamış, Ağdərə, Laçın, Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etmişdir.



***Həsənov Ələmdar***



***İsayev İlham Saat oğlu***



***Şükürov Şükür***



***Əsgərov Manaf Yunis oğlu***

1973- cü ildə Kəlbəcərdə anadan olub. 1991-ci ildən Kəlbəcər batalyonunda xidmətə başlamış, Kəlbəcər, Ağdərə, Laçın, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.



***Rzayev Qorxmaz***



***Salmanov Mais Rəhim oğlu***

1973- cü ildə Kəlbəcərdə anadan olub. 1992-ci ildən Kəlbəcər batalyonunda xidmətə başlamış, Kəlbəcər, Ağdərə, Laçın, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.



***Əhmədov Ramiz Əhməd oğlu***

1973- cü ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildən Kəlbəcər batalyonunda xidmətə başlamış, Kəlbəcər, Ağdərə, Laçınuğrunda gedən döyüşlərdə iştirak etmişdir.



***Məmmədov Sahib  Mürsəl oğlu***

1972-ci ildə Sumqayıtda anadan olmuşdur. 1992-ci ildən Kəlbəcər Batalyonunda xidmətə başlamışdır. Kəlbəcər, Ağdərə, Laçın döyüşlərində iştirak etmişdir.



***Kamalov Habil Kamal oğlu***

1972-ci ildə Kəlbəcərdə anadan olmuşdur. 1991- ci ildən Kəlbəcər batalyonunda xidmətə başlamış, Laçın, Ağdərə,  Kəlbəcər bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ilin yanvarında Murovdağ döyüşlərində tkin düşmüşdür.



***Cəfərov Natiq***

1973-cü ildə  Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildən Kəlbəcər Batalyonunda xidmətə başlamışdır. Kəlbəcər, Ağdərə, Laçın uğrunda gedən döyüşlərin iştirakçısı olmuşdur.



***Ramil***



***Vəliyev Məmməd Şərəfxan oğlu***

1973-cü ildə Kəlbəcərin Keştək kəndində anadan olmuşdur. 1991-ci ildə Kəlbəcər batalyonunda xidmətə başlamış və Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur



***Atakişiyev Taleh Azay oğlu***

1973- cü ildə Kəlbəcərdə anadan olub. 1991-ci ildən Kəlbəcər batalyonunda xidmətə başlamış, Kəlbəcər, Ağdərə, Laçın, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1996-cı ildə ordu sıralarından tərxis olunmuşdur.



***Əkbərov Qabil***



***Paşa***



***Mustafayev Yalçın Əkbər oğlu***

1975-ci ildə Kəlbəcərdə anadan olmuşdur. 1994-cü ilin yanvarında ordu sıralarına çağırılıb və Tərtər, Ağdərə bölgələrində gedən döyüşlərdə iştirak edib. Həmin ilin may ayının 9-da Tərtər uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.



***Allahverdiyev Vidadi Allahverdi oğlu***

1973-cü ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olmuşdur. 1992-ci ildən Kəlbəcər Batalyonunda xidmətə başlamışdır. Kəlbəcər, Ağdərə, Laçın, Murovdağ döyüşlərinin fəal iştirakçısı olub. 1996-cı ildə ordu sıralarından tərxis olunub.



***Yaşar Əliyev***



***Məzahir Aslan oğlu***



***Məmmədov Elçin Saleh oğlu***

1973-cü ildə Kəlbəcərdə anadan olub.1991-ci ilin dekabrında ilk əsgər kimi Kəlbəcər batalyonunda xidmətə başlayıb. Kəlbəcər, Laçın. Ağdərə döyüşlərində iştirak edib. 1996-cı ildə tərxis olunub.



***İsmayılov Adil Bahadur oğlu***

1972-ci ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildən Kəlbəcər Batalyonunda xidmətə
Başlamış, Kəlbəcər, Ağdərə, Laçın döyüşlərinin iştirakçısı olmuşdur.



***Cəfərov Əli Məhəmməd oğlu***

1973-cü ildə Kəlbəcərdə anadan olmuşdur. 13 dekabr 1991-ci ildə Kəlbəcər Batalyonunun ilk əsgərlərindən biri kimi xidmətə başlamış və Ağdərə, Murovdağ, Laçın, Kəlbəcər uğrunda döyüşlərdə iştirak etmişdir. 1992-ci ildə Ağdərənin Qozlu kəndi uğrunda gedən döyüşdə yaralanmışdır.1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



***Əkbərov Nadir***



***“Alay oğlu” Sərdar Abdullayev***

1978-ci ildə Kəlbəcərdə anadan olmuşdur. 1993-cü ilin dekabrında könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlamış və yaşı az olduğundan o, “Alay oğlu” kimi tanınmışdır. Onun ordu sıralarında olmağı 1993-1994-cü ildə Murovdağ döyüşləri ərəfəsində hər bir əsgər üçün mənəvi dayaq olmuşdur.



***Süleymanov Qənimət Vilayət oğlu***

1972-ci ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olmuşdur. 1991-ci ilin dekabr ayının 13-də yenicə yaranan Kəlbəcər batalyonunda xidmətə başlamış və Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir.



***Abbasov Asəf***



***Salmanov Rövşən Eyvaz oğlu***



***Rzayev Mikayıl Həbib oğlu***

1973-cü ildə Kəlbəcərin Otaqlı kəndində anadan olmuşdur. 1991-ci ildə Kəlbəcər Batalyonunun ilk əsgərlərindən biri kimi xidmətə başlamış və sonralar digər hərbi hissələrdə xidmətini davam etdirmişdir. Ağdərə, Murovdağ, Laçın, Kəlbəcər uğrunda gedən döyüşlərdə bacarıqlı bir döyüşçü kimi iştirak etmişdir. 1996-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



***İbrahimov Natiq Həmid oğlu***

1973-cü ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olmuşdur. 1991-ci ildə KəlbəcərBatalyonunun ilk əsgərlərindən biri kimi xidmətə başlamış və Ağdərə, Murovdağ, Laçın, Kəlbəcər uğrunda gedən döyüşlərdə bacarıqlı bir döyüşçü kimi iştirak etmişdir.



***Səmədov Xalid***



***Abbasov Etibar Qədim oğlu***



***Abbasov Fazil Musa oğlu***

1972-ci ildə Kəlbəcərin Dərəqışlaq kəndində anadan olmuşdur. 1991-ci ildə Kəlbəcər batalyonunda xidmətə başlamış və Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



***Abbasov Fərrux Abbas oğlu***

1973-cü ildə Kəlbəcərin Yuxarı Ayrım kəndində anadan olmuşdur. 1992-ci ildə Kəlbəcər Batalyonunda xidmətə başlamış və Laçın, Ağdərə, Kəlbəcər, Murovdağ bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1996 cı ildə ordu sıralarından tərxis olunmuşdur.



***Məmmədov Nazim Surxay oğlu (Qarabala)***

1973-cü ildə Kəlbəcərin Nəcəfalı kəndində anadan olmuşdur. 1991-ci ildə Kəlbəcər batalyonunda xidmətə başlamış və Ağdərə, Laçın, Kəlbəcər, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü ildə ordu sıralarından tərxis olunmuşdur.



*Teyyub Ağayev*



*Kəlbəcər batalyonunun ilk əsgərlərindən: Elçin*



*Kəlbəcər batalyonunun ilk əsgərlərindən: Şahin*



***Mehrəliyev Vəli Sabir oğlu***

1971-ci ildə Kəlbəcərin Almalıq kəndində anadan olmuşdur. 1992-ci ilin may ayında könüllü olaraq 701-ci briqadanın 713 saylı döyüşən taboruna yazılıb və sıravi döyüşçü kimi Laçın bölğəsində, Ağdərə bölgəsinin Vəng kəndi ətrafında gedən ağır döyüşlərin iştirakçısıdır. 994-cü ildə 5-ci taborun tərkibində Murovdağ uğrunda, sonralar isə Fizuli, Ağdam, Tərtər bölgələrində gedən qanlı vuruşmalarda iştirak edib.1996-cı ildə ordu sıralarından tərxis olunub.



***Abbasov Vəli***



***Həsənov İlqar Bayram oğlu***



***Şükürov Nemət Haqverdi oğlu***



***Verdiyev Vüsal Telman oğlu***

*Ana torpağı qorumaq şərəfdir. Lakin bu şərəf hər kəsə nəsib olmur.*
*M ü ə l l i f*



# Göyçə sərhəddində

1992-ci ilin dekabrında 3-cü taborun (Kəlbəcər Batalyonu) şəxsi heyətini 900 nəfərdən azaldaraq 500 nəfərə endirilmişdi. Buna səbəb isə könüllü döyüşçülərin məcburi olaraq tərxis edilmələri olmuşdur. Bununla yanaşı Ayrım və Alçalı məntəqələrindəki bölüyün bir hissəsi Laçın bölgəsinə göndərilmişdi. Bölüklər növbə ilə Laçın bölgəsində gedən döyüşlərdə iştirak edir, döyüşlər aparır, digər bölük və tağımlar isə əsasən düşmənin Göyçə istiqamətindən hücumlarının qarşısını alır, müdafiə döyüşləri aparırdı. Laçında döyüş aparan bölük vaxtaşırı başqa bölüklə əvəz olunurdu.

Bu vaxtlar Müdafiə Nazirinin əmri olmadan və heç bir əsas olmadan Batalyonun şəxsi heyətini də ixtisar etməyə başladılar. Belə ki, könüllü döyüşçülərin-yuxarı yaşlı əsgərlərin əksəriyyəti qeyri-qanuni olaraq ordudan tərxis olundular. Halbuki döyüşlərin əsas aparıcıları elə onlar idi. Bu hadisə bir dəfə də may-iyun aylarında polkovnik Z.Rzayev tərəfindən həyata keçirilmişdi. Könüllülər silahlarının əllərindən alınmasını təhqir kimi qarşılayır, hətta bəziləri getmək istəmir, düşmənlə döyüşmək üçün gəldiklərini, müharibənin isə qurtarmadığını deyirdilər. Elə əsgərlərimiz var idi ki, onlar silahlarını ağlaya-ağlaya təhvil verirdilər. Əlbəttə bu yolverilməz idi. Biz-aşağı vəzifəli zabitlər-buna etiraz etsək də bizimlə heç kəs hesablaşmırdı. Müharibə gedərkən batalyonun şəxsi heyətini ixtisar etmək ağılsızlıq idi.

Əlbəttə, müharibə qurtarmadan ordunun əsas qüvvələri olan könüllülərin tərxis edilməsi Qarabağ müharibəsində məğlub olmağımızın səbəblərindən biri idi.

1992-ci il dekabrın axırında batalyon komandiri polkovnik-leytenant E.Həsənov məni Zəylik, Ağduzdaq və Yellicə kəndlərində yerləşdirilmiş və Göyçə ilə sərhəddə mövqe tutmuş 1-ci bölüyə komandir təyin etdi. Mən 2-ci bölüyün silah-sursatını Taxta sərhəd məntəqəsində baş leytenant Ramiz Əhmədova təhvil verib Zəyliyə getdim. Bölüyün bir tağımı Ağduzdaqda, biri Zəylikdə, biri isə Yellicədə mövqe tutmuşdu.

*İnsan ruhdan düşəndə, onun atı da çapa bilmir.*



Bölüyü təhvil götürərkən əvvəlcə silah-sursatı və əşyaları yoxladım, sonra isə bütün keşik çəkdiyimiz ön mövqeləri gəzdim. Əvvəlcə hər bir tağımın keşikçi məntəqələrini, onların əlverişli və ya əlverişsiz olduqlarını nəzərdən keçirdim. Onların silah-sursatı, texnikası, rabitə qurğuları ilə, başlıcası isə əsgərləri ilə tanış oldum.

Bəzi yerlərdə keşiklərin sayını artırdım, bəzi yerlərdə onların yerini dəyişərək daha əhəmiyyətli yerlərdə yerləşdirdim. Zəylikdə dörd, Yellicədə isə üç daimi keşik (post) təşkil etdim. Qış olmasına baxmayaraq ermənilər hər vaxt hücum edə bilərdi. Baş leytenant Nizami Bayramov Yellicədə 2-ci tağıma, Nizami Məhərrəmov Zəylikdə 3-cü tağıma, leytenant İsa Hüseynov isə Ağduzdaqda 1-ci tağıma komandirlik edirdi. Müavinim leytenant Tahir Həşimovu Yellicəyə göndərdim, özüm isə bölüyün baş çavuşu İlqar Məhərrəmovla Zəylikdə qalmağı lazım bildim. Bu barədə komandirə məlumat verdim. Zəylik kəndinin Göyçə aşırımında mövqelərimizi gücləndirmək lazım idi. Həm də buraya düşmənin hücum edəcəyi barədə məlumatımız var idi. Bu barədə komandirə məlumat verdim. 1993-cü il mart ayının sonuna qədər Göyçə aşırımındakı mövqelərdə müdafiədə durduq. Mən tez-tez Yellicə və Ağduzdağa gedir əsgərlərlə görüşür, ön mövqeləri yoxlayır, onların da ərzaq, geyim və yanacaqla təchizatına diqqət yetirirdim. Bütün qışı yazadək dağdakı mövqeləri möhkəmlətməklə, birbirindən uzaqda yerləşən tağımların təchizatı ilə məşğul oldum. 1993-cü ilin martınadək dağlarda elə bir əhəmiyyətli döyüş baş vermədi. Kəlbəcər batalyonunun Göyçə ilə sərhəddə yerləşdirilmiş bölük və tağımların bir neçəsinin şəxsi heyəti aşağıdakı siyahıda verilmişdir:

**Ağduzdağ məntəqəsində yerləşən tağımın şəxsi heyəti:**

1. Tağım komandiri: leytenant Hüseynov İsa,
2. Tağım kom müavini Əliyev Elxan Qilvəli oğlu
3. İsmayılov Dilbazi Novruz oğlu,
4. Həsənov Abil Nurəddin oğlu,
5. Dünyamalıyev Əfqan Hacıbaba oğlu,
6. Nəcəfov Fazil Səfiyar oğlu,
7. Əsədov Ramiz Abdulla oğlu,

8. Musayev Nuru,
9. Ələkbərov Murov Ələkbər oğlu,
10. Vəliyev Əsəd Əbdüləli oğlu,
11. Camalov Azər Haxverdi oğlu,
12. Kərimov Şahin Heydər oğlu,
13. Bayramov Sahib Məhəmməd oğlu,
14. Xəlilov Rahib Xasay oğlu,
15. Əhmədov Mətləb Daşdəmir oğlu,
16. Əsədov Vüqar Məhərrəm oğlu,
17. Vəliyev Ələmşah Əli oğlu,
18. Quliyev Cavanşir,
19. Məmmədov Ceyhun,
20. Hüseynov Əhliman Süleyman oğlu,
21. Mamedov Nəsib Yusif oğlu,
22. Təhməzov Fədai Qurban oğlu,
23. Mehdiyev Cümşüd İsrafil oğlu,
24. Alməmmədov Hafiz Zahid oğlu,
25. Quliyev Namizəddin Oruc oğlu,
26. Mehdiyev Vidadi Oruc oğlu.

**Zəylik məntəqəsində yerləşən tağımın şəxsi heyəti:**

1. Tağım komandiri: gizir Məhərrəmov Nizami Məmməd o
2. Bölüyün baş çavuşu Məhərrəmov İlqar,
3. Əmrahov Yaşar Əli oğlu,
4. Əhmədov Rafiq Sadıq oğlu,
5. Məmmədov Əli Kamran oğlu,
6. Abbasov Ənvər Ədil oğlu,
7. Ələkbərov Fazil Əmirxan oğlu,
8. Məhərrəmov Elşən Məhəmmədəli oğlu,
9. Məmmədov Söhrab Qədim oğlu,
10. Quliyev Fərrux Həsən oğlu,
11. Edilxanov Təvəkkül Allahverdi oğlu,
12. Hüseynov Mətləb,
13. Hacıyev Mürvət İzzət oğlu,
14. Abbasov Malik İdris oğlu,
15. Abbasov Əli Abbas oğlu,
16. Cəbrayılov Vüqar Əkbər oğlu,
17. Mustafayev Cavad,
18. Bağırov Çingiz,
19. Heydərov Nadir Heydər oğlu,
20. Məmmədov Müslüm Müseyib oğlu,

21. İsmayılov Rafael Salman oğlu,
22. Şükürov Pərviz Yusif oğlu,
23. Alıyev Nizami,
24. Quliyev Ərşad Nəcəf oğlu,
25. Cəmilov Xəqani İsrafil oğlu,
26. Quliyev Əkbər Ocaqverdi oğlu,
27. Bayramov Qaryağdı Haxverdi oğlu,
28. Tağıyev Mayıs,
29. Çərkəzov Fərrux Bayram oğlu,
30. Qənbərov Polad Aydın oğlu,
31. Əhmədov Etibar Sabir oğlu,
32. Abdullayev Elxan Mülkü oğlu,
33. Məmmədov Vidadi Məhəmməd oğlu,
34. Mustafayev Elmir.

**Yellicə məntəqəsində yerləşən tağımın şəxsi heyəti:**

1. Bölük komandirinin müavini: leytenant Həşimov Tahir Zülfüqar oğlu,
2. Tağım komandiri: leytenant Bayramov Nizami Xasay oğ.
3. Kamalov Ələsgər Soltan oğlu,
4. Məmmədov Elçin Saleh oğlu,
5. Qarayev Firuz,
6. Vəliyev Məmməd Şərəfxan oğlu,
7. Sadıqov Rafiq İsmayıl oğlu,
8. Ələkbərov Fikrət,
9. Orucov Cəlil Umud oğlu,
10. Qurbanov Zimistan Səfəralı oğlu
11. Zeynalov Səxavət,
12. Kamalov Habil Kamal oğlu,
13. Həsənov Eldar Əmirxan oğlu,
14. Hümbətov Rövşən,
15. Əliyev Şahin Şəmşir oğlu,
16. Nağıyev Vidadi,
17. Dadaşov Həsən Göyüş oğlu,
18. Mirzəyev Əsgər,
19. Sevindikov Məhərrəm,
20. Kərimov Mütəllim Musa oğlu,
21. Kərimov İlqar Musa oğlu,
22. Qurbanov Şahin İmran oğlu,
23. Zamanov Məzahir Mirsəyyaf oğlu,
24. Mamedov Gürşad Qiyas oğlu,

25. Seyidov Şövqü,
26. Zalov Fəzail,
27. Tapdıqov Seymur,
28. Abbasov Fazil Musa oğlu
29. İbrahimov Habil
30. Əsgərov Abdulla Allahverdi oğlu
31. Müseyibov Əli Alməmməd oğlu
32. Əsgərov Manaf Yunis oğlu
33. Mikayılov İlqar
34. Məmişov Şəmsəddin
35. Cəmilov Vidadi Cəmil oğlu
36. İbrahimov Pərviz
37. Nəbiyev Qabil Məhəmməd oğl,
38. Əhmədov Namiq Mamed oğlu
39. Məmmədov Elçin Surxay oğlu
40. Əmiraslanov Habil Köçəri oğlu

**Qaz uçan məntəqəsində yerləşən tağımının şəxsi heyəti:**

1.Tağım komandiri, leytenant Bayramov Ələkbər Abbas oğlu
2.Tağım komandirinin müavini Mürsəlov Habil Rəşid oğlu
3.Atakişiyev Mehdi
4.Şahbazov Rəşid
5.Babaxanov Mahmud
6.Hümbətov İlqar Məmməd oğlu
7.Hümbətov Eldar
8.Hüseynov İlqar Bayram oğlu
9.Hüseynov Habil
10.Nəcəfov Bəxtiyar
11.Ağalarov Azadxan Əyyub oğlu
12.Ağalarov Elşən Əyyub oğlu
13.Şükürov Nemət Haqverdi oğlu
14.Tağıyev Səfiyar
15.Məmmədov Əli
16.Şamilov Anar Möhtərəm oğlu
17.Hüseynov Rafiq
18.Əhmədov Elçin
19.Ağayev Asif
20.Ələkbərov Eldəniz Ələkbər oğlu
21.Əmirov Polad
22.Heydərov İsmayıl
23.Şükürov İsmət

24.Cəfərov Yadigar Qəzənfər oğlu
25.Eyvazov Elşad
26.Hacıyev Cavanşir
27.Hacıyev Fazil
28.Verdiyev Vüsal Telman oğlu
29.Hümbətov Səyyaf Həsən oğlu
30.Əhmədov Eldar Haxverdi oğlu
31.Alışanov Elbəyi Miskin oğlu
32.Verdiyev Şakir Hüseyn oğlu
33.Çərkəzov Qəhrəman Əhməd oğlu (Topçu Qəhrəman)

**Aşağı Ayrım məntəqəsində yerləşən tağımın şəxsi heyəti:**

1. Bölük komandiri baş leytenant Hümbətov Xalid Əli oğlu
2. Tağım komandiri leytenant Sadıqov Məzahir Əli oğlu
3. Tağım komandiri leytenant Hüseynov Zahid İsmayıl oğlu
4. Tağım komandiri baş leytenant Bayramov Çıraq
5. Süleymanov Qənimət Vilayət oğlu
6. Abdullayev Yaşar Şirin oğlu
7. Rzayev Sübhan Əhəd oğlu
8. İbrahimov Natiq Həmid oğlu
9. Salmanov Natiq Xanoğlan oğlu
10. Salmanov Rövşən Eyvaz oğlu
11. Salmanov Ələddin Ələmdar oğlu
12. Nəsimi Zakir oğlu
13. Hüseynov Mətləb
14. Mahir Qədim oğlu
15. Nəbi Çaykəndli
16. Nəbi...
17. Bəkir Çaykəndli
18. Əsgərov Əsgər
19. Məhərrəm teymur oğlu
20. Nadirov Habil Hüseyn oğlu
21. Abutalıbov Telman
22. Cavanşir Çaykəndli
23. Habil...
24. Traktorçu Məmmədov Həsən Hüseyn oğlu...






# Kəlbəcər işğal ərəfəsində

1993-ci ilin fevral ayında Ağdərənin Dovşanlı kəndi ətrafından qoşunlarımız müəmmalı şəkildə geriyə çəkildi. Bizim bir neçə döyüş briqadası Ağdərənin Dovşanlı, Çıldıran, Umudlu, Mehmana, Canyataq, Sırxavənd və s. kəndlərindən döyüşsüz çəkilmələri ermənilərin əl-qollarının açılmasına imkan verdi. 3 gün ərzində ermənilər yenidən Ağdərə bölgəsinin 60-dan çox yaşayış məntəqəsini döyüşsüz olaraq ələ keçirdilər və bununla da böyük bir ərazi-demək olar ki, Dağlıq Qarabağın yarısı yenidən düşmən əlinə keçdi. Kəlbəcər və Laçın bölgəsinin çox hissəsi yenidən mühasirə vəziyyətinə düşdü. Artıq yenidən kəlbəcərlilər və ərazidə olan hərbi qüvvələr Murov dağındakı "Həyat yolu" ilə Azərbaycanın digər bölgələri ilə əlaqə saxlamağa, ərzaq, silah və sursat daşımağa məcbur oldular. Qış olduğundan bəzən, həftələrlə Murov yolu qarla örtülərək keçilməz olur, Kəlbəcərin digər bölgələrlə əlaqələsi tamamilə kəsilirdi. Bununla da Kəlbəcər və Laçın bölgəsindəki hərbi hissə və Kəlbəcərin mülki əhalisi təchizatsız qalırdı. Yerli əhali öz ehtiyat ərzağını əsgərlərlə bölməyə məcbur olurdu. Artıq 4-5 il idi ki, Kəlbəcərə elektrik enerjisi verilmir, əhali ərzaq və digər yaşayış mallarını çox çətinliklə əldə edirdi.

Belə bir vaxtda-mart ayının ortalarında ermənilər ruslarla birlikdə Ağdərə bölgəsi ilə kifayətlənməyərək, Laçın və Kəlbəcər ərazilərini də işğal etmək planlarını həyata keçirməyə başladılar. Artıq Laçının bir neçə kəndini yenidən işğal edən ermənilər, Qarabağ tərəfdən Kəlbəcərin Narışdar, Alaqaya, Çıraqlı, Çərəkdar, Mərcimək, Ağdaban kəndlərinə, eləcə də Laçın bölgəsinə tez-tez hücuma keçirdi. Lakin Kəlbəcər batalyonunun bölmələri və briqadanın digər batalyonları tərəfindən onların bu hücumlarının qarşısı alınır, ermənilər itki verərək geriyə çəkilirdı. Vəziyyətin çətinliyini görən Kəlbəcər əhalisi döyüşlərə can atırdı, onlara silah verilməsini tələb edirdi. Buna görə də 1992-ci ilin

fevralında yaradılmış və iki-üç ay fəaliyyət göstərmiş könüllülərdən ibarət 844 saylı əlahiddə batalyonun yenidən yaradılmasına başlandı. Orada döyüş vərdişləri olan gənclər toplaşmış və onlar kiçik dəstələrlə Çərəkdar, Narışdar, Ağdaban və s. kəndlərdə yerləşdirilmişdilər. Kəlbəcər batalyonu isə 120 km-dən çox olan sərhəd məntəqələrində yerləşdirilmişdir. 701-ci döyüş briqadasının digər taborları isə Laçın bölgəsində döyüşlər aparırdı. Briqadanın tabor və bölmələri arasında məsafələr çox uzun idi və əlaqələr çox zəif idi. Briqadanın fasiləsiz olaraq səngərlərdə yerləşdirilməsi və fasiləsiz olaraq döyüşlərə qatılması əsgər və zabitləri yormuş, onları bezdirmiş, mənəvi və psixoloji bir gərginlik yaratmışdı. Briqadanın təchizatı da ürəkaçan deyildi. Rabitə qurğuları, döyüş texnikası, maşın, avadanlıq, ehtiyat hissələri, paltar, ayaqqabı, ərzaq azlıq edirdi. Əsgər və zabitlər aylarla hamam görmür, qarlı, yağışlı günlərdə səngərlərdən çıxmır, xəstələnir, gündəlik tələbatları ödənilmirdi. Həddindən çox uzun olan cəbhə xəttinin müdafiəsi üçün əlavə hərbi qüvvələr lazım idi...

Kəlbəcər batalyonunun mövqe tutduğu Göyçə ilə sərhəddə isə 25 mart 1993-cü il tarixədək elə bir mühüm döyüş və dəyişiklik baş vermədi. 701-ci hərbi hissə komandanlığı və Müdafiə Nazirliyi düşmənin Ermənistan tərəfdən hücum edəcəyini ağıllarlna belə gətirmirdilər.



*İSTİSU-1992-Cİ İL*

*çəkilmək hərbçi üçün, nəinki qəbahət, həm də töhmətdir.*

*M ü ə l l i f*

# 2-ci Çərəkdar döyüşü

17 fevral 1993-cü il tarixdə briqadanın 1-ci taboru yenidən təşkil edilərək Ağdərənin Vaquas kəndinə gətirildi. Tabor bir neçə gün ərzində düşmən hücumları qarşısında tab gətirməyərək Çərəkdar kəndinə çəkildi. Geri çəkilə-çəkilə 1-ci tabor düşmənin 2 tankını, bir PDM-ni və 150 nəfərədək əsgərini məhv etdi. 1993-cü il mart ayının 27-də düşmən artilleriyanın köməyi ilə eyni vaxtda həm Ağdaban kəndinə, həm də 21 ədəd tankın və zirehli texnikanın köməyi ilə Çərəkdar kəndinə yenidən hücuma keçdi. Qüvvələr qeyri-bərabər idi. Buna baxmayaraq 1-ci tabor Qurban Qurbanovun rəhbərliyi ilə Çərəkdar kəndi ətrafında düşmən hücumu dəf etdi. Bu döyüşdə düşmənin iki vertalyotu, bir tankı, bir PDM-i vuruldu və çoxlu sayda canlı qüvvəsi məhv edildi. Taborun 8 əsgəri şəhid oldu və 7 nəfəri yaralandı. Düşmən xeyli canlı qüvvə və texnika itirməyinə baxmayaraq əlavə olaraq köməyə gətirilən 10 ədəd tankla müdafiəmizi yarmağa nail oldu. Eyni vaxtda düşmən yenidən Ağdaban kəndini işğal edərək, Bağlıpəyə istiqamətindən də Çərəkdar kəndinə hücum etdi. Erməni və rus hərbi birləşmələri üç istiqamətdə irəliləyərək Çərəkdar kəndini üç tərəfdən mühasirəyə aldı. Qüvvələrimiz azlıq etdiyinə görə 1-ci tabor və Çərəkdar kəndinin cənubunda döyüşən kəlbəcərli könüllülər geri çəkilməli oldular. Düşmən 150 nəfərdən çox canlı qüvvə itirsə də Çərəkdar və Bağlıpəyə kəndləri işğal və qarət edildi. Mühasirədə qalan qüvvələrimiz Ağqaya istiqamətində geriyə çəkilməyə məcbur oldu. Artıq Qarabağ istiqamətindən hücum edən düşmənin qarşısını almaq getdikcə çətinləşirdi. Mütləq bölgəyə əlavə qüvvələrin gətirilməsi və Kəlbəcərin müdafiəsinin möhkəmləndirilməsi lazım gəlirdi. 2-ci çərəkdar döyüşünün iştirakçısı Mustafayev Qalib Rəhim oğlunun dediklərindən: “Bir neçə gün idi ki, bizim bölük Çərəkdar kəndinin şərqindəki yüksəklikdə müdafiədə durmuşdu. Bölük komandiri Şəmsəddin Məmmədov, bölüyün baş çavuşu isə Nəriman Məmmədov idi. Bizim mövqe tutduğumuz yer Ağqaya kəndinə gedən yolun üstündə idi. Briqadanın 1-ci taboru isə Tərtərçayın sol sahilindəki yüksəkliklədə yerləşdirilmişdi. Bir neçə gün ərzində düşmənin bir neçə hücumunun qarşısını aldıq. Döyüş yoldaşlarımın qoçaqlığı sayəsində düşmən bir addım da irəliləyə bilmirdi. Bu müddətdə düşmən kütləvi şəkildə hücum etmir, yalnız kəşfiyyat xarakterli döyüşlər aparırdı. Biz isə əsas qüvvələrin yerləşdiyi 1-ci tabor tərəfdən deyil, çayın sağ sahilindən düşmənə güclü atəş açır, onları çaş-baş salmağa çalışırdıq. Bununla da

düşmənin hücum edəcəyi təqdirdə, onun əsas zərbələrini öz üzərimizə yönəltmək və düşməni çayın sağ sahilinə çəkərək onları məhv etməyi düşünürdük. Tərtərçayın sol sahilində-yolun kənarında isə 4 ədəd PDM-2 və 4 ədəd zenit pulemyotları yerləşdirilmişdi. 1993-cü il mart ayının 21-dən 22-nə keçən gecə düşmən bizim mövqelərə hücuma keçdi. Bu döyüş gözlənilməz olduğundan, əvvəlcə kor-koranə atəş açır, düşmənin məqsədini müəyyən etməyə çalışırdıq. Lakin döyüşçü yoldaşların-Məmmədov Nəriman, Salmanov İsa, Şahverdiyev Uğurlu, Elman İsmayıl oğlu, polis Ədalət İsmayıl oğlu, Başlıbel kəndindən olan Vaqif və digərlərinin qoçaqlığı nəticəsində 3 düşmən əsgəri öldürüldü və ermənilər səhərəyaxın geri çəkildilər.

27 mart 1993-cü il tarixdə səhər saat 5-də düşmən daha böyük qüvvə ilə 3 tərəfdən Çərəkdar kəndinə hücum etdi. Amansız bir döyüş başladı. Əvvəlcə kənd güclü top atəşinə məruz qaldı, sonra isə erməni və rus hərbi qüvvələri, həm Qozdu körpü, həm Ağqaya, həm də Ağdaban kəndi istiqamətindən hücuma keçdilər. Tərtərçayın bu tayından erməni və rus əsgərlərini asanlıqla ayırd etmək mümkün idi. Biz kəndin şərqindəki əvvəlki mövqelərimizdə idik. Düşmənin əvvəlcə 10 ədəd tank və zirehlisini, sonra isə köməyə gələn daha 11 ədəd zirehli texnikasını saydım. Onların məqsədi kəndi mühasirəyə almaq və mövqelərimizi ələ keçirmək idi. Düşmənin 4 ədəd vertalyotu mövqelərimizi bombaladı. Lakin zenitçilər vertalyotların geri qayıtmasına imkan vermədilər; düşmən vertalyotlarından 2-si vuruldu və digər ikisi isə qaça bildi. Yol ilə irəliləyən düşmən tanklarından birincisi minaya düşdü və elə bu anda ikinci tank qumbaraatanlarımız tərəfindən vuruldu. Tərtərçayın solundakı yüksəkliklərdə mövqe tutmuş 1-ci taborun əsgərləri əsl qəhrəmanlıq göstərir, düşmənin canlı qüvvələrini yaxına buraxaraq məhv edirdilər. Onlar demək olar ki, mühasirə vəziyyətində döyüşür, ölən və yaralıları Kəlbəcər istiqamətində geriyə daşıyır, irəliləyən düşmən əsgərlərini bir-bir yerə sərirdilər. Beş saat idi ki, döyüş başlamışdı, lakin nə 1-ci tabor, nə də bizim döyüşçülər bir addım da geriyə çəkilməmişdik. Lakin qüvvələr qeyri-bərabər idi.

Bu vaxt Tərtərçayın sağ sahilinə keçən düşmən tankları və zirehliləri bizim mövqeləri atəşə tutaraq irəliləməyə başladı. Biz möhkəm durmuşduq. Bir gün ərzində bir neçə dəfə onların geri çəkilməsinə nail olduq. Axşamüstü ermənilər Ağdaban kəndini işğal edərək qüvvələrini bizim istiqamətə-Çərəkdar istiqamətinə cəmləyə bildi. 1-ci taborun

*Kəşfiyyatsız hücum – gözüyumulu düşmən üzərinə getməkdir.*
*M ü ə l l i f*

Kəlbəcər tərəfindəki mövqeləri də güclü atəş altına düşdü. Onlar demək olar ki, mühasirədə döyüşü davam etdirir, itkiləri çox olsa da, bir addım da səngərdən kənara çıxmırdılar. Gözümün qarşısında bu qəhrəman əsgərlərin döyüşünü izləyir və eyni vaxtda çayın sol sahilindəki ermənilərə atəş açırdıq. Düşmən 200 nəfərədək canlı qüvvə itirməyinə baxmayaraq qarış-qarış irəliləməkdə davam edirdi. Axşam saat 6-da 1-ci taborun sağ qalmış bir neçə döyüşçüsü Tərtərçayın sağ sahilinə keçə bildi. Kəndin şərqindən hücuma keçən düşmən tankları yenidən bizim mövqelərə soxuldu, artıq döyüşü davam etdirə bilmirdik, nə mərmimiz qalmışdı, nə də güllələrimiz, mühasirədə qalmışdıq. Bizə nə kömək gəlir, nə də qüvvələrimiz döyüşü davam etdirməyə bəs edirdi. Düşmən isə artıq Çərəkdar kəndinə girmişdi. Biz yeganə çıxış yolu ilə-Ağqaya və Laçın kəndi istiqamətində geriyə çəkildik".



*KƏLBƏCƏR, ÇƏRƏKDAR KƏNDİ - MART 1993-CÜ İL*



*Kəlbəcər batalyonunun döyüşçülərindən*
*Vəliyev Məmməd, Hərbi hospital-1992-ci il*



*Atakişiyev Taleh-1992-ci il*



*Batalyonun ilk əsgərlərindən: solda-Şükürov Şükür, sağda-Rzayev Qorxmaz Vaqif oğlu*



*Batalyonunun ilk əsgərlərindən*
*Elçin və Azər, 1991-ci il*



*Salmanov Ələddin (solda), Salmanov Rövşən (ortada) 1992-ci il*



*Şəkildə: könüllü döyüşçü Qalib Mustafayev 1993-ci il*



*Döyüşçülərdən: soldan-Vəli Hüseynov,*
*Raquf Müzəffər oğlu, Əfqan Ellaz oğlu 1992-ci il*



*Döyüşçülərdən:Hüseynov Vəli* (solda)



*Leytenant A Kamalov 1992-ci il*



*Əsgər İbrahimov Natiq Həmid oğlu*



*İlk əsgərlərdən:*
*Rzayev Mikayıl (ortada) və döyüş yoldaşları*



*İilk əsgərlərdən:*
*Mehrəliyev Vəli Sabir oğlu-1992-ci il*



*Salmanov Ələddin Ələmdar oğlu və Salmanov Rövşən Eyvaz oğlu, 1992-ci il*



*Döyüşçülər, İstisu-1992-ci il,*
*soldan Paşa, Abbasov Fazil və Telman (həlak olub)*


*Kəlbəcər batalyonunun döyüşçüləri-1993-cü il*



*KƏLBƏCƏR, ÇƏRƏKDAR KƏNDİ - MART 1993-CÜ İL*

*Məktəblilər döyüşçülərin yanında ayaq üstə: sağdan Rəfi Aydınov, sağdan 3-cü Hikmət Verdiyev , 4-cü Qalib Mustafayev, 5-ci Şəmsəddin Məmmədov, oturanlardan: sağda Nəriman Məmmədov və məktəblilər*



*Leytenant Tahir Həşimov (sağda) və Ələsgər Kamalov, yanvar 1993-cü il*



*İlk əsgərlərdən*
*Muxtarov Rizvan İsmayıl oğlu-1992-ci il*



*Döyüşçülərdən: sağdan: Şahin Qənaət oğlu, Ədalət Rəhimov, Elçin, Dadaş Hacıyev, Natiq Əhmədov, oturanlar: sağdan: Elnur Yanşaqlı, Natiq Cəfərov, Teyyub Ağayev...—1992-ci il*



*Kəlbəcər batalyonunun minaatanları: şəkildə batareya komandiri baş leyt. Əziz Abbasov, Vüsal Verdiyev, Vəli Abbasov, ElşənMəmmədov, Mahir Məmmədov, Qismət Allahverdiyev, Zahir Məhərrəmov*



*Şəkildə: soldan sağa-Əkbərov Nadir Baxşəli oğlu, Ələkbərov Fikrət İbrahim oğlu, Əkbərov Qabil Şahmar oğlu, Nəsibov Sərdar, Əkbərov Habil Şahmar oğlu, 1993-cü il*




*Kəlbəcərdə Özünümüdafiə Batalyonu yaradılır.*
*Şəkildə: ilk əsgərlərdən-Rizvan Muxtarov (solda) fevral-1992-ci il*



*Şəkildə: soldan sağa-Şəldiyev Kərəm Aydın oğlu, Abbasov Asəf Firudin oğlu, Məzahir Aslan oğlu, Həşimov Əfqan Ellaz oğlu, İsgəndərov İslam Hətəm oğlu, Səmədov Xalid, 1993-cü il*



*Şəkildə: könüllü döyüşçülərdən Qalib Mustafayev və Uğurlu Şahverdiyev, Çərəkdar kəndi, mart 1993-cü il*



*İlk əsgərlərindən: Məmmədov Elçin Saleh oğlu, Taleh və Natiq , dekabr 1991-ci il*



*Kəlbəcər batalyonunun döyüşçüləri: Hüsenov Vəli (solda oturub)*



*KƏLBƏCƏR, ÇƏRƏKDAR KƏNDİ - MART 1993-CÜ İL*

*Əsgərlər Novruz bayramı zamanı. Qalib Şükürov və Uğurlu Şahverdiyev*



*Döyüşçülər*

*Təkcə torpaq deyil, torpaq üzərində olan dağlar, daşlar, yamaclar, dərələr, qayalar, bulaqlar, çaylar, dənizlər, torpağın bitirdiyi hər şey- ağaclar, kollar, çiçəklər, otlar, hətta adi bir yovşan kolu da-vətəndir. M ü ə l l i f*






## ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN

***17 fevral 1993-cü il*** - Erməni və rus hərbi birləşmələri Ağdərə bölgəsində möhkəmlənərək Kəlbəcər istiqamətində hücuma hazırlaşmağa başladı. Briqadanın 1-ci taboru Laçından Qozdu körpü kəndinə gətirildi.

***27 fevral 1993-cü il*** - Tabor bir neçə gün ərzində düşmən hücumları qarşısında tab gətirməyərək Çərəkdar kəndinə çəkildi. Geri çəkilə-çəkilə 1-ci tabor düşmənin 2 tankını, bir PDM-ni və 150 nəfərədək əsgərini məhv etdi.

***17 mart 1993-cü il*** - Artıq Laçının bir neçə kəndini yenidən işğal edən ermənilər, Qarabağ tərəfdən Kəlbəcərin Narışdar, Alaqaya, Çıraqlı, Çərəkdar, Mərcimək, Ağdaban kəndlərinə hücum etdilər. Lakin Kəlbəcər batalyonunun bölmələri və briqadanın digər batalyonları tərəfindən onların bu hücumlarının qarşısı alınır, ermənilər itki verərək geriyə çəkilirdı.

***21 mart 1993-cü il*** – Düşmən şərq tərəfdən Çərəkdar kəndinə hücum etdi. Kənd vertalyotlarla və toplarla bombalandı. Kəlbəcər Batalyonunun döyüşçüləri düşməni geri otuptdu. Bu döyüşdə 3 düşmən əsgəri öldürüldü.

***26 mart 1993-cü il*** - erməni və rus hərbi birləşmələri Kəlbəcərin qərbində əhəmiyyətli yüksəklik olan Qara Qayanı ələ keçirdi. Oradan Kəlbəcər şəhəri və ətraf kəndlər müntəzəm olaraq top və qrad qurğuları ilə atəşə tutuldu.

***27 mart 1993-cü il*** – 27 mart 1993-cü il tarixdə erməni və rus hərbi birləşmələri Çərəkdar kəndinə hücuma keçdi. 1-ci tabor (komandir: kapitan Nəriman Zeynalov) düşmən hücumunu dəf etdi. Bu döyüşdə düşmənin iki vertalyotu, bir tankı, bir PDM-i vuruldu və çoxlu sayda canlı qüvvəsi məhv edildi. Taborun 8 əsgəri şəhid oldu və 7 nəfəri yaralandı.

*Döyüşün nəticəsi əsgərlə komandirin ünsiyyətindən və bir-birinə inamından asılıdır.* M ü ə l l i f

# Qara Qayanın itirilməsi və Kəlbəcərin qara günləri

Mart ayının 25-26-da erməni və rus hərbi birləşmələri Ağdarə, Laçın və Göyçə istiqamətlərindən-üç tərəfdən Kəlbəcərə hücuma keçdilər. Elə ilk hücumla Göyçə ilə sərhəddə əhəmiyyətli bir yüksəklik olan Qara Qaya mövqeləri ermənilərin əlinə keçdi. Bir neçə gün əvvəl ermənilərin Göyçə istiqamətindən yolların qarının təmizlənməsi və onların hücuma hazırlaşması barədə əsgərlərin gətirdiyi kəşfiyyat məlumatları düz çıxdı. Bu məlumatlara yuxarı komandanlıq və İcra hakimiyyəti inanmadılar və heç bir əhəmiyyət vermədilər, bu məlumatları "şaiyə" adlandırdılar. Qara Qaya yüksəkliyinə çıxan ermənlər Kəlbəcər şəhərini və sərhəd kəndlərini toplarla və qrad qurğuları ilə atəşə tutdular. İtkilər var idi. Əhali vahiməyə düşmüşdü.

Bu zaman bizim taborun bölmələri sərhəd məntəqələrində mövqelərimizi bərkidir, ermənilərin hücumlarının qarşısın almaq üçün əlavə keşikçi məntəqələri yaradır, qüvvələrimizi səfərbər edirdik. Lakin, Qara Qaya yüksəkliyi düşmənin əlində olduğundan, onlar görünən kəndləri və Kəlbəcər şəhərini toplarla atəş altında saxlamağı davam etdirirdilər. Buna görə mən tabor komandirinin tapşırığı ilə Ağduzdaqdakı tağımı da Zəyliyə gətirərək orada mövqeləri bərkitməyə çalışırdım. Buradan da düşmən qüvvələri hücuma cəhd göstərirdi. Zəylikdə yerləşən mövqelərimizə ermənilər dəfələrlə basqınlar etsələr də də onlar yaxına buraxılmırdı və düşmən itki verərək geriyə çəkilirdi. Topçularımız-Bayramov Qaryağdı və onun döyüş yoldaşları bu döyüşlərdə daha çox fəallıq göstərirdilər. Göyçə aşırımındakı keşikçilərimizlə əlaqə saxlamaq üçün səngərlə məntəqə arasında telefon xətti çəkdirdim. Telefonla topçulara səmti müəyyən etməyə kömək edilirdi. Həmin vaxt ratsiyalarımız çatışmır və ya batareykaları gücdən düşür, digər bölük və tağımlarla əlaqə yarada bilmirdik. Sursat və ərzaq daşımaq üçün maşın da yox idi. Martın 29-da İcra hakimiyyətinə zəng edərək top mərmisi gətirmək üçün maşın istədim. Bir neçə saatdan sonra onlar 16 ədəd əlavə top mərmisi göndərdilər. Topçulara iki yüzdən çox top mərmisini döyüş üçün hazırlatdım. Axşamüstü tabor komandiri polkovnik-leytenant Eldar Həsənov zəng edərək vəziyyəti soruşdu, mən məlumat verdim və xahiş etdim ki, bizim ratsiyaları bizə qaytarsınlar. 15 gün əvvəl bölüklərin ratsiyalarını hərbi hissə komandirinin əmri ilə yığıb aparmışdılar. Digər bölük, tağım və batalyon qərərgahı ilə yalnız şəhər

telefonları ilə əlaqə saxlayırdıq.

İtirilmiş Qara Qaya mövqelərini-strateji yüksəkliyi-geri qaytarmaq üçün yuxarı komandanlıq əməliyyat hazırlamışdı. Mən Zəylikdən tabor komandiri polkovnik-leytenant Eldar Həsənova zəng edərək oraları yaxşı tanıdığımı dedim və itirilmiş mövqeləri qaytarmaq məqsədilə hücum əməliyyatında iştirak etməyim üçün icazə istədim, lakin komandir Zəylik mövqelərinin təhlükəli olduğunu bildirərək, mənə oranı tərk etməməyi tapşırdı. Lakin, hazırlanmış əməliyyat, təssüf ki, keçirilmədi.

Ermənilər martın 26-dan etibarən toplarla və qrad qurğuları ilə kəndləri və Kəlbəcər şəhərini atəşə tutur, əhalini vahiməyə salırdılar. Aydın idi ki, düşmən hücuma keçməyə hazırlaşırdı. Kəlbəcər əhalisinin çox hissəsi ərazini tərk etmişdi. Amma hələ də ucqar kəndlərdə xeyli əhali var idi. Həmin gün axşam komandir məni Qılışlı kəndində yerləşən qərərgaha çağıraraq Tunelin (Tunel 30-dək kəndin və Laçına gedən yeganə yolun keçidi idi), Ağdaban, Çərəkdar, Bağlıpəyə, Narışdar, Alaqaya kəndlərinin və Laçın rayonunun əksər kəndlərinin ermənilər tərfindən işğal olunduğunu və vəziyyətin olduqca çətinləşdiyini, briqadanın Laçın bölgəsindəki bölmələri çıxarılaraq Kəlbəcərin müdafiəsinə göndərildiyini dedi. Kəlbəcərin yeganə “Həyat yolu”nun – Murov yolunun iki kilometrliyində döyüşlər getdiyini, Qamışlı körpüsünə düşmənin yaxınlaşdığını da komandirdən öyrəndim. Komandir Taxta məntəqəsindəki iki tağımı-leytenant Z.Tağıyevin və baş leytenant R.Əhmədovun komandirlik etdikləri tağımları da-mənim bölüyümə köməyə göndərdiyini bildirdi və Zəylik kəndindəki mövqeləri möhkəmlətmək üçün tapşırıqlar verdi. Mən sursat və ərzaq götürüb maşınla Zəyliyə qayıtdım. Qayıdan kimi tağım komandirləri leytenant İsa Hüseynovu, Nizami Məhərrəmovu və baş çavuş İlqar Məhərrəmovu yanıma çağırıb vəziyyəti onlara başa saldım, komandirin tapşırıqlarını onlara bildirdim, təşvişə düşməmələri üçün əsgərlərə heç nə demədik. Tağımları cərgəyə düzdürdüm və onlara mövqelərdə ayıq-sayıq, möhkəm durmaları üçün tapşırıqlar verdim.

Bir btalyonla həm Qarabağ, həm də Ermənistan tərəfdən ermənilərin hücumlarının qarşısını almaq mümkün deyildi. Mütləq bizə əlavə canlı qüvvə və texnika, bundan da vacıb olan vahid komandanlıq lazım idi. Laçındakı mövqelərdən çəkilən hərbi hissənin bölmələri isə bizə köməyə gəlmək əvəzinə Murova doğru çəkilir, döyüşmədən Kəlbəcər ərazisini tərk edirdi. Hərbi hissə komandiri polkovnik Ə.Qənizadə Kəlbəcəri qorumaq üçün briqadanın Laçın bölgəsindən geri çəkilən taborlarını vaxt azlığından yenidən döyüşə cəlb edə bilmədi.

*Insanı qarlı dağları aşmağa, əlçatmayan qayalara ırmaşmağa, ac-susuz, yuxusuz qalmağa, habelə ölümdən belə qorxmamağa vadar edən bircə şey var; bu-Vətən məhəbbətidir. M ü ə l l i f*

Halbuki, ona Kəlbəcəri qorumaq əmri verilmişdi.

Aprel ayının 1-də səhərəyaxın erməni və rus hərbi birləşmələri Ermənistan tərəfdən eyni vaxtda sərhəd boyu ağır artilleriya atəşinin və zirehli texnikanın köməyi ilə 2000 nəfərdən çox canlı qüvvə ilə qəti hücuma keçdi. Söyüdlü, Dikyurd, Yellicə, Ayrım sərhəd məntəqələri düşmənin qat-qat üstün qüvvələri qarşısında tab gətirmədi və onlar döyüşərək geriyə çəkilməyə məcbur oldular. həmin mövqelər düşmən əlinə keçdi. Yalnız Zəylik istiqamətində düşmən hücumunun qarşısı alındı. Zəylikdəki topla biz son iki gün ərzində ermənilərin mövqelərinə və Basarkeçərə 200-dək top mərmisi atmışdıq.

Aprel ayının 31-dən 1-nə keçən gecə Yellicə məntəqəsi ilə əlaqə saxladım. Əsgərlər düşmən qüvvələrinin Çalmalı yüksəkliyinə hücuma hazırlaşdıqlarını və vəziyyətin pis olduğunu bildirdilər. Mən tağım komandirləri leytenant İsa Hüseynova, Nizami Məhərrəmova və bölüyün baş çavuşu İlqar Məhərrəmova tapşırıqlar verdim və gecə Kəlbəcərə gəldim ki, Yelliсəyə gedim.

Kəlbəcər şəhərinin əhalisinin əksəriyyəti şəhəri tərk etmişdi. Evlər boş qalmışdı. Bəzi evlərdə çıraq işığı gəlirdi. Evə baş çəkdim. Heç kim yox idi. Qonşudan öyrəndim ki, qonşu Mamed Fərman oğlu öz bacıları ilə uşaqları götürüb Gəncəyə aparmışdı. Aprelin 1-də səhər piyada Yellicəyə getmək istərkən orada xidmət edən bir əsgərlə və tağım komandiri leytenant N.Bayramovla qarşılaşdım. Onlar Yellicədəki mövqelərin artıq ermənilərin əlinə keçdiyini və döyüşə-döyüşə oranı tərk etdiklərini, əsgərlərdən Zamanov Məzahir və Qurbanov Şahinin itkin düşdüyünü bildirdilər. Mən onlarla Kəlbəcərin mərkəzindəki polis idarəsinin qabağına gəldim ki, Zəyliyə zəng edim. Lakin telefon işləmirdi. Orada Quliyev Qəzənfər iki əsgərlə Dikyurd sərhəd məntəqəsinə aparmaq üçün bir maşına sursat və ərzaq yığırdılar. Bu vaxt qrad mərmiləri ətrafımıza düşməyə başladı. Hər tərəf toz-dumana büründü, evlər dağıldı, başımıza daş-kərpic qırıntıları yağdı. Polislər və əsgərlər hərə bir tərəfə qaçdılar. Mən iki əsgərlə maşının yanında asfaltın üstündə uzanmışdım. Dalbadal atılan mərmilərdən və onların hər tərəfə səpələnən qəlpələrindən imkan yox idi ki, başımızı qaldıraq. Fikirləşdim ki, mütləq qrad mərmisinin biri yaxınlığa düşməlidir. Ona görə də bu ərazidən çıxmaq lazımdır. Sürücü əsgərə maşını işə salmağı dedim. Maşına mindik və maşını döndərib küçə ilə üzü aşağı sürməyi əmr etdim. Maşının qapısını örtməmiş mərminin biri sol tərəfimizdə, bizdən 6-7 metr

aralıda partladı. Kitab mağazasının və ona bitişik olan tir köşkünün taxtaları alovla birgə göyə sovruldu. Maşın zərbədən yuxarı tullandı. Biz istər-istəməz başımızı aşağı əydik. Bir anlıq hər şeyin sonu olduğunu yəqin etdim. Başımı qaldıranda tüstü və tozun içərisindən heç nə görmədim. Əsgərlərdən soruşdum ki, "salamatsız"? Onlar "salamatıq"-dedilər. Əsgərlərə və mənə qəlpə dəyməmişdi, maşının yük yerinin taxtaları parça-parça olmuş, kabinə isə salamat qalmışdı. Zərbədən beynim və qulaqlarım uğuldayırdı. Sürücüyə: "Sür qərərgaha"-dedim. Biz Qılışlı kəndində yerləşən taborun qərərgahına çatanda saat 10 olardı komandirlə görüşdüm və Yellicədəki mövqelərin itirildiyini, Kəlbəcərin isə bombalandığını bildirdim.

Komandir mənə və qərərgah rəisinə onunla Dikyurd məntəqəsinə-Göyçə ilə sərhədə gedəcəyimizi bildirdi. Biz bir az sonra komandirin UAZ maşını ilə teleqüllə istiqamətində gedirdik. Yollara səpələnmiş əhali Murova doğru tələsir, bəziləri mal-qoyun aparırdı. Vertalyotlar isə Kəlbəcər şəhərindən-aeroportdan əhalini daşıyırdı. Biz Otaqlı kəndinin üst tərəfindəki yüksəkliyə-teleqüllənin yanına çatdıqda Dikyurd yüksəklikliyindən əsgər və polislərin bizə tərəf qaçdığını gördük. Onlar Dikyurd yüksəkliyinin-ön mövqeyin ermənilər tərəfindən tutulduğunu dedilər. Burada olan top və qrad qurğusunu isə atan yox idi. Top sürüşərək xəndəyə düşmüş, qrad isə nədənsə susurdu. Mən tez əsgərləri dəstələrə bölüb teleqüllənin yaxınlığındakı yüksəkliklərdə mövqe tutmalarını əmr etdim. Digər əsgərləri də bölüşdürərək, təpələrin üzərində müdafiə qurmaq istədim. Ermənilər Dikyurd yüksəkliyində görünürdülər. Onlar minaatanla və pulemyotlarla bizi atəşə tutmuşdular. Elə bu vaxt düşmən minaatanla bizi atəşə tutmağa başladı. Minaatan mərmisi yaxınlığa düşdü. Iki əsgər və tağım komandirinin müavini Fəxrəddin Mikayılov yaralandılar. Onları komandirin maşınına qoyub təpənin arxasına aparmağı tapşırdım. Bir neçə əsgər və mən təpədə mövqe tutmuşduq, komandir və qərərgah rəisi isə bir neçə əsgərlə aşırımın arxa tərəfində düşmənin görmədiyi bir yerdə dayanmışdılar. Ardıcıl atılan minaatan mərmiləri bizə yaxınlaşırdı. Yerimi dəyişmək istəyirdim ki, iki-üç metr məndən aralı düşən mərminin zərbəsi torpaq və kəsəklə birgə məni kənara tulladı. Bir anlıq hər tərəf qaranlıq oldu, tüstünün içində qaldım, nəfəs ala bilmirdim. Mən əvvəlcə yaralandığımı yəqin etdim, lakin heç bir yerimin ağrımadığını hiss edirdim. Yaralanmamışdım, yalnız başım gicəllənir, qulaqlarım uğuldayırdı. Özümü itirmədən tez ayağa durdum və boyun-boğazıma dolmuş torpağı təmizləməyə başladım. Polislər Otaqlı kəndi istiqamətində yamacla aşağı enirdilər. Onları geri qaytarmaq lazım idi. Qışqıraraq "düşmən

uzaqdadır, mövqe tutmalıyıq, geri qayıdın"-desəm də onları döyüş mövqeyinə qaytarmaq mümkün olmadı. Düşmənnin atdığı mərmilər yenə ətrafa düşürdü. Düşmən teleqülləyə və bizim ətrafımıza 50-dən çox mərmi atdı. Növbəti mərmilərdən biri batalyon komandiri polkovnik-leytenant Eldar Həsənovun və kapitan B.Nəsibovun lap yaxınlığına düşdü. Fikirləşdim ki, onlar ya həlak oldular, ya da yaralandılar. Mən onlara tərəf qaçdım. Yaxınlaşanda tüstü və toz buludunun içərisindən komandirin ayağa duraraq üst başının toz-torpağını çırpırdı. Mən onların sağ-salamat olduqlarını gördüm. Əlavə qüvvə gəlməsə, bu mövqeləri və Kəlbəcəri əldə saxlaya bilməyəcəyimizi yəqin etdk. Bizə Kəlbəcəri müdafiə etmək üçün həm artilleriya, həm də canlı qüvvə köməyi lazım idi. Daha bizim orada dayanmağımız qeyri-mümkün idi. Yüksəklikdə yerləşdirdiyim beş nəfər əsgəri də geri çağırdım və döyüşərək geri çəkilməyə məcbur olduq. Biz piyada Otaqlı kəndinə, oradan isə Kəlbəcər şəhərinə endik.

Kəlbəcərdə 5-6 vertalyot əhalini daşıyır, lakin ermənilər onları da top atəşinə tutur, vertalyotların aeroporta enməsinə maneçilik törədirdilər. Şəhərdə heç kim qalmamışdı. Ara-sıra dağılmış və yandırılmış evlərə rast gəlirdik. Komandirlə qərara aldıq ki, ayrı-ayrı döyüş mövqelərini tərk etmiş əsgərləri toplayıb Kəlbəcər şəhərinin müdafiəsini təşkil edək. Buna görə də biz piyada Çaykənd yaxınlığına qədər gəldik və orada müxtəlif döyüş mövqelərindən çəkilmiş əsgərləri və mülki əhali içərisindən gəncləri saxlayır, onlara silah verir, onları dəstələrə bölür, zabitlərdən komandir təyin edir və maşınlarla Kəlbəcərə qaytarırdıq. Bu zaman komandirin maşınının sürücüsü Azad da yaralıları vertalyota qoyub maşınla yanımıza qayıtdı.

Eyni vaxtda Kəlbəcərə qona bilməyən vertalyotları Çaykənd yaxınlığında Tərtərçayın dar dərəsinə endirməyə müvəffəq olduq. Pilotlardan: Kazım Abbasovun, Rafiq Səlimovun, Adil Nağıyevin, Əziz Qənbərovun, Çingiz Zeynalovun və digərlərinin peşəkarlığı, qorxmazlığı və qoçaqlığı nəticəsində biz xeyli Kəlbəcər əhalisini, o cümlədən; yaralıları, uşaqları, qocaları və qadınları vertalyotlarla yola saldıq. Biz vertalyotların Tərtərçay dərəsinə enməyi üçün əl-qol işarələrilə göstəriş verir, onların dar dərəyə enmələrinə kömək edir, əhalinin daşınmasını təşkil edirdik. Televiziyadan gəlmiş operatorlar bu görüntüləri çəkirdi. Bu vaxt Kəlbəcər aeroportundan qalxan bir vertalyot isə 60-dək adamla-yükün ağırlığı nəticəsində-uça bilməyərək Şaplar körpüsündən bir qədər

yuxarı, Tərtərçayın sağ sahilinə düşmüşdü. Xeyli ölən və yaralanan var idi. Biz onları da qəzaya uğramış
vertalyotdan çıxarıb başqa vertalyotlara mindirib yola saldıq. Ölənləri isə elə orada-Tərtərçay sahilində dəfn etdik.

Axşam 60-70 nəfərlik qüvvə ilə Kəlbəcərdə İcra hakimiyyəti binasının qarşısında toplaşdıq. Əsgərləri və gəncləri üç dəstəyə böldük. İcra hakimiyyətinin başçısı İ.Həsənov silahı olmayanlara silah verdi. Şəhəri qorumaq üçün qərərgah rəisi kapitan Balay Nəsibovun komandanlığı altında bir dəstəni Aşağı Ayrım kəndi istiqamətində Yolaşan adlanan yerdə, bir dəstəni Alolar kəndi yaxınlığında mövqe tutmağa göndərdik, 15 nəfərlik digər dəstəni isə Kəlbəcərin mühafizəsi və teleqülləyə kəşfiyyata getmək üçün qərərgahda saxladıq. Batalyon komandiri Eldar Həsənov, mən və Atayev Namiqin komadirlik etdiyi kəşfiyyatçılar dəstəsi ilə İcra Hakimiyyəti binasının yaxınlığında bir evdə müvəqqəti qərərgah yaratdıq və gecə saat 12-dən sonra kəşfiyyata getmək üçün hazırlaşmağa başladıq. Kəşfiyyatçılar çox qoçaq və bacarıqlı əsgərlər idilər. Onlardan zərdablı Şəfailin adı yadımda qalıb, bir nəfərə isə “polyak” deyirdilər. Biz teleqüllənin ermənilər tərəfindən tutulub-tutulmadığını yəqin etməli, düşmən qüvvələri haqqında məlumatlar əldə etməli, bizə kömək gələnədək Kəlbəcərin müdafiəsini təşkil etməli idik. Bir həftə idi ki, düşmən Kəlbəcərə hücum edir, bizim qüvvələrimiz çatışmır, ön mövqelərimizdən bir neçəsi düşmən əlinə keçib, lakin, bizə yuxarı komandanlıqdan heç bir kömək gəlmirdi. Biz öz qüvvələrimizlə pərakəndə şəkildə ayrı-ayrı sərhəd məntəqələrində müdafiə döyüşləri aparırdıq. Bununla belə bizə heç bir kömək göndərilmirdi.



*Minaatanlar: Ağdam-1994-cü il*

*Kəşfiyyatsız döyüş - məğlubiyyətə yaxın olmaq deməkdir.*
*M ü ə l l i f*

# Kəşfiyyat

Qərərgahda kəşfiyyatın aparilması qaydaları ilə əsgərləri tanış etdik və lazımi silah-sursat götürdük. Məqsədimiz düşmənin teleqülləyə enib-enməməsini öyrənmək, onların qüvvələri və texnikaları barədə məlumat əldə etmək idi. 4 ədəd ratsiya var idi. Biz 12 nəfərlik kəşfiyyatçılar dəstəsini də üç qrupa böldük. Ay batmasını gözləməyi qərara aldıq. Yorğun və yuxusuz idim. Evin birində xalçanın üzərində uzanıb yatdım. Bir saatdan sonra komandir məni qaldırdı ki, dur gedirik. Saata baxdım; 12 idi. Mən avtomatı götürüb çölə çıxdım. Ay batmış, hər tərəf zülmət qaranlığa və səssizliyə düçar olmuşdu. əsl kəşfiyyat vaxtı idi. Silah-sursatımızı bir daha yoxladıq. Əsgərlərə bir avtomat, 4 daraq, iki-üç əl qumbarası götürmək haqqında tapşırıq verdim. Geyimimizdəki ulduz və parıldayan şeyləri çıxardıq. Qərərgahda iki əsgəri saxladıq və onlara bir ratsiya verdik. İcra hakimiyyətinin işçiləri Tahir və Əbülfəz Mehdiyev qardaşları da onların yanında qaldılar.

1993-cü il aprel ayının 2-nə keçən gecə idi. Biz 12 nəfərlə Dalqılışlı istiqamətində bir-birindən 6-7 metr aralı irəliləyirdik. Bizə əsgər Mikayılov Hafiz bələdçilik edirdi. Kəlbəcər şəhərindən çıxıb Dalqılışlı kəndinə daxil olduq. Şəhər və kəndlərin əhalisi çıxıb getmiş, mal-qoyun isə həyətlərdə qalmışdı. Gecə itlərin ulaşması, mal-qoyunun səsindən başqa heç nə eşidilmirdi. Biz çalışırdıq ki, kəndə girmədən dağa qalxaq, çünki itlərin hürüşməsi düşməni duyuq sala bilərdi. Gecə tam qaranlıq idi. Ay batmışdı. Addımları yavaşca atır, danışmır, əl-qol işarələri ilə bir-biri başa salırdıq. Hətta ratsiya ilə də danışmır, düymələri basaraq uzun və ya gödək telefon səsləri ilə bir-birimizə məlumat verirdik. Biz kəndin yuxarısındakı əkin yerlərinə çatdıqda at kişnərtisi eşidildi. Tez yerə uzandıq. Çünki düşmən kəşfiyyatı ilə rastlaşa bilərdik. Diqqətlə ətrafa qulaq asdıq və kənd camaatının atlarının yaxınlıqda olduğunu yəqin etdik və yenidən hərəkətə başladıq. Yolun təhlükəli olduğunu bildiyimiz üçün yol ilə getmirdik. Qayaların arası ilə yamacla yavaş-yavaş yuxarı qalxırdıq. Mümkün qədər səssiz gedirdik. Hərdən ayağımızın altından xırda daşlar diyirlənib səs salırdı. Mən lap dəstənin axırında idim. Hərdən işarə ilə dayanır, dincimizi alır, ətrafa qulaq asır, yenidən irəliləyirdik. Biz qayalığı keçdik və Dərəqışlaq kəndinin üst tərəfindəki yamacla bir az da irəliləyib teleqüllə olan dağın arxasına keçdik. Orada dayanıb, iki nəfərə bizdən 50 metrədək qabaqda teleqülləyə yaxınlaşmaq tapşırığı verdik. Biz də onların arxasınca gedirdik. Hətta ratsiya ilə də danışmırdıq. Biz yamacla düşmən

mövqelərinin arxasına keçdik və oradan teleqülləyə tərəf yavaş-yavaş yaxınlaşmağa başladıq. Teleqülləyə yaxınlaşdıqda artıq ermənilərin səslərini aydın eşidirdik. Təpənin arxasında idik, düşmən bizdən təqribən 100 metr məsafədə idi. Bu vaxt Yellicə və Aşağı Ayrım istiqamətlərindən güllə səsləri eşidilirdi. Komandir məni və Namiq Atayevi yanına çağırdı və düşmən üzərinə qəflətən hücum etməyi təklif etdi. Əvvəlcə razılaşdıq, sonra isə sayımızın az olduğunu və teleqüllə ətrafında düşmənin ən azı 500 nəfərədək qüvvəsinin olduğunu deyib komandiri bu fikirdən daşındırdıq.

Kəşfiyyat məlumatlarını ratsiya ilə qərərgaha bildirdik və Kəlbəcər şəhərini qorumaq üçün mütləq əlavə qüvvələrin lazım olduğunu qeyd etdik. Səhər açılan kimi düşmənin Kəlbəcər şəhərinə hücum edəcəyi ehtimalını da qərərgaha çatdırdıq. Əlavə qüvvələrin çağırılması və heç olmasa Kəlbəcər şəhərini müdafiə etməyin vacibliyini dedik.

Səhər açılırdı. Bizim düşmən arxasında ləngiməyimiz təhlükəli idi. Ona görə yavaş-yavaş Dərəqışlaq kəndinə və oradan Kəlbəcərə endik. Komandir yorulduğundan silahını alıb götürür, ona kömək edirdim. Özüm də bərk yorulmuşdum. Qərərgaha çatanda artıq işıqlanmışdı, təqribən saat 8 olardı. Yorğunluq, yuxusuzluq və aclıqdan ayaq üstə dura bilmirdik. Orada öyrəndik ki, Kəlbəcər şəhərini müdafiə etmək üçün bizə heç bir kömək göndərilməmiş, üstəlik də digər mövqelərə axşamdan göndərdiyimiz dəstələrlə əlaqələrimiz də kəsilmişdi...



*Şəkildə soldan: gizir T.Rzayev,*
*"Topçu Qəhrəman" və kapitan F.Mehdiyev 1992-ci il*

# Kəlbəcər uğrunda son döyüş

Aprelin ikisi səhər saat 8 radələri idi. Bizə heç bir kömək gəlməmişdi. Şəhərdə bizim 15 nəfərlik dəstəmizdən başqa hərbçi yox idi. Dünəndən Ayrım, otaqlı, Allıkənd, Alolar və başqa mövqelərə göndərilmiş qüvvələrlə heç bir əlaqəmiz yox idi. Bəzi mövqelərə göndərdiyimiz əsgər və zabitlər Göyçə tərəfdən hücum edən erməni və rus hərbi birləşmələri qarşısında tab gətirməyərək, həmin mövqelərdən geri çəkilmişlər. Aeroportda uzaq kəndlərdən gəlmiş xeyli əhali toplaşmışdı. Onlardan bir neçə nəfəri bizim yanımıza gələrək vertalyot olub-olmayacağını soruşdular. Mən onlara Murov dağının dumanlı olduğunu və vertalyotun gələ bilməyəcəyini bildirərək, piyada getmələrini tövsiyə etdim. Elə bu vaxt general qərərgaha gəldi. Biz gecə teleqülldədə kəşfiyyat apardığımızı və orada düşmənin ən azı 500 nəfərədək canlı qüvvəsi olduğunu bildirdik. General bizə teleqüllənin geri alınması əmrini verdi və bizim komandir- “oldu”-dedi.

Biz pulemyotları və sursatı götürüb Kəlbəcər şəhərinin üst tərəfindəki Dalqılışlı aşırımına qalxmağa başladıq. Artıq yeriməyə taqətimiz yox idi, şəhər evlərinin arası ilə çətinliklə addımlayırdıq. Aşırıma çatanda Yellicə, Dalqılışlı, Otaqlı, Ayrım, Alçalı, Allıkənd kəndləri istiqamətindən ermənilərin çoxlu sayda bir qüvvə ilə Kəlbəcərə doğru irəlilədiyini gördük. Ayrım kəndi tərəfdə Yolaşan deyilən yerdə onların iki ədəd PDM-i də görünürdü. Bizimlə üzbəüz-Dalqılışlı kəndinin üst tərəfindən düşmənin xeyli canlı qüvvəsi şəhərə tərəf enirdi. İndi başa düşdüm ki, gecə teleqülləyə düşmən üzərinə 12 nəfərlik bir qüvvə ilə hücum etsəydik, hamımız məhv olardıq.

Biz düşmənin artıq şəhərin bir neçə yüz metrliyinədək yaxınlaşdığını gördükdə bir anlıq çaş-baş qaldıq. Bizim nə düşmənin bu qədər qüvvəsi ilə döyüşmək gücümüz var idi, nə də aeroportdakı 2000-dək qadın, uşaq, qocaları qoyub geriyə çəkilmək olmazdı. Necə olursa olsun onları xilas etməliydik. Buna görə də düşmənin hücumunu ləngitmək və aeroportdakı əhalini buradan çıxarmaq lazım idi.

Mən tez əsgərlərə aşırımda və evlərin tinində özlərinə mövqe tutmağı əmr etdim və özüm də bir evin tinində yerə uzandım. Əsgərlərdən İlqar və Şəfail də yanımda idilər. Düşmən dağın yamacı ilə sərbəst enir, bizim burada olmağımızı sanki bilmirdilər. Mən snayper, avtomat və pulemyotlarla atəş açmaq üçün komanda verdim. Düşmən gözlənilmədən yaxalanmışdı. Qəfil atəşdən özlərini itirən düşmən əsgərləri hara qaçdığını bilmir, pulemyot və snayper güllələrinə tuş gəlir, yamacla aşağı yumalanırdılar. Bizim kəşfiyyatçılar böyük ruh yüksəkliyi

ilə döyüşürdülər. Bir neçə dəqiqə içərisində xeyli itki verən düşmən qayaların, təpələrin arxasında, dərələrdə gizlənməyə çalışır, qəfil atəşdən qorxuya düşərək daha aşağı enməyə cürət etmirdi. Düşmən dayandırılmışdı. Lakin yerimizi bildikdən sonra düşmən mövqeyimizi pulemyot və avtomat, sonra isə minaatanlarla güclü atəşə tutdu. Güllələr yağış kimi yağır, bəzən başımızı qaldırmağa imkan tapa bilmirdik. Bu qeyri-bərabər döyüşün-son döyüşümüz olacağını hamımız fikirləşir, yalnız, dinc əhalinin düşmən əlinə keçməməsi üçün vuruşurduq. Biz özümüzü deyil, vertalyot meydançasında qalmış əhalinin xilas edilməsi barədə düşünürdük. 20 dəqiqə idi döyüşürdük. Komandir polkovnik-leytenant E.Həsənov dedi ki, Kamalov maşınla get aeroporta xəbər ver əhali şəhərdən çıxsın, biz düşməni heç olmasa yarım saat ləngidəcəyik.

Mən “Oldu”-deyib sürünərək geri-aşırımın arxasına çəkildim və orada maşına oturdum. Sürücü-əsgər Azadla aeroporta gəldik və oradakı əhalinin təcili Kəlbəcəri tərk etmələrinin bildirdim. Artıq əhali də binaların arasından Dalqılışlı kəndinin üst tərəfindən-teleqüllədən hücum edən erməniləri görmüşdü. Camaat şəhərin küçələri ilə vahimə içərisində bir-birini çağıraraq, ağlaşa-ağlaşa, qaçmağa başladı. Bəziləri qoca anasını, bəziləri qoca atasını, bəziləri körpə uşaqlarını götürüb qaçırdı. Çox acınacaqlı bir vəziyyət var idi. Mən yenidən döyüş mövqeyinə-tabor komandirinin və əsgərlərin yanına qayıtdım.

İki saatdan çox davam edən döyüşdə ermənilər 30-dək canlı qüvvə itirərək qayaların arasında, təpələrin arxasında gizlənməyə məcbur olmuşdu. Beləliklə Kəlbəcər şəhərində toplaşmış dinc əhali itkisiz olaraq şəhəri tərk etdi. Bizim əsgərlərdən heç kəs yaralanmamışdı. Lakin mövqelərimiz yenə atəş altında idi. Ermənilər Ayrım kəndindən hərəkət edən döyüş maşınlarının və özlərinin piyadalarının hər tərəfdən Kəlbəcərə yaxınlaşmasını gözləyir, qüvvələrini cəmləyib Kəlbəcər şəhərinə qəti hücuma keçməyə hazırlaşırdılar. Həm də düşmən qorxur və ehtiyatla hərəkət edirdi. Ona görə də öz qüvvələrinin bir-birindən aralı düşməsinə imkan vermirdi. Ayrım və Yellicədən hücum edən erməni bölükləri teleqüllədəkilərlə birləşə bilsəydilər, onların qarşısını saxlamaq mümkün olmayacadı.

Biz Kəlbəcər aeroportundakı çoxlu sayda qadın uşaq, qocaların düşmən əlinə keçməməsi üçün döyüşü davam etdirir, onların şəhərdən çıxmaları üçün düşməni ləngitməyə çalışırdıq. Artıq iki saat olardı ki, qeyri-bərabər döyüş aparırdıq. Güllələrimiz azalmışdı. Bundan başqa , biz yalnız şəhərin şimal-qərb tərəfində döyüşürdük, düşmən isə bir neçə tərəfdən-qərb tərəfdən, şimal tərəfdən və şimal-şərq tərəfdən şəhərə daxil ola bilərdi. Çünki düşmənin zirehli texnikası şimal-qərb tərəfdən şəhərə

yaxınlaşırdı.

Əhalinin aeroportdan çıxdığını görən komandir, N.Atayevə tapşırdı ki, əhalinin arxasınca şəhərin aşağı hissəsinə çəkilsinlər. Atayev Namiq və onun döyüş yoldaşlarının başları döyüşə o qədər qarışmışdı ki, hətta onları döyüşdən ayırmaq olmurdu. Komandir əlavə etdi ki, Kamalovla qərərgahda olan silah-sursatı maşına yükləyib, Ağ körpüdə sizi gözləyəcəyik.

Komandirin maşını ilə biz-mən və komandir- qərərgaha gəldik. Qərərgahdakı pulemyotu, patron qutularını, minaatan mərmilərini və digər döyüş ləvazimzatlarını maşına qoydum. Artıq əhali şəhəri tərk etmişdi. Biz aeroportda və onun ətrafında bir neçə adam qaldığını görüb maşınla ora gəldik və onları tez şəhərdən çıxmaq lazım olduğunu bildirdik. Əhalinin hamısını aeroportdan çıxardıqdan sonra biz Aşıq Alı küçəsi ilə şəhərin mərkəzinə tərəf getdik.

Zəylikdəki əsgərlərin mühasirəyə düşəcəyi fikri məni rahat buraxmırdı, mən nə olur olsun öz əsgərlərimin yanında olmaq istəyirdim. Şəhərdəki, İstisu döngəsinə çatanda komandirdən xahiş etdim ki, maşını ver məni Zəyliyə aparsın. Çünki, Zəylikdəki tağımlar mühasirədə qalacaq. Ermənilərin Kəlbəcərə hücumundan və bizim geriyə çəkilməyimizdən onların xəbərləri yoxdur. Komandir, əvvəlcə mənimlə razılaşdı və maşını döndərib İstisu yolu ilə Zəylik istiqamətində getdik. Tərtər çayına çatanda yol kənarında 20-30 adam şəhərə tərəf qalxmaq istəyirdi. Onlar Aeroporta qalxmaq və vertalyotla getmək istədiklərini bildirdilər. Mən onlara “Şəhərə ermənilər hücum edir, ora getməyin, aşağı yolla Murovdağa tərəf gedin”-dedim və onları tələsdirdim.

Keştək və Alolar kəndlərinin yüksəklikləri ermənilər tərəfindən tutulmuşdu. Oradan yolun atəş altında olduğunu bilən kimi komandir maşını geri döndərməyi əmr etdi. Bu vaxt yol boyu bir neçə adam gəlirdi. Onların birini tanıdım: o, Zəylikdəki tağım komandiri Nizami Məhərrəmovun qardaşı Məzahir idi. Mən maşında olan avtomatlardan birini Məzahirə verdim və yolda qalmış bir yiyəsiz atla onu Zəyliyə göndərdim. Tapşırıq belə idi: Zəylikdəki tağımlar atıcı silahları götürüb Kəlbəcər şəhərinə doğru geriyə çəkilsinlər. Bu zaman düşmən şəhərə girmiş olsa, gecəni gözləyib Nurovdağa doğru çəkilsinlər... Biz isə maşını geriyə döndərib Tərtərçay boyunca Ağ körpüyə qayıtdıq. Komandir snayperi götürüb yuxarı qayalığa çıxdı, mən isə avtomatla körpünün üstündə dayandım. Kəlbəcərdən gələn camaat yanımızdan keçib gedirdi.

Yollara səpələnmiş əhali hara gedəcəyini bilmir, bizdən yolları soruşurdular. Onların çoxu ucqar kəndlərdən gələnlər idilər.

Mən onnlara yol göstərir, yollara bələd olanlarla onları dəstə-dəstə yola salırdım. Bundan başqa yeriməyə taqəti olmayan qoca, uşaq və qadınları aparmaları üçün bəzi atlılardan onlara kömək etmələrini xahiş edirdim. Ov tüfəngi ilə silahlanmış bir neçə cavanı yanımda saxlayır, onlara hamıdan sonra gedəcəyimizi bildirirdim...

* * *

Saat iki olardı, Şəhərdən qaçan əhali keçib getdi və onların ardınca Atayev Namiq və onun döyüş yoldaşlarının hamısı döyüşdən çıxaraq sağ-salamat gəldilər. Qərərgah rəisi kapitan B.Nəsibov da yanımıza gəldi. Əhali isə keçib getmişdi. Artıq Kəlbəcər şəhəri müdafiəsiz idi. Düşmən Yuxarı Ayrım kəndindən hərəkət edən iki ədəd PDM-in müşaiyəti ilə şəhərə girmişdi. Şəhərdən atəş səsləri eşidilirdi...

Komandir N.Atayevə tapşırdı ki, burada ləngiməsinlər, kəşfiyyatçılarla birgə piyada qərərgaha getsinlər. Biz isə-komandir, qərərgah rəisi, mən, əsgərlərdən Muxtarov İlqar və Mikayılov Hafiz komandirin maşınına oturduq və Qılışlı kəndinə- qərərgaha gəldik. Orada 6 nəfər zabit və 6 nəfər əsgər var idi. Bizə heç bir kömək göndərilməmişdi.

Komandir qərərgah rəisini də götürüb əhalinin sağ-salamat ərazini tərk etməsinə kömək üçün yenidən Ağ körpüdəki əsgərlərin yanına qayıtmalı oldu. Komandir öz maşını ilə Kəlbəcərə tərəf getdi. Biz isə piyada onların arxasınca Çaykəndə tərəf Tərtərçay boyunca geri qayıtmalı olduq. Yeriməyə isə taqətimiz yox idi...

* * *

Batalyon komandiri polkovnik-leytenant Eldar Həsənovun dediklərindən: “Çaykənddən Kəlbəcərə tərəf gedirdik. Birdən döngələrin birində ermənilərin PDM-i ilə qarşılaşdıq. O bizə atəş aça-aça gəlirdi. 150-200 metr bir məsafədə tez maşından düşdük və döngənin arxasına çəkildik. Bir az geciksək məhv olardıq. Sürücü əsgər Azad maşını geriyə çıxarmaq istərkən PDM-dən atılan güllələrdən özünü itirən sürücü çaş-baş qalaraq maşının arxasını qayalığa çırpdı, çadır maşının üstünə çökdü. Buna baxmayaraq yaxınlıqda olan polis Famil maşını döyüş meydanından çıxardı. Biz isə tutduğumuz mövqelərdə qaldıq və PDM-in üstündəki düşmən əsgərlərini atəşə tutduq. Ölən və yaralanan düşmən əsgərləri PDM-dən bir-bir yerə düşürdü. Lakin düşmənin döyüş maşınını vurmaq üçün qumbaraatan lazım idi. Elə bu məqamda qaça-qaça əlində qumbaraatan olan bir əsgər yanımıza çatdı. Onun bircə mərmisi var idi.

Mən əsgərə “BMP-ni vur”-dedim. Əsgər döngədən çıxan düşmən PDM-ni nişan alıb atəş açdı. Mərmi PDM-in üstündən keçib qayalığa dəydi. Partlayışdan təşvişə düşən düşmən PDM-i dayandı və qumbaraatanla vurulacağını yəqin edərək, bizə atəş aça-aça geriyə-döngənin arxasına çəkildi. Mən yanımdakı qərərgah rəisinə və əsgərlərə qışqırdım ki, “yoldan kənara qaçın”. Hədəfə dəyməyən bircə mərmi düşməni qorxuya salmış və onun irəliləməsini bir neçə dəqiqəlik dayandırmışdı. Bundan istifadə edib hərə bir tərəfə qaçdı. Mən isə yolun üst tərəfinə-dağın yamacına tərəf qalxdım və qayalıqla uzaqlaşdım. Geriyə dönüb baxanda düşmən PDM-nin atəş aça-aça asfalt yolla Qılışlı kəndi istiqamətində hərəkət etdiyini gördüm. Artıq qərərgaha qayıtmaq mümkün deyildi... ”

Kəlbəcər istiqamətində atəş səsləri eşitdikdə mən bir neçə əsgərlə Kəlbəcər istiqamətinə-atəş səsləri gələn yerə tələsdim. Uzaqdakı döngələrin birində düşmənin iki PDM-i görünürdü. Orada döyüş gedirdi. Mən əsgərlərə yolun kənarındakı qayalıqlarda mevqe tutmalarını əmr etdim. Eyni vaxtda PDM-lərin ətrafında tək-tək gözə dəyən ermənilərə atəş açmağa başladıq. Lakin düşmənin zirehli texnikasını vurmaq üçün həm qumbaraatanımız yox idi, həm də məsafə uzaq idi. Düşmən hücum etsəydi biz heç nə edə bilməzdik. Mən komandirin və qərərgah rəisinin harada olduqlarını müəyyən etməyə çalışırdım. Elə bu vaxt komandirin maşınının yüksək sürətlə asfalt yolla bizim yanımızdan keçməsini gördük. Maşının çadırı üstündə yox idi və maşını Azad deyil polislərdən olan Famil idarə edirdi. Onlar bizim yanımızda dayanmadılar və sürətlə uzaqlaşdılar. Maşında daha bir hərbçi var idi. Komandiri maşında görməyərək onun döyüşdə həlak olmasını yəqin etdim. Ermənilərin üzərinə hücum etmək isə ağılsızlıq olardı. Çünki, beş-altı nəfərlə zirehli maşınlara qarşı avtomatla döyüş aparmaq qeyri-mümkün idi. Mən Qılışlı kəndinə-qərərgaha doğru geri çəkilmək əmri verdim.

* * *

Qərərgah rəisi kapitan B.Nəsibovun dediklərindən: “Biz Maraluçan deyilən yerə çatanda Laçın bölgəsindən gələn 5-ci taborun komandiri Cəfərov Tahirlə və bir neçə əsgərlə görüşdük. Onlar ərazini tanımadıqlarını bildirdilər və məndən qərərgahı və hara çəkiləcəklərini soruşdular. Eyni vaxtda briqadanın kəşfiyyat rəisi kapitan Rəhman İsgəndərovun Tərtərçaydan çıxdığını gördüm. O, Kəlbəcər şəhərində düşmənlə qarşılaşmış və döyüşərək çox çətinliklə şəhərdən çıxmağa nail olmuşdur. Elə bu zaman Kəlbəcər şəhəri tərəfdən atəş açaraq gələn iki düşmən PDM-i ilə qarşılaşdıq. Döyüş başladı. Komandirin maşınını

döngənin arxasına tərəf çəkməyi tapşırıb maşından yerə tullandım. Bizim əsgərlərin qumbaraları isə düşmən zirehlisinə dəymədi. PDM-lərdən atılan güllələr bir neçə əsgərimizi öldürdü. Sağ qalanlar döngənin arxasına çəkildik. Yorğun olduğumdan yeriyə bilmirdim. Komandirlə bir-birimizi itirdik. Mən T.Cəfərov və onun bir neçə əsgəri ilə yolun üst tərəfi təpəyə qalxdım. Onlar məndən qabaqda idilər. Düşmən PDM-ləri isə yaxınlıqda idi. Gizlənməyə yer yox idi. Kiçik bir daşın arxasına uzandım və düşmənə əsir düşməmək üçün tapançanı hazır vəziyyətə gətirdim. Xəritəni əlimlə və dişimlə parçalayıb atdım. Lakin, məni görmədən PDM-lər yaxınlığımdan keçdi. Sonra ayağa qalxanda Tahiri və əsgərləri də görmədim, yəqin ki, onlar da həlak olmuşdular. Üç əsgər salamat qalmışdı və onlarla Sarıdaş istiqamətinə doğru çəkilməyə məcbur olduq. Yeriyə bilmədiyimdən əsgərlər mənə kömək edirdilər. Həmin gecə Qlışlı kəndinin üst tərəfində dərədə qaldıq. Səhər açılanda biz kəndin üst tərəfindən erməni və rus əsgərlərini bizim qərərgahda gördüm...”

Bir neçə dəqiqə sonra artıq biz Qılışlı kəndində-qərərgahda idik. Qərərgahın yaxınlığında briqadanın topçularını gördüm. Onlar Laçın bölgəsindən bir topla gəlmişdilər. Hara gedəcəklərini bilmirdilər. Onlara “topu döyüşə hazırlayın” – dedim və əlavə etdim ki, düşmən PDM-ləri yaxınlaşır. Topçulara düşmən PDM-lərinin yerini bildirdim və görünməyən hədəfə bir neçə mərmi atdıq. 8-9 mərmi atandan sonra topçular düşmən əlinə keçməsin deyə, topu sıradan çıxararaq oranı tərk etməyə məcbur oldular.

Axşam saat 4-5 olardı. Qərərgahda zabitlərdən kapitan Firudin Mehdiyev, baş leytenant Qurban Sarıyev, gizir Şahin Bəxtiyarov, Fərman Məmmədov, 844-cü könüllülər taborunun zabiti Salah, əsgərlərdən isə Muxtarov İlqar, Əliyev Habil, Ələkbərov Fikrət, Rafiq, Nofəl və adını unutduğum bir nəfər də var idi. Cəmi 12 nəfər qalmışdıq. Düşmən qarşısına çıxacaq hərbi qüvvə olmadığı üçün məcbur olduq ki, qərərgahı tərk edək. Baş leytenant Q.Sarıyev tibb maşınının xarab olan yerini düzəldir, mən isə onu tələsdirirdim. Kapitan F.Mehdiyev qərərgahda olan sənədləri çantasına yığırdı. Hədsiz yorğun olduğumuzdan piyada gedə bilməzdik. Nəhayət Qurban maşını düzəltdi. Biz qərərgahda qalmış atıcı silahları və sənədləri maşına (DDA) yükləyib saat 16.30 radələrində Qılışlı kəndini-batalyon qərərgahını tərk etdik. Biz qərərgahdan yola çıxıb Nadirxanlı istiqamətinə dönərkən düşmən PDM-lərinin atəş açaraq kəndə girdiyini gördük. Vaxt itirmək ölümə bərabər idi...

Atayev Namiqin komandirlik etdiyi kəşfiyyat dəstəsinin döyüşçüsü zərdablı Şəfayılın dediklərindən: “Biz Kəlbəcər şəhərini tərk etdikdən sonra piyada Ağ körpüyə gəldik və orada leytenant A.Kamalov

*Ağıllı və tədbirli komandir-qələbənin yarısı deməkdir.*
*M ü ə l l i f*

    

bizə piyada Qılışlı kəndinə-qərərgaha getməli olduğumuzu bildirdi. Lakin biz ac idik, yeriməyə taqətimiz yox idi. Ona görə Tərtərçay sahilindəki "Ağ körpü" yeməkxanasında (yeməkxana boş qalmışdı) bir az çörək yeyəndən sonra yol boyu piyada Qılışlı kəndi istiqamətində hərəkətə başladıq. Bir az getmişdik ki, arxadan-Kəlbəcər şəhəri tərəfdən iki düşmən PDM-i və çoxlu sayda ermənilərin yolla bizə yaxınlaşdıqlarını gördük. Biz döngələrdən birində yoldan bir az yuxarıda-qayaların arasında mövqe tutduq və döyüşməyə başladıq. Lakin qüvvələr qeyri-bərabər idi. Bir də qumbaraatanın mərmisi qurtarmışdı. Ona görə də düşmən PDM-lərinin qarşısını kəsə bilmədik və yamacla yuxarıya çəkilməyə məcbur olduq. Bir az getdikdən sonra yol tapmaq üçün yenidən asfalt yola tərəf-Nadirxanlı kəndinə endik. Nadirxanlı kəndinə çatanda Qamışlı körpüsü istiqamətindən Kəlbəcərə doğru hərəkət edən düşmən tankları ilə qarşılaşdıq. Düşmən piyadaları tankların üstündən tökülərək bizə atəş açmağa başladılar. Biz 10-12 nəfər idik. Qumbaraatan mərmisi olmadığından qeyri-bərabər döyüşü davam etdirə bilmədik və kəndin içərisinə çəkildik. Biz bir-birimizdən ayrı düşmüşdük. Düşmən tankları da lap yaxında idi. Düşmən tankların pulemyotlarından və avtomatlardan atəş açaraq yaxınlaşırdı. Birdən mən 5-7 yaşında iki uşağın yolda ağladıqlarını gördüm. Görünür onların valideynləri həlak olmuşdu. Onların kiçiyini qucağıma alaraq tanklardan uzaqlaşmaq istədim. Elə bu vaxt 10-12 addımlıqda avtomatı üstümə tuşlamış bir sarışın düşmən əsgərini gördüm. Avtomatı mənə tuşlamış əsgər yəqin ki, rus əsgəri idi. Silahı qaldırmaq artıq gec olduğundan qucağımdakı uşaqla addım-addım geriyə-döngənin arxasına tərəf çəkilməyə başladım. Düşmən atəş açmadı. Düşməndən aralanan kimi o biri uşağın da əlindən tutaraq evlərin arası ilə xeyli qaçdım. Yorulmuşdum. Həm dincimi almaq, həm də döyüş yoldaşlarını gözləməli idim. Bir neçə dəqiqədən sonra döyüş yoldaşlarının bir neçəsinin gəldiyini gördüm. Onlar komandirimiz Atayev Namiqin və kəşfiyyatçılardan 4 nəfərin həlak olduqlarını bildirdilər... "

*Andiçmə hər bir insan qarşısında böyük məsuliyyət qoyur. And içəndə bütün varlığınla, qanınla onu dərk etməlisən.*

*M ü ə l l i f*

---

### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***31 mart 1993-cü il*** - Düşmən Zəylik kəndinin qərbindəki mühüm əhəmiyyətli yüksəkliyə hücum etdi. 3-cü taborun 1-ci bölüyü (bölük komandiri: leytenant Akif Kamalov, tağım komandiri Nizami Məhərrəmov) düşmən hücumunu dəf etdi, düşmən üitki verərək geri çəkildi.

***1 aprel 1993-cü il*** - düşmən Kəlbəcərin qərbində daha iki əhəmiyyətli yüksəkliyi-Yellicə və Dikyurd yüksəkliklərini ələ keçirdi. Həmin gün teleqüllə, Aşağı Ayrım, Yuxarı Ayrım, Yellicə, Dərəqışlaq, Alçalı, Otaqlı kəndləri işğal edildi.

***2 aprel 1993-cü il saat 8.00*** - 3-cü taborun 16 nəfər döyüşçüsü (tabor komandiri polkovnik-leytenant Eldar Həsənov, baş leytenant Akif Kamalov, kəşfiyyat tağımı komandiri Namiq Atayev, əsgərlər: Muxtarov İlqar, Zərdablı Şəfayıl, Mikayılov Hafiz, sürücü Azad və başqaları) Kəlbəcər şəhəri uğrunda son döyüşə atılır. Bu döyüşdə düşmən 30 nəfərədək itki versə də Kəlbəcəri müdafiə etmək mümkün olmur. Düşmən hücumunun qarşısını bir neçə saat kəsməyə müvəffəq olan 3-cü taborun döyüşçüləri şəhər aeroportunda vertalyot gözləyən 2000 nəfərədək dinc əhalini düşmən əlinə keçməkdən xilas edirlər və onları şəhərdən çıxarmağa müvəffəq olurlar.

***2 aprel 1993-cü il saat 14.00*** - 3-cü taborun döyüşçüləri düşmənin qat-qat üstün qüvvələrinin çoxsaylı hücumlarını bir neçə saat dəf edirlər. Lakin qeyri-bərabər döyüşdə məcbur olub Kəlbəcər şəhərini tərk edirlər. Onlar Ayrım çayı ilə Tərtərin qovuşduğu yerdə yenidən müdafə qururlar. Kəlbəcər şəhəri erməni və rus hərbi birləşmələri tərəfindən işğal edilir.

***2 aprel 1993-cü il saat 16.00*** - Dinc əhalini aeroportdan çıxaran 3-cü taborun 16 nəfərlik dəstəsi (komandir: polkovnik-leytenant E.Həsənov, qərərgah rəisi kapitan B.Nəsibov, bölük komandiri baş leytenant A.Kamalov, tağım komandiri N.Atayev) Çaykənd yaxınlığında iki zirehli maşın və yüzə qədər canlı qüvvə ilə hücumu davam etdirən düşmənlə yenidən döyüşə atılır. Düşmənin 12 əsgəri məhv edilsə də düşmən hücumunun qarşısını almaq mümkün olmur. Bu döyüşdə 4 əsgər və Atayev Namiq qəhrəmancasına həlak oldular.

*Qisas-heç də mənfi məfhum deyildir.*
*Düşməndən mütləq qisas alınmalıdır.* *M ü ə l l i f*

### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***3 aprel 1993-cü il il*** – Briqadanın taborlarından biri olan "Bərdə batalyonu" Laçın bölgəsindən geri çəkilərkən Kəlbəcərin Çaykənd kəndi yaxınlığında, Tərtərçay sahilində mühasirəyə düşür. Taborun əsgər və zabitləri son güllələri qalanadək qəhrəmancasına döyüşürlər. Bu qeyri-bərabər döyüşdə düşmənin xeyli sayda canlı qüvvəsini məhv etsələr də tabor komandiri baş leytenant Cəfərov Tahir və onun qəhrəman silahdaşlarından bir çoxu həlak olurlar.

***5 aprel 1993-cü il il*** - Zəylik kəndində mühəsirədə qalan 3-cü taborun 1-ci bölüyünün iki tağımı (tağım komandirləri gizir Nizami Məhərrəmov, leytenant İsa Hüseynov, bölüyün baş çavuşu İlqar Məhərrəmov) və Taxta məntəqəsindəki iki tağım (leytenant Ziyafət Tağıyev, baş leytenant Ramiz Əhmədov) cəmi 80 nəfərədək əsgər və zabit mühasirədən çıxmaq üçün Murovdağa doğru hərəkət edərkən Qasımbinə kəndində düşmənlə qeyri-bərabər döyüşə girir və düşməni çoxlu sayda canlı qüvvəsini məhv edir, əsgər Kərimov Şahin yaralanır.

***6 aprel 1993-cü il*** – 3-cü taborun 1-ci bölüyü Murovdağ ətəklərində-Meydançay ətrafında düşmənlə yenidən döyüşə girir. Qeyri-bərabər döyüş zamanı baş leytenant Ramiz Əhmədov, bölüyün baş çavuşu İlqar Məhərrəmov və əsgərlərdən Abdullayev Etibar, Quliyev Əkbər, Bayramov Qaryağdı, Kərimov Şahin, Şəmilov Rafiq, Nəcəfov Fazil, Dünyamalıyev Əfqan, Bəxtiyarov Qahir, Hacıyev Mürvət və başqaları cəmi 17 nəfər qəhrəmancasına həlak olur. Bölüyün sağ qalan əsgər və zabitləri mühasirəni yararaq Murovdağı aşmağa nail olurlar.



*Döyüşçülərdən: İ.Qasımov, N.Əhmədov və leyt.M.Şahüseynov*

*İnsanın əzəli və əbədi vətəni torpaqdır.   M ü ə l l i f*

# Murovdağa doğru

Maşının hamam yerində bir-birinə sıxılmış vəziyyətdə oturmuşduq. Nadirxanlıya çatanda Qamışlı körpüsü tərəfdən iki əsgər bizə tərəf qaçırdı. Onlar körpüdəki tanklarının vurulduğunu və körpünün düşmən əlinə keçdiyini bildirdilər. Deməli Ağdərə istiqamətindən hücum edən düşmən Qamışlı körpüsünə, Göyçədən hücum edən düşmən isə Qılışlı kəndinə çatmış, biz isə onların arasında-2 kilometr məsafədə idik. Qurban maşını geriyə döndərdi və biz Nadirxanlıdan Sarıdaş istiqamətində dağa qalxmağa başladıq. Biz yuxarı qalxarkən Qamışlı körpüsü tərəfdən hücum edən düşmən Nadirxanlı kəndinə girdi. Kənddə avtomat, pulemyot və iri çaplı silahların səsi eşidilirdi. Bizə tərəf də güllələr atılırdı. Lakin bizim maşın xeyli uzaqlaşmışdı. Düşmən güllələri ətrafa düşsə də təsirsiz idi. Mən yəqin etdim ki, artıq ermənilərin Ağdərə və Göyçə istiqamətindən qarşı-qarşıya hücum edən erməni qüvvələri Nadirxanlı kəndində birləşdilər...

Heç kim yolu tanımırdı. Yolda atamı da maşına götürdük. Qamışlı kəndinin üst tərəfindən kəndə enib, körpüdən keçərək Yanşaq kəndinə, oradan da Murovdağa qalxmaq istəyirdik. Əhalinin əksəriyyəti Murova doğru keçib getmiş, yollarda heç kim gözə görünmürdü. Qamışlı yüksəkliyinə çatanda iki əsgər bizə məlumat verdi ki, kənd artıq düşmənin əlindədir. Qurban maşını geri döndərdi və biz Güneypəyə kəndindən Qanlıkənd tərəfə hərəkət etməyə başladıq. Kəndə yaxınlaşanda At daşı aşırımında qəflətən bir PDM ilə qarşılaşdıq. PDM-in üstündə 10-12 nəfər qara paltarlı saqqallı hərbçilər oturmuşdu. Yol darısqal idi. Ona görə də PDM yolun üst tərəfinə çıxdı və bizim maşına yol verdi ki, keçək. Biz onlara əhəmiyyət vermədən yolumuza davam etdik. Qanlıkəndə doğru gedirdik. Kiçik bir aşırımı keçərkən qarşı dağın yüksəkliklərindən bizim maşın atəşə tutuldu və eyni zamanda biz qarşıdakı kəndlərin də alov içərisində olduğunu gördük. Qurban cəld maşını saxladı və mən hamıya "maşından düşün" –deyə qışqırdım. Bizə atəş açılan tərəfə baxdıqda artıq Dəmirçidam, Seyidlər və digər kəndləri alov içində gördük. Arxadan isə tank və ya döyüş maşınının səsi gəlirdi. Qarşımız düşmən tərəfindən kəsilmişdi, daha maşının hərəkət edəcəyi yol yox idi. Ermənilər kəndlərə od vurmuşdu, hər tərəfdən bizə atəş açılırdı. Mən: "Hərəyə bir avtomat götürüb tez meşəyə çəkilin"- komandasını verdim. Zabitlər və əsgərlər maşından düşdülər və biz ləngimədən meşəyə girib ağacların sıx yerində dayandıq. Hara və necə gedəcəyimiz barədə qərara gəlməli idik. Buraları isə heç kim tanımırdı. Birdən gəldiyimiz maşın yolundan əvvəlcə PDM səsi eşidildi, sonra isə bayaq bizimlə qarşılaşan

*Biz onda millətlər içərisində sayılarıq ki, hər bir ata öz oğlunu düşmən qarşısına çıxara bilsin! M ü ə l l i f*

PDM göründü. Ağacların arasından gördüm ki, PDM bizim maşına atəş açdı. Bizdən 50-55 metr aralıda tərk etdiyimiz maşın vuruldu və partlayışdan sonpa yanmağa başladı. Ağacların arasından alovlanan maşın görünürdü. Maşını bir qədər əvvəl bizimlə qarşılaşan və sonra arxamızca geri qayıdan PDM vurmuşdu. Sən demə, bayaq qarşılaşdığımız və əhəmiyyət vermədən yanından keçdiyimiz PDM düşmənin döyüş maşını imiş. Onlarla qarşılaşarkən bizim maşını nə üçün vurmadıqları hələ də mənim üçün sirdir. Sonralar fikirləşirdik ki, bəlkə də bizim tibb maşınının qabaq və yanlarında qırmızı xaç işarəsi onları çaşdırmış, düşmən qəfil atəş açmağa risq etməmişdir. Çünki həmin günlər Qırmızı xaç təşkilatının nümayəndələri də Kəlbəcər ərazisində gözə dəyirdi.

Bunları fikirləşməyə vaxt yox idi. Artıq meşə ilə ağaclardan tuta-tuta yamacla gedirdik. Gecə düşmüşdü. Qayalıqla və cığırı belə olmayan sərt bir enişlə-meşə ilə gedirdik. Meşədə yol getmək çətin idi. Bəzən dayanıb geridə qalan kapitan F.Mehdiyevi gözləyirdik. Hamımız yorğun idik. Neçə sutka idi ki, yatmırdım. Biz Qamışlı çayını keçib Susuzluq kəndinə qalxmaq istəyirdik. Fikirləşirdim ki, yəqin briqadamızın döyüşçüləri oralarda yeni mövqelər tutublar. Orada olmasalar yəqin ki, Yanşaq kəndində olardılar. Yolları və ya cığırları tanımasam da haradan gedəcəyimizi təxmin etmişdim. Biz meşə ilə yavaş-yavaş Qamışlı çayına tərəf enməyi və çayı keçməyi qət eləmişdik. Körpüyə yaxınaşdıqda çayın o tayındakı yüksəklikdən və körpünün yaxınlığından bizi atəşə tutdular. Təzədən meşənin yamacı ilə geri qayıtmağımıza taqətimiz yox idi. Sağ tərəf isə keçilməz qayalıq olduğundan, bircə yolumuz qalırdı; o da döyüşərək qayalığın aşağısından sağ tərəfə keçmək lazım idi. Mən yoldaşlara bunu bildirdim və özüm atəş açaraq arxa tullandım və qayalığın sağına tərəf qaçdım. Dəyirmanın yanında toplaşdıq. Artıq körpüdən keçmək və ya yol ilə hərəkət etmək təhlükəli idi. Aydınlıq idi. Ay işığında çayın suyu parıldayırdı. Çayın dayaz yerindən keçməyi qərara aldıq. Buna görə əvvəlcə 7 nəfərə avtomatların qayışını boyunlarına keçirməklə əl-ələ tutaraq çayı keçməyi tapşırdım. Biz isə çayı keçərkən onları qorumalı idik. Çayı keçərkən çaya yıxılanlar oldu. Az qala çay onları aparacaqdı. Lakin köməkləşib onları çaydan çıxardıq və hamımız o taya adladıq. Ağacların altında dayanıb paltarlarımızın suyunu sıxdıq və ayaqqabılarımıza dolmuş suyu boşaltdıq.

Meşə və qayalıqla dağa qalxırdıq. Bir saata yaxın getdikdən sonra

cığırı itirdik. Hara gedəcəyimizi bilmirdik. Mən geri qayıdıb çay kənarı ilə Çəpli kəndinə getməyi məsləhət bildim. Gecənin qaranlığında çox çətinliklə yenidən aşağı enib çay kənarı ilə Çəpli kəndinə, oradan da Susuzluq kəndinə qalxdıq. Gecə saat iki olardı. Kənd demək olar ki, tamamilə boş qalmışdı. Paltarımız yaş idi, həm də ac və yorğun idik. Ona görə yiyəsiz bir evdə paltarlarımızı qurutmaq və bir-iki saat dincəlmək qərarına gəldik. Sobaya odun qoyub yandırdıq və paltarımızı qurutmağa başladıq. Eyni zamanda yemək üçün ərzaq axtarmağa başladıq. Evlərin birindən kartof və xeyli yumurta tapdıq və onları bişirib çörəksiz yedik. Hərə bir tərəfdə yıxılıb yatmaq istəyirdi. Mən hamıya bildirdim ki, gecə saat dördədək dincələk və sonra hərəkətə başlayaq. Təqribən iki saatdan sonra qalxdıq və ayaqqabılarımızı geyinməyə başladıq. Ayaqqabılarımı qurudarkən sobaya çox yaxın qoyduğumdan onlar yanıb qurumuşdu. Ayaqyalın qalmışdım. Qaranlıqda gizir Şahin Bəxtiyarov həyətdən bir cüt köhnə rezin çəkmə tapıb gətirdi, geyindim. Ayağımı sıxırdı, yeriyə bilmirdim, amma başqa çarə yox idi. Səhərə yaxın saat 4-də yanşaq kəndinə tərəf getməyə başladıq ki, səhər açılmamış Meydançayı keçək...

Biz Yanşağa çatanda artıq hava işıqlanmışdı. Qatı dumanlıqda yol boyu tək-tək gecikmiş adamlar gözə dəyirdi. Onların hamısı uzaq kəndlərdən gələrək Murovdağı aşmağa çalışırdılar. Kənddə bir evin həyətində iki-üç nəfər mülki adamlar bizə çörək verdilər. Onlar Kəlbəcərin ucqar, uzaq kəndlərindən gələnlər idilər...

Meydan çayı boyunca uzanan yolla Murovun ətəklərinə qalxırdıq. Yenə də aclıqdan, yuxusuzluqdan və yorğunluqdan yeriyə bilmirdik. Şahinlə mən hamıdan geridə qalmışdıq. O biri yoldaşlar bir qədər bizdən qabağa keçərək xeyli aralanmışdılar. Bizdən qabaqda iki qadın gedir, hərdən çantalarından çörək çıxarıb yeyirdilər. Biz də ac idik. Onlara çatanda çörək istədim. Onlar bizə torbada qalmış və qurumuş iki ovuc çörək ovuntusu verdilər. Bu onların axırıncı çörəkləri imiş. Yol kənarında bir bulaq yanında oturub çörək ovuntusunu yedik və yenidən hərəkətə başladıq. Yol evinə çatanda batalyon komandiri-polkovnik-leytenant Eldar Həsənovla görüşdük. O, mənə zarafatla “Kamalov, məni niyə gözləmədiniz”-dedi. Mən isə “Sən bizdən tez gəlmisən ki”-dedim. Komandir dünən ayrılandan başına gələnləri qısaca mənə danışdı. O, Çaykənddə ermənilərlə qarşılaşdıqlarını və maşından düşərək düşmən PDM-lərindən qorunmaq üçün dağlara qalxdıqlarını və bütün gecəni piyada gəldiklərini dedi. Mən isə ona dedim ki, onun öldürüldüyünü zənn etmişdik. Orada onlar bizə konserv və çörək verdilər. Murovdağa qalxan yolun ətrafı tərk edilmiş və dərələrə yuvarlanmış maşın, traktor, tank, PDM, mal-qoyun sürüləri ilə, ölmüş mal-qoyun cəmdəkləri ilə dolu idi.

*Biz onda millətlər içərisində sayılarıq ki, hər bir ata öz oğlunu düşmən qarşısına çıxara bilsin!* *M ü ə l l i f*

Artıq yollarda az-az adamlar görünürdü. Onlar Murovdağın zirvəsinə doğru tələsirdilər...

Aprel ayının üçündə axşam biz Murov dağının "Güzgü" aşırımına çatdıq. Üzümü döndərib bir daha Kəlbəcərə baxdım. Kəndlər alov içində idi. Yiyəsiz qalmış mal-qara və qoyun sürüləüinin isə sayı-hesabı yox idi. Evlər də ki, dolu qalmışdı. Sonralar məlum olacaq ki, gecikib qaça bilməyən, qocalar, qadınlar, uşaqlar-cəmi 1000 nəfərdən çox Kəlbəcər əhalisi düşmən əlinə keçmiş, çoxlu sayda qız-gəlinlərimiz isə düşmən əlinə keçməkdənsə, ölümü üstün tutaraq özlərini qayalardan atmış, özlərini Tərtər çayına ataraq sularda həlak olmuşlar. Ermənilər Kəlbəcər əhalisinə qarşı soyqırımı törətmişdi. Onlar əsir aldıqları əhaliyə cürbəcür işgəncələr vermiş, yeriyə bilməyən qocaları yerində cə güllələmiş, qız-gəlinlərin başına yüz oyun açmışlar.

Kəlbəcərin işğalı zamanı 1000 nəfərədək hərbçi də həlak olmuşdur. Laçın bölgəsində qalmış taborların hissələri geriyə çəkilərkən Çaykənd və Tunel yaxınlığında mühasirəyə alınmışlar. Qeyri bərabər döyüşlərdə onlar son damla qanları qalanadək vuruşaraq şəhid olmuşlar. Bərdə batalyonu da Laçından geriyə çəkilərkən Çaykənddə ermənilərin pusqusuna düşmüş və xeyli itki vermişdi. Həmin batalyonun komandiri Tahir də həmin döyüşdə həlak olmuşdu.

Bizim taborun Zəylikdə və Taxtadakı tağımları isə mühasirədə qalaraq, bir neçə yerdə döyüşə-döyüşə Murov dağı istiqamətində hərəkətə başlamış, 1993-cü ilin aprel ayının 7-8-də Murovdağı aşa bilmişlər. Meydançay ətrafında baş vermiş döyüşdə baş leytenant Ramiz Əhmədov, gizir İlqar Məhərrəmov, əsgərlərdən Abdullayev Etibar, Şəmilov Rafiq, Məmmədov Əli, Quliyev Əkbər, Dünyamalıyev Əfqan, Nəcəfov Fazil, Bəxtiyarov Qahir, Bayramov Qaryağdı, Həsənov Abil, Hacıyev Mürvət-cəmi 17 nəfər həlak olmuşlar. Onlar döyüş yoldaşlarının mühasirədən çıxmaları üçün ermənilərlə qeyri-bərabər döyüşə girmiş, döyüş yoldaşlarını mühasirədən çıxarmağa nail olmuş, özləri isə qəhrəmancasına həlak olmuşlar. Onların içərisində aralı əsgər Nəcəfov Şahin və Zar kəndinin İcra nümayəndəsi Kamalov Bahadur da var idi. Tağım komandirləri leytenant Z.Tağıyev, leytenant İ.Hüseynov, N.Məhərrəmov və onlarla birlikdə 60 nəfərədək əsgər, həmçinin 30 nəfərədək mülki əhali sağ-salamat mühasirədən çıxa bilmişlər.

Tağım komandiri Nizami Məhərrəmovun dediklərindən: "Son günlər düşmən Zəylik kəndinin yüksəkliklərindəki mövqelərimizə aramsız hücum edir, mövqelərimizi toplarla atəşə tuturdular. Biz

düşmənin bu hücumlarını dəf etməklə yanaşı qonşu mövqelərə də kömək göstərirdik. Aprel ayının 1-də Yellicə kəndinə düşmənin hücumu ilə əlaqədar bölük komandiri leytenant A.Kamalov ora getdi. Ərzaq və sursatımız tükənmək üzrə idi. Qərərgahla və rayon mərkəzi ilə əlaqəmiz kəsilmişdi. Aprelin ikisində qardaşım Məzahir Kəlbəcərdən xəbər gətirdi ki, Yellicə, Dikyurd, Ayrım, Söyüdlü sərhəd məntəqələri düşmənin əlinə keçmiş, düşmən Kəlbəcər şəhərinə hücuma keçib. Bölük komandiri A.Kamalov qardaşım Məzahirə bir avtomat silah vermiş və tapşırıqla bizim yanımıza göndərmişdi ki, biz Zəyliyi tərk edib Kəlbəcərə çəkilək, götürə bilmədiyimiz silah-sursatı isə məhv edək. Başqa çarəmiz yox idi. Biz Zəyliyi tərk etdikdən sonra Zar, Zəylik və digər kəndləri tərk etməmiş 30-40 nəfər mülki şəxsi də özümüzlə götürdük. Onların içərisində qocalar, qadınlar, uşaqlar daha çox idi. Biz onlara kömək edirdik. Şam kəndinə çatanda artıq Kəlbəcər şəhərinin və Keştək kəndinin düşmən əlinə keçdiyini yəqin etdik. Biz demək olar ki, mühasirə vəziyyətinə düşmüşdük. Yolumuzu dəyişib Qoçdaş dağı istiqamətində irəliləməyi qərara aldıq. Orada Zar kəndindən olan Məmməd adlı bir kişi "Vətəni tərk etmək kişilikdən deyil"-deyərək geri qayıtdı. Biz onu heç cür saxlaya bilmədik. Məmməd kişi vətənində ölməyi, vətəni sağ-salamat tərk etməkdən üstün bildi. Sonra biz Milli kəndinə enib bir neçə saat dincəldikdən sonra Çaykəndə enib körpünü keçdik və Murov istiqamətində irəlilədik. Çaykənddə olan 5-6 nəfər erməni əsgəri bizi görüb qaçıb gizləndilər. Güneypəyə kəndində bir az dincimizi aldıqdan sonra yenidən hərəkətə başladıq. O biri gün Qamışlı kənd körpüsünü keçib Qasımbinə kəndinə qalxdıq. Burada arxadan gələn yük maşını ilə dolu əsgərlərlə rastlaşdıq. Əvvəlcə onları özümüzünkülər hesab etdik. Maşın lap yanımazda saxladı. Hətta əsgərlərdən biri maşına yaxınlaşaraq bizi də aparmağı dedi. Lakin, mən və leytenant Z.Tağıyev maşındakı əsgərlərin maşının arxasından düşərək özlərinə mövqe seçdiklərini görüncə, onların düşmən olduqlarını yəqin etdik və əsgərlərə atəş açmaq komandası verdik. Az qala əlbəayaxa döyüş başladı. Düşmən əsgərlərinin çoxunu məhv elədik. Bir neçə erməni əsgəri qaçıb canını qurtardı. Şahin adlı əsgərimiz isə qılçasından yaralandı. Bundan sonra biz Yanşaq kəndinin düşmən əlində olduğunu yəqin edib yolumuzu dəyişdik. Yanşaq kəndini keçdikdən sonra yenidən Murov yoluna-Meydançay dərəsinə endik. Gecə bir qədər dincəldikdən sonra Murovdağa doğru qalxmağa başladıq. Səhər yenicə açılmışdı. Murovdağ ətəklərində düşmənlə qarşılaşdıq. Onlar bizim dildə danışaraq bizi aldatmaq istədilər. Əsgər Etibar Abdullayev bir əsgərlə onlara yaxınlaşaraq kim olduqlarını dəqiqləşdirmək istədi. Bu vaxt onları atəşə tutdular. Biz də düşmənə atəş

açmağa başladıq. Çaylaqda mövqe tutmuş baş çavuş İlqar Məhərrəmov, əsgər Etibar Abdullayev, baş leytenant Ramiz Əhmədov və digər əsgərlər düşmən əsgərlərini elə ilk atəşlə məhv etdilər. Bu zaman Murovdağdan enən düşmənin döyüş maşını bizi güclü atəşə tutdu. Qeyri-bərabər bir döyüş başlamışdı. Döyüş maşını lap yaxınlıqda idi. Elə bu zaman arxa tərəfimizdən də iki maşın düşmən əsgəri gətirilərək bizi mühasirəyə almağa başladılar. Qeyri-bərabər və amansız döyüş gedirdi. Hamımızın məhv olmaq təhlükəsini hiss edib sağ tərəfdəki yamacla dağa qalxmağı lazım bildik. İlqar Məhərrəmov və Etibar Abdullayev əsl qəhrəmanlıq göstərərək döyüşü davam etdirir, düşmən piyadalarının irəliləməsinin qarşısını alırdılar. Məhz onların igidlikləri sayəsində biz döyüşə-döyüşə həmin dağı aşmağa nail olduq. Həmin döyüşdə gizir İlqar Məhərrəmov, çavuş Etibar Abdullayev, yaralı əsgər Şahin Kərimov, Əkbər Quluyev, baş leytenant Ramiz Əhmədov və Zar kəndinin İcra nümayəndəsi Bahadur Kamalov döyüş meydanına atılaraq digər döyüşçülərin mühasirədən çıxmasına şərait yaratdılar, özləri isə qəhrəmancasına həlak oldular. Bu döyüşdə ümumiyyətlə 17 nəfər əsgər və zabit həlak oldu. Biz yalnız yaralıları döyüş meydanından çıxarmağa nail ola bildik. Biz bir neçə gündən sonra Murovdağı aşaraq Xanlar ərazisinə gəlib çıxdıq”...

Leytenant Z.Tağıyevin dediklərindən: “Biz Meydançayda dağa qalxmaqla mühasirədən çıxa bildik. Ardıc kollarının arxasında gizlənə-gizlənə dağ yamacını aşa bildik. Iki dəfə əks-hücum təşkil etdik və hər dəfə düşmənin döyüş maşınlarının güclü atəşi ilə qarşılaşdıq. Axşamüstü bələdçi olmadan Murovdağ silsiləsinin şərqinə doğru yuxarı qalxmağa başladıq. Ərzaq yox idi; acından, yorğunluqdan və yuxusuzluqdan yeriyə bilmirdik. Gecə bir neçə əsgər dincəlmək istəmiş və dəstədən aralı düşmüşdü. Biz bütün sutkanı qarlı aşırımlarla yol getdik və Kəpəz dağının ətəklərinə çatdıq”.

Çavuş Ağalarov Sarvanın dediklərindən: “Biz Meydançay döyüşündən sonra Murovdağa qalxanda artıq gecə idi. Hər tərəf qarla örtülmüşdü. Yuxarılara qalxdıqca qarın qalınlığı da artırdı. Aclıq və yuxusuzluq bizi əldən salmışdı. Beş dəqiqə dincəlmək istədikdə yuxulayırdıq. Murovdağda yatmaq isə donmaq deməkdir. Ona görə də biz bir-birimizə və geriyə qalanlara kömək edirdik. Nadirxanov Şahvələdlə mən dəstənin lap axırında gedirdik. Gecə bir qayalığa söykənib dincimizi alarkən yuxuya gedərik. Ayılanda səhər açılmışdı. Şahvələdlə ikimiz artıq şaxtadan donmaq üzrə idik. Yaxınlıqda heç kəs yox idi, bütün izləri qar örtmüşdü. Biz sürətlə yeriməyə və beləliklə isinməyə çalışırdıq. Bir saat

yol getdikdən sonra bir az isinmişdik, artıq donmaq təhlükəsi ötüşmüşdü. Lakin, haraya getdiyimizi bilmirdik. Özümüzünküləri də itirmişdik. Aclıqdan taqətimiz kəsilmişdi. Uzaqdan meşə görünürdü. Biz meşəyə doğru gedir, orada nə isə tapıb yeməyə tələsirdik. Meşəyə çatanda artıq axşam düşmüşdü. Meşədə yerə tökülmüş yarpaqların arasından alça, əzgil və başqa meyvələr tapıb yeyirdik, amma haraya gedəcəyimizi bilmirdik. Gecə dalda bir yerdə ocaq yandırıb ayaqqabılarımızı və paltarımızı qurutduq. Gecə orada ocağın yanında növbə ilə yatdıq. Səhər açılanda yenidən meşə ilə bir qədər də yol getdik. Yaxınlıqda bir kənd görünürdü. Lakin həmin kəndin Ağdərə bölgəsinin bir kəndi olduğunu və orada ermənilərin yaşadığını fikirləşərək, ora yaxınlaşmaq istəmirdik. Biz artıq 10 gün idi ki, meşədə qalmışdıq. Hara gedəcəyimizi bilmirdik. Zəyliyi isə tərk etdiyimiz 14 gün idi. Burda meşədə meyvə, ot və ağac qabığı yeyirdik. Hara gedəcəyimizi bilmirdik. Bir neçə dəfə kəndə yaxınlaşmış və orada yanlış olaraq ermənilərin yaşadığını yəqin etmişdik. Artıq yeriyə bilmirdik, taqətimiz tam tükənmək üzrə idi. Sonuncu- 14-cü gün biz bir çobanla rastlaşdıq və onu düşmən bilərək tutduq. Lakin onun azərbaycanlı olduğunu gördük. Sən demə ac-susuz ətrafında dolaşdığımız kənddə özümüzünkülər yaşayırmış. Kənd camaatı iki gün bizi kənddə saxladılar ki, özümüzə gələk. Çünki ayaqlarımız tutulmuşdu, yeriyə bilmirdik...”



*Yanşaq kəndi, 1994-cü ilin yanvar ayı*

## ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***16 aprel 1993-cü il*** - briqadanın “Xilaskar” adlanan taboru (tabor komandiri: kapitan Vəli Bayramov) 21 nəfər döyüşçü ilə itirilmiş yüksəkliyə-Murovdağın “Güzgü” aşırımına hücum etdi və heç bir itki verməyərək yüksəkliyi ələ keçirdi. Döyüşdə sıravi Heydərov Elşad, Sultanov Elşən və digərləri fərqləndilər.

***18 aprel 1993-cü il*** - düşmən “Güzgü” aşırımını ələ keçirmək üçün hücuma keçdi. “Xilaskar” taborunun 1-ci bölüyü (bölük komandiri: leytenant Babayev Hüseynağa, tağım komandiri Əliyev Aydın) düşmənin 2 ədəd PDM-ni və bir ədəd T-72 tankını vuraraq, düşmənin 100-dək canlı qüvvəsini məhv etdi. Bölükdən iki nəfər şəhid oldu və 6 nəfər yaralandı.

***18 avqust 1993-cü il*** - düşmən kəşfiyyatının köməkliyi ilə düşmən artilleriyası Murovdağda yerləşən mövqelərimizi intensiv atəşə tutdu. Həlak olan və yaralananlar oldu. 3-cü taborun 1-ci bölüyü (komandir: baş leytenant Akif Kamalov) digər taborlarla erməniləri ələ keçirdikləri yüksəkliklərdən və Koroğlu dağından əvvəlki mövqelərinə çəkilməyə məcbur etdi.



*Gizirlər: Şahin Bəxtiyarov(sağda) və Əlövsət Həsənov*

*Biz onda işğal olunmuş torpaqlarımızı geri qaytararıq ki, qızlarımız vətən uğrunda döyüşməyəni sevməsinlər! M ü ə l l i f*

# Kəlbəcərin işğal səbəbləri

25 mart 1993-cü il tarixdən hücuma keçən Ermənistan silahlı qüvvələri rus ordusu bölmələrinin dəstəyi ilə 2 aprel 1993-cü il tarixdə Kəlbəcər bölgəsini tamamilə işğal etdilər. Üç tərəfdən-Göyçə, Ağdərə və Laçın istiqamətlərindən-Kəlbəcəri mühasirəyə alan düşmən qüvvələrinin qarşısında demək olar ki, təkcə qalan Kəlbəcər batalyonu pərakəndə şəkildə düşmənə müqavimət göstərsə də möhkəm müdafiə qura bilmədi və Məcbur olaraq geriyə çəkildi.

Ermənilər işğal edərkən Kəlbəcərdə 1000 nəfərədək mülki şəxsi öldürmüş və əsir aparmışdır. Indiyədək 30 nəfər hərbçimim və 125 nəfər mülki şəxsin talehindən bir xəbər yoxdur. Düşmən 130-dan çox yaşayış məntəqəsini, 13 mindən çox evi, 500-dən çox sənaye, tikinti və kənd təsərrüfatı müəssisəsini, 150 məktəbi və uşaq bağçasını, 76 xəstəxananı yandırıb məhv etdilər. Bununla yanaşı 100000 baş inək və camışı, 500000 baş qoyunu, 5000 baş atı, 50000 arı pətəyini, 800 minik və yük maşını və traktoru, 195000 xalçanı 39 min dəst mebeli, 26 min ədəd televizor və soyuducunu və digər sosial və məişət avadanlıqlarını, ev əşyalarını qarət edərək Ermənistana apardı. Ümumiyyətlə Kəlbəcərə həmin dövrdə 761,4 milyon ABŞ dolları ziyan vurdular.

Hərbi cəhətdən əhəmiyyətli bir bölgə olan Kəlbəcərin ərazisi 3,1 min kv. km, sərhədləri isə həm Ermənistanla, həm də Dağlıq Qarabağla 180 kilometrdən çox idi. Həmin əraziləri müdafiə etmək üçün xeyli canlı qüvvə və hərbi texnika lazım idi. Həmin hərbi qüvvə isə Kəlbəcərdə yox idi. 1993-cü ildə Kəlbəcər batalyonunun komandiri olmuş polkovnik-leytenant Eldar Həsənovun dediklərindən: “Bizim tabor kəlbəcərin Ermənistanla 110 kilometrlik sərhəddində 10 sərhəd məntəqəsində-dağların zirvələrində- yerləşdirilmişdir. Bu məsafəni müdafiə etmək üçün isə ən azı bir briqada lazım idi. Ağdərə istiqamətində-Ağdabanda və Çərəkdarda xalq cəbhəsinin yenidən təşkil edilmiş könüllülər taboru və hərbi hissənin 1-ci taboru yerləşdirilmişdi. Bu taborlarda bir neçə topdan başqa hərbi texnika yox idi. Hələ 1992-ci ilin dekabrında Müdafiə Nazirinin əmri ilə bizim taborun 450 nəfər könüllü döyüşçüsü də tərxis edilmişdir. Ermənistandan Kəlbəcərə rus və ermənilərdən ibarət iki alay, Ağdərədən isə iki briqadanın eyni vaxtda hücuma keçdiyi məlumdur. Ermənistan öz gücü ilə Kəlbəcəri işğal edə bilməzdi. Bu qüvvələrin qarşısında pərakəndə şəkildə iki-üç tabor dururdu. Bu zaman Müdafiə Nazirliyinin əmri ilə (25 mart 1993-cü il) hərbi hissə Laçın bölgəsindən Kəlbəcərə çəkilməli və Kəlbəcərdə müdafiə qurmalı idi. Lakin bu əmr

*<u>Vətən uğrunda ölmək şərəflidir. Düşmənə müqavimət göstərmədən, döyüşsüz geri çəkilmək isə şərəfsiz ölüm kimidir. M ü ə l l i f</u>*

   

gecikmiş əmr idi. Uzun müddət səngərlərdə və döyüşlərdə əvəz edilmədən iştirak etmiş əsgərlərlə iki-üç gün ərzində müdafiə qurmaq olmazdı. Onları yenidən döyüşlərə aparmaq çox çətin idi və bu mümkün də olmadı. Bu zamana qədər bütün Ağdərə bölgəsi düşmən əlinə keçmiş, Kəlbəcərin şərqindəki 11 kənd artıq işğal edilmişdi. Ermənistanla sərhəddə yerləşdirilmiş Kəlbəcər batalyonunun bölük və tağımları arasında, eləcə də qərərgahla bölük və tağımlar arasında əlaqə çox zəif idi. Faktiki olaraq Kəlbəcəri müdafiə etmək üçün hərbi qüvvələr çox az idi. Bütün bunlara baxmayaraq Kəlbəcər batalyonu fədakarcasına düşmənlə vuruşurdu. Kəlbəcər batalyonu döyüşə-döyüşə 50 mindən çox əhalinin düşmən əlinə keçməsinə imkan vermədi. Əks halda Kəlbəcər faciəsi Xocalı faciəsindən pis olardı. Bu taborun ən böyük fəaliyyətindən biri idi. İtkilərimiz də çox oldu..."

Deməli, Kəlbəcərin işğal olunmasının əsas səbəbi: təpədən dırnağadək silahlanmış erməni və ruslardan ibarət düşmənə qarşı döyüş aparacaq hərbi gücün olmamasıdır. Bu hərbi gücə -lazımi qədər canlı qüvvə, hərbi texnika, rabitə vasitələri, mərmi, döyüş sursatı, ərzaq və s. daxildir ki, bunlar da Kəlbəcər batalyonunda lazımi qədər yox idi...

Bundan başqa Kəlbəcər bölgəsinin işğal olunmasında ölkə hakimiyyətinin, yerli İcra orqanlarının, eləcə də əhalinin hərbi işlərə və müdafiə məsələlərinə ciddi yanaşmamalarının da müəyyən dərəcədə təsiri var idi. Kəlbəcər işğal olunmazdan təqribən bir il əvvəl yerli İcra hakimiyyəti səriştəsiz başçılarla əvəz olundu. 1992-ci ilin fevral-mart aylarında yaradılan xalq cəbhəsi batalyonu (844 saylı hərbi hissə) may ayında ləğv edildi. Belə ki, bölgədə xalq cəbhəsinin sədri İcra başçısı təyin olunduqdan sonra həmin döyüşçülərə laqeydlik göstərildi və bunun nəticəsi olaraq həmin döyüşçülərin hamısı tərksilah edildi. 1993-cü ilin martında həmin xalq cəbhəsi batalyonu yenidən pərakəndə şəkildə təşkil olunmağa başlasa da artıq gec idi...

Ordu komandanlığının hərbi qüvvələri və döyüşləri əlaqələndirə bilməməsi də məğlubiyyətin səbəblərindən biridir. Ordu komandanlığının özündə səriştəsiz zabit və generalların əmri və ya tapşırığı ilə döyüşün

əsas aparıcı qüvvəsi olan yuxarı yaşlı əsgərlərin tərxis edilmələri ordunun zəifləməsinə səbəb oldu. Bu kəlbəcərli döyüşçülərin bir dəfə 1992-ci ilin may-iyun aylarında, ikinci dəfə isə həmin ilin dekabrında ordudan tərxis edilmələrini (təqribən 1500 nəfər) yuxarı komandanlıq belə əsaslandırırdı ki, guya nizami ordu yaradılır. Bu-ən azı ağılsızlıq idi. Bunun nəticəsidir ki, həmin vaxt tərxis olunan könüllü döyüşçülər indiyədək döyüşlərdə iştirakçı vəsiqələrini ala bilmirlər. Tarixən məlumdur ki, müharibə aparan ölkədə nəinki 18-20 yaşlı əsgərlərdən, eləcə də 50 yaşadək kişilərdən istifadə edilməlidir. Bundan başqa hərbi komissarlıqların ədalətli olmaması nəticəsində döyüşçülərin bir qisminin orduya çağırılması və digər qisminin çağırılmaması, yəni, ayrıseçkilik qoyulması da döyüşçülərin mənəvi hazırlığına pis təsir göstərirdi...

Kəlbəcərli ziyalılar ölkə və İcra hakimiyyətinə, həmçinin, ordu komandanlığına ərazinin müdafiəsi üçün heç bir təsir edə bilmədilər və ya etmədilər. Əhalinin əksəriyyəti isə orduya lazımi qədər həm mənəvi, həm də canlı qüvvə ilə kömək göstərmədi. Əhalinin bəzi hissəsi belə düşünürdü ki, ordu var, o da Kəlbəcəri qorumalıdır. Onlar böyük bir fəlakətin yaxınlaşdığını dərk etmədilər...



*Döyüşçülərdən Yaşar Abdullayev (ortada) və döyüş yoldaşları*

*Səngərdə düşmənlə üz-üzə, təkbətək qalarkən insan bir daha qəlbən saflaşır, özünü hamıdan güclü və yenilməz hiss edir.*
*M ü ə l l i f*

# Dağlara sığınan döyüşçülər

Kəlbəcərin erməni və rus qoşunları tərəfindən işğalı nəticəsində məcburi olaraq Kəlbəcər ərazisini tərk etdikdən sonra hərbi hissə və onun taborları, o cümlədən Kəlbəcər Batalyonu öz qüvvələrini yenidən toplayaraq əks-hücuma keçməyə hazırlaşırdı. Murovdağ yüksəkliklərini ələ keçirən düşmən mütləq oradan qovulmalı idi. Bir neçə gündən sonra Murovdağın strateji yüksəkliyi olan Ömər aşırımı ələ keçirildi və erməniləri oradan qovuldu. Kapitan Vəli Bayramovun komandanlığı altında briqadanın "Xilaskar" adlanan taboru 21 nəfər döyüşçü ilə itirilmiş yüksəkliyə-Murovdağın "Güzgü" və Ömər aşırımlarına hücum etdi və heç bir itki verməyərək yüksəklikləri ermənilərdən azad etdi. Düşmən geri çəkilməyə məcbur oldu. Döyüşdə sıravi Heydərov Elşad, Sultanov Elşən və digərləri fərqləndilər.

Kəlbəcər Batalyonu-hərbi hissənin 3-cü taboru-1993-cü ilin yaz və yay aylarında Murovdağ silsiləsinin Ömər, Güzgü aşırımlarında və Koroğlu dağında ön mövqedə keşikdə dayanmaqla, ara-sıra mövqe döyüşləri, kəşfiyyat, diversiya əməliyyatları aparır, ermənilərin hücumlarının qarşısını alırdı. Bu müddət ərzində Kəlbəcərə hücum etmək üçün ciddi hazırlıq görülürdü. Hərdən Murovdağda da döyüşlər baş verirdi. Ermənilər yüksəklikləri ələ keçirməyə çalışır, lakin itki verərək öz mövqelərinə çəkilirdi...

* * *

1993-cü il avqust ayının 18-də düşmən yenidən Murovdağdakı mövqelərimizə hücuma keçdi. Ermənilər Murovdağda bir neçə qorunmayan yüksəkliklərə çıxaraq bizim briqadanın ön və arxa cəbhəsinin yerləşdiyi yerləri-Turşsu ətrafını top və qrad qurğuları ilə bombalamağa başlamışdı. Ölənlər və yaralananlar var idi.

Bizim tabor, həmçinin mənim bölüyüm bu vaxt Hacıkənddə təlimdə idi. Məlumat alan kimi təcili bölüyü həyəcan siqnalı ilə qaldırdım və 10 dəqiqə ərzində döyüşə hazır vəziyyətə gətirdim. Biz maşınlarla Murova doğru qalxmağa başladıq. Bu əməliyyata gedərkən Bakıdan gəlmiş jurnalist Tatyana Çaladze öz operatoru ilə bizimlə getmək istədiyini bildirdi. Hərbi hissənin qərərgah rəisi polkovnik-leytenant Eldar Həsənovun icazəsi ilə Tatyana da əməliyyatda iştirak etmək və çəkiliş aparmaq üçün bizimlə birlikdə getdi. Mən maşının kabinəsindən düşərək öz yerimi jurnalistə verdim və yük maşınındakı əsgərlərlərimin yanına qalxdım...

*<u>Qələbə - elə bir ecazkar nemətdir ki, onun şirinliyini şəkərlə, balla, hətta dünyada olan nemətlərin heç biri ilə müqayisə etmək olmaz.</u>*

*M ü ə l l i f*

---

...Murovdağın ətəklərinə çatanda yol düşmən topları ilə bombalandığından biz maşınlardan düşərək çayı o taya adladıq və piyada getməyə başladıq. Hərdən bir ətrafa top mərmisi düşürdü. Bir neçə əsgər yaralanmış, bir neçə çadırımız bombalarla dağıdılmış, maşın üzərində quraşdırılmış qoşalülə zenit pulemyotu da vurulmuşdu. Yuxarıdan bizə tərəf gətirilən yaralılarla qarşılaşırdıq. Təpənin arxasında onları maşına qaldırdılar. Onların içərisində kəşfiyyatçı qızlardan Kəmalə və Aliyə də var idi. Aliyə yaralı idi. Həmin qız bizim onlara köməyə gəldiyimizi görüb bir əlini yuxarı qaldıraraq, "Möhkəm olun, qorxmayın, irəli gedin"- dedi. Kəşfiyyatçı qızın dediyi bu bir neçə kəlmə söz əsgərlərə elə bil qol-qanad verdi. Bayaqdan qarşıda onları nələr gözlədiyini bilmədən həyəcan içərisində dağlara qalxan əsgərlərə elə bil qol-qanad verdilər...

Biz yavaş-yavaş yuxarı qalxmağa davam edirdik. Koroğlu dağında mövqe tutmuş düşmən kəşfiyyatçıları ilə yarım saatlıq döyüşdən sonra düşmən oradan qovulmuş, yüksəkliklər yenidən bizim əlimizə keçmişdir. Bütün yüksəkliklərdə biz əlavə müdafiə mövqeləri təşkil edərək, orada əsgərlərin sayını artırdıq və mövqelərimizi möhkəmləndirdik. Düşmən yüksəklikdən çıxarıldıqdan sonra dağların zirvəsində müdafiə mövqeləri gücləndirildi. Həmin gün yuxarı komandanlığın göstərişi ilə mənim bölüyüm Ömər, Güzgü və Koroğlu yüksəkliklərində ön mövqedə yerləşdirildi. Hər mövqedə durmaq üçün bir zabit və 12 əsgər ayırdım. Bölüyün digər tağımlarını isə Turşsu bulağının yaxınlığında-yol kənarında-çadırlarda yerləşdirdik...

* * *

Artıq bir neçə gün idi ki, Murovdağda ön mövqedə idik. Bölüyün üç keşikçi məntəqəsi var idi: 1-ci məntəqə Ömər dağı yüksəkliyində, 2-ci məntəqə Güzgü aşırımının sağ tərəfindəki hündür qayalıqda, 3-cü məntəqə isə Koroğlu dağında idi. Mən vaxtaşırı həmin məntəqələrə qalxır, onların təchizatı ilə maraqlanır, əlavə sursat, ərzaq, yanacaq göndərirdim. Güzgü məntəqəsindəki kiçik blindajı əsgərlərin köməyi ilə qaya daşlarından özüm tikdim və ora soba qoyduq.

Briqadanın komanda qərərgah maşını da bizim yanımızda-turşsu yaxınlığında, yol kənarında-idi. Biz burada-Murovdağdan görünməyən bir dərədə çadırlar qurmuşduq. Hər səhər əsgərlərə "Qalx" komandası verir və dolayı maşın yolu ilə onları qaçırır, idman edirdik. Sonra bulağın buz kimi suyunda yuyunur, səhər yeməyi yeyir və təlimlərə gedirdik. Təlimlər əsasən atəş hazırlığı və taktiki təlimlərdən ibarət olurdu.

Axşamlar çadırlarda odun sobası yandırırdıq. Odunu isə aşağıdakı meşələrdən özümüz gətirirdik.

Boş vaxtlarımızda zabitlər hamımız bir çadıra toplaşıb gitara, qarmon çalır, çay içir, zarafat edirdik. Gitaranı baş leytenant Xalid Hümbətov gətirmişdi. Mən isə bəzən gitaranı saz kimi kökləyib çalırdım. 9 oktyabr 1993-cü ildə Azərbaycan Ordusunun yaradılmasının 2-ci ildönümündə çobanlardan əsgərlər üçün bir qoyun aldıq və bir qoyunu da biz zabitlər öz maaşımızla aldıq. Maaşımızı isə Qırımxanla Mayıl elə həmin günü gətirib vermişdilər. Həmin gün kabab çəkdik və əsgərlərə də istirahət verdik. Sonra qarmon çalıb əsgərlərlə birlikdə oynadıq. Briqadanın qərərgah rəisi polkovnik-leytenant Eldar Həsənov da yanımıza gələrək həmin günü bizimlə keçirdi. Hamımızın "Qoca" deyərək çağırdığımız şən və zarafatcıl olan kiçik leytenant Mehdi Şahüseynov xeyli oynadıqdan sonra birdən dayandı və başına əlləri ilə vuraraq-"Kül başına ay Qoca, arvad evdə acından ölür, sən də burda pulla oynayırsan"- dedi. Biz bütün günü onun sözlərinə güldük. Zabit yoldaşlardan kapitan Mürşüd Məmmədovla baş leytenant Məzahir Sadıqov da bir-birləri ilə həmişə zarafat edirdilər. Onlar ikisi də bir-birlərinin şəkillərini yaxalarına taxaraq digərinin həlak olduğunu və onun yasını saxladığını deyirdilər. Müxtəlif zarafatlar və maraqlı əhvalatlar olmasa, səngər həyatı cansıxıcı olar...

* * *

Bütün yayı və payızı Murovdağda keçirdik. Hər bir tağım 3 gün müddətinə ön mövqeyə çıxarılır, 3 gündən sonra isə digəri ilə əvəz edilirdi. Bir dəfə-oktyabr ayının əvvəllərində mən özüm də ön mövqeyə keşiyə çıxdım. Əsgərlərdən Zahir, Şahin, Söhrab və digərləri ilə Güzgü aşırımında ön mövqedə keşik çəkirdik. Elə birinci gecə düşmən qayalığa və səngərlərimizə hücum etdi. Bir neçə istiqamətdən səngərlərimiz aramsız avtomat və pulemyotlarla atəşə tutuldu. Həyəcan siqnalı verildi.

-"Səhər-1", "Səhər-1", mən "Şimşəyəm"-qəbul.

-"Şimşək", "Şimşək", səni eşidirəm.

-"Donuzlar" dərə ilə gəlir, ehtiyatlı olun.

-"Şimşək", sizi başa düşdüm.

Qonşu mövqedən bildirdilər ki, düşmən kəşfiyyatı bizim mövqelərə yaxınlaşır. Mən qayalıqda olan mövqelərimizi bərkitməklə yanaşı qayalığın sağ cinahına da əlavə əsgərlər təyin etdim və ratsiya ilə yuxarı komandanlığa məlumat verdim. Sağ cinahdakı əsgərlərə tapşırıq verib qayıdarkən qaranlıqda qayadan yıxıldım, avtomatı əldən buraxmaq istəmədim, əllərim və dizlərim yaralandı. Buna baxmayaraq müdafiəni gücləndirmək barədə əmrlər verir, bizim qarşı tərəfimizdəki qayalığı və

    

aşağı dərəni daimi atəş altında saxlamağa çalışırdım. Düşmən mövqeləri və düşmən kəşfiyyatının hərəkət edəcəyi bütün yerlər atəşə tutuldu. Artıq düşmənin planları pozulmuşdu. Düşmən kəşfiyyatçıları atəş altında qalmışdı. Bizim sağ və sol qonşu mövqelərdən də düşmən üzərinə atəş açılırdı. Buna görə də düşmən ön mövqelərimizi hər tərəfdən atəşə tutmaqla öz kəşfiyyatçılarını döyüş meydanından çıxarmağa çalışırdı. Iki saat idi ki, mövqe döyüşü aparırdıq. Koroğlu dağında mövqedə olan -“Qoca” ləqəbli leytenant Mehdi Şahüseynov ratsiyada məni çağırırdı: “Səhər-1, Səhər-1, mən Səhər-2-yəm, cavab ver”. Mən cavab verdim. O soruşurdu ki, orda nə baş verib, salamatsızmı? Mən vəziyyəti örtülü də olsa ona başa saldım və açıq danışmamağı dedim. Səhərəyaxın güllələrimiz azaldı və qonşulardan əlavə sursat aldıq. Səhər açılanda döyüş dayanmışdı. Əllərimin yarasından hələ də qan axırdı. Tənziflə əllərimin ikisini də sarıdıq və səhər yeməyi yeməyə başladıq. Əsgərlər yenə də bir-birləri ilə zarafat edir, sanki ötən gecəki döyüşün həyəcanını və Murovdağ soyuğunu öz duzlu-məzəli zarafatları ilə yox etməyə çalışırdılar. Elə bil, gecə səhərədək qayalıqda döyüşən və qayalara söykənərək soyuqdan tir-tir əsən biz deyildik.

Günəş çıxsa da istisi duyulmurdu. Ermənilər tək-tək güllələr atır, bəzən minaatanla mövqelərimizi vurmağa çalışırdı. Biz isə avtomat və pulemyotlarla onlara qısa cavablar verirdik. Düşmənin minaatan mərmiləri ya mövqeyimizdən irəliyə düşür, ya da başımız üstündən keçərək arxa tərəfimizdə hündür qayanın aşağısında 50-60 metr aşağıdakı çınqıllıqda partlayırdı. Saat 2 olardı. Mən qayanın yarığından düşmən mövqeyini müşahidə edirdim. Sol cinahda yamacdakı yolun axırıncı döngəsində xırda qayalığın arxasında düşmən əsgərinin balta ilə odun doğradığını gördüm. Erməni gah görünür, gah da daşların arxasında gözdən itirdi. Mən 5.45 mm-lik avtomatla nişan alır, lakin atəş açmağa imkan tapmırdım. Nəhayət düşmənin başı görünər-görünməz atəş açdım. Düşmən yerə sərildi və mövqelərimiz yenə hər tərəfdən güclü atəşə

məruz qaldı. Mən əsgərlərə ehtiyatlı olmağı və az-az düşmənə cavab verməyi tapşırdım. Bir saatdan sonra atışma bir az səngidi. Mən səngərə müşahidəçilər qoyaraq, qalanlarına istirahət etməyə icazə verdim. Çünki gecə heç kim yatmamışdı. Özüm isə qayalığın gün düşən yerində uzanaraq dincəlirdim. Hərdən düşmən minaatanlarının mərmiləri ətrafdakı çınqıllıqlara düşürdü. Birdən yaxınlığımdakı qayaya bir dəmir parçası dəyərək cingildəyə-cingildəyə 50-60 metr hündürlüyündə qayanın aşağısına düşdü. Su üçün göndərdiyim əsgərə qayanın aşağısına düşən dəmirin nə olduğunu öyrənməyi tapşırdım. Bir azdan həmin əsgər aşağıdan çağırıb dedi ki, bu partlamamış 120 mm-lik minaatan mərmisidir. Sən demə mənim 5-6 metrliyimə düşən mərmi qəlp çıxmışdı. Beləcə bütün 92-nin yazını, yayını və payızını Murovdağda keçirdik...

Qəlbim yenə dağa döndü,
Mən Murovun başındayam!
Yaxındadır yurdum-yuvam,
Kəlbəcərin tuşundayam,
Mən Murovun başındayam!
Boran vurur, əsir külək,
Daşa dönüb burda çörək.
Saçıma dən düşür tək-tək,
Daha Murov yaşındayam,
Mən Murovun başındayam!

Oktyabr ayında Xanlar rayonunda ikinci bir taboru təşkil etmək üçün taborun bir neçə zabit və giziri- mən, baş leytenant Xalid Hümbətov, gizir Nizami Məhərrəmov və Nəriman Məmmədov- ora ezam olunduq. Biz şəhərdə başqa bir hərbi hissənin kazarmalarında yerləşərək hərbi komissarlıq tərəfindən çağırılmış yuxarı yaşlı əsgərlərdən 400 nəfərlik bir tabor təşkil etməklə məşğul idik. Günbəgün yeni çağırılmış əsgər və zabitlərin sayı artırdı. Iki aydan artıq bir müddətdə xeyli iş görmüşdük. Biz hər gün yeni çağırılanlarla təlimlər təşkil edir, qarşıdakı döyüşə hazırlaşırdıq. Həmin əsgərlərin bir çoxu döyüşlərdə iştirak etmiş, döyüş təcrübəsinə malik əsgərlər idilər. Təzə çağırılmış zabitlər içərisində tələbə və əsgər yoldaşım Kamil də var idi.

Əsgərlər içərisində 15 yaşlı bir əsgərimiz də var idi: Abdullayev Sərdar Bəhmən oğlu könüllü olaraq döyüşlərə getmək qərarına gəlmişdi. Briqada komandiri Valeh Rəfiyev hər gün onu əsgər cərgəsinin qarşısına çıxarır və əsgərlərə nümunə göstərirdi. Biz Sərdara "Alay oğlu" deyirdik. Iki aydan sonra həmin əsgər və zabitləri briqadanın taborları arasında bölüşdürdük və dekabrın sonunda Kəlbəcəri azad etmək üçün hücum əməliyyatlarına başladıq.

*Biz onda böyük millət olarıq ki, analarımız öz oğullarını heyifsilənmədən döyüşə göndərə bilsin!   M ü ə l l i f*

# Əfsanəvi yürüş

1993-cü ilin dekabr ayında biz artıq, Daşkəsən bölgəsinin Zivlən kəndinin yaylaq məntəqəsindəydik. Dayandığımız yer Murov dağının ətəyində yerləşirdi. Mən, baş leytenant Xalid Hümbətov və leytenant Əziz Abbasov minaatan tağımlarına komandirlik edirdik. Əməliyyat planına əsasən bizim taboriki istiqamətdə  - Zivlən və Alaxançallı kəndlərindən Murov dağını aşaraq Kəlbəcərin Lev, Bozlu, Təkəqaya kəndlərinə hücum etməli idi. Eyni vaxtda briqadanın digər taborları isə Murovdağ silsiləsinin güzgü aşırımından hücum etməli idi. Düşmənə gözlənilmədən bir neçə yerdən zərbə vurulmalı və irəliləyib Zod-Ağdərə yolunu bağlamalı idik. Əməliyyat planı çox dəqiq və yaxşı işlənmişdi. Lakin 60-70 km məsəfədə qarlı dağları aşmaq və düşmən arxasına hücum etmək həm çətin,həm də qeyri-adi bir əməliyyat idi. Bu əməliyyat zamanı hərbi hissəyə polkovnik-leytenant Valeh Rəfiyev komandirlik edirdi.

Daşkəsən bölgəsinin Zivlən kəndinin Murovdağ ətəklərindəki yaylaq yerlərində qalır, yürüşə hazırlıqla məşğul olurduq. Ətraf qarla örtülü idi. Hər gün səhər yuxudan qalxır və əsgərləri də qaldırırdıq. Bir saata qədər idman edirdik və yaxınlıqdakı bulağın buz kimi suyunda yuyunurduq. Əsgərlərin ən çox fiziki hazırlığına diqqət yetirir, döyüş sursatlarını əllə daşıyaraq ora toplayır, silahlardan istifadə qaydalarını bir daha onlara başa salırdıq. Bir aydan çox burada qaldıq. Hücum vaxtını isə dəqiq bilmirdik. Vaxt məxfi saxlanırdı. Qarşıda aşacağımız qarlı dağlar bizi gözləyirdi.

Həmin vaxt taborun əsas zabit heyəti vəzifələrə belə təyin edilmişdi: Tabor komandiri kapitan Balay Nəsibov, qərərgah rəisi baş leytenant Fehruz Alışov, müavinlər baş leytenant Ələkbər Bayramov, baş leytenant Nüsrət Abdullayev, kapitan Firudin Mehdiyev qərərgah rəisinin köməkçisi baş leytenant Akif Mirzəliyev, 1-ci bölük komandiri kapitan Mürşüd Məmmədov, müavin baş leytenant Adil Nağızadə, tağım komandirləri baş leytenant Əhəd İsmayılov, kiçik leytenant Ziyafət Tağıyev, 2-ci bölük komandiri baş leytenant Elşad Nəbiyev, müavin leytenant Hüseyn Nəbiyev, tağım komandirləri baş leytenant Çıraq Bayramov, leytenant Qarayev Vaqif, leytenant İbrahimov İbrahim, 3-cü bölük komandiri leytenant Hüseynov Sahib, müavin leytenant Həsənov Elxan, tağım komandirləri gizir Kamal Hacıyev leytenant Malıyev Alışan, minaatan batareyasının komandiri baş leytenant Xalid Hümbətov, tağım komandirləri leytenant Əziz Abbasov, baş leytenant Akif Kamalov, kəşfiyyat tağımı komandiri gizir Telman Abutalıbov, rabitə rəisi leytenant

Nizami Bayramov, qumbaraatan tağımı komandiri gizir Nizami Məhərrəmov, zenit-raket tağımı komandiri gizir Şahin Bəxtiyarov, təminat tağımı komandiri gizir Tofiq Rzayev, maliyyə xidməti rəisi baş leytenant Mayıl Adilov, tank əleyhinə tağım komandiri baş leytenant Qurban Sarıyev...

* * *

1993-cü il dekabrın 30-da hərəkətə başlamaq əmri verildi. Bölüklər gecə ikən Murov dağına qalxmağa başlamış, iki bölük Koroğlu dağı istiqamətindən, bir bölük isə Alaxançallı istiqamətindən Murov dağlarını aşmalı idi. Minaatan batareyası isə bölüklərin arxasınca Koroğlu dağının sağ tərəfindən Murovdağı keçməli idi. Minaatan batareyasının Murovdağı aşmaq cəhdi həmin gün baş tutmadı. Dağlarda borana düşən batareya iki ədəd minatanı və onun 80 ədəd mərmisini daşıya bilməyərək geri qayıtdı. Həmin gün dincəldikdən sonra biz yenidən-dekabrın 31-də axşam saat 9-da-minaatan batareyasına hərəkətə başlamaq əmri verdik. Çadırda bir ədəd minaatan, xeyli avtomat və pulemyot güllələri, yatacaqlar qaldığından mən əsgər Vidadi Allahverdiyevi və Rafiqi orada saxlamağı lazım bildim. Lakin Vidadi orda qalmaqdan imtina edərək döyüşə gedəcəyini bildirdi. Mən onun yerinə qızıldaşlı Həsrət adlı bir əsgər saxladım. Gecikməz olmazdı, çünki biz olmasaq əməliyyat pozula bilərdi. Bir ədəd 81 mm-lik minaatanı sökərək üç hissəyə ayırdıq və altı əsgərəyüklədik. Onun 80 ədəd mərmisini isə digər əsgər və zabitlərə payladım. Hərəmiz iki-üç mərmi götürməli olduq. Digər minaatanı isə aparmağı lazım bilmədim. Onsuz da yükümüz həddən artıq ağır idi. Əlavə olaraq çörək, konserv, əl qumbaraları və patron götürdük. Mən 4 ədəd avtomat darağı ilə avtomat götürmüşdüm. Arxa çantamda isə üç ədəd minaatan mərmisi, 300 patron, iki əl qumbarası, iki çörək, üç konserv, bir az şokalad və bir yun qofta var idi. 31 dekabr 1993-cü il axşam saat 9 radələrində dağa qalxmağa başladıq. Mən özümüzlə bərabər təsərrüfat tağımının 20 əsgərini də aparmağı lazım bildim. Onlar bizdən bir gün əvvəl Murova doğru hərəkətə başlamış taborun bölükləri üçün ərzaq aparırdı. Bu yürüşdə bizə Kəlbəcərin Qanlıkənd kəndindən oan könüllü döyüşçü, iki əsgər atası Mehdiyev Sabir Əbülfət oğlu bələdçilik edirdi. Onun iki oğlu-Nəsimi və Fəxrəddin də bizim taborda döyüşürdülər. Zirvələrə qalxa-qalxa öz-özümə fikirləşirdim: İlahi, hansı qüvvə idi ata və iki oğulu döyüşə aparan, hansı qüvvə idi amansız dağlarda qar və şaxta, aclıq və susuzluqla ölüm-dirim mübarizəsi edə-edə keçilməz zirvələri, qanlı dağları aşmağa bizi məcbur edən? əlbəttə, Vətən idi bizi çəkib aparan. Murov dağının o üzünə-Kəlbəcər torpağına ayağımızın tez dəyməsinə tələsir, bircə qurtum Kəlbəcər suyunu içməyə

can atırdıq.

25-30 kiloqramlıq arxa çantası ilə qarlı dağa qalxmaq olduqca çətin idi. 5-6 addımdan sonra gücümüz tükənir, dincimizi alıb yenidən qalxırdıq. Bəzi yerlərdə qayalıqlara dırmaşır, bəzən bilmədən qayaların qarla örtülü yarıqlarına düşür, bəzən 40-50 metr hündürlükdə qarla dolu dərələri keçərkən boğaza qədər qara batır, köməkləşib bir-birimizi çıxarır, həddindən çox əzab-əziyyətlə hərəkət edirdik. Üstəlik minaatan və onun mərmiləri bizim hərəkətimizi çətinləşdirirdi. Yüksəkliklərə qalxdıqca əsgərlərdən bəzisi tamamilə addım ata bilmir, hərəkətsiz halda yerə yıxılırdı. Mən onların daha bizimlə gedə bilməyəcəyini yəqin etdikdən sonra məcbur olub onları geri qaytarırıdım. Onların çantalarındakı minaatan mərmilərini isə digər əsgərlərə paylayırdım. Çünki sursatın aparılmasını çörəkdən də vacib bilirdim. Artıq minaatanı əsgərlərdən Vidadi və Qənimətlə özüm götürürdüm. Murovdağın zirvəsin isə hələ çox qalırdı. Kəlbəcər taborunun bu yürüşü Azərbaycan ordusunun tarixinə qızıl hərflərlə yazılmalı bir yürüş idi. Bu yürüşdə iştirak edən bütün əsgər və zabitlər qarşısında baş əyirəm.

Yurd-yuvasız hey yanıram,
Demə vaxtsız sönəsiyəm.
Çox susmuşam, çox dözmüşəm,
Vallah bir gün dinəsiyəm!
Vermərəm mən o cənnəti,
Fikrim qəti, sözüm qəti.
Götürmərəm bu töhməti,
Səngərlərə sinəsiyəm!
Telli sazla oxşadığım,
Min gülünü qoxladığım.
Ondan ötrü ağladığım,
Kəlbəcərə dönəsiyəm!

* * *

1 yanvar 1994-cü il səhər açılanda Murov dağının zirvəsinə çatdıq. Bütün gecəni dayanmadan qarlı zirvələrə, qayalara dırmaşırdıq. Bu qədər məsafəni isə Kəlbəcər istiqamətinə aşağı enməli idik. Murovun zirvəsindən baxanda dağın ətəklərində qarışqa boyda görünən adamları gördük. Lakin ratsiya olmadığından tabor komandiri və ya bölüklərlə əlaqə saxlaya bilmirdik. Aşağıdakıların bizimkilər və ya düşmən olduğunu ayırd etmək çətin idi. Fikirləşə-fikirləşə qalmışdıq. Əgər onlar bizimkilərdirsə, bəs onda niyə açıq-aşkardadırlar? Niyə düşmən arxasında ola-ola gizlənmirlər? Yox, əgər düşməndirsə, onda bizimkilər

hardadırlar? Buna görə də aşağı enmək təhlükəli idi. Oradakı əsgərlərin bizimkilər olmasını dəqiqləşdirmək lazım idi. Həm də kəşfiyyatsız getsək, düşmənlə qarçılaşa bilərdik. Buna görə mən batareyanın əsgərlərini dağın zirvəsində saxlayıb baş leytenant Xalid Hümbətov və leytenant Əziz Abbasovla məsləhətləşdim. Razılığa gəldik ki, mütləq kəşfiyyat aparmaq lazımdır. Mən əsgər Qənimət Süleymanov və daha bir əsgərlə kəşfiyyat aparmaq məqsədi ilə Murovdağdan aşağı enməyə başladıq. Batareya isə danışdığımız kimi bizim işarəmizlə zirvədən enməli idi.

Biz mümkün qədər gizli olaraq qarlı dərələrlə enir, düşmənin duyuq düşməsinə imkan verməməyə çalışırdıq. Aşağı enmək heç də asan deyildi. Hər addım atdıqca qurşağa qədər qara batırdıq. Bəzi yerlərdə qarın üstü ilə sürüşürdük. Bəzən dayanır ətrafı müşahidə edir, yenidən aşağı enirdik. Artıq Təkəqaya kəndinin yaylaq damlarına yaxınlaşmışdıq. 3 saat idi ki, Murovdağın zirvəsindən enirdik. Bir az dincimizi almaq və çörək yemək üçün bir bulaq başında oturduq. Bulaq qarın altından axırdı. Bir konserv açdıq və çörək kəsib yedik. Qənimət çantasından bir butulka araq çıxardı və hərəyə 50 qram içdik. Çörək yeyə-yeyə ətrafı bir daha diqqətlə gözdən keçirdim. Ətraf tamamilə qarla örtülmüşdü. Qarın üzərində maral və dağ keçilərinin izi qalmışdı. Bizdən bir qədər sağda 1992-ci ildə bizim döyüşçülər tərəfindən vurulmuş bir erməni vertalyotu görünürdü. Qarşı tərəfdəki Susuzluq dağının və sağ tərəfdəki Təkəqaya dağının zirvələrinə bir daha göz gəzdirdim. Təkəqaya dağının zirvəsində də əsgərlər görünürdü. Təqribən 15-20 nəfər olardılar. Bundan başqa bizdən 800-1000 metr aşağıda-yaylaq damlarının ətrafında da əsgərlər gözə dəyirdi. Lakin onların bizimkilər olmasını heç cür aydınlaşdıra bilmirdim. Fikirləşdim ki, iki bir-birindən uzaq məsafədə olan dəstələrdən yalnız biri bizimki ola bilər. Biz bir az da aşağı endik və yaylaq damlarına 6-7 yüz metrədək yaxınlaşdıq. Mənim işarəmlə bizim arxamızca hərəkət edən batareya Murovdağının yamacları ilə aşağı enirdi. Birdən Təkəqaya dağının zirvəsindəki əsgərlərin yavaş-yavaş bizə tərəf aşağı endiklərini müşahidə etdik. Məsafə uzaq olduğundan onların kim olmalarını aydınlaşdıra bilmədim. Biz-üç nəfər cəld dağ yamacındakı hündür bir təpəlikdə mövqe tutaraq Təkəqaya dağından enənləri müşahidə etməyə başladıq. Əgər düşmən olsa, batareya bizə köməyə gələnədək döyüşməli idik. Lakin döyüşmək və ya güllə atıb səs-küy salmaq olmazdı. Çünki biz düşmən arxasına gizli gedirdik. Bu zaman yaylaq damları tərəfdən gözləmədiyimiz halda bizə xeyli yaxınlaşmış 5-6 əsgər sol tərəfdəki qayalıqdan bizi çağırdı. Biz əvvəlcə çaş-baş qalsaq da onları tanıdıq və onlara tərəf getməyə başladıq. Həmin əsgərlər isə bizim

kim olmamızı müəyyən etmək üçün pusqu quraraq bizə yaxınlaşmışdılar. Onlardan öyrəndim ki, Təkəqaya dağının zirvəsindəki və oradan bizə tərəf gələnlər də bizimkilərdir, kəşfiyyatdan gəlirlər. Mən Murovdağdan enən batareyanı işarə ilə başa saldım ki, təhlükə yoxdur və onlar dayanmadan aşağı ensinlər...

* * *

Axşam biz artıq müvəqqəti qərərgahda-yaylaq damlarında idik. Tabor əməliyyata başlamaq üçün orada bir bölüklə bizi gözləyirdi. Orada tabor komandiri, zabit yoldaşlarla və əsgərlərlə görüşdük. Mən komandirə məlumat verdim və minaatanı, onun 80 ədəd mərmisini, üstəlik də çörək və ərzaq gətirdiyimizi bildirdim. Onlar bildirdilər ki, bir sutkadan çoxdur ki, acdırlar. Bir azdan minaatan batareyası da gəlib çıxdı. Biz ərzağı və çörəyi əsgərlər arasında bölüşdürdük.

Axşam əməliyyatı keçirmək üçün biz -zabitlər son məsləhətləşmələr apardıq. Komandir bildirdi ki, kəşfiyyat aparmışıq, bizim qarşı tərəfimizdəki Susuzluq dağının zirvəsində və Təkəqayası dağında düşmənlərin postu yoxdur. Ona görə düşmən heç yerdən buranı görmür. O, düşmənin Bozdu, Təkəqaya və Babaşlar kəndində 5-6 zirehli texnikasının və 100 nəfərədək əsgərinin olduğunu da bildirdi.

Sonra komandir yuxarı komandanlıqla ilə əlaqəyə girdi və döyüşə hazır olduğumuzu bildirdi. Bizim çağırış ”Göyçə-1” idi. Ratsiya ilə şifrlənmiş məlumat aldıq: “Göyçə-1 əvvəlcə Bozlu və Təkəqaya kəndlərini hücumla götürür, sonra irəliləyərək Qanlıkənd və Dəmirçidam kəndlərinə daxil olur, Göyçədən Ağdərəyə gedən avtomobil yoluna nəzarəti öz əlinə alır. Hər cür kömək ediləcək”. Məlumat bütün zabitlərə çatdırıldı və biz son hazırlıqlara başladıq.

Kəlbəcər polislərindən 60 nəfər də bizimlə bərabər döyüşə gəlmişdi. Gündüzdən aparılan kəşfiyyat məlumatlarına əsasən Bozlu, Babaşlar və Təkəqaya kəndlərində azı bir bölük, 2-3 ədəd tank, PDM və digər zirehli texnika var idi. Hava işıqlanana qədər biz kəndi mühasirəyə almalı və gözlənilmədən hücum etməliydik. Mən təkid etdim ki, gecikə bilərik, çünki hər tərəf qarla örtülüdür, qarlı cığırlarda isə hərəkət etmək çətindir, saat ikidə hərəkətə başlayaq. Lakin tabor komandiri mənim təklifimlə razılaşmayaraq, səhərəyaxın-saat 4 radələrində əməliyyata başlamaq üçün əmr verdi. Saat 4-dək dincəlmək üçün icazə verildi.

Leytenant Abbasov Əziz, gizir Abutalıbov Telman, əsgərlərdən Allahverdiyev Vidadi, Şükürov Nemət, Süleymanov Qənimət və minaatan batareyasının digər əsgərləri ilə qazma yaylaq evlərinin birində

ocaq yandırıb, tüstüdə boğula-boğula ayaqqabılarımızı və paltarlarımızı qurutduq, yemək yedik və iki-üç saat dincəldik.

* * *

Saat dördün yarısında əsgərləri qaldırdım və onların silah-sursatını bir daha yoxladım. Digər bölüklər də hazır vəziyyətə gətirildilər. Hərəkətə başlamaq əmri verildi. Biz bir cərgə ilə irəlidə gedən bölüyün arxasınca dağ yamacı ilə səssiz gedirdik. Minaatanı və mərmilərini də aparırdıq. Yolda polislərin komandiri öz döyüşçülərini də geri çağıraraq döyüşməkdən imtina etdi. Lakin Kəlbəcər polislərindən Ayaz, Arzuman, Xəyyam, İlqar, Elman, İlham, Əliyəddin, Qalib, Vaqif bizdən ayrılmadan bizimlə bərabər döyüşməyi qərara aldılar və komandirlərinin çağırışı ilə geri qayıtmadılar. Polis komandirinin bu hərəkəti bizim əsgərlərə də çox pis təsir göstərdi. Mən əsgərlərə onlarsız da döyüşə biləcəyimizi bildirdim və "İrəli" komandası verdim.

Artilleriya zabiti baş leytenant Hicran Abbasov, rabitəçi əsgər Aqil və kəşfiyyatçı Qurban Susuzluq dağına qalxırdılar. Onlar Daşkəsənin Zivlən kəndində yerləşdirilmiş qrad və toplarla düşmən mövqelərini və düşmənin görünməyən hədəflərini vurmaq üçün oradan müşahidə aparıb məlumat verməli idilər.

Səhərəyaxın idi. Hər tərəf səssizliyə qapılmışdı. Ayağımızın altında xırpıldayan qardan, əsgərlərin pıçıltılarından və bir də aşağıdakı meşədə qaratoyuğun səsindən başqa bir səs eşıdilmirdi. Səhər açılanda biz artıq Bozlu kəndinə yaxınlaşmışdıq. Lakin, bir qədər gecikmişdik. Səhər açıldığından kəndi mühasirəyə almaq mümkün olmadı; düşmən bizi görə bilərdi. Ermənilər kəndin salamat qalmış bir evinin qarşısında arxayın odun doğrayırdılar. əvvəlcədən hazırlanmış əməliyyata uyğun olmasa da bölüklərə sağ, sol və düzünə kəndə hücum əmri verildi. Bir dəstə dayanmadan kəndin üst tərəfindən keçərək Çəpli kəndi istiqamətinə gedən rabitə xəttini kəsməli və sol təpəliyi ələ keçirməli, ikinci dəstə-kəşfiyyatçılar (komandir Abutalıbov Telman) sağ cinahdan kəndin aşağı tərəfinə enməli, üçüncü dəstə (komandir kapitan Mürşüd Məmmədov) isə yamacla kəndə hucuma keçməli idi. Minaatan batareyası isə döyüşən bölüklə hücum edərək, kəndin yuxarısındakı təpəlikdə mövqe tutaraq atəş açmalıydı. Belə də etdik. Əsgərlər "Ura" qışqırtıları ilə atəş açaraq kəndə girdilər, düşmən gözlənilmədən yaxalanmışdı. Mən leytenant Abbasov Əzizlə və əsgərlərlə tələsik minaatanı döyüşə hazırladıq, birinci mərmi atılmadı, lülənin içərisinə qar dolaraq buz bağlamışdı. Minanı çıxarıb lüləni sildik, ikinci dəfə də mərmi atılmadı. Dörd dəfə lüləni sildikdən sonra ilk atəş açıldı. Bu bir neçə saniyə ərzində baş verdi. Elə bu vaxt arxa tərəfdə-Susuzluq dağında atəş səsləri eşitdik. Ora baxdıqda orada

güclü döyüş getdiyini gördük. Əvvəlcə nə baş verdiyini başa düşmədik. Kim idi oradakılar? Qarlı zirvədə iki nəfər dağın zirvəsindən qaçaraq özlərini qarlı dərəyə atdıqlarını və onlardan bir qədər sonra 15-20 silahlının onların arxasınca qaçdıqlarının şahidi olduq. Sonra həmin əsgərlərin qayıdaraq dağın zirvəsində oturduqlarını müşahidə etdik. Onların düşmən olduqlarını yəqin etdim. Bir neçə saniyə ərzində baş verən bu döyüşü uzaqdan izləyirdik. Düşmən keçdiyimiz yolun 200 metrliyində, arxa tərəfimizdə mövqe tutmuşdu. Orada düşmən mövqelərinin olmasını isə bizim kəşfiyyatçılar aşkar edə bilməmişdilər. Deməli biz gecənin qaranlığında dağın yamacı ilə düşmənin iki yüz metrliyindən keçmişdik. Məsafə uzaq olduğundan avtomat güllələri səmərəsiz idi. Birdən düşmənin mövqe tutduğu zirvədən xeyli aşağıdan dərədən baş leytenant Hicran Abbasovun məni və Xalidi çağırdığını eşitdik. O, düşmənin arxadan gəldiyini bizə bildirdi və qarlı dərədə görünməz oldu. Hər şey aydın oldu. Sən demə, artilleriya zabiti baş leytenant Hicran Abbasov iki əsgərlə-Qurban və Aqil Heydərovla dağa qalxarkən qəfildən ermənilərlə qarşılaşmışdı. Döyüşə-döyüşə geriyə çəkilərkən rabitəçi Aqil düşmən gülləsinə tuş gəlmiş və həlak olmuş, H.Abbasovla Qurban isə özlərini qarla dolu dərəyə ataraq xeyli aşağılara yumalanmış və labüd ölümdən xilas olmuşlar.

Mən minatanı arxa tərəfə-həmin Susuzluq dağındakı ermənilərə tərəf-tuşlamağı əmr etdim. Dalbadal atılan mərmilərdən bir neçəsi düşmən mövqelərinə düşərək onları pərən-pərən saldı. Düşmən ölən və yaralananları qoyaraq qaçdı və dağın o biri üzünə aşaraq görünməz oldular. Lakin ermənilər dağın yüksəkliyini hələ də əllərində saxlayırdılar. Ratsiyada komandir bizi çağırırdı: “Göyçə-2, mən Göyçə birəm, qəbul”. Biz cavab verdik, komandir minaatanı kəndə gətirməyi əmr etdi. Biz arxa tərəfimizin-dağın zirvəsinin ermənilər tərəfndən tutulduğunu komandirə bildirdik. Komandir yenə əmr etdi ki, biz minaatanı söküb kəndə gətirək. Biz minaatanı cəld söküb kəndə tərəf endik və yenidən minaatanı quraraq düşmənin qaçıb uzaqlaşan döyüş maşınına atəş açdıq...

Bozlu, Babaşlar və Təkəqayası kəndləri 20 dəqiqəlik döyüş zamanı düşməndən azad edildi. Düşmən 30 nəfər itki verərək qaçdı. Döyüşdə Telman Abutalıbov, Qalib Məmmədov, Nadir Əkbərov, Əziz Abbasov, Vidadi Allahverdiyev, Nemət Şükürov, Qənimət Süleymanov, Mürşüd Məmmədov, Mikayıl Rzayev daha çox qoçaqlıq göstərdilər. Iki əsgərimiz-Yusiflə, Vüqar yaralandı. Kəndin yüksəkliklərində mövqe

tutmuşduq. Biz-zabitlər bir-birimizi qələbə münasibəti ilə təbrik edirdik. Ac və yorğun idik. Dincəlmək əmri verildi. Mən komandirin yanına gələrək qələbə münasibəti ilə onu təbrik etdim. Təpəlikdə oturduq. Leytenant Z.Hüseynov mənə dedi ki, əmin oğlu Habil də burdadır. Əsgər Kamalov Habili çağırıb görüşdüm. O, bildirdi ki, hospitaldan qayıdaraq birbaşa döyüşə gəlib.

Əsgər və zabitlər çantalarında olan axırıncı tikələrini çıxarıb bölüşdürdülər. Bu çox az idi: hərəyə bir tikə düşdü. Ermənilərdən az miqdarda yağ və şəkər əldə etmişdik. Çörək yox idi. Bundan da vacib olan isə güllələrimizin azalması idi. Yuxarı komandanlıqla ilə əlaqə saxladıq; tapşırığın yerinə yetirildiyini və hücumu davam etdirmək üçün çörək və patron lazım olduğunu bildirdik...

Taborun qərərgah rəisi Fehruz Alışovla və onun dəstəsi ilə heç bir əlaqə yarada bilməmişdik. Onlar Alaxançallı istiqamətindən Murovdağ silsiləsini aşaraq İlyaslar və Lev kəndinə hücum etməli idilər. Onlar nə ratsiya ilə çağırışlara cavab verir, nə də İlyaslar kəndi istiqamətində görünürdülər.

Axşamüstü ermənilər 4 ədəd zirehli texnika və 500 nəfərədək ehtiyatda olan canlı qüvvə ilə hücuma keçdilər; onlar itirilmiş mövqelərini geri qaytarmaq istəyirdilər. Lakin yüksəklik bizdə olduğuna görə düşməni yaxına buraxmır, itkilərə məruz qoyurduq. Minaatanın mərmisi və güllələrimiz azalmışdı. Yalnız pulemyotlardan atəş açırdıq. Düşmən artıq toplarla və minaatanla mövqelərimizi vururdu. Biz yuxarı komandanlıqdan patron və kömək istədik. Briqada qərərgahından bizə heç bir köməyin gəlməyəcəyini və sursatın göndərilməsinin qeyri-mümkün olduğunu bildirdilər. Biz vertalyotla yaxınlığa patron gətirilməsini xahiş etdik. Lakin vertalyotlarla da bizə patron göndərmədilər. Biz mühasirədə döyüş apardığımızı və vəziyyətin çıxılmaz olduğunu, bizə çörək yox, patron lazım olduğunu bir daha bildirdik. Bu vaxt ermənilər yenidən əks-hücuma keçdi. Düşmən minaatanla atəş açırdı. Mən kəndin içərisində bir evin qarşısına toplaşmış zabit və əsgərləri evin arxasına çəkilmələri üçün komanda verdim. Biz evdən bir qədər uzaqlaşmışdıq ki, düşmən mərmisi bayaq bizim dayandığımız yerə düşdü. Hər tərəf tüstü və toz içində qaldı. Tüstü çəkiləndə biz bir qədər yuxarı qalxmışdıq. Heç kim yaralanmamışdı, itki yox idi. Leytenant Əziz Abbasova minaatanı yuxarı təpəliyə çıxarmağı və düşmən mövqelərinə və yola atəş açmağı tapşırdım. Elə bu vaxt ermənilərin Bozdu kəndinin aşağısından dərə ilə irəlilədiyini gördüm. Düşmənin qarşısını kəsmək üçün Bozlu kəndinin quzey tərəfində dərənin kənarında qarlı meşədə mövqe tutmaq üçün dörd əsgərə-Vidadi, Nemət

və daha iki əsgərə tapşırıq verdim və özüm də onlarla qarlı dərəyə endim. Buradan kəndin aşağı tərəfi aydın görünürdü. Oradan arxa tərəfimizə keçmək istəyən erməniləri atəşə tutduq. Ermənilər pulemyotla bizə atəş açdılar. Tozağacına söykənib atəş açırdım. Düşmən bizim atəşimizlə dayandırıldı və yüksəklikdən istifadə edərək sağ cinahda nəzarəti öz əlimizə aldıq. Bizim durduğumuz yerdən bizimkilər görünmürdü, lakin atəş səslərindən məlum olurdu ki, sol cinahımızda-kənddə güclü döyüş gedir. Bir azdan batareyanın əsgərləri minaatanla da atəş açmağa başladılar. Ermənilər yaxınlaşmağa cürət etmədilər.

Bir neçə dəqiqədən sonra atəş səsləri kəsildi və Bozlu və Təkəqaya dərəsinə sükut çökdü. Əsgərlərdən birini göndərib komandirə məlumat vermək istədim. Meşənin yuxarısına qədər qara bata-bata çıxmış əsgər oradan bizi çağırdı ki, tabor geriyə çəkilir, tez yuxarı çıxın. Biz qarlı meşə ilə ağac və kol budaqlarından tutaraq yuxarı qalxdıq. Bozlu kəndini məcburi olaraq tərk etmiş tabor artıq dağ cığırı ilə Murovdağın ətəklərinə qalxırdı. Tabora əlavə qüvvə və sursat verilmədiyindən geriyə çəkilməyə məcbur idi. Biz də onların arxasınca Murov dağına tərəf üz tutduq. Geriyə çəkilməyi biz heç vaxt ağlımıza gətirməzdik. Çünki əzab-əziyyətlə, 60-70 km məsafədə qarlı dağları aşaraq bir neçə kəndi düşməndən azad etmişdik. Döyüşü davam etdirmək üçün bizə sursat lazım idi. Hərbi sursatı göndərmək üçün yuxarı komandanlıq heç bir iş görmədi. Ələ keçirdiyimiz mövqeləri tərk etmək bizim üçün çox çətin idi. Mühasirə vəziyyətindən çıxmaq və bundan başqa ac, yorğun, yuxusuz, şaxtada, qarın içərisində təzədən amansız Murov dağına qalxmaq-ölüm demək idi. Əfsanəvi bir yürüş edib, döyüşərək azad etdiyimiz mövqelərdən geriyə-Murova doğru çəkilirdik. Mərmisi qurtarmış minaatanı götürməyə taqətimiz qalmadığı üçün onu Bozlu kəndinin üst tərəfində qarın içərisində gizlətdik. Susuzluq dağının yamacı ilə gedir, dağın zirvəsində mövqe tutmuş ermənilərlə hər an qarşılaşacağımızı fikirləşirdik. Başqa yolumuz yox idi. Aşağı uçurum, qarla dolmuş keçilməz dərə idi. Döyüşə-döyüşə dağ yamacını keçməli idik. Düşmən mövqelərinə 5-6 yüz metr qalmışdı. Bu zaman qar çovğunu başladı. Hər tərəfi qar-boran bürüdü. 5-6 metr məsafə güclə görünürdü. Külək qar dənələrini üzümüzə çırpır, hərəkətimizə maneçilik törədirdi. Lakin bu çovğun düşməndən yayınmaq üçün bizə tanrı tərəfindən verilmiş bir fürsət idi. Biz ermənilərin mövqe tutduqları Susuzluq dağının zirvəsindən 200 metr aşağıdan yarım saat ərzində keçdikdən sonra qar-boran dayandı. Yaylaq damlarının yanına çatanda artıq qaranlıq düşmüşdü. Düşmən bizi

top atəşinə tutmuşdu. Ünvansız olaraq atılan və dağ yamaclarında partlayan mərmilər isə itkilərə səbəb olmadı. Hələ qarşıda 60 km-dən çox qarlı Murovdağ aşırımı dururdu. Ac, yorğun, yuxusuz, şaxtada qarla tamamilə örtülü dağa qalxmaq demək olar ki, mümkün deyildi. Mən yeddi əsgərlə-Allahverdiyev Vidadi, Şükürov Nemət və digərləri ilə-yaylaq damlarına çatanda artıq taborun bölmələri ayrı-ayrı istiqamətlərdən pərakəndə şəkildə Murovdağ silsiləsinə qalxırdı. Bir az yuxarı qalxdıqdan sonra qarın üstündə oturub dincimizi aldıq və əsgərlərdən çantalarında çörək olub-olmamasını soruşdum. Çörək olmadığını dedilər və üç ədəd konserv çıxardılar. Mən isə arxa çantamda ehtiyat saxladığım yarım buxanka çörəyi çıxarıb 8 yerə bərabər böldüm və axırıncı çörək tikələrini əsgərlərlə yeyib Murovdağa doğru hərəkətə başladıq. Gecə Murova qalxırdıq. Hər tərəfdən külək qarı sovurur, dərələrə doldururdu. Biz qarı yara-yara bir-birinin izi ilə hərəkət edirdik. Bəzən qayaların yarıqlarına, çökək yerlərə yıxılır, dərələrə sürüşüb düşürdük. Oradan çıxana kimi taqətimiz tamam kəsilirdi. Bir-birimizə kömək edirdik. Dincimizi alarkən iki-üç dəqiqədən artıq dayandıqda isə qurşaqdan aşağı su olan ayaqlarımız donmağa başlayırdı.

Gecənin qaranlığında dağlarda yolu itirmiş əsgər və zabitlərə də rast gəlir, onları da çağırıb toplayır, öz dəstəmizə qoşurduq. Mən onlara yolu tanıdığımı və gəldiyimiz yerlə onları sağ-salamat qaytaracağımı deyirdim. Ancaq qar işığında uzaqda qaralan dağların zirvəsini səmt tutub irəliləyir, digər əsgər və zabitləri öz arxamca aparırdım. Bir az getdikdən sonra mən də yolu itirdim. Bəzən qayaların yarıqlarına düşür, tamamilə qara batırdım. Əsgərlər köməkləşib məni çıxarır, təzədən başqa istiqamətdə irəliləyirdik. Dağa qalxdıqca yerimək daha da çətinləşirdi. Bəzən əsgərlər daha çox dayanmaqla dinclərini almaq və bəzən də yatmaq istəyirdi. Amma mən onlara yatmağa imkan vermirdim. Çünki çox dayanmaq və ya yatmaq ölüm demək idi. Yeridikcə ayaqqabılarımız qarla dolur və qar əriyərək ayaqlarımız su içərisində qalırdı. Hərəkətsiz qaldıqda isə şaxta vurarkən ayaqlarımız donurdu. Taqətimiz də yox idi ki, bir-birimizə kömək edək. Mən xeyli müddət iz açaraq qabaqda getdiyimdən artıq yorulub hamıdan geriyə qalmışdım. Könüllü döyüşçü olan İlqar Əliyev cibinə doldurduğu şəkər tozundan bir ovuc mənə vermişdi. Şəkər tozunu yalayaraq gedir, arxadan onlara çatmağa çalışırdım. Məndən təqribən 200 metr qabaqda irəliləyən əsgərlərin izi ilə gedir, izi itirməməyə çalışırdım. Külək qarı sovurduğundan izlər də görünməz olurdu. Artıq taqətim tam tükənmişdi, addım ata bilmirdim. Çantamda ehtiyat üçün saxladığım bir şokaladı çıxarıb yedim ki, gücümü bərpa edəm. Yenə də yeriyə bilmədiyimi hiss edərək zabit yoldaşları:

Adili, Nizamini və İlqarı çağırdım. Bir neçə dəfə çağırdıqdan sonra onlar səsimi eşitdilər və mənə hay verdilər. Dedim ki, "Yorulmuşam, məni gözləyin". Qaranlıqda-ayın və qarın işığında çətinliklə addımlayaraq onların yanına çatdım. Hamısı dayanıb məni gözləyirdilər. Onların yanına çatanda isə dayanmamağı bildirdim. əsgərlər dona bilərdilər. Çünki artıq dayanmaq-donmaq demək idi. Gücümüz qalmasa da hərəkət etmək lazım idi. Ayağa duranda əsgərlərdən bir neçəsinin qarın içərisində yatdığını gördüm. Mən onları-Vidadini, Mirzəlini və iki başqa əsgəri qaldırmaq istədim, qalxmadılar. Bu əsgərlər donmaq təhlükəsi ilə üzləşmişdilər. Aclıq və yuxusuzluq onları taqətdən salmışdı. Mirzəli isə silahını aparmağı və onu tərpətməməyi məndən xahiş etdi. Vəziyyət olduqca çətinləşmişdi. Onları heç vaxt burada qoymaq olmazdı. Dəstə isə yenidən xeyli bizdən uzaqlaşmışdı. Mən yenidən arxa çantamı açıb orada qalmış, axırıncı beş ədəd şokaladı çıxarıb əsgərlərə payladım və onları bir-bir ayağa qaldırdım, bizdən xeyli aralanmış dəstənin arxasınca irəliləməyə başladıq. Səhər açılanda Murovun zirvəsinə çatmışdıq. Oradan daş körpü adlanan yerə doğru dərə ilə ac və taqətsiz səkkiz saat yol getdik...

Bu əməliyyatda 24 nəfər əsgər və polis acından, yorğunluqdan gələ bilməmiş, dağlarda donub həlak olmuş, 40 nəfərədək əsgər və zabit donvurmadan hərbi hospitala müalicəyə göndərilmiş, onlardan bir neçəsinin ayağı kəsilmişdi...

* * *

F.Alışovun rəhbərlik etdiyi ikinci bölük isə qəfildən Bozdu kəndi yaxınlığında ermənilərlə qarşılaşmış, kəşfiyyata göndərilmiş bölük komandiri leytenant Hüseynov Sahib və bölüyün baş çavuşu əsir düşmüş, gizir Kamal Hacıyev isə ermənilərin 10-15 metrliyindən onlara qəfil atəş açaraq qaçıb xilas olmuşdu. Bununla da bölüyün mühasirəyə düşməməsi üçün geriyə çəkilmək əmri verilir.

Gizir Kamal Hacıyevin dediklərindən: "Fehruz Alışovun rəhbərliyi ilə bizim bölük Lev kəndinə hücum etməli idi. Taborla ratsiya əlaqəsi kəsildiyinə görə biz Lev kəndinə deyil, özümüzünkülərlə birləşmək üçün istiqaməti dəyişib Bozdu kəndinə tərəf hərəkət edirdik. Qarlı dağlarla hərəkət etmək olduqca çətin idi. Ərzağımız tükənmiş, yorğunluq və yuxusuzluq taqətimizi əlimizdən almışdı. Yanvar ayının 3-də səhər-səhər Təkəqaya kəndinin yaylaq yerlərinə çatdıq. Qarın üstündəki izlər və yaylaq damlarındakı közü qalmış ocaqlar bizimkilərin bir-iki saat əvvəl burada olmasının əlamətləri idi. Bozdu kəndinin üstündəki yüksəkliklərdə görünən hərbçilərin bizim döyüşçülər olmasını tam yəqin etmişdik. Biz kəşfiyyatçı əsgərlərin-İbrahimov Natiqlə

Abdullayev Yaşarın gətirdikləri məlumatlara inanmayaraq Bozdu kəndində bizim taborun olduğunu yəqin etmişdik. Biz bölüyü kəndin iki kilometrliyində saxlayaraq Bölük komandiri, bölüyün baş çavuşu və mən kəndə yaxınlaşdıq. Üç yüz metrədək bir məsafədən kəndin üst tərəfindəki təpəlikdə görünən hərbçiləri çağırıb kim olmalarını soruşduq. Onlar: “Biz Daşkəsən polisləriyik, sizinkilər o biri kənddədirlər”-dedilər. Onların özümüzünkülər olduğuna tam inandıq və avtomatların qayışını boynumuza keçirib onlara tərəf addımladıq. Onların yanına çatmağa 10-12 addım qalmışdı ki, birdən onlar üstümüzə qışqıraraq silahları yerə atmağı tələb etdilər. Yaman yerdə axşamladıq, biz aldanmışdıq, onlar ermənilər imiş. Bir anlıq dünya başıma fırlandı, nə edəcəyimi bilmədim. Hər şeyin sonu olduğunu yəqin etdim. Bölük komandiri və baş çavuş məndən bir-iki addım qabaqda idilər. Onların silahları yerə atdıqlarını görən ermənilər bizə yaxınlaşmaq istədilər. Elə bu vaxt mənim də üstümə qışqırdılar: ”Tı toje brosay orujye”. Mən avtomatın qayışını boynumdan çıxardım və guya avtomatı yerə qoymaq istəyirəm. Bir az aşağı əyildim və gizlicə baş barmağımla avtomatın qoruyucusunu aşağı basdım. Ermənilər elə bildilər ki, mən də silahımı yerə qoyuram. Artıq iki yolum qalırdı: ya düşmənə təslim olub min cür ağılasığmaz işgəncələrə məruz qalmaq, ya da düşmənlə axıradək döyüşüb həlak olmaq. Döyüşməyə isə heç bir imkan yox idi. Əlimi silaha aparsam məni vuracaqlar. Ya təslim olmaq, ya ölüm. Bütün bu fikirlər avtomatın qayışını boynumdan çıxararaq aşağı əyilərkən-ani olaraq ağlımdan keçirdi və mən ölümü üstün tutaraq düşmənin gözləmədiyi bir məqamda onlara tərəf qəfil atəş açaraq, yarğana tərəf qaçdım. Qabaqda gələrək beş-altı addımlığa qədər bizə yaxınlaşan ermənilər yerə sərildilər. Qalan ermənilər isə özlərini bir anlığa itirərək, nə edəcəklərini bilmədilər. Mənə də elə bu bir an lazım idi. Qəfil atəşə məruz qalan düşmən özünə gələnədək xəndəyin kənarına çatmışdım. Güllələr ətrafımda qarı sovuraraq vıyıltı ilə hər tərəfimdən ötürdü. Bütün bunlar demək olar ki, bir neçə saniyədə baş verdi. Mən qaçaraq özümü meşəyə çatdırmaq istəyirdim. Elə bu vaxt əlimdəki avtomata dəyən güllə onun qundağını parçaladı və silahı əlimdən yerə saldı. Avtomatı götürməyə macal vermədilər. Mən xəndəkdən aşağı tullanaraq özümü uçuruma atdım və qarlı dərə ilə aşağı yumalandım.
Uçurumun aşağısına çatanda bir an dönüb geriyə baxdım. Ağacların arasından heç nə görünməsə də düşmən hələ yaxında idi və arxamca atılan saysız-hesabsız güllələr ətrafıma tökülür, vahiməli şəkildə vızıldayırdı. Meşəli uçurumla gah yumalanır, gah da durub qaçırdım. Lakin ayağımdakı rezindən olan kimyəvi mühafizə geyimi mane olurdu. Botinkalarımı yolda ocaqda yandırdığımdan kimyəvi mühafizə

*Dədə-babalarımızın min illərlə qoruduqları torpaqları-*
*biz də canımızla, qanımızla qorumalıyıq.      M ü ə l l i f*



geyimində qalmışdım. Qış gödəkcəsi də qaçmağıma mane olurdu. Düşməndən yüz-yüz əlli metr aralanmışdım. Arxamca gələn olmadığını yəqin etdikdən sonra ayağıma geyindiyim mühafizə çəkmələrini və qış gödəkçəsini tez soyunub atdım və Murov dağlarına tərəf üz tutdum. 12 saat ərzində dayanmadan qarlı Murov dağını corabla aşaraq Daşkəsənin Zivlən kəndinə gəlib çıxdım... ”

Bozlu kəndində isə ermənilər tərəfindən əsir götürülmüş bölük komandiri Hüseynov Sahib və bölüyün baş çavuş isə ağır işgəncələrə məruz qalmış və başları kəsilmişdi. Sonralar Bozlu kəndini azad edərkən onların meyidlərini oradan tapdıq.

Bu əməliyyatda batalyonun bütün əsgər və zabitlərinin, o cümlədən; zabitlərdən Balay Nəsibov, Hüseyn Nəbiyev, Hicran Abbasov, Xalid Hümbətov, Çıraq Bayramov, Ziyafət Tağıyev, Əziz Abbasov, Elşad Nəbiyev, Adil Nağızadə, Fehruz Alışov, Kamal Hacıyev, Nizami Bayramov, Telman Abutalıbov, əsgərlərdən Natiq İbrahimov, Ələddin Salmanov, Yaşar Abdullayev, Fərrux Abbasov, Vidadi Allahverdiyev, İlqar Həsənov, Vidadi Cəmilov, Habil Kamalov, İlqar Əliyev, Qənimət Süleymanov, Nemət Şükürov, Famil Atayev, Ələmdar Həsənov, Mirzəli Mehdiyev, Fazil Abbasov, Nadir Əkbərov, Mikayıl Rzayev,  Kəlbəcər polislərindən Ayaz, Arzuman, Xəyyam, İlqar, Elman, İlham, Əliyəddin, Qalib, Vaqif, bizə bələdçilik etmiş Sabir Mehdiyev (mülki şəxs idi) və digərlərinin qoçaqlıqlarını qeyd etmək istərdim.

Bu əməliyyatdan sonra briqada komandiri V.Rəfiyev vəzifədən azad edildi və onun yerinə mayor S.İlyasov təyin edildi. 3-cü tabor komandiri B.Nəsibov isə yaralanaraq hospitala getdi.

Qış fəslində Murovdağın 3700 metrlik qarlı zirvələrini piyada aşaraq, çiyinlərində minaatan və onun mərmilərini daşıyaraq 60-70 kilometr məsafəni qət edib düşmən üzərinə hücum etmək-dünya hərb tarixində nadir hadisələrdəndir.  Əfsanəyə çevrilmiş bu yürüş, məhz, Kəlbəcər Batalyonuna məxsusdur.

*Bizim dünya xalqları qarşısında deməyə sözümüz onda olar ki, hər bir müəllim öz tələbəsindən, yalnız ədəb, elm, bilik tələb etməsin, onlar həm də vətəni qorumağı tələb etsinlər! M ü ə l l i f*

# "Murovdağ" əməliyyatı

1994-cü il yanvar ayının əvvəlləri idi. 701-ci hərbi hissənin digər taborlarının apardığı uğurlu döyüşlər nəticəsində ermənilər Güzgü, Koroğlu və Ömər aşırımlarından qovulmuş, Meydançay ətrafında düşmən darmadağın edilmişdi. Bu döyüşlərdə 5-ci tabor gizli düşmən arxasına keçərək Meydançayda pusqu düzəltmiş, Murovdağdan qaçan düşməni və Murova doğru köməyə gələn düşmən qüvvələrini məhv etmişlər. Bu döyüşdə Aydınov Rəfi igidlik göstərərək qəhrəmancasına həlak olmuşdu.

Kəlbəcərin Yanşaq və Susuzluq kəndləri uğrunda döyüşlər davam etdirilirdi. Güzgü aşırımı və Meydançay dərəsində düşmən əsgərlərinin saysız meyidləri səpələnmişdi. Bu döyüşlər nəticəsində düşmən Murovdağdan qovulmuş, döyüşlər Kəlbəcərin Murovdağ ətəklərindəki kəndləri uğrunda davam etdirilirdi. 3-cü tabor (tabor komandiri baş leytenant F.Alışov), 5-ci tabor (komandir-baş leytenant Gəray Əsədov) Meydançay və Şişqaya yüksəklikləri uğrunda, 2-ci və 4-cü tabor(Xanlar batalyonu) 1-ci taborla Meydançayın sağ tərəfi yüksəklikləri boyunca irəliləyirdi...

2-ci taborun baş çavuşu Nəriman Məmmədovun dediklərindən: "Biz yavaş-yavaş Meydançay dərəsi ilə irəliləyir, yüksəklikdə mövqe tutmuş düşmən əsgərlərinə görünməməyə çalışır, dağı dolanaraq onların arxasına keçməyə çalışırdıq. Kəşfiyyatın verdiyi məlumata əsasən sağ tərəfdəki yüksəklikdə düşmən mövqe tutmamışdı. Ona görə dağın cənub yamacı ilə səssiz gedir, mümkün qədər səs salmamağa və qarın üzərində sürüşməməyə çalışırdıq. Lap az qalmışdı ki, düşmən mövqelərinin arxasına keçək, birdən sağ və sol yüksəkliklərdən bizi qəfil atəşə tutdular. Əvvəlcə açılan atəşin təsadüfi olduğunu yəqin etdik. Lakin, hər tərəfdən yağış kimi yağan güllələrdən bir neçə əsgərimiz yaralandıqdan sonra pusquya düşdüyümüzü dərk etdik. Əsgərlər özlərini itirmiş, nə etmək lazım olduğunu bilmirdilər. Biz düşmənə atəş açmaq əmri verdim. Lakin düşmən bütün yüksəklikləri ələ keçirmişdi. Başqa yolumuz qalmadığından məcbur olub geri çəkilməyə başladıq. Amansız bir döyüş gedirdi. Biz dağın yamacında tam açıqlıqda idik. Hər yerdən güllə yağırdı. Mən həm sağ tərəfdəki yüksəklikdə mövqe tutmuş düşmənə atəş açır, həm də əsgərlərə yaralıları götürməkdə kömək edirdim. Yaralanan və ölənlər var idi. Bir saat çəkən döyüşdə biz 12 nəfər şəhid verdik, 18 yaralını götürərək dağın arxasına çəkildik. Yaralılara kömək edərkən

əsgərlərdən birinin pulemyotu döyüş meydanında qalmışdı. Mən həmin əsgəri pulemyotunu götürməyə göndərdim və düşmən mövqelərini atəş altında saxlamağa başladıq. Bir neçə dəqiqədən sonra həmin əsgər pulemyotu götürərək geri qayıtdı".

3-cü taborun əsgər və zabitləri "Bozdu" əməliyyatından bir həftə sonra öz qüvvələrimizi cəmləyərək yenidən Murovdağa qalxdı. Murov dağından Meydançay dərəsinə  enərkən maşınları işıqsız sürürdük. Çünki düşmən yolu uzaqdan topla nəzarətdə saxlayırdı. Bir gün əvvəl həmin yolda minaatan mərmisi ilə düşmən bizim Kamaz markalı maşını vurmuş, Mehdiyev Sabir və bir neçə əsgər yaralanmışdı. Tabor komandiri hospitalda olduğu üçün onu baş leytenant Fehruz Alışov əvəz edirdi. Mən üçüncü bölüyə komandir təyin edilmişdim. Taborun qərərgahı Meydançayın sol sahilində bir dərədə çadırlarda yerləşirdi. Bizdən bir qədər qabaqda döyüş gedirdi. Biz həlilik ehtiyatda olan tabor idik. Yalnız ön mövqedə Əziz Abbasovun komandirlik etdiyi minaatan batareyası yerləşdirilmişdi. Mən və baş leytenant Əhəd İsmayılov bir saat olardı ki, Murovdağdan bura enmişdik. Yolda Kəlbəcər rayon yol idarəsinin işçiləri-Şəmsi və Fikrətlə görüşdük. Onlar bizə və 40 nəfərədək əsgərə xeyli şirniyyat verdilər.

Gecə zabitlər hamımız soba yandıraraq bir çadıra toplaşdıq. Bir azdan briqadanın qərərgah rəisi polkovnik-leytenant Eldar Həsənov da yanımıza gəldi. Çay qaynatmışdıq. Mən çantamdan şokalad çıxarıb zabit yoldaşlara və əsgərlərə payladım ki, çay içək. Elə bu zaman qəfil atılan iki top mərmisi çadırımızın lap yaxınlığına düşdü. Qonşu çadırda iki əsgər həlak oldu. Ermənilərdən götürdüyümyüz iki at da öldü. Mən komanda verərək əsgərləri dərənin yuxarı hissəsinə-təhlükəsiz yerə tərəf apardım. Bir saata qədər düşmən bizim çadırları və Murov yolunu topla atəşə tutdu.  Gecə saat üçdə 3-cü taborun Murovdağdakı Yol evinə qalxması barədə əmr aldıq. Gecənin zülmət qaranlığında silah və sursatımızı götürərək piyada Yol evinə qalxdıq. Ağır sursatları və yüklərimizi isə maşına yüklədik və sürücüyə maşının işığını yandırmadan sürməyi tapşırdıq. Yol evində-qərərgahda yuxarı komandanlıqdan bizə xüsusi tapşırıq verildi: birinci taborla bərabər düşmənin mövqe tutduğu Susuzluq dağına qalxmalı, oradakı düşmən mövqelərini ələ keçirməyi  və həmin yüksəklikdən Susuzluq və Yanşaq kəndlərinə hücum etməli idik. Bununla da bizim tabor ikinci dəfə düşmən arxasına göndərilirdi.

*İnsan üçün ən müqəddəs varlıq anadır. Ondan da müqəddəs bir məfhum var; o-torpaqdır. Çünki müqəddəs olan ananın özü də torpaqdan yaranmışdır. M ü ə l l i f*



### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***30 dekabr 1993-cü il*** - briqadanın 3-cü taboru (komandir: kapitan Balay Nəsibov, qərərgah rəisi baş leytenant Fehruz Alışov, bölük və tağım komandirləri: kapitan Mürşüd Məmmədov, leytenant Elşad, gizir Kamal Hacıyev, baş leytenant Akif Kamalov, leytenant Əziz Abbasov, baş leytenant Xalid Hümbətov, Çıraq Bayramov, Nizami Bayramov, Adil Nağızadə, Hicran Abbasov, leytenantlar Zahid Hüseynov, Hüseyn Nəbiyev, Ziyafət Tağıyev,) Daşkəsəndən iki istiqamətdə: Zivlən-Murovdağ-Bozlu və Alaxançallı-Murovdağ-İlyaslar istiqamətlərində Murovdağın qarla örtülü zirvələrini aşaraq düşmən arxasına əfsanəvi bir yürüş etdi. Taborun minaatan batareyası minaatanla və onun 80 ədəd mərmisi ilə Murovdağı aşmağa nail oldu.

***01 yanvar 1994-cü il*** – 5-ci tabor (komandir: Gəray Əsədov, tağım komandiri İbad Vəliyev) düşmən arxasına-Meydançaya endirildikdən sonra 1-ci tabor (komandir: kapitan Zeynalov Nəriman, müavinlər: kapitan Qurbanov Qurban, kapitan Hüseynov Zamin) "Güzgü" və Ömər aşırımından hücuma keçdi. Erməni mövqeləri darmadağın edilərək ələ keçirildi, qaçan düşmənin qarşısı pusquda durmuş İbad Vəliyevin tağımı tərəfindən Meydançayda kəsildi. Düşmən 31 nəfər canlı qüvvə itirdi. Bu döyüşdə Aydınov Rəfi və Novruzov Nizami həlak oldular. Döyüşlərdə fərqləndiklərinə görə Qəribov Məhəbbətə, Vəliyev İbada və Tağıyev Yaşara kiçik leytenant hərbi rütbəsi verildi, Novruzov Nizami (ölümündən sonra) və Əliyev Əbülfəz Azərbaycan Bayrağı ordeni ilə təltif olundular.

*Cəsurlar ölümü bir dəfə dadarlar.*
*La Londasina*

### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***02 yanvar 1994-cü il*** - düşmən arxasına yürüş etmiş 3-cü tabor (komandir: kapitan B.Nəsibov) qəflətən hücuma keçərək Kəlbəcərin Bozdu, Babaşlar, və Təkəqayası kəndlərini düşməndən azad etdi. Minaatan batareyasının köməyi ilə həmin gün taborun düşmən tərəfindən mühasirəyə alınmasının qarşısı alındı. Düşmən 30 nəfər canlı qüvvə itirərək qaçdı. Həmin gün axşam əks-hücuma keçən düşmənlə mühasirə vəziyyətində qeyri-bərabər döyüş aparan taborun sursatı tükənir və kömək göndərmək mümkün olmadığına görə tabora azad edilmiş mövqeləri tərk etməyə məcbur oldu. Bu döyüşdə iki nəfər yaralandı və artilleriya rabitəçisi Aqil Heydərov həlak oldu.
Mühasirədən çıxaraq Murovdağın qarlı silsilələrini aşarkən taborun şəxsi heyətindən daha 24 nəfər isə donaraq həlak oldular.
***02 yanvar 1994-cü il*** - 2-ci tabor (komandir: baş leytenant Şabanov Həbib müavinlər: kapitan Bəkirov Azər, kapitan İsgəndərov Hikmət, bölük komandirləri: leytenantlar Quliyev Qulu, Şirinov Yusif, baş çavuş Məmmədov Nəriman) Meydançaydan Yanşaq kəndi istiqamətində hücuma keçdi. Düşmənin güclü müqaviməti ilə üzləşən tabor 12 nəfər şəhid verərək, 18 nəfər yaralı ilə geri çəkildi.



*Minaatanlar: batareya komandiri Ə.Abbasov (solda)*

*Komadir öz əsgəriimi ümidsiz qoymamalıdır.*
*M ü ə l l i f*

# Yenidən düşmən arxasına

17 yanvar 1994-cü il tarixdə Yol evində əsgərlərin silah və sursatlarını yoxladıq və ərzaq götürüb hərəkətə başladıq. Dağları dolanaraq qarın üstü ilə erməni mövqelərindən gizli səkkiz saata Susuzluq dağına qalxdıq. Səhər açılanda dağın yüksəkliklərində sağ və sol tərəfimizdə qayalıqlarda erməni mövqelərini aşkar etdik. Düşmənin gözləmədiyi bir vaxtda onları atəşə tutduq. Bizim mövqelərimiz çox əlverişsiz idi. Bir bölük əsgərlə dar bir dərədə mövqe tutmağı komandir F.Alışov mənə tapşırdı. Mən bölüklə Susuzluq dağının Meydançay istiqamətindəki erməni mövqelərini atəş altında saxlamalı, öz yerimizi itirməməli idim. Əvvəlcə dağın yüksəkliyindəki qayalıqda yerləşən düşmən mövqelərini kəşfiyyat atəşinə tutdum və düşmən mövqelərini aşkar etdikdən sonra əsgərlərə irəliləmək əmri verdim. Dizdən yuxarı qarın içərisində, dərə və çökəkliklə dağ yamacında bir-biri qoruyaraq irəliləyirdik. Dərələrdə qar yığınları 2-3, bəzən 5 metrə çatırdı. Düşmən gülləri isə ora-bura çovuyurdu. Artıq düşmənin mövqe tutduğu qayalıqlara çatanda orada 8 düşmən əsgəriniun meyidi qalmış, qalanları isə qaçmışdı. Mən birinci tağımı oradan bir qədər də aşağı endirib kiçik qayalıqda mövqe yaratmaq istəyirdim. Birdən yaxınlıqdakı çox da böyük olmayan qayanın arxasında bir erməni zabitinin qabaqda gedən əsgəri nişan aldığını gördüm. Mən qışqırdım və eyni vaxtda düşmənə tərəf atəş açdım. Erməni zabiti yumalanıb qarlı çökəyə düşdü. Bir saat ərzində düşməni pərən-pərən saldıq və yüksəkliklərin bir neçəsini ələ keçirdik. Digər bölüklərimiz də sağ cinahdakı erməni mövqelərini darmadağın etdilər...

Artıq 3 gün idi ki, qarlı zirvələrdə döyüşürdük. Üç gün dağın zirvəsindən Yanşaq kəndindəki erməni qüvvələrini atəşə tutduq. 1-ci taborun döyüşçüsü Tağıyev Məhədin iri çaplı pulemyotu (DŞK) düşmənə aman vermirdi.  Pulemyotla kənddə düşmənin bütün hərəkətlərini dayandırdıq. Onlar hətta döyüş maşınından düşüb qaçdılar. Düşmənin Meydançay ətrafındakı qüvvələri ilə Yanşaq kəndindəki qüvvələrini bir-birindən ayırdıq. Düşmən ancaq gecələr hərəkət edir, bir-birləri ilə əlaqə yarada bilirdilər. Bu döyüşlər nəticəsində ermənilər hər gün xeyli canlı qüvvə və texnika itirir, getdikcə qüvvələri tükənirdi.

Dağın zirvəsində çovğun və şaxtadan dayanmaq qeyri-mümkün idi. Bəzi əsgərlər qarı deşib özlərinə mağara düzəltmiş, orada külək və şaxtadan daldalanırdılar. Mən zarafatla onların mağarasına “Ayımağarası” deyirdim. Çörək və konservlər tamamilə buza dönmüş, bir



tikə qoparıb yemək müşkül məsələyə çevrilmişdi. Belə şaxtada suxarı və süd konservləri dadımıza çatırdı. Donmamaq üçün gecələr səhərədək gəzinir, ora-bura qaçır ayaqlarımızı isidirdik. Hər gecə əsgərləri bir-bir yoxlayır, donmamaları üçün yatmağı onlara qadağan edirdim. Buna baxmayaraq bəzi əsgərlər yuxusuzluğa tab gətirmir, elə qarı üstündə yatırdılar. Mən onların donmaması üçün hər bir saatdan bir onları oyadır, özümlə bərabər gəzdirirdim ki, ayaqlarına istilik gəlsin.

Mən baş leytenant Nizami Bayramovla qarın içərisini oyub özümüzə iki nəfərlik bir daldalanacaq düzəltmişdik və üstümüzə plaş-çadır çəkirdik ki, donmayaq. Bu daldalanacaq, bizi yalnız, qılınc kimi kəsən küləkdən qoruyurdu. Lakin bunun da xeyiri olmurdu. Bir az dincimizi almaq istədikdə ayaqlarımız yenidən donmağa başlayır və biz yenidən qalxaraq gəzinir, hərəkət etməyə başlayırdıq ki, donmayaq. Belə bir vəziyyətdə çox qalmaq olmazdı. Ona görə də biz zabitlər yuxarı komandanlığı tələsdirirdik ki, icazə verin hücuma keçək.

Ikinci gecə idi ki, dağın zirvəsində idik. Ermənilər mövqelərimizi topla vurmağa başladılar. Birinci mərmi bizdən 30 metr aralıdakı qayalığa dəydi. Hamımız qarın üstünə uzandıq. Heç kim yaralanmamışdı, itki yox idi. Artıq itki verməmək üçün əsgərlərə dağın görünməyən tərəfinə çəkilməyi əmr etdim. Ikinci mərmi atılanda mən əsgərlərə “uzanın” komandası verdim və özüm də düzəltdiyimiz daldalanacağa uzanmaq istədim. Sən demə leytenant Zahid Hüseynov məndən qabaq gəlib daldalanacaqda yatıbmış. Mənə isə gizlənməyə yer qalmamışdı. Sonralar bunu xatırlayıb gülürdük.

Biz zabitlər-briqadanın kəşfiyyat rəisi mayor Rəhman İsgəndərov, 1-ci taborun komandiri kapitan Qurban Qurbanov, 3-cü taborun komandiri kapitan Fehruz Alışov, mən və digər bölük və tağımların komandirləri qərara gəldik ki, düşmən üzərinə hücum etmək lazımdır. Bunun üçün yuxarı komandanlıqdan əmr verilməsini xahiş etdik.

*Düşmən çox olsa, qorxma, düşmənin birliyindən qorx.*

*M ü ə l l i f*

---

Briqadanın kəşfiyyatçıları (Sahib Aslanov, göyçaylı Rafael, laçınlı Rövşən Bəxtiyarov, Rza və başqaları) üç gün idi ki, Yanşaq kəndində idilər. Onlar gecə gizli olaraq kəndə enmiş, ermənilərin qərərgahı yerləşən məktəb binasının yaxınlığında tövlədə gizlənərək bizi məlimatlandırırdılar. Yanvarın 20-də səhərəyaxın onlar ratsiya ilə düşmənin kənddən qaçdığını bizə bildirdilər. Artıq qar və şaxta ilə mübarizənin çətinləşdiyini görüb bir daha vəziyyəti götür-qoy etdik.

Nəhayət əmr aldıq: birinci tabor Yanşaq kəndini, 3-cü tabor-biz isə Susuzluq kəndini hücumla azad etməliydi. Səhər açıldı. Biz əsgərlərə son tapşırıqlar verdik və dağ yamacları ilə uzun zəncirvarı sıralarla yavaş-yavaş aşağı enməyə başladıq. Dağın qarla örtülü donmuş yamacı o qədər sərt eniş idi ki, sürüşüb 1000-1200 metr aşağı yuvarlanmaq təhlükəsi yaranırdı. Biz düşmən mövqelərinə avtomat və pulemyotlarla atəş açа-açа ehtiyatla enirdik. Ermənilər uzaqdan bizə top atırdı. Lakin onlar böyük bir qoşunla gəldiyimizi görüb vahimə içərisində kəndlərdən və tutduqları mövqelərindən qaçıb çıxırdılar. Düşmənin uzaqdan atılan topları isə bizi qorxutmurdu. Bizim əsgərlərin dağların yamacı ilə, say çoxluğu ilə, qələbəyə inam hissi ilə düşmən üzərinə hücum etməyini ermənilər uzaqdan görüb vahimə içərisində qaçırdılar. Bu həm də düşmən üzərində mənəvi üstünlük idi.

Günortaya yaxın bölüklə Susuzluq kəndi ilə Yanşaq kəndinin arasındakı yüksəkliyə endik və əsgərlərə təpəlikdə mövqe tutmağı əmr etdim. Digər bölüklər sağ cinahda Bozdu kəndi ilə Susuzluq kəndinin arasındakı aşırımlarda və yüksəkliklərdə yerləşdirildi. Sol cinahda-Yanşaq kəndində isə 1-ci tabor mövqe tutmuşdu. Tank və döyüş maşınları olmadan tutduğumuz mövqeləri əldə saxlamaq çətin idi. Düşmən əks-hücuma keçə bilərdi. Buna görə əvvəlcə yollar Meydan çayı boyunca minadan təmizlənməli, sonra texnika gətirilməli idi. Bunun üçün artıq minaaxtaranlar işə başlamış və Meydan çayı boyunca çoxlu düşmən minasını zərərsizləşdirmişdilər.

Ermənilər Kəlbəcər bölgəsindəki bütün kəndləri qarət etdikdən sonra yandırılmışdılar. Susuzluq kəndində bir neçə yanmamış tövlə Yanşaq kəndində isə təkcə məktəb binası və onun yaxınlığında bir ev salamat qalmışdı. Hər tərəfdə əzilmiş, qırılmış, dağıdılmış ev əşyaları gözə dəyirdi. Alma ağaclarının altında yarpaqlar arasında alma tapıb yeyirdik. Ərzağımız tükənmişdi. Yollar minalardan təmizləndikdən sonra bizə sursat və ərzaq gətiriləcəkdi.

*Dost -dar gündə tanınar!* *X a l q   m ə s ə l i*

Artıq ikinci gün idi ki, dağlardan enmişdik. Komandir F.Alışovun əmri ilə mən mövqeləri 1-ci tabora təhvil verim və bölüklə Susuzluq kəndinə getdim. Susuzluq kəndində komandirə məlumat verdim və biz növbəti əməliyyat planını müzakirə etdik...

Gecə zabit yoldaşlarla və bir neçə əsgərlə salamat qalmış bir tövləni qərərgah etdik və soba yandırıb dincəldik. İkinci gecə baş leytenant Qurban Sarıyev səhra mətbəxini gətirərək bizə isti xörək hazırlatdı. Gecə briqadanın əməliyyat bölmə rəisi, mayor Qorxmaz Qarayev və komandir müavini mayor Nəriman Zeynalov da yanımıza gəldi. Biz əvvəlcə ön mövqeləri gözdən keçirdik. Sabahkı döyüş əməliyyatı barədə bir daha götür-qoy etdik. Bizim taborun döyüşlərinə biləvasitə rəhbərlik edən mayor Qorxmaz Qarayev yanımızda qaldı. Sobanın yanında odunların üstündə kürək-kürəyə söykənib yatdıq. Iki həftədən sonra ilk dəfə idi ki, rahat yatırdım...



*Tərtər uğrunda döyüşlər-1994-cü il*

*Torpqsız xalq ola bilməz. əgər varsa, həmin xalqın özü günahkardır. M ü ə l l i f*



### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***16 yanvar 1994-cü il saat 7.00*** - 1-ci tabor (komandir: kapitan Qurbanov Qurban, müavinlər: kapitan Hüseynov Zamin, leytenant Məmmədov Arif) və 3-cü tabor (komandir: baş leytenant Fehruz Alışov, müavinlər: kapitan Mürşüd Məmmədov, bölük komandirləri: baş leytenantlar Akif Kamalov, Hüseyn Nəbiyev, Adil Nağızadə, Minaatan batareyasının komandiri leytenant Əziz Abbasov, tağım komandirləri: baş leytenant Əhəd İsmayılov, leytenant Zahid Hüseynov, baş leytenant Xalid Hümbətov, baş leytenant Ziyafət Tağıyev, gizir Şahin Bəxtiyarov, leytenant Nizami Bayramov, baş leytenant Çıraq Bayramov) yenidən düşmən arxasına keçərək, gecə 8 saat qarlı dağlarla dolanaraq Susuzluq dağının zirvəsinə qalxdı. Qəfil yaxalanan düşmən itki verərək mövqelərini tərk etdi. Yüksəkliyi ələ keçirən 1-ci və 3-cü taborlar düşmənin Meydançayda və Yanşaq kəndində bütün hərəkətlərini dayandırdı. 1-ci taborun bir əsgəri donaraq həlak oldu.

***16 yanvar 1994-cü il, axşam saat-8.00*** - Kəşfiyyatçılar (Kəşfiyyat rəisi kapitan Rəhman İsgəndərov, kəşfiyyat bölüyünün komandiri Sahib Aslanov, kəşfiyyatçılar Rafael, Rövşən, Rza və s.) Yanşaq kəndində ermənilərin qərərgahının yaxınlığında gizlənərək yuxarı komandanlığa mühüm məlumatlar verdilər.

***17 yanvar 1994-cü il*** - 2-ci taborun 3-cü bölüyü (bölük komandiri: baş leytenant Zeynalov Gülağa, tağım komandiri: leytenant Hüseynov Fəxrəddin, manqa komandiri çavuş Zeynalov Musa) Meydançaydan sol tərəfdəki Şişqaya yüksəkliyinə hücuma keçdi. Döyüş zamanı düşmən 45 nəfər meyid qoyaraq mövqeləri tərk etməyə məcbur oldu. Tapşırığı yerinə yetirdiklərinə görə Qərərgah rəisi polkovnik-leytenant Eldar Həsənov onlara təşəkkür elan etdi.

▲ ***ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN***

***19 yanvar 1994-cü il*** - 5-ci tabor (komandir: leytenant Əsədov Gəray, müavinlər kiçik leytenant İbrahimov Cəmil, baş leytenant Mirzəzadə Əhməd, bölük komandiri Vəliyev İbad) Qızılqaya istiqamətində hücuma keçdi və yüksəklik ələ keçirildi. Düşmən 300 nəfər canlı qüvvə itirdi, bir düşmən əsgəri əsir götürüldü. Tabor 13 nəfər şəhid verdi və 20 nəfər yaralandı. Döyüşdə fərqləndiklərinə görə Qurbanov Fehruz, Mustafayev Kamran, Ələkbərov Mətləb, Vəliyev İbad kiçik leytenant rütbəsinə layiq görüldülər.

***20 yanvar 1994-cü il*** - briqadanın 5-ci taboru Bağarsaq kəndi, 2-ci və 1-ci tabor Yanşaq kəndi, 3-cü tabor (Kəlbəcər Batalyonu) isə Susuzluq kəndi istiqamətində hücuma keçərək həmin yaşayış məntəqələrinə daxil oldular. Düşmən çoxlu sayda canlı qüvvə və texnika itirərək geriyə çəkildi. Bu əməliyyatlar zamanı briqadanın tank bölüyü (komandir: kapitan Həsənov Xayyam, müavinlər: baş leytenant Babayev Zülfüqar, kapitan Vəliyev Xaliq) düşmən mövqelərini atəşə tutaraq 2-ci taborla birlikdə Yanşaq kəndinə doğru irəlilədi. Briqadanın artilleriyası (komandir: mayor Əliyev Elsevər, müavinlər: mayor Musayev Tariyel, kapitan Şahbazov Şahin, baş leytenant Abbasov Hicran, baş leytenant İbrahimov Nizami) toplarla düşmən mövqelərini darmadağın edərək taborların irəliləməsinə kömək etdilər.



*Minaatanlar-Ağdam-1994-cü il*



*Kəlbəcər Yanşaq kəndi- yanvar 1994-cü il*

*Şəkildə: soldan Səxavət, tağım komandiri Vəliyev İbad  və  Zabil, yuxarıda Nuru və döyüş yoldaşları*



*Hərbi hissənin komandiri, polkovnik-leytenant V.Rəfiyev (sağda) və qərərgah rəisi  polkovnik-leytenant E.Həsənov, Hacıkənd 1993-cü il*



*Hərbi hissənin qərərgah rəisi polkovnik-leytenant Eldar Həsənov və əsgər Etibar Abbasov - səngərdə. Murovdağ, avqust 1993-cü il*



*MUROVDAĞ- dekabr 1993-cü il  Solda: tağım komandiri Vəliyev İbad Səfiyar oğlu vədöyüş yoldaşları: Zabil,  Asif,  Əsgər, Səxavət*

*Heç bir zəfərə çiçəkli yollardan gedilməz.*
*A r i s t o f a n*

# “Çəpli” əməliyyatı

Hər dəfə hücuma gedəndə içimdən bir hayqırtı gəlirdi, qışqıraraq düşmənə “Ey ermənilər sizinlə döyüşə qisasçılar gəlir!”-demək istəyirdim...

1994-cü il yanvar ayının 23-də bizə əmr verildi ki, Çəpli kəndinə hücum etməli, Göyçədən Ağdərəyə gedən yol-ermənilərin Qarabağla əsas əlaqə yollarından biri-nəzarətə götürülməlidir. Bu döyüşlərdə bizə mayor Q.Qarayev rəhbərlik edirdi. Tabor komandiri baş leytenant F.Alışov mənə bölüklə Çəpli kəndinin üstündəki qayalıqda mövqe tutmağı tapşırdı. Biz qayalıqlara çatanda ermənilərin maşın karvanı Çəpli kəndinə yaxınlaşırdı. Əlbəttə, düşmən bizim yaxında olmağımızı bilmirdi. Kənd və yol sanki ayağımızın altında idi. Maşın karvanı Çəpli kənd körpüsünə yaxınlaşanda əsgərlərə vaxtı itirmədən atəş əmri verdik. Sağ tərəfdəki bölüklər də eyni vaxtda öz atəşləri ilə bizə kömək edərək atəş açdılar. Elə ilk atəşdə maşınlardan biri yandı. Çayın kənarı ilə dolanbac yollarda düşmənin maşın karvanı dayandırıldı. Bir-iki maşın döngələrin arxasına çəkilərək görünməz oldu. Digər maşınlardan tökülüşən düşmən əsgərləri bizimkilərin atəşi altına düşərək hara qaçdıqlarını bilmirdilər. Ora-bura vurnuxan ermənilər Fazilin pulemyotuna və bizim avtomatçıların güllələrinə tuş gələrək yolun içərisinə və döngələrə sərilirdilər. Maşınların biri alışaraq erməniləri daha da vahiməyə salmışdı. Bir saat davam edən döyüşdə erməni və rusların maşın karvanı darmadağın edildi. Döyüşdən sonra qayaların arasındakı cığırlarla kəndə yaxınlaşan kapitan Mürşüd Məmmədov və əsgərlər yaxınlıqdakı evdə ermənilərin olduğunu bildirdilər. Biz onları mühasirəyə alaraq təslim olmalarını tələb etdik. Onlar müqavimət göstərmədən təslim oldular. Beş nəfər zabit və gizir idilər. İlkin məlumatlar aldıqdan sonra məlum oldu ki, onlardan biri - hərbi komissar Aşot Qriqoryan, digər dörd nəfər isə Ermənistandakı rus diviziyasının zabitləridir. Onlar bildirdilər ki, Çəpli və Qamışlı kəndində döyüşənlərə kömək üçün 240 nəfər əsgər gətiriblər.

Bu döyüş nəticəsində Göyçə-Ağdərə yoluna nəzarəti öz əlimizə aldıq. Düşmənin 240 nəfərdən çox canlı qüvvəsi, bir tankı, iki avtomobili məhv edildi, üç ədəd PDM-i, 6 ədəd müxtəlif markalı avtomobili, xeyli silah-sursat və ərzağı ələ keçirildi. Bu əməliyyata görə taborun bütün döyüşçülərinə təşəkkür elan edildi, Fehruz Alışov “Hərbi xidmətlərə görə” medalı ilə, taborun bütün zabitlərinin isə növbədənkənar hərbi rütbə ilə təltif olunduqları elan edildi. Döyüşdə zabitlərdən: Fehruz Alışov, Ziyafət Tağıyev, Nizami Bayramov, Mürşüd Məmmədov, Kamal

Hacıyev, Çıraq Bayramov, Adil Nağızadə, Əziz Abbasov, Hüseyn Nəbiyev, Xalid Hümbətovun, əsgərlərdən: pulemyotçu Fazil Musa oğlunun, Mikayılın Həbib oğlunun, Vəliyev Məmmədin, Nofəlin və digərlərinin qoçaqlıqlarını xüsusilə qeyd etmək lazımdır.

Eyni vaxtda briqadanın digər taborları da uğurlu döyüşlər apararaq Kəlbəcərin Qamışlı, Bağırsaq, Qasımbinəsi kəndlərini və Çiçəklidağ yüksəkliyini düşməndən azad etmişdılər. Həmin döyüşlər zamanı erməni başkəsənlərindən biri olan bir polkovnik də öldürülmüşdür. Qamışlı kəndi uğrunda döyüşlərdə də düşmən darmadağın edilmişdi. Kəndin yuxarısındakı çay kənarında tək evdə-meşəbəyinin evində-düşmənin 30 nəfərədək canlı qüvvəsinin gizləndiyini aşkar etdıkdən sonra onları mühasirəyə alıb təslim olmalarını əmr etdik. Düşmən isə döyüşü davam etdirir, təslim olmaq istəmirdi. Üst tərəfki qayalıqdan ev tam bizimkilərin nəzarətində idi. Hətta evin və tövlənin pəncərəsindən içəriyə bir neçə qumbara atdıq. Yuxarı komandanlığa məlumat verildi ki, düşmən təslim olmaq istəmir. “01”-qərərgah rəisi polkovnik-leytenant E.Həsənov- əmr verdi ki, təslim olmurlarsa, onları məhv edin. Düşmən hər tərəfdən atəşə tutularaq məhv edildi. Biz evin və tövlənin içərisində 30 nəfər düşmən əsgərinin və bir podpolkovnikin meyidinin qaldığını gördük...

Düşmən əks-hücuma hazırlaşırdı. Biz düşmən texnikasının və əsgərlərinin iki kilometr bizdən aralı-Seyidlər kəndinin yaxınlığında toplaşdığını müşahidə edirdik. Axşam bölüyün bir tağımını Çəpli kəndinin qərbində hündür qayalıqlarda yerləşdirdim ki, Seyidlər körpüsü tərəfdə ermənilərin toplanmış 12 ədəd tank və PDM-lə təchiz olunmuş qüvvələrinin gözlənilən əks-hücumunun qarşısını ala bilək.

Gecə Çəpli kəndində salamat qalmış yeganə evdə (bu ev ermənilərin qərərgahı imiş) toplaşdıq. Orada bir neçə gündən sonra ilk dəfə olaraq əl-üzümüzü bulaq suyu ilə yuduq. Döyüşlər vaxtı qarla əl-üzümüzü yuyurduq. İndi isə bir neçə gündən sonra ilk dəfə isti yemək hazırlamaq istədik. Ət konservi isitdik və kartof qaynatdıq. Sonra zabit yoldaşlarla-Fehruz Alışov, Ziyafət Tağıyev, Nizami Bayramov, Mürşüd Məmmədov, Kamal Hacıyev, Çıraq Bayramov, Adil Nağızadə, Əziz Abbasov, Hüseyn Nəbiyev, Xalid Hümbətov və digərləri ilə sabahkı döyüş əməliyyatını müzakirə etdik. Mən bir daha əsgərlərin sursatını və ərzağını yoxladın və mövqeləri gəzərək onlarla söhbət etdim. Gizir Kamal Hacıyev Bozlu əməliyyatı zamanı ermənilərin pusqusuna düşərək, onların 8-10 metrliyindən necə qaçıb salamat qurtardığını həmin gecə

mənə danışdı...

Taborun qarşısında daha çətin bir tapşırıq dururdu: tabor “At daşı” deyilən yüksəkliyə qalxmalı, Qanlıkəndin üst tərəfindən hərəkət edərək Dəmirçidam kəndini azad etməli, Göyçə-Ağdərə yolunu bağlamalı, Kəlbəcər şəhərinə hücuma hazırlaşmalı idi. Kəlbəcərə sancmaq üçün bayraq da hazırlamışdıq...

Gecə baş leytenant N.Bayramovla ratsiyada bizim digər taborların apardığı döyüşlərə qulaq asırdıq. Ratsiyaya qulaq asdıqca Qamışlı kəndi uğrunda gedən döyüşlər daha çox maraq doğururdu. Ratsiyada “Koroğlu”nun məlumatı daha maraqlı idi. O bildirirdi ki, Ermənistan istiqamətindən bizə tərəf 32 ədəd maşın və hərbi texnikadan ibarət karvanı irəliləyir...

Bizim sol cinahda Qamışlı kəndi uğrunda da üç gün idi ki, ardı-arası kəsilmədən avtomat şaqqıltısı eşidilir, gərgin bir döyüş gedirdi. Ermənilər itirilmiş yüksəkliyi ələ keçirməyə çalışaraq tez-tez hücuma keçir, bizimkilər isə onları Qasımbinə kəndinin yaxınlığındakı meşəli dağ zirvəsindən atəşə tutaraq geri qaçmağa məcbur edirdilər. Həmin döyüşlərin iştirakçısı olan bir döyüşçü sonralar bizə söyləyirdi ki, bir dəfə ermənilər bizim mövqelərə hücuma keçdi və biz yüksəklikdən düşməni güclü atəşə tutduq. Ermənilər davam gətirə bilməyib dağdan üzü aşağı qaçmağa başladılar. Düşməni qovarkən döyüşçülərdən birinin pulemyotunun darağında güllələr qurtarmış və o imkan tapmamışdır ki, darağı doldursun. Pulemyotu yerə qoyub qaçan ermənini qovub tutmaq istəmişdi. Erməni qaçaraq özünü qayadan aşağı atmışdı...



*Tərtər bölgəsi-1994-cü il*

*Ən haqsız barışı, ən ədalətli döyüşə seçərəm.*
*F r i d r i x  H o l d e r l i n*



### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***21 yanvar 1994-cü il*** - 2-ci tabor (komandir: kapitan Məhərrəmov İntiqam, müavinlər: kapitan İsgəndərov Hikmət, baş leytenant Zeynalov Gülağa) Qamışlı və Bağarsaq kəndlərini düşməndən azad edərək, əhəmiyyətli yüksəklik olan Çiçəklidağı ələ keçirdi və Kəlbəcər-Ağdərə-Laçın yol qovşağına nəzarəti ələ keçirdi. Düşmən xeyli canlı qüvvə itirdi. Əməliyyata briqadanın qərərgah rəisi polkovnik-leytenant Eldar Həsənov rəhbərlik edirdi. Bu əməliyyatlara görə bir neçə döyüşçü, o cümlədən Polkovnik-leytenant Eldar Həsənov "İgidliyə görə" medalı ilə təltif olundu.

***22 yanvar 1994-cü il*** - 2-ci taborun 1-ci bölüyü (komandir: leytenant Əmirov Şamil) qamışlı kəndi yaxınlığındakı yüksəkliyə hücuma keçdi və düşmənin 20 əsgərini məhv etdi. Bölük heç bir itki vermədi. Bu uğurlu əməliyyata görə leytenant Şamil Əmirov və gizir Fərzalı Rəhimov "İgidliyə görə" medalı ilə təltif olundular.

***23 yanvar 1994-cü il*** - 3-cü tabor (komandir: baş leytenant Alışov Fehruz, müavin kapitan Məmmədov Mürşüd, bölük komandiri: baş leytenant Kamalov Akif) Çəpli kəndinə hücum etdi. Döyüşdə düşmənin 3 tankı, iki avtomobili və 240 nəfər əsgəri məhv edildi, 5 düşmən zabiti əsir götürüldü. 3 PDM, 6 avtomobil, tank əleyhinə idarə olunan raket qurğusu (PTURS), və xeyli silah-sursat qənimət götürüldü, Ermənistandan Ağdərəyə gedən mühüm avtomobil yolu ələ keçirildi və düşmən qüvvələri parçalandı. Baş leytenant F.Alışov "İgidliyə görə" medalı ilə təltif olundu.

***24 yanvar 1994-cü il, saat 8.00*** - 3-cü tabor Kəlbəcər istiqamətində hücum əməliyyatlarını genişləndirərək, Qanlıkənd istiqamətində At daşı adlanan yüksəkliyə-düşmən arxasına göndərildi.

*Çanaqlı bağa başını çıxarıb risk edəndə irəliləyə bilir. Anatoli Frans*

### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***24 yanvar 1994-cü il, saat 11.00*** - Düşmən 12 ədəd zirehli texnika və çoxlu sayda canlı qüvvə ilə azad olunmuş Çəpli kəndinə əks-hücum etdi və kəndi ələ keçirə bildi. Bu döyüşdə düşmən xeyli canlı qüvvə itirsə də öz mövqelərini möhkəmlətməyə nail oldu. 3-cü tabor Atdaşında mühasirəyə düşdü.

***24 yanvar 1994-cü il, saat 14.00*** - 3-cü tabor Qanlıkəndin cənub-şərqindəki At daşı adlanan yüksəklikdə mühasirəyə düşdü. Gecə düşənədək ikiqat mühasirə vəziyyətində amansız döyüş aparan tabor 13 nəfər şəhid verdi, 11 nəfər isə yaralandı. Düşmən 21 əsgərini itirsə də yüksəklikləri əldən vermədi. Gecə mühasirəni yaran tabor yaralılarla dağları dolanaraq 20 kilometr məsafəni qət edib Qamışlı kəndinə, oradan da Yanşaq kəndinə qalxmağa müvəffəq oldu.



*Seyidlər kəndi yaxınlığında vurulmuş düşmən tankı, yanvar-1994-cü il*

*Cəsarət, təhlükə anında ağıl və zəkanın istifadə edilməsidir.*
*Albert Eynşteyn*

# At daşında mühasirə

Kapitan Mürşüd Məmmədov əsgər Eldar Hümbətovla Qanlıkənd ətrafında-Lök qalası, Qanlıkənd və At daşı adlanan ərazilərdə kəşfiyyat aparmış, oralarda ermənilərin mövqelərinin və qüvvələrinin olmadığını bildirmişdi. Biz bütün gecəni sabahkı əməliyyatın necə aparılması barədə götür-qoy etdik. Lakin, düşmənin Seyidlər kəndi tərəfdən əks-hücumunu gözlədiyimiz bir vaxtda yenidən düşmən arxasına getməyimizin təhlükəli olacağını hamımız hiss edirdik. Bundan başqa bizim sağ cinahımızda-Bozdu kəndi yüksəkliyində də döyüş gedirdi. Bizim tabor düşmən mövqelərinin içərisinə doğru irəlilədiyinə görə və dərənin içərisində olduğumuza görə tutduğumuz mövqe əlverişsiz idi. Buna görə də Qamışlı çayının sağ tərəfinə keçilməsi və yolun nəzarətsiz qoyulmasını düzgün hesab etmirdik. Mənim təkidimlə komandir yuxarı komandanlığa bu barədə məlumat verdi və biz At daşına qalxdıqdan sonra Çəpli kəndinin, həmçinin yolun müdafiəsinin təşkil edilməsinin vacib olduğunu bildirdi. “Qorxmaz” bildirdi ki, Çəpliyə əlavə qüvvə gətiriləcək, siz vaxtı itirmədən At daşına qalxmalısınız.

Yanvarın 24-də səhər tezdən hərəkətə başladıq. Bu ərazidə düşmən olmadığını yəqin edərək tam arxayın gedirdik. Qamışlı çayını Çəpli körpüsündən keçıb Lök qalasının yanından meşə ilə At daşı yüksəkliyinə qalxmağa başladıq. Meşəliklə dərə yuxarı qalxırdıq. Sərt yoxuş və yarğanlar irəliləməyimizə mane olurdu. Leytenant Əziz Abbasov 3-4 nəfərlə qabaqda mühafizə dəstəsi ilə hərəkət edirdi. Biz əvvəlcə Lök qalasını dolanaraq onun üst tərəfindən Qanlıkənd istiqamətində hərəkət etmək istədik. Lakin, qalanın altından keçdikdən sonra fikrimizi dəyişərək yüksəkliklikdə hərəkət etməyin doğru olduğu qərarına gəldik və beləliklə At daşı istiqamətində meşə ilə dik yoxuşla qalxmağa başladıq. Qarlı meşədə irəliləmək çətin idi. Saat 11-də At daşına çatdıq. Ermənilərin bizi görməməsi üçün əsgərləri dərədə saxladıq və biz-bütün komandirlər seyrək palıd ağacı olan qayalı bir təpəyə qalxdıq. Əraziyə yenidən baxış keçirdik və bölüklərin mövqe tutması üçün yerləri müəyyənləşdirdik. Düşmən gözə dəymirdi, tam arxayın idik. Mən bölüklə Qanlıkəndin cənub tərəfində-qarlı yüksəklikdə, leytenant Z.Tağıyev öz bölüyü ilə kəndin qərbində, A.Nağızadə isə digər bölüklə Lök qalası ətrafında mövqe tutmalı idi. Beləliklə biz Qamışlı çayı dərəsindəki bütün yüksəklikləri ələ keçirməklə düşmənin bütün hərəkətlərinə nəzarəti də öz əlimizə alacaqdıq. Onda düşmənin geriyə çəkilməyən və inadlı müdafiə olunan Təkəqayası istiqamətindəki

qüvvələrinin mövqeləri zəifləməli və bizimkilərin hücumlarının genişlənəciyi labüd idi.

Beləliklə 25 gün ərzində bizim tabor 3-cü dəfə idi ki, düşmən arxasına göndərilirdi. Bizim taborun apardığı uğurlu əməliyyatlar briqadanın digər tabor və bölmələri üçün nümunəyə çevrilmişdi. Taborun əsgər və zabitlərinin əksəriyyəti kəlbəcərli olduğundan ərazini yaxşı tanıyır, döyüşlərdə vacib yüksəklikləri ələ keçirilməsində çətinlik çəkmirdilər.

At daşı yüksəkliyi Kəlbəcərin Qanlıkəndlə Güneypəyə kəndlərinin arasında bir aşırım idi. Seyrək palıd meşəsi və talaların arası ilə maşın yolu Qanlıkənd kəndini Güneypəyə ilə birləşdirirdi. Cənub-şərqdə Güneypəyə kəndinin üstündəki tövlələr görünürdü. Qamışlı çayı dərəsinin o tayında-Bozlu və Təkəqayası kəndləri uğrunda şiddətli döyüş gedirdi. Ermənilərin hücum edən tanklarını görürdük. Təkəqayasında mərmi ilə dolu düşmən maşını vurularaq alovlanmışdı. Mərmilər maşında yanaraq ətrafa uçuşur və partlayırdı. Biz dayandığımz yüksəklikdən həmin döyüşü izləyir, düşmən hədəflərinin yerini “Nəriman”, “Qorxmaz” və ya “01”-ə ratsiya ilə bildirirdik. “Nəriman”- hərbi hissə komandirinin müavini, mayor N.Zeynalovun, “Qorxmaz”-əməliyyat bölməsi rəisi, mayor Q.Qarayevin, “01”- qərərgah rəisi, polkovnik-leytenant E.Həsənovun, “Noğul-26” isə bizim taborun çağırışı idi. Biz yarım saat idi ki, həmin yüksəklikdən Bozlu istiqamətində hücuma keçən 1-ci taborun döyüşünə baxır, düşmən tanklarının yerini onlara ratsiya ilə bildirirdik. Elə bu zaman biz Lök qalasının üstündə ermənilərin olduğunu müşahidə etdik. Qala divarları üzərində və arxasında bir neçə düşmən əsgəri gözə dəyirdi. Biz qalanın altından səhər tezdən keçmişdik, lakin onları görməmişdik. Yəqin ki, düşmən ya bizi görməmiş, ya da elə indi qalaya qalxmışdı. Biz onlara əhəmiyyət vermədən döyüşlərin gedişini uzaqdan izləyirdik. Elə bu vaxt düşmən 12 ədəd zirehli texnika və 500-dək canlı qüvvə ilə Seyidlər kəndi istiqamətindən Çəpli kəndinə doğru hücuma keçdi. Düşmən əsgərləri körpünün yuxarısında maşınlardan tökülərək, yol və onun ətrafı ilə Çəpli kəndi istiqamətində tankların köməyi ilə hücuma keçdi. Onlar körpünü keçərək çayın sağ sahilinə-bizim tərəfə doğru-keçir və dağların arxasında gözdən itirdilər. Biz yuxarı komandanlığa təcili bildirdik ki, düşmən Çəpli kəndinə hücuma keçib. 10-15 dəqiqədən sonra düşmən qüvvələrinin Çəpli kəndinə yaxınlaşdığını gördük. Kənddə isə onların qarşısına çıxacaq bir qüvvə qalmamışdı. Arxa tərəfimiz müdafiəsiz qalmışdı. Kəndin şimalında qayalıqlarda yerləşdirilmiş Daşkəsən-Şəmkir briqadasının kiçik bir dəstəsi düşmən tanklarının və PDM-lərinin atəşinə tab gətirməyərək Susuzluq kəndinə

doğru geri çəkilməyə başladı. Biz bu döyüşləri aydınca izləyir, düşmənin arxamıza keçərək bizim taboru briqadanın əsas qüvvələrindən ayırmasını, demək olar ki, sakitliklə, heç bir narahatlıq olmadan müşahidə edirdik. Çəpli yenidən düşmən əlinə keçdi. Arxa tərəfimiz, yəni gəldiyimiz yol düşmən tərəfindən tutuldu. Biz faktiki olaraq öz briqadamızdan ayrı düşdük. Lakin bu bizi qorxutmadı. Çünki həm Susuzluq kəndindəki bizim qüvvələrin mövqe tutduğu yer, həm də bizim yerimiz yüksəklik idi. Beləliklə, biz düşməni yenidən Çəpli kəndində məhv edərdik. Lakin, bizə tutduğumuz möqelərdə qalmaq və əməliyyat planını dəyişməmək tapşırılmışdı. Biz döyüşü uzaqdan izləməklə öz topçularımıza hədəflərin kordinatlarını deyirdik.

Biz-taborun zabitləri seyrək ağaclarla əhatələnmiş kiçik bir təpədə axşamın düşməyini gözləyir, gecə döyüşünün aparılması planını götür-qoy edirdik. Zabitlərdən kimsə bizdən arxa tərəfdəki şimal-şərqə doğru meşə talasında üç hərbçi gördüyünü bildirdi. Onlar üç-dörd yüz metr bizdən aralıda kolluqda gizlənmişdilər, bizi isə görmürdülər. Mən beş nəfər zabit və əsgərlə  yavaş-yavaş sürünərək onların gizləndiyi təpəyə yaxınlaşdım. 20-30 metr məsafə qaldıqda biz atəş açmadan onları tərksilah etmək istədik. Lakin onların özümüzünkülər olduğunu yəqin etdik: bir baş leytenant, iki əsgər idilər. Əsgərlərdən birində ratsiya var idi. Mən onların bura-düşmən arxasına niyə gəldikləri ilə maraqlandım. Baş leytenant bildirdi ki, artilleriyanın kəşfiyyatçılarıdırlar. Onlar gizlicə Qamışlı çayını adlayıb düşmən arxasına keçərək topçulara düşmən hədəflərinin yerini ratsiya ilə bildirirlər.  Yuxarı komandanlıq onların bura göndərilmələri haqda bizə məlumat verməmişdi. Topçularla tabor komandiri baş leytenant F.Alışovun yanına gəldik.

* * *

Artıq günortadan keçmişdi. Bu vaxt qərb istiqamətində-bizdən yüksəkdəki təpədə ağacların arasında düşmən əsgərləri görünməyə başladı. Mən durbinlə baxdıqda həmin təpəlikdə ağacların altında iki nəfərin uzandığını və bir əsgərin isə meşədən çıxaraq əyilə-əyilə onların yanına gəldiyini gördüm. Məsafə 300 metrdən çox olardı. Bir qədər onlardan solda-digər təpəlikdə də qaraltılar gözümə dəydi. Mən onların da ermənilər olduğunu yəqin etdim və vaxt itirmədən mövqe tutmaq lazım olduğunu bildirdim. Eyni vaxtda öz bölüyümün iki tağımını yaxınlıqdakı təpələrdə yerləşdirmək üçün tağım komandirlərinə əmrlər verdim. Kapitan Mürşüd Məmmədov silahını götürüb, "gedək görək kimdir"-deyərək bir neçə zabit və əsgərlə meşə talası ilə ermənilərə tərəf

yaxınlaşmağa başladı. Mən Mürşüdə ehtiyatsızlıq etməməyi məsləhət bildim və yaxınlıqdakı təpədən o tərəfə getməməyi tapşırdım. Onlar bir qədər soldakı təpəyə yaxınlaşaraq, oradakıların kim olduqlarını çağıraraq soruşdular. Amma cavab gəlmədi. Mürşüd elə zənn etdi ki, onlar da bizim artilleriya kəşfiyyatçıları ola bilərlər. Həm də kapitan bu ərazilərdə özü kəşfiyyat aparmış, bu yerlərdə ermənilərin olmadığını bildirmişdi. Onlar qarşı tərəfdən cavab gəlmədiyini görüb açıqlığa çıxaraq, tala ilə təpəyə yaxınlaşmağa başladılar. Bu həddindən artıq ehtiyatsızlıq idi. Mən nə qədər çağırıb onları saxlamağa çalışsam da kapitan M.Məmmədov mənə əhəmiyyət vermədi və onlar irəliləyərək talada görünməz oldular. Bu kapitan Mürşüd Məmmədovun qorxmadan düşmən üzərinə axırıncı gedişi oldu.

Mən pulemyotçu Elxana, və yanımızda qalan əsgərlərə-Mehdiyev Mirzəli və Həsənov İlqara döyüşə hazır olmaq əmri verdim. Özüm də yarım metr hündürlüyündə bir daşın arxasına uzanaraq, 1-ci tağım komandiri çavuş Məmmədə tağımı dərədən çıxarıb sağ cinahda qarlı təpədə mövqe tutmasını tapşırdım. Məmməd əyilə-əyilə aşağıya-tağımın gizləndiyi dərəyə doğru qaçdı. Pulemyotçu Elxan pulemyotu təzəcə qurmuşdu ki, qəflətən Mürşüd Məmmədovun dəstəsi talada atəşə tutuldu və eyni vaxtda bizim dayandığımız təpə də hər tərəfdən avtomat və pulemyotlarla atəşə tutuldu. Döyüş başladı. Meşə talasında olanlar güclü düşmən atəşinə məruz qaldılar. Bizim dayandığımız təpəlik də üç tərəfdən atəşə tutulmuşdu. Taladakılar yüksəklikdə mövqe tutmuş düşmənin əl qumbaralarının, avtomat və pulemyotlarının atəşi altında geriyə sürünməyə cəhd etsələr də artıq gec idi. Mən onları qorumaq və düşmən atəşi altından geriyə çıxarmaq üçün əsgərlərə əmr etdim ki, düşməni atəş altında saxlasınlar və özüm də avtomatla ermənilərin atəş nöqtələrini atəşə tutdum...

Balaca bir daşı özümüzə səngər seçmişdik. F.Alışov ratsiya ilə məlumat verirdi. Yanımızda bir pulemyotçu, rabitəçi və iki əsgər var idi. Başımızı qaldırmağa imkan yox idi. Bir düşmən snayperi, bir avtomatçısı və bir pulemyotçusu bizim dayandığımız təpəni aramsız olaraq atəşə tutmuşdu. Pulemyot və avtomat gülləlləri yağış kimi yağırdı. Mən bir daha diqqətlə ətrafı gözdən keçirdim. Sağ tərəfdən-Lök qalasının üstündən və sol tərəfimizdəki yüksəklikdən də bizə atəş açıldığını müəyyən etdim. Döyüş meydanından geriyə sürünərək çıxan baş leytenant Çıraq Bayramov və baş leytenant Adil Nağızadə bildirdilər ki, sol tərəfdən meşənin yuxarısından da bizə pulemyotla atəş açırlar, mühasirədəyik. Kapitan Mürşüd Məmmədovun, gizir Kamal Hacıyevin və bir neçə əsgərin talada vurulduğunu da Çıraq Bayramov dedi. Hər şey

*Mal itirən, bir şey itirmişdir, qürurunu itirən çox şey itirmişdir.*
*Lakin cəsarətini itirən hər şeyini itirmişdir. Ş a h a b ə d d i n*

aydın idi: üç tərəfdən mühasirəyə alınmışdıq. Arxa tərəfə çəkilmək isə qeyri-mümkün idi. Çünki arxaya çəkilərkən mütləq atəş altında olan meşə talasından keçməliydik. Ani olaraq qərara aldım ki, mövqelərimizi əldən vermədən gecə düşənədək mühasirədə döyüşü davam etdirmək lazımdır. Biz yuxarı komandanlığa məlumat verib kömək istədik. Komandir ratsiya ilə danışırdı. "Qorxmaz" kordinatları soruşdu və toplarla bizə kömək edəcəyini bildirdi. Mən top atəşinə etiraz etdim, çünki düşmənlə mövqelərimiz çox yaxın idi. Top mərmiləri öz mövqelərimizə düşə bilərdi. Buna görə də düşmənin Lök qalasındakı və qarşı təpədəki mövqelərini və həmçinin qalanın üst tərəfindəki meşəliyi (oradan düşmən arxamıza keçə bilərdi) iri çaplı pulemyotlarla atəşə tutulmasının vacib olduğunu bildirdim və bu barədə F.Alışovla qısa məsləhətdən sonra "Qorxmaz"a məlumat verdik. Bir neçə dəqiqədən sonra Susuzluq kəndindən atılan zenit pulemyotunun atəşləri ilə Lök qalasındakı düşmən qüvvələri susduruldu. Komandir atəşin davam etdirilməsini yuxarı komandanlıqdan xahiş etdi. Lakin vəziyyət çox acınacaqlı idi.

Mən döyüşü aramsız olaraq davam etdirir, əsgərlərə düşmən mövqelərini göstərib arasıkəsilmədən atəş açmaq əmri verdim. Bütün əmrləri çağıraraq verir, düşmənin bizdən az olduğunu və yarım saata onları məhv edəcəyimizi deyir, əsgərləri ruhlandırırdım. Əslində isə vəziyyət olduqca pis idi. Əsgərlərə tapşırıq verə-verə gözüm düşmən snayperini və pulemyotçusunu axtarırdı. Onların haradan atəş açdıqlarını müəyyən etməyə çalışırdım. Çünki bizə tərəf atılan güllələrin səsindən yəqin etmişdim ki, bir düşmən snayperi və pulemyotçusu mövqe tutduğumuz kiçik təpəni daimi atəş altında saxlamağa çalışırlar. Mən yarım metr hündürlyü olan bir daşın arxasından atəş açırdım. Düşmən də məni görmüşdü. Lakin, hər tərəf açıqlıq olduğundan yerimi dəyişə bilmirdim. Birdən düşmən pulemyotçusunun məndən üç yüz metrədək aralıdakı yamacda, iri gövdəli ağacın altında uzanaraq bizə tərəf atəş açdığını gördüm. Ağacların altı gölgə olduğundan düşməni gözlə seçmək çətin idi. Yalnız, düşmənin qaraltısı görünürdü. Buna baxmayaraq nişan alıb atəş açdım. Düşmən pulemyotçusu yumalanaraq yamacla aşağı düşdü. Pulemyot susdu. Ani olaraq başımı daşın arxasına tərəf çəkməyimlə düşmən snayperindən atılan güllə qulağımın dibindən keçdi. Elə bu vaxt yenidən düşmən pulemyotu şaqqıldamağa başladı. Yəqin ki, vurulanı başqası əvəz etmişdi. Mən yenidən nişan alaraq atəş açdım. Avtomatik atılan güllələr ikinci düşməni də yerində haqladı. Pulemyot yenidən susdu. Mən dayanmadan, ardıcıl olaraq nişan alıb atəş açırdım.

Lakin, düşmən imkan vermirdi ki, davamlı olaraq atəş açım. Başımı yayındıran kimi düşmən güllələri də daşlara dəyib ora-bura çovuyurdu. Arabir gizləndiyim kiçik daşın arxasından əsgərlərə də atəşi dayandırmamağı qışqıraraq deyirdim. Bir-iki dəqiqədən sonra yenidən düşmən pulemyotu atəş açmağa başladı. Bu öldürülənin yerini tutmuş başqa bir düşmən idi. Mən onu da gördüm. Düşmən pulemyotçusu yerini dəyişərək indi də başqa ağacın altından atəş açırdı. Ətrafıma yağan işıqsaçan güllələr daşlara dəyərək hər tərəfə çovuyur, vahiməli bir səslə vızıldayırdı. Onu da 5.45 mm-lik avtomatın dəqiq atəşi ilə vurdum, pulemyot susdu və bir daha bizə atəş açmadı. Düşmən snayperi isə gözə görünmürdü. O, hardasa daha uzaqda, bəlkə də hansısa ağacın üstündə və yaxud kolluqda güzlənmişdi.

İki saata yaxın idi ki, döyüş gedirdi. Talada yaralanan əsgərlərin səsi gəlir, köməyə çağırdıqları eşidilirdi. Mənim bölüyümün əsgərləri sağ tərəfdəki qarlı təpədə atəşi arasıkəsilmədən davam etdirir, düşmənin mühasirəni qapatmasına imkan vermirdilər. Lakin irəlilədikcə güclü atəş altına düşür və geriyə çəkilirdilər. Hər dəfə irəliyə sürünərkən bir nəfərə güllə dəyir yaralanırdılar. Mən yaralının bir qədər onlardan arxa tərəfə-çökəkliyə çıxarlmalarını tapşırır, onların yaralarını sarıtdırırdım. Sol cinahda-talada da yaralılar var idi. Taladan yaralıları çıxarmaq, onlara ilk tibbi yardım göstərmək lazım idi. Ona görə də çavuş Məmmədin tağımını iki dəstəyə böldüm. Bir dəstəyə düşməni daimi atəş altında saxlamaq, digər dəstəyə isə təpənin qarlı aşırımı ilə sürünərək taladan yaralıları çıxarmaq əmri verdim. Əsgərlər 10 nəfərədək yaralını döyüş meydanından çıxarmağa nail oldular. Onlara ağacların arasında ilk tibbi yardım göstərilməsini təşkil etdim. Yaralılardan ikisi ağır vəziyyətdə idi, xeyli qan itirmişdilər. Biri çiynindən, digəri isə döş qəfəsindən yaralanmışdı. Əvvəlcə yaralılara ağrıkəsici iynə vurulmasını və sonra yaralarının sarınmasını qışqıraraq əsgərlərə tapşırdım.

Döyüş zamanı bütün komandaları səslə verir, eyni zamanda özüm avtomatla qarşı təpədəki düşmən mövqelərinə atəş açmağa davam edirdim. Komandir F.Alışov rabıtəçi əsgərlə-səhv etmirəmsə, rabitəçi əsgərin adı Rafiq idi-sağ tərəfimdə yerə uzanıb ratsiya ilə danışır, hərdən mənimlə məsləhətləşir, məndən nəyisə soruşurdu. Mən atəş aça-aça ona qısa cavablar verir və bildirirdim ki, sağ cinahımızı-meşəliyi və qalanın üst tərəfini yuxarı komandanlıq atəş altında saxlasın. Komandir bildirdi ki, X.Hümbətovu öz dəstəsi ilə bizə köməyə göndəriblər, bir saat olar. Artıq üç saata yaxın idi ki mühasirədə döyüşürdük. Meşə talasındakı qurumuş otlar  qumbaraların partlayışından odlanıb yanırdı. Hər tərəf tüstüyə bürünmüşdü. Tüstüdən istifadə etməklə biz həm düşmən

mövqelərinə yaxınlaşır, həm də yaralıları çıxarırdıq. Digər bölük və tağımların əsgər və zabitləri özlərini itirmiş, necə hərəkət etmək lazım olduğunu bilmirdilər. Hətta bəzi zabit və əsgərlər ölən silahdaşlara görə ağlayırdı. Mən onlara acıqlandım və düşmənin meşə ilə sağ cinahdan arxamıza keçərək mühasirəni qapatmaq istədiyini qışqıra-qışqıra bildirdim. Bu komandaları daldalandığım kiçik daşın arxasından verirdim. Ordan kənara çıxmaq qeyri-mümkün idi. Çünki düşmən üç tərəfdən bizim mövqe tutduğumuz təpəni atəş altında saxlayırdı. Oradan hər hansı bir tərəfə çıxmaq isə ölüm demək idi.

Atəş səsləri bir qədər azalanda sağ tərəfdə, təpənin arxasında meşədə səs eşitdim. Bu səsləri ayırd etmək lazım idi. Onlar ya bizə köməyə göndərilənlər idi, ya da düşmən meşə ilə arxamıza keçmək istəyirdi. Vaxt itirmək olmazdı. Mən pulemyotçu Elxana məni qorumaq üçün düşmən hədəflərinə atəş açmağı bildirdim və təhlükəli olsa da, sürünə-sürünə təpənin üstünə çıxdım. Hər yandan güllələr çovuyurdu. Açıqlığa çıxdığım üçün güllələr ətrafıma düşür, daşlara dəyərək vıyıldayırdı. Mən bunlara əhəmiyyət vermədən meşədəki səslərə qulaq asır və atılan güllələrdən onların istiqamətini müəyyən etməyə çalışırdım. Aşağıda meşədə bir nəfərin "Qarik, Qarik" deyərək çox da yüksək olmayan səslə kimisə çağırdığını eşitdim. Səs 30-40 metr məndən aşağıdan ağacların arasından gəlirdi. Bunlar yəqin ki, ermənilər idi. Mən başımı bir qədər də yuxarı qaldıraraq səslərə diqqətlə qulaq asmaq istədim və onları görməyə çalışdım. Düşmənin aşağıdan-meşədən və Lök qalası tərəfdən qəfil atdığı işıqsaçan güllələr üstünə uzandığım qayaya dəyərək çovudu. Daşın qırıntıları üz-gözümə və ətrafa səpələndi. Bəlkə də düşmən məni görmüşdü. Mən cəld arxa tərəfə yumalanaraq, meşəyə-ermənilərin səsi gələn tərəfə iki F-1 qumbarası atdım. Qumbaralar meşədə partladı və ermənilərin qışqırtıları eşidildi. Komandir məndən orada nə baş verdiyini soruşdu. Mən ermənilərin arxamıza keçmək istədiklərini bildirdim. Mən təpədən aşağı, komandirin yanına yumalandığımı görərkən, Mehdiyev Mirzəli və Həsənov İlqar bir anlıq özlərini itirdilər və mənim vurulduğumu zənn edərək, mənə tərəf qaçmaq istədilər. Lakin mən onlara gizləndikləri yerdən çıxmamağı əmr etdim və düşmən hədəflərini atəş altında saxlamağı tapşırdım. Kapitan F.Alışov "Qorxmaz"a yenidən meşəni atəşə tutmaq barədə məlumat verdi. Yuxarı komandanlıq yenidən bizim sağ cinahımızı-təpənin aşağı tərəfini atəşə tutdu. Biz düşmənlə o qədər yaxın mövqedə idik ki, hətta, Susuzluq kəndindən atılan iri çaplı pulemyot güllələri yanımıza-bizdən 10-15 metr

təpənin aşağısına-səpələnirdi.

Bir neçə dəqiqədən sonra yenidən sürünərək təpənin üzərinə qalxdım və əsgərlərdən aldığım daha iki qumbaranı dalbadal kolluğa atdım və avtomatla meşəni atəşə tutdum. Buradan bizim pulemyotla düşmən hədəflərinin necə vurduğunu müşahidə etdim və daraqdan güllələr qurtaran kimi yenidən yumalanaraq komandirin-kapitan F.Alışovun yanına qayıtdım. Komandirə əsgərlərə eşitdirməmək üçün vəziyyəti sakitçə başa saldım və ermənilərin sağ tərəfdən arxamıza keçmək istədiklərini ona bildirdim. Yuxarı komandanlığa məlumat verməsini və meşənin iri çaplı pulemyotla daimi atəşə tutulmasının vacib olduğunu dedim. Komandir ratsiya ilə yuxarı komandanlığa hədəfləri yenidən bildirirdi. İki-üç dəqiqədən sonra Susuzluq kəndindən zenit pulemyotu yenidən deyilən hədəfləri vurmağa başladı. Ermənilərin qışqırtıları meşədən eşidilməyə başladı. Onların arxamıza keçmək cəhdləri baş tutmadı. Bu vaxt bizim əsgərlərdən bir dəstə mühasirədən çıxmaq istəyi ilə Güneypəyə kəndi istiqamətində (düşmən mövqelərinin yaxınlığına tərəf) bizdən uzaqlaşaraq meşə talası ilə fermalara tərəf çəkilməyə başladı. Mövqe tutduğum daşın arxasından onlar görünürdü. Ərazini tanımadıqları üçün onlar meşə ilə düşmən mövqelərinin içərilərinə tərəf çəkilir, düşmənə daha da yaxınlaşırdılar. Bu həm də əsgərlər arasında vahimə yarada bilərdi. Komandir mənə onları geri qaytarmağı tapşırdı. Mən "oldu"-dedim və gülləleri boşalmış daraqlara doldurub qurtaran kimi-komandirə və yanımızdakı əsgərlərə "Məni qoruyun"-deyib, yamacla aşağı qaçdım. 30-40 metr açıqlıqdan-düşmənin atəş altındakı taladan keçməli idim. Mənə atılan saysız güllələr yağış kimi yağaraq ətrafdakı daşlara dəyib çovuyurdu. Talanı qaçaraq keçdim. Yüzlərlə güllədən heç biri "hədəfə" dəymədi...

Əsgərlərin yanına çatıb hara getdiyiklərini soruşduqda onlar buraları tanımadıqlarını bildirdilər. Mən getdikləri yerin ermənilərin əlində olduğunu dedim və onları geri qaytarıb ağacların arxasında və kiçik təpəlikdə mövqe tutmalarını və düşmən mövqelərinə atəş açmalarını əmr etdim. Hər bir əsgəri demək olar ki, bir-bir mövqelərdə yerləşdirirdim. Buradan bizi mühasirəyə almış düşmənin sol cinahını atəşə tutduq. Mühasirədə döyüşməyimizə baxmayaraq xeyli düşmən əsgərini məhv etdik...

Mən əsgərləri mövqelərdə qoyub yenidən komandirin yanına qayıtdım. Artıq axşam düşürdü. Qaranlığın düşməsi bizim üçün əlverişli idi. Bundan istifadə etməklə mühasirədən çıxmaq olardı. 5-6 saat ərzində mühasirə döyüşünü aparmağımızın əsas məqsədi də elə bu idi.

Artıq atəş səsləri azalmışdı. Biz yaralıları döyüş meydanından

çıxarmış, onlara ağrıkəsici iynələr vurmuş və yaralarını sarımışdıq. Lakin, hələ də döyüş meydanında döyüşçülərimiz var idi. Onların həlak olduqlarını və ya yaralandıqlarını bilmirdik, kimsə kömək istəyirdi...

Taborun qəflətən mühasirəyə düşməsi yuxarı komandanlığı təşvişə salmışdı. Həm Çəplinin yenidən düşmən əlinə keçməsi, həm də bizim ikiqat mühasirəyə düşməyimiz ağır hadisə idi. Onlar bütün vasitələrdən istifadə etməklə bizim mühasirədən çıxmağımıza yardım edirdilər. Yuxarı komandanlıq iki istiqamətdən bizə canlı qüvvə köməyi göndərsə də həmin kömək hələ də gəlib çıxmamışdı. Sonralar məlum oldu ki, baş leytenant Xalid Hümbətovun komandirliyi ilə göndərilmiş 60 nəfərlik dəstə Çəpli kəndinin qarşı tərəfində meşədə ermənilərlə qarşılaşmış və onlar kiçik döyüşdən sonra geri çəkilmiş, qamışlı çayını keçərkən qarşı tərəfdən öz əsgərlərimizin atdığı güllə bir əsgərimizi çiynindən yaralamışdı. Bizim mühasirədən çıxmağımız üçün göndərilən digər kömək 4-cü tabor idi. Onlar isə Qamışlı kəndinin cənub-şərq tərəfindəki Oğru qayası istiqamətindəki yüksəkliyə çıxarılmış, lakin xeyli uzaqda olduqları üçün vaxtında bizə köməyə gələ bilməmişlər.

Axşamın düşməsindən istifadə edib mövqe tutduğumuz təpənin arxasına çəkildik və orada yaralıların yarasını sarıdıq. Burada yəqin etdik ki, komandirlərdən kapitan Mürşüd Məmmədov, gizir Kamal Hacıyev, leytenant Əziz Abbasov və 45 nəfərədək əsgər həlak olub. Bu bizim taborun apardığı döyüşlər ərzində ilk böyük itki idi. Lakin taborun əsas qüvvələri salamat idi. Meyidləri isə taladan çıxarmaq mümkün deyildi. Onların həlak olduqları tala tam ermənilərin nəzarətində idi. Hər dəfə irəlilədikcə yenidən düşmən gülləsinə tuş gəlirdik. Biz sonuncu dəfə əks-hücuma keçmək və itirilmiş mövqeləri ələ keçirmək istədik. Mən 1-ci tağımın əsgərləri ilə sürünə-sürünə talanın yaxınlığındakı qarlı təpəyə çatdım. Artıq qaranlıq olduğundan ermənilərə xeyli yaxınlaşmışdıq. Lakin orada da yenidən güclü atəş altına düşdük. Mən əsgərlərə atəş açmamağı tapşırdım. Bundan istifadə edib sürünə-sürünə bir qədər də düşmənə tərəf yaxınlaşdıq. Talanın lap kənarında idik. Lakin talaya girmək qeyri-mümkün idi. Çünki düşmən 30-35 metr bizdən aralıda,
talanın o biri başında ağacla örtülü hündür bir təpədə mövqe tutmuşdu. Oradan isə tala ovuc içi kimi görünürdü. Arxadan bizim hərəkətimizi diqqətlə izləyən komandir artıq itki verməmək üçün mənə geriyə çəkilmək əmri verdi. Mən talaya girməyin mümkün olmayacağını yəqin etdim və geriyə qayıtmaq barədə əsgərlərə əmr etdim. Biz yenidən sürünərək təpənin arxasına, oradan da komandirin yanına qayıtdıq. Artıq

döyüş səngimişdi, ara-sıra avtomat və pulemyotların səsi eşidilir, ətrafımızda işıqsaçan güllələr vıyıldayırdı.

Yuxarı komandanlıqdan əmr verildi ki, mühasirədən çıxıb Qamışlı kəndinə tərəf hərəkət etməli və oradan Yanşaq kəndinə qalxmalıyıq. Bir gün əvvəl azad etdiyimiz Çəpli kəndi indi ermənilərin əlində idi. Gəldiyimiz yolla qayıtmaq qeyri-mümkün idi. Buna görə də biz dağları dolanaraq 20 kilometr məsafəni qət etməli idik. Mühasirədən çıxmaq üçün biz düşmənin mövqe tutduğu təpənin cənub yamacı ilə aşağı enməli, atəş altında olan arxadakı təpəni dolanıb keçməliydik. Mən 1-ci tağımın komandiri Məmmədə atəşi davam etdirməyi tapşırdım və beləliklə taborun mühasirədən çıxmasına şərait yaratmağa çalışırdım. Özüm də onların yanında qaldım və düşmən mövqelərinə atəş açmağa başladıq. Digər bölüklərin xeyli uzaqlaşmalarına və mühasirədən çıxmalarına şərait yaratdıq. Yarım saatdan sonra biz də döyüş mövqeyini tərk etdik. Özümüzünkülərin yanına çatanda onlar meşədə bizi gözləyirdilər. Gecənin qaranlığında 10 nəfər yaralını aparmaq əsgərləri yormuşdu. Döyüşdə aclıq və susuzluğu hiss etməsək də, artıq indi susuzluq və aclıq  öz təsirini göstərirdi. Meşədə qar yeyə-yeyə irəliləyirdik. Bir qədər də getdikdən sonra Qamışlı kəndinin üstündəki yüksəklikdə yarım saat dincəlməyi qət etdik. Çantasında çörəyi və konservi olanlar var idi. Çantalarımızda qalan çörək və konservləri bölüşdürüb yedik və yenidən hərəkətə başladıq. Qarşıda-Qamıçlı kəndinin yaxınlığındakı hündür qayaların başında- düşmən var idi. Biz isə həmin qayaların altından keçib körpüyə yaxınlaşmalı idik. Buna görə də mən iki əsgərlə 200 metrədək qabaqda gedərək kəşfiyyat aparıb dayanır, əsgərlərdən birini arxaya göndərərək bizimkilərin gəlməyini gözləyir, onları orada qoyub yenidən kəşfiyyat aparırdım. Kəndin üst tərəfindən uçurumlu bir dərədən çətinliklə keçərək və yaralıları da keçırərək körpünün yanındakı evlərə yaxınlaşırdıq. Sol tərəfdəki hündür qayalarda ermənilərin mövqeləri var idi. Onlar bizim burada olmağımızı bilsələr vəziyyət çıxılmaz olardı. Biz tam səssiz hərəkət edərək körpüyə yaxınlaşırdıq. Bütün əsgər və zabitlərə tapşırıq verdim ki, əgər bizi atəşə tutsalar, döyüşə-döyüşə Qamışlı çayını keçməliyik. Körpüyə yaxınlaşdıqda qarşı dağda yerləşən bizim mövqelərdən bizə tərəf və yuxarı qayalıqlara tərəf atəş açıldı. Güllələr ətrafımızdakı qayalara və evlərin divarlarına dəyirdi. Biz ratsiya ilə “01”-ə məlumat verdik ki, bizimkilər atəşi dayandırsınlar, güllələr bizə dəyə bilərdi. Ermənilərin mövqe tutduqları qayalıqdan isə qarşı tərəfdəki meşəliyə tək-tək atəş açılırdı. Bir azdan ermənilərin atəşi tam dayandı, səs-səmir gəlmirdi. Daha bizimkilərin atəşinə heç bir cavab verilmirdi. Nəhayət körpünün

yanına çatdıq. Mənimlə kəşfiyyat aparan əsgərlərdən birinə körpünü keçib o tayda mövqe tutmağı tapşırdım. Əsgərin tərəddüd etdiyini görüb özüm irəli addımladıqda həmin əsgər məni qabağa buraxmadı. Özü qabağa keçib yavaş-yavaş körpünü keçib o tayda bizi gözlədi. Mən o biri əsgəri geri qaytarıb bizimkilərə xəbər vermək üçün göndərdim və özüm də körpünü keçib əsgərin yanına gəldim və bizimkilərin körpünü keçməsini izlədik. Körpüdən bir qədər yuxarıda Yanşaq kəndindən- qərərgahdan göndərilmiş maşın bizi gözləyirdi. Yaralıları maşına qoyduq, özümüz isə piyada kəndə qalxdıq...

* * *

Bir saatdan sonra leytenant Əziz Abbasov 30 nəfər əsgərlə Yanşaq kəndinə gəlib çıxdılar. Biz isə onların da həlak olmaları barədə qərərgaha məlumat vermişdik. Lakin, onlar başqa bir istiqamətdən düşmən mühasirəsini yarıb mühasirədən çıxmış və meşə ilə hərəkət edərərək, başqa yerdən Qamışlı çayını keçib Yanşaq kəndinə gəliblər. Komandirlər öz əsgərlərini yoxladıqdan sonra məlum oldu ki, cəmi 14 nəfər, o cümlədən; kapitan Mürşüd Ağa oğlu Məmmədov, gizir Kamal Hüseyn oğlu Hacıyev, əsgərlərdən Eldar Hümbətov və başqaları həlak olmuşlar. Həlak olanlardan 3 nəfəri Göyçayın Ləkçibulaq kəndindən, 2 nəfəri Ucardan idi. Onların meyidləri isə döyüş meydanında qalmışdı...

Baş leytenant Əziz Abbasovun dediklərindən: “Biz təqribən 30 nəfərədək döyüşçü ilə düşmən mühasirəsini yarmaq üçün meşəliklə düşmənə xeyli yaxınlaşmışdıq. Ermənilər bizdən bir neçə metr yuxarıdakı təpəlikdə mövqe tutmuşdular. Onlar başımızın üstündən atəş açır, bizdən isə xəbərləri yox idi. Hətta onları görür və danışıqlarını eşidirdik. Ermənilərdən biri digərinin yarasını sarıyırdı. Biz qarışqa yuvalarının arxasında gizlənmişdik.Güllələrimiz qurtarmaq üzrə olduğundan düşmənə atəş aça bilmir, çıxılmaz vəziyyətdə qalmışdıq. Biz sürünərək meşənin dərinliyinə doğru irəliləyirdik. Getdiyimiz yer isə düşmən mövqelərinin arxa tərəfi idi. Axşamın tez düşməsini gözləyir, haradan Yanşaq istiqamətinə qayıdacağımızı götür-qoy edirdik. Qaranlıq düşdüyündən döyüş də səngimişdi. Biz ratsiya olmadığından komandirlə əlaqə saxlaya bilmirdik. Gecə səssiz meşə ilə aşağı enib xeyli məsafədə dağları dolanaraq Çəpli və Qamışlı kəndlərinin arasından Qamışlı çayını keçib Yanşağa qalxdıq”.

* * *

Artıq səhər açılırdı.Yanşaq kəndində artilleriya əsgərləri Fikrət, Coşqun və digərləri bizə isti çay, çörək verdilər. Onlar yol kənarında ağ daşdan tikilmiş və ermənilər tərəfindən yandırılmış bir evin üstünə çadır

çəkib özlərinə daldalanacaq düzəltmişdilər. Sonra mən onların çarpayısında uzanıb yatdım. Yarım saat olardı ki, yatmışdım, birdən top atəşinə oyandım. Top mərmisinin qəlpələri pəncərədən keçərək divara dəyib çarpayının üstünə düşdü. Ermənilər Yanşaq kəndini topa tutmuşdular. Mən evdən çıxdım və top mərmilərinin hara düşdüyünü müşahidə etməyə başladım. Birinci mərmi evdən 30 metr aralı-maşın yoluna düşmüşdü. Artıq sonrakı mərmilər bizdən 200-300 metr yuxarı tərəfə-briqada qərərgahının ətrafına və topların yerləşdirildiyi əraziyə-Almalıq deyilən yerə- düşürdü. Hər tərəfə yağış kimi qəlpələr səpələnirdi. Düşmən əsasən komanda məntəqəsini və bizim toplar yerləşən Almalıq deyilən ərazini atəşə tutmuşdu. Əsgər və zabitlər hamısı səngərlərdə və daldalanacaqlarda gizlənmişdilər. Heç kəs gözə dəymirdi. Mən təkrar "Ağ ev"ə qayıdaraq top atəşi altında uzanıb yatdım. Bozlu, Susuzluq, Qasımbinəsi, Bağırsaq və Qamışlı kəndləri istiqamətində isə döyüşlər gedirdi...

Həmin gün top atəşi altında olmağımıza baxmayaraq, bir az dincəldik. Axşamüstü tabora yenidən Susuzluq kəndinə getmək və oradan döyüşləri davam etdirmək əmr olunmuşdu. Komandir səhər Susuzluq kəndinə gedəcəyimizi bildirdi. Axşamüstü kəndin ayrı-ayrı tövləlalirndə daldalanan əsgərləri topladım. Ac idik. Təchizat tağımı Susuzluq kəndində qaldığından əsgər və zabitlər demək olar ki, hamısı ac qalmışdı. Birinci taborun səhra mətbəxi Yanşaq kəndində - bizim yaxınlığımızda idi. Biz 1-ci taborun komandiri kapitan Qurban Qurbanovdan və kapitan Bərəm Lazımovdan xahiş etdik ki, bizim əsgərlərə də isti xörək versinlər...

Gecə kəndin salamat qalmış tövlələrində və yandırılmış evlərin künclərində əsgərləri yerləşdirdik və dincəldik. Səhərisi gün-26 yanvar 1994-cü il tarixdə bizim tabor yenidən Çəpli kəndinə tərəf hərəkətə başladı. Susuzluqda əməliyyat bölmə rəisi mayor Qorxmaz Qarayev yeni əməliyyat planı ilə biz zabitləri tanış etdi. Əməliyyat planına əsasən. bizim tabor yenidən Çəpli kəndinə hücum etməliydi. Düşmənin Çəpli kəndində 3 ədəd PDM-i beş tankı və təqribən bir bölüyü olduğunu kəşfiyyatçılarımız bizə bildirmişdilər. Bu əməliyyatı mənim bölüyümə həvalə etdilər.

Tapşırıq aldıqdan sonra əvvəlcə əsgərlərin silah-sursatlarını bir daha gözdən keçirdim və patronların kifayət qədər olduğunu yəqin etdim. Bundan başqa tağım komandirlərinə, pulemyotçulara, snayperlərə və qumbaraatanlara ayrıca tapşırıq verdim. Günortaya yaxın hərəkətə başladıq. Meşəlikdən və ərazinin qayalıqlarından istifadə edərək Çəpli kəndinin qayalıq və meşəli yüksəkliklərində mövqe tutduq. Artıq ikinci

*Ölümlə heç bir zaman qarşılaşmayacaqsan. Ölüm varsa sən yoxsan, sən varsa- ölüm yox.. O halda ölümdən qorxmaq axmaqlıqdır.*







dəfə idi ki, Çəpli kəndinə hücum edirdik. Düşmən kəndin içərisindəki evlərdə və çayın o tayında mövqe tutmuşdu. Mən atəş əmri verdim. Elə ilk dəqiqələrdə ermənilərin bir tankını vura bildik. Tank yanmağa başladı. Ermənilər PDM-lərdən düşüb qaçmağa başladı. Yarım saat ərzində düşmən 15 nəfər canlı qüvvə, 3 PDM, bir tank itirərək Seyidlər kəndinə tərəf geri çəkildi. Bir saatdan sonra artıq biz kəndə nəzarət edirdik. Düşməndən qənimət kimi götürdüyümüz PDM-ləri təmir etmək lazım idi. Bunun üçün Susuzluq kəndindən traktor gətirib PDM-ləri ona qoşaraq bir-bir Susuzluq kəndinə çıxardıq... Axşamüstü mövqelərimizi başqa bölüyə təhvil verib Susuzluq kəndinə qalxdıq.

* * *

Yanvarın 27-də komandir məni çağırıb üç gün əvvəl mühasirəyə düşdüyümüz “At daşı”na qalxmağı və orada döyüş meydanında qalmış döyüşçülərimizin meyidlərini götürməyi tapşırdı. O, əlavə edərək bildirdi ki, artıq 4-cü tabor Qamışlı kəndini azad edərək At daşına-bizim mühasirəyə düşdüyümüz yerə çıxmışdır. Mən baş leytenant A.Nağızadə ilə bölüyün 75 nəfər əsgərini cərgəyə düzdüm, onların silah-sursatını bir daha yoxladım, tapşırığı onlara bildirdim və müvafiq təlimatlar verdim.

Qaranlıq düşməmiş At daşına çatmaq lazım idi. Ona görə mən vaxt itirmədən komanda verdim və bir cərgə ilə hərəkətə başladıq. Susuzluq kəndindən aşağı enərək Çəpli kənd körpüsünü keçib, meşə cığırı ilə, sərt yoxuşla yavaş-yavaş At daşına qalxırdıq. Mən gah qabaqda, gah ortada, gah da arxa cərgədəki əsgərlərlə irəliləyir, yol gedə-gedə onların əhval-ruhiyyələrini yüksəltməyə çalışırdım. Əsgərlərin bəzilərinin həyəcan keçirdiyin hiss edirdim. Çünki iki gün əvvəl getdiyimiz yerdə mühasirəyə düşmüşdük. Əsgərlərin çoxunun üz-gözündə həyəcanı sezir, onlara ürək-dirək verməyə çalışırdım. Lakin, buna nail ola bilmirdim. Əsgərlər gah mənə, gah da A.Nağızadəyə yaxınlaşır yenə də At daşında döyüşəcəklərini və yaxud orada bizimkilərin olub-olmamalarını soruşur, daxili bir həyəcanla addımlayırdılar. Mən onlara düşmənin uzaqda olduğunu və 4-cü taborun düşməni oradan uzaqlaşdırdıqlarını bildirir, təhlükəli heç nə olmadığını deyirdim. Lakin, əsgərlərin yenə də həyəcanlı

olduqlarını hiss edir, onları sakitləşdirməyə çalışırdım. Meşə cığırı ilə yuxarı qalxır, demək olar ki, danışmırdıq. Mən əsgərlərə ürək-dirək versəm də onları üç gün əvvəl mühasirəyə düşdükləri və ölümdən çətinliklə xilas olduqları yerə yenidən aparmaq üçün əhval-ruhiyyələrinin lazımi qədər olmadığını yaxşı dərk edirdim.

Cığırla yuxarı qalxarkən qəfil dilimin ucuna gələn sözləri zümzümə etməyə başladım: “İgid əsgər, möhkəm dayan, möhkəm dayan...” Mahnının sözlərini tam bilməsəm də astaca zümzümə edirdim. Axı mən heç vaxt əsgərlərin yanında və ya başqa vaxt mahnı oxuyan deyildim. Əsgərlərdən bəziləri təəccüblə mənə baxır, bəziləri isə gülümsünürdülər. Bu iki-üç kəlmə söz bütün əsgərlərin üzünə bir təbəssüm gətirdi və onların döyüş ruhunu geri qaytardı. Hamının əhvalı yaxşılaşdı. Onlar əlbəttə, komandirin əhvalının yaxşı olduğunu görüb hər şeyin yaxşı olacağını düşünürdülər...

Meşəliyin qurtaran yerinə-dağın üstünə qalxdıq. 4-cü tabor iki gün əvvəlki döyüş meydanından 300 metrədək arxada hündür təpəliklərdə mövqe tutmuş, ermənilər isə dünənki döyüşdə bir neçə meyid qoyaraq əvvəlki mövqelərindən qovularaq bir az da yuxarı-dağlara tərəf geri çəkilmişdilər. İrəlilədikcə təpəlikdə və yamaclarda erməni meyidləri görünürdü. Bizim zabit və əsgərlərin meyidləri isə meşə talasında-neytral ərazidə qalmışdı. Mən birinci tağımı alçaq təpəliklərdə yerləşdirdim ki, öz atəşləri ilə düşmənin başını qatsın və digər tağmlarla biz meyidləri döyüş meydanından çıxaraq. Arxa tərəfdə mövqe tutmuş 4-cü taborun komandirinə isə bizi qorumağı tapşırdım.

Talaya yaxınlaşanda axşam düşürdü. Uzaqdan bizi görən düşmən işıqsaçan güllələrlə bizi atəşə tutdu. 1-ci tağımın əsgərləri güclü atəşlə düşmənə cavab verdilər. Arxadakı təpədən 4-cü taborun döyüşçüləri də düşməni atəşə tutdu. Biz isə axşamın düşməsindən istifadə edərək atəş açmadan meşə talasına yaxınlaşır və meyidləri bir-bir götürüb geriyə-təpənin arxasına çıxarırdıq. Düşmən getdikcə atəşi gücləndirirdi. Deyəsən bizi görmüşdülər. Birdən düşmən iri çaplı pulemyotlarla və qumbaraatanlarla talanı güclü atəşə tutdu və biz məcbur olub sürünərək geriyə çəkildik. İki gün əvvəl burada ikiqat mühasirəyə düşmüş və xeyli həyəcan keçirmiş əsgərlərdən bəziləri yenidən vahiməyə düşərək geriyə qaçdılar. Mən baş leytenant A.Nağızadəyə axtarışı davam etdirməyi tapşırdım, özüm isə geriyə çəkilmiş əsgərlərin arxasınca qaçaraq onlara çatdım. Əsgərlərin qarşısını kəsərək geri qayıtmağı və tapşırığı yerinə yetirməyi əmr etdim. Biz yenidən talaya qayıdanda artıq A.Nağızadə bildirdi ki, 13 nəfərin meyidi tapılıb. Talada və ondan aşağıda bir qədər də axtarış apardıq. Çünki taborun 14 əsgərinin həlak olduğunu yəqin



etmişdik. 14-cü meyidi isə tapa bilmədik. Yəqin etdik ki, itkin düşüb. Meyidlərin hamısını götürərək meşə cığırı ilə çətinliklə Çəpli kəndinə tərəf enməyə başladıq.

İtkin düşən əsgər Göyçay bölgəsindən müharibəyə gəlmişdi. Lakin, 12 gündən sonra 4-cü taborun əsgərləri həmin əsgəri yaralı halda meşədə bir qayalıqdan sağ tapmışlar. Çiynindən güllə yarası almış əsgər sürünərək qayalığa çəkilmiş və bizdən aralı düşmüşdü. Biz mühasirədən çıxdıqdan sonra həmin ərazi düşmən əlinə keçdiyi üçün o, gizləndiyi qayalıq və kolluqdan çıxmadan gizlənməyə davam etmişdi. Bir neçə gündən sonra bizim 4-cü tabor həmin əraziləri azad etsə də həmin yaralı əsgər onların da düşmən olduğunu yəqin edərək, yenə də gizlənmiş, 12 gün orada ac-susuz qalmışdı. 4-cü taborun tağım komandiri Elxan Əliyevin dediklərindən: "At daşı adlanan yüksəkliyi düşməndən azad edərək xeyli irəliləmişdik. Artıq Kəlbəcər şəhərinə doğru qəti hücuma keçmək üçün əmr gözləyirdik. Qalın qar yağmış, əməliyyat aparmaq bir qədər çətinləşmişdi. Buna baxmayaraq əsgərlərin əhval-ruhiyyəsi yüksək idi. At daşı adlanan ərazinin təpəliklərində ön mövqedə durmuşduq. Yanvarın 24-də burada mühasirəyə düşmüş Kəlbəcər Batalyonu isə geriyə çəkilmiş və yenidən döyüşlərə qatılmışdır. Həmin batalyon sonra başqa istiqamətdə-Söyüdlü istiqamətində irəliləyərək Göyçə ilə sərhədə çıxmışdı. Fevralın 5-i idi. Mövqelərimizin cənub tərəfində Güneypəyə kəndinin yuxarı hissəsindəki meşəlikdə bir yaralı əsgərə rast gəldik. O, ölümcül vəziyyətdə idi. Güclə bizi başa saldı ki, 3-cü taborun əsgəridirvə Göyçaydandır. Çiynindən yaralanmış, xeyli qan itirmiş, aclıq və susuzluqdan taqətdən düşmüşdü. İlk tibbi yardım göstərdikdən sonra onu hospitala göndərdik... "



### ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***27 yanvar 1994-cü il*** - 3-cü tabor hücuma keçərək itki vermədən yenidən Çəpli kəndini düşməndən azad etdi. Düşmən 3 ədəd döyüş maşınını və 15 nəfər canlı qüvvəsini itirərək yenidən Seyidlər kəndinə çəkildi. Döyüşdə pulemyotçu Fazil Musa oğlu qoçaqlıq göstərdi. 3-cü taborun bütün zabitləri medalla və növbəti hərbi rütbə ilə mükafatlandırıldılar.

***28 yanvar 1994-cü il*** - briqadanın 1, 3 və 4-cü taborları döyüşləri davam etdirərək Kəlbəcərin Qanlıkənd, Bozdu, Babaşlar, Təkəqaya, İlyaslar, Çopurlu kəndlərini düşməndən azad etdilər. Bu əməliyyatda düşmənin 123 nəfər canlı qüvvəsi məhv edildi və 16 ədəd zirehli texnikası ələ keçirildi. 1-ci taborun döyüşçüləri-gizir Məmmədov Arif və Tağıyev Məhəd kiçik leytenant rütbələrinə və "Azərbaycan Bayrağı" ordeninə layiq görüldülər.

***30 yanvar 1994-cü il*** - briqadanın 1-ci, 3-cü və 4-cü taborları döyüş əməliyyatlarını genişləndirərək Kəlbəcərin Seyidlər, Lev, Dəmirçidam, Cəmilli və digər kəndlərini düşməndən azad etdilər. Bu döyüşlərdə düşmən 100 nəfərədək canlı qüvvə itirdi.

***2 fevral 1994-cü il*** - düşmən Ağdərə istiqamətindən Qamışlı kəndi istiqamətinə hücuma keçdi. 2-ci tabor (komandir: kapitan Məhərrəmov İntiqam) düşmənin hücumunu dəf edərək, 3 tankını, 3 avtomobilini və 30 nəfər canlı qüvvəsini məhv etdi. Döyüşdə tank komandiri Səməd və bölük komandiri kiçik leytenant Bayramov Əli fərqləndilər.

***3 fevral 1994-cü il*** - Düşmən Çiçəklidağ yüksəkliyinə hücuma keçdi. 2-ci taborun 3-cü bölüyü (komandir: leytenant Əmirov Şamil) düşmən hücumunun qarşısını aldı, düşmən itki verərək geri çəkildi. Bölükdən 6 nəfər şəhid oldu və 10 nəfər yaralandı.

***8 fevral 1994-cü il*** - 2-ci tabor (bölük komandiri: leytenant Əmirov Şamil) mayor Qorxmaz Qarayevin rəhbərliyi ilə yenidəın Çiçəklidağ yüksəkliyinə hücum etdi. Yüksəklik ələ keçirildi. Düşmnin 12 nəfər canlı qüvvəsi məhv edildi. 2 əsgərimiz şəhid oldu.

# Uğurlu əməliyyatların uğursuz sonluğu

1994-cü il yanvar ayında və fevralın əvvəllərində bizim briqada Murovdağ silsiləsindən Kəlbəcər bölgəsinə daxil olmaqla döyüş əməliyyatlarını genişləndirərək Kəlbəcərin Yanşaq, Susuzluq, Qasımbinə, Zallar, Bağırsaq, Çəpli, Qamışlı, Bozlu, Babaşlar, Təkəqaya, Seyidlər, Qanlıkənd, Qamışlı, Dəmirçidam, Cəmilli, Çopurlu, Lev, İlyaslar və digər kəndlərini düşməndən azad etmiş, düşməni xeyli itkilərə məruz qoymuş, çoxlu sayda texnika, silah-sursat ələ keçirmişdi. 1-ci və 3-cü taborlar irəliləyərək Söyüdlü qızıl mədənlərinə çatmış, 5-ci tabor sol cinahda Bağırlı kəndinin yuxarısında mövqe tutmuş, Çiçəklidağ və Tunel bizimkilərin nəzarəti altına keçmişdi. Yəni Kəlbəcər bölgəsinin təxminən 30 faizi ermənilərdən təmizlənmişdi. Artıq Kəlbəcər şəhərinə hücuma hazırlaşırdıq. İşğaldan azad olunan ərazi, yəni döyüş meydanı genişləndikcə bizə əlavə qüvvələr lazım idi ki, hücum əməliyyatlarını davam etdirək. Bağırlı, Çiçəkli dağ və Qaragöl istiqamətlərində isə düşmən əks hücuma keçmişdi. Düşmənin əks-hücumunun qarşısı mütləq alınmalı idi. Buraya əlavə kömək daha vacib idi.

Bizim briqada Kəlbəcər ərazisinə 20-30 kilometr irəliləmiş, üç tərəfdən erməni və rusların hərbi qüvvələrinin əhatəsində döyüşlər aparırdı. Bu döyüşlərdə Ermənistan hərbçilərinin pis vəziyyətdə olduğunu görüb Ermənistandakı rus hərbçiləri həm döyüş texnikası, həm artilleriya, həm də hərbi sursatla onları yüksək səviyyədə təchiz edirdi. Döyüşlər zamanı biz bunun dəfələrlə şahidi olmuşuq. Bu faktı Çəpli kəndində əsir götürdüyümüz rus ordusunun beş nəfər erməni zabiti də təsdiləmişdi.

Fevralın 8-də 1-ci və 3-cü tabora daha bir tapşırıq verildi. Taborlar qərb istiqamətində hərəkət edərək Söyüdlü və ya Zod yüksəkliyini tutmalı idi. Beləliklə, Lev kəndindən hərəkətə başlayan 1-ci və 3-cü taborlar ermənilərin mövqelərini bir-bir ələ keçirirdilər. Artıq Kəlbəcər şəhəri istiqamətində kütləvi hücuma keçmək lazım idi. Qələbənin tezliklə əldə olunmasına az qalırdı. Biz son hücuma keçəcəyimiz günü səbirsizliklə gözləyirdik. Hətta Kəlbəcər şəhərinə taxacağımız bayrağı da hazırlamışdıq.

Həmin vaxt briqadanın sol cinahında-Bağırlı kəndinin yüksəkliklərində döyüş aparan 5-ci tabor çətin vəziyyətə düşmüş, Qaragöl yüksəkliyi ermənilərin əlinə keçmişdi. 5-ci tabor dəfələrlə həmin yüksəkliyə hücuma keçsə də, buna nail ola bilməmişdir. Artıq düşmən Meydançay ətrafını nəzarətə götürmüş, Murov dağından Kəlbəcərə aşan yeganə yola nəzarət onların əlinə keçmişdir. Tələb olunan əlavə qüvvələr isə gəlib çıxmırdı. Bizim 1-ci və 3-cü taborlar isə üzü qərbə əməliyyatları

genişləndirərək düşməni göz açmağa imkan vermirdi. Biz Meydançay ətrafında baş verənlərdən xəbərsiz idik.

* * *

Meydançay və Qaragöl əməliyyatlarının iştirakçısı olmuş 5-ci taborun bölük komandiri İbad Vəliyevin dediklərindən: "Qaragöl yüksəkliyi bizim tabor tərəfindən itkisiz azad edildi və biz mühüm bir yüksəklikdə mövqe tutduq. Lakin mövqelərimiz başqa tabora verildiyi üçün biz oranı tərk etdik. Iki gündən sonra düşmən dumanlıqdan istifadə edərək böyük bir qüvvə ilə hərəkət edib Qaragöl yüksəkliyinə çıxdı. Qeyri-bərabər döyüşdə bizimkilər oranı itki verərək tərk etdilər. Bizə yenidən tapşırıq verildi və biz həmin yüksəkliyə hücuma keçdik. Tabor iki istiqamətdən G.Əsədovun və mənim komandanlığım ilə dumanlı bir gündə qaragöl yüksəkliyinə hücum etdik. Mən sol cinahdan G.Əsədov isə sağdan hərəkət edirdik. Dumandan heç hara görünmürdü. Mən ərazini yaxşı tanıdığımdan hər yüksəklikdə bir dəstə saxlayır (arxa tərəfimizin təlükəsizliyi üçün) və irəliləyirdik. Artıq bölüyün yarıdan çoxu arxa mövqelərdə yerləşdirilmişdi. Biz isə Qaragöl yüksəkliyinə xeyli yaxınlaşmışdıq. Birdən duman aralananda bizdən bir neçə metr qabaqda düşmən rabitəçisinin antenasını gördüm və tələyə düşdüyümüzü hiss etdim. əsgərlər tamamilə açıqlıqda və düşmən güllələrinin altında idilər. Elə bu vaxt düşmən tərəfindən atəş açıldı və qeyri-bərabər bir döyüş başladı. Bizim döyüşərək geriyə çəkilməyimizdən başqa çıxış yolumuz yox idi. Biz sürünərək bir qədər arxadakı mövqelərə çəkildik. Bir nəfərimiz yaralandı. Ratsiyada öyrəndim ki, G.Əsədovun dəstəsi düşmən pusqusuna düşüb. Onlar 30 nəfər itki verərək geriyə-"25-68"-ci yüksəkliyə çəkidilər. Biz də ora çəkildik. Bir gündən sonra biz 15 nəfərlə Qızılqaya yüksəkliyini düşməndən azad etdik. Qaragöl yüksəkliyinə bir neçə dəfə hücum etsək də itki verərək əvvəlki mövqelərimizə çəkilirdik. Komandiri Tariyel Abbasov əvəz etdi. Düşmən əlavə qüvvə gətirərək dumanlı bir gündə bir qədər arxada olan Ağqaya yüksəkliyini ələ keçirdi. Ağqayada nə baş verdiyini öyrənmək üçün mən ora yaxınlaşanda qəfildən düşmən əsgəri ilə qabaqlaşdım və ona atəş açdım. Məndən bir qədər yüksəkdə olan düşmən mənə tərəf yuvarlandı və dərədə mənə dəyərək məni də dərəyə yuvarladı. Meşədə bizim bir yaralı ilə rastlaşdım. O bildirdi ki, çadırlarımız da atəş altındadır. Bizim bütün mövqelər düşmən əlinə keçmişdi. Mən həmin yaralını da götürərək meşə ilə xeyli dolanıb, özümüzünkülərin yanına qalxdım. Çıxış yolumuz yox idi. Mühasirədə qalmışdıq. Buzduq dağında üç gün bölüyün əsgərlərini və yaralıları bir neçə dəfə yerlərini dəyişməklə düşməni çaşdırdıq və sonda bir gecədə keçilməz bir qayalıqdan enərək mühasirədən çıxmağa nail olduq..."

*Yaşamaq -mübarizə deməkdir. Kim bu mübarizədə qalib gəlirsə, o da yaşayır.*

Fevralın 12-də bizə toplanış komandası verildi və Cəmilli kəndinin yaxınlığında yuxarı komandanlıqdan bizə bildirildi ki, Murovdağdan aşan yeganə yol ermənilər tərəfindən tutulmuş və briqada mühasirədə qalmışdır. Biz mövqeləri tərk edərək Murovdağa qalxmağa məcbur olduq. Döyüşdə belə şeylər çox olur. Lakin, mühasirə vəziyyətində olduğumuzu dəqiqləşdirdik. Biz bir neçə zabit: "Nə olsun ki. mühasirədəyik, döyüşmək lazımdır"-deyərək digər komandirləri də bu fikirlə razı salmaq istəsək də, heç kəs bizimlə razılaşmadı. Çıxılmaz vəziyyətdə qalmışdıq. Artıq gec idi, əsgər və zabitlər arasına küy və vahimə düşmüşdü. Yuxarı komandanlıqdan isə burada heç kəs yox idi. Ən azı iki sutka qanlı-qadalı, qarlı dağlarla ac-susuz, yuxusuz dayanmadan yol getmək, donmamaq lazım idi. Çünki bu hadisə bir neçə dəfə bizim başımıza gəlmişdi və biz Murovdağa qalxmağın ölümlə üzbəüz olduğunu çoz yaxşı bilirdik...

Bu qədər uğurlu döyüşlərdən sonra geri çəkilmək, qan töküb, şəhid verib azad etdiyimiz əraziləri döyüşsüz düşmənə təslim etmək bizim üçün çox ağır idi. Bunu özümüzə bağışlaya bilmir, təhqir olunmuş kimi, kor-peşman qarşıdakı qarlı dağlara baxa-baxa addımlayırdıq...

Qucağında göz açmışıq,
Dağlar bizi bağışlamaz,
Nemətini çox dadmışıq,
Bağlar bizi bağışlamaz.
Xəyalıma duman çökər,
Ürəyimə güman çökər.
Ulu dağlar qan-yaş tökər,
Ağlar, bizi bağışlamaz...

Murovdağın Bozlu kəndi istiqamətindəki ətəklərində vertalyotla xeyli yaralı daşınmışdı. Lakin beş nəfər yaralını götürməyə gələn vertalyot oranı zəbt etmiş ermənlər tərəfindən güclü atəşə məruz qalır. Vertalyot həmin yaralıları və onların yanında olan iki əsgəri götürə bilmir. Yaralıları mühasirəyə alan düşmən onları atəşə tutur. Düşmən atəşinə atəşlə cavab verən yaralı əsgərlər xeyli erməni məhv edirlər. Onlar düşmənə təslim olmaqdansa, ölümü üstün tutaraq son damla qanları qaladək vuruşurlar və qəhrəmancasına həlak olurlar.

Sıravi əsgər göyçaylı Babayev Qadirin dediklərindən: "Murovdağın ətəklərinə çatanda vertalyot gəldi və biz 50 nəfərədək yaralı əsgərləri vertalyota qaldırıb yola saldıq. Biz Murovdağın ətəklərində idik. Bizdən xeyli aşağıda dərədə isə 5 yaralı və onların yanında iki əsgər

qalmışdı. Ikinci dəfə vertalyot qayıdanda Susuzluq dağının zirvəsini ələ keçirmiş düşmən bizi və vertalyotu iri çaplı pulemyotlarla atəşə tutdu. Mən iki nəfərlə Murovdağın ətəyində, iki əsgər isə Bozdu kəndinin yaylaq yerində 5 yaralı ilə vertalyot gözləyirdik. Hər tərəfdən atəşə məruz qalan vertalyot enməyə macal tapmadı və bir neçə dəfə dövrə vurduqdan sonra Murovdağı aşaraq görünməz oldu. Ermənilər bizə atəş açaraq aşağıdakı yaralılara doğru hər tərəfdən hücuma keçdi. Son gülləmiz qalanadək döyüşdük. Güllələrimiz qurtardı. Biz hərəmiz sonuncu gülləmizi özümüz üçün saxlamışdıq. Düşmən bizdən xeyli aşağıda olan yaralılara yaxınlaşmışdı. Həmin yaralı əsgərlər və onların yanındakı iki əsgər düşməni yaxına buraxaraq qəfil atəşlə onları bir-bir qarın üstünə sərirdi. Amansız və acınacaqlı bir döyüş gedirdi. Ermənilər hər tərəfdən yaralıları mühasirəyə almışdı. Bizim güllələrimiz qurtardığı üçün yaralılara yaxınlaşa bilmir, uzaqdan onların ermənilərə qarşı necə rəşadətlə döyüşdüklərinə tamaşa edirdik. Bu qeyri-bərabər döyüşdə yaralı əsgərlər düşmənin 15 əsgərini məhv edərək, özləri də qəhrəmancasına həlak oldular".

* * *

Babaşlar kəndinin kənarında tövlədə gizlənən bir dəstə yaralı əsgər və zabitlər isə dəfələrlə düşmən hücumunun qarşısını mərdliklə ala bilmişlər. Həmin döyüşlərin iştirakçısı İlham Əzimovun dediklərindən: "Fevralın 11-də Lev kəndi ətrafındakı döyüşdə yaralandıqdan sonra məni və bir neçə başqa yaralıları Babaşlar kəndinin tövlələrinə daşıdılar. Döyüş yoldaşlarım Qoşqar Tağıyev, Xalid Həmidov, Mahir Abbasov, Saleh Məmmədov və digərləri bizim döyüş meydanından çıxarılmağımız üçün çox əziyyət çəkdilər. Onların bir hissəsi düşmənlə döyüşərək onların yaxınlaşmasını ləngidir, bir hissəsi isə bizim yaralarımızı sarıyır və bizi arxaya çəkirdilər. 30 nəfər yaralılar arasında Yaşar adlı bir zabit də var idi. O, bizə yaxşı məsləhətlər verir, geriyə çəkilməmizi təşkil edirdi. Sağ-salamat olanlar isə cəmi 8 nəfər idi. Göydən papaq-papaq qar yağırdı. Həm aclıq, həm susuzluq, həm də yaralarımız bizi əldən salmışdı. Biz sağ-salamat olan döyüş yoldaşlarını inandırmağa çalışırdıq ki, bizim yanımızda qalmaları mənasızdır. Geci-tezi düşmən bizi tapacaq və qeyri-bərabər döyüşdə hamımız həlak olacağıq. Biz həmin 8 nəfər salamat olan əsgərlərin gedib bizə kömək gətirmələrinin daha vacib olmasını başa salmağa çalışırdıq. Onlar isə bizi heç vaxt tərk etməyəcəklərini bildirirdilər. Nəhayət qərara gəldik ki, onlar bizə bir az ərzaq tapıb versinlər və sonra kömək gətirməyə getsinlər. Fevralın 14-də onlardan 3 nəfəri ərzaq axtarmaq üçün getdilər və bir daha geri qayıtmadılar. Buna görə də biz məcbur olub yerimizi dəyişməyə çalışdıq. Yaralı zabit Yaşar

*İnamsız yaşayan insanlar,*
*adətən, arzularından məhrum olurlar.*



qalan beş nəfərə Bozdu kəndinə gedib ərzaq axtarmağı məsləhət gördü. Onlar tövlədən çıxmaqları ilə geri qayıtmaları bir oldu. Bildirdilər ki, 30-40 erməni bizə tərəf gəlir. Komandir (Yaşar) tez bizə tapşırıqlar verərək müdafiə mövqeyi tutmağımızı əmr etdi. Salamat olan əsgərlər gizləndiyimiz qazmanın sağ tərəfində mövqe tutdular. Biz yaralılar isə əllərimizdə avtomatı və qumbaraları hazır saxladıq ki, çöldəkilər düşmənlə bacarmasalar, düşmən içəri girsə, onda biz qumbaralarla özümüzü və düşməni məhv edək. Komandir özü isə bir neçə yüngül yaralı əsgərlərlə qazmanın girəcəyində mövqe tutdu. Düşmən bizim burada olmağımızı bilmədən, yol boyu həlak olmuş şəhidlərimizin silahlarını götürərək irəliləyib 10-12 metrliyimizə qədər gəldilər. Onlar bizi gördülər və hər tərəfdən güllələri od kimi üstümüzə yağdırmağa başladılar. Iki saatadək davam edən bu qeyri bərabər döyüşdə bizimkilərin sərrast atəşləri və əzmkarlıqları nəticəsində düşmən 24 meyid qoyaraq pərakəndə şəkildə geri çəkilərək qaçdı. Ermənilərin sağ qalanları uzaqdan bizə tərəf atəş açırdılar. Bizim qəhrəman döyüşçülərdən 4 nəfəri şəhid olmuşdu. Yaralılarımızdan iki nəfəri yenə də yaralanmışdılar. Nə edəcəyimizi bilmirdik. Komandir qazmaya çökmüş ağır sükutu pozaraq bizim başqa yerə çəkilməyimizin vacib olduğunu bildirdi. O, düşmənin mütləq əlavə qüvvə ilə bura gələcəyini əlavə etdi. Həmin gecə sağ-salamat qalan tək döyüşçü yoldaşımız bizi bir-bir kəndin kənarındakı mağaraya daşıyaraq orada gözləməyimizi təşkil etdi. Səhər açılanda hər tərəfin qarla örtüldüyünü gördük və sevindik. Çünki, izimizi qar örtmüşdü. Həmin gün ermənilər bir dəstə ilə hücuma keçsələr də bizi qazmada tapmadılar. Bir neçə gündən sonra-fevralın 17-də bizim vertalyotlar başımızın üstündə görünməyə başladı. Lakin, ermənilər vertalyotları atəşə tutduğundan onlar uzaqlaşıb gözdən itdilər. Tamamilə ümidimiz üzülmüşdü, nə edəcəyimizi bilmirdik. Yaşamaq isə gözəl idi... fevralın 18-də Murovdan iki qırıcı vertalyot göründü. Onlar düşmən mövqelərini bombaladı və erməniləri dağdan aşağı qovdu. Belə olduqda bizi təkbaşına mağaraya daşıyan əsgər

mağaradan çıxaraq gödəkcəsini çıxarıb başının üstündə yelləməyə başladı. Vertalyotdakı döyüşçülər onu gördülər və vertalyotu yaxınlığa endirməyə başladılar. Sağ qalanlarımız beləliklə xilas olduq”.
Murovdağ silsiləsinin Yeddiqardaş, Koroğlu və digər zirvələrini aşarkən briqadanın çoxlu sayda əsgər və zabiti həlak oldu, 500 nəfərdən çox əsgər don vurmadan əl və ayağı kəsilərək şikəst oldu. 3-cü taborun komandiri baş leytenant Fehruz Alışov, baş leytenant Xalid Hümbətov, Şahin Süleymanov, Mirzəli Mehdiyev, pulemyotçu Elxan-cəmi 11 nəfər isə qar uçqunu altında qalaraq həlak oldular.

Əziziyəm, Murovda,
Əridi qar-qırov da.
Neçə igid gəlmədi,
Buza döndü Murovda.
Olmaz sənə tay Murov,
Umdum səndən pay Murov.
Özün boyda ərləri,
Necə uddun, ay Murov?

Bu əməliyyatların uğursuz sonluğunu hərbi hissənin qərərgah rəisi polkovnik-leytenant E.Həsənov belə şərh edir: “Kəlbəcərə hücum planı hələ 1993-cü ilin yayında hazırlanmışdı. Bu plana əsasən Kəlbəcər bölgəsi qısa bir vaxtda azad edilməli idi. Hərbi hissə yaxşı təchiz edilmişdir. 1993-cü ilin noyabrında hərbi müşavirədə Kəlbəcərə hücum etmək qərara alındı. Əməliyyatların məhz qışda başlamasına mən etiraz etdim. Bununla da məni tutduğum vəzifədən uzaqlaşdırdılar. Dekabrda başlanan əməliyyat çətin olsa da uğurla keçdi. 3-cü taboru Daşkəsənin Zivlən kəndindən Kəlbəcərin Bozlu və Təkəqaya kəndləri istiqamətində düşmən arxasına göndərdik. Digər taborlar isə Ömər aşırımından enərək düşməni ağır itkilərə məruz qoydular. Artıq Kəlbəcər bölgəsinin böyük bir ərazisi azad edilmişdir. Əsgər və zabitlərimiz yüksək vətənpərvərlik hissləri ilə döyüşə atılmış, Murovdağın qarlı zirvələrini və aşırımlarını qəhrəmanlıqla fəth etmiş, düşmən üzərinə əfsanəvi bir yürüş etmişdilər. 3-cü tabor-Kəlbəcər batalyonu-Daşkəsəndən Murovdağ silsiləsini aşaraq, 60-70 kilimetrlik bir məsafəni yürüş etmiş və 2 yanvar 1994-cü ildə Kəlbəcərin Bozlu, Babaşlar və Təkəqaya kəndlərini düşməndən azad etmişdir. Həmin tabor mühasirədə qaldığı üçün Murovdağı yenidən geriyə aşmış və bir həftədən sonra digər taborlarla Murovdağın Ömər aşırımından enərək Yanşaq, Qasımbinə, Zallar, Bağırsaq, Susuzluq kəndlərini və həmçinin, yenidən Bozlu, Babaşlar və Təkəqaya kəndlərini ermənilərdən azad etmişdir. Kəlbəcər batalyonu bir ay ərzində üç dəfə düşmən arxasına göndərilmiş (birinci dəfə 30 dekabr 1993-cü il tarixdə

*Yaydan çıxan oxu geri qaytarmaq mümkün olmadığı kimi səhvi də düzəltmək olmaz.*



Daşkəsəndən Murovdağını aşaraq Bozlu Kəndinə, ikinci dəfə 18 yanvar 1994-cü il tarixdə 1-ci taborla Susuzluq dağına, üçüncü dəfə isə 24 yanvar 1994-cü il tarixdə Qanlıkənd yaxınlığına-At daşı adlanan yüksəkliyə) və bu əməliyyatların ikisi uğurla nəticələnmişdir. Sonralar döyüş əməliyyatları geniş ərazidə aparılaraq daha bir neçə kənd: Qamışlı, Qanlıkənd, Seyidlər, Cəmilli, Lev, İlyaslar, Dəmirçidam kəndləri azad edilmişdir. 5-ci taborun Qızılqaya, Şişqaya və Qaragöl yüksəkliklərinin düşməndən alınmasında, 1-ci və 3-cü taborların Yanşaq, Zallar, Qasımbinə, Susuzluq, Çəpli, və s. kəndlərin, 2-ci və 4-cü taborların, Qamışlı, Qanlıkənd kəndlərinin və Çiçəklidağ yüksəkliyinin azad edilməsində müstəsna xidmətləri olmuşdu. Bir aydan çox şiddətli döyüşlər getdi. Əsgərlərimiz qış aylarında çox çətinliklərə baxmayaraq, fədakarcasına döyüşürdülər. Erməni hərbi birləşmələri Kəlbəcəri tərk edib qaçırdılar. 24 yanvar 1994-cü ildə Kəlbəcər batalyonu Çəpli kəndində düşmənin hərbi karvanını məhv etdi və Ermənistanla Dağlıq Qarabağı birləşdirən maşın yolunu ələ keçirdi. Onların 5 zabiti əsir götürüldü. Bu döyüşlər zamanı düşməndən 4 tank (3-ü məhv edilmişdir), 9 yük və minik avtomobili, 4 PDM, 1 şilka, 1 komanda qərərgah maşını, 3 minaatan və çoxlu silah-sursat ələ keçirilmişdi. Erməni hərbi birləşmələrinin Qarabağ bölgəsi ilə Ermənistanı birləşdirən yol bizim hərbçilərin nəzarətinə keçmişdi. Yanvarın 29-da əlavə qüvvə alan düşmən Ağdərə istiqamətindən əks-hücuma keçdi və Qaragöl adlanan yüksəkliyi tutdular. Bununla da Murovdağ aşırımından keçən yeganə yol onların nəzarətinə keçdi. Bizə isə əlavə qüvvələr verilmədiyindən, qüvvələr nisbəti ermənilərin xeyrinə dəyişdi. Əməliyyat meydanı genişləndiyindən mütləq əlavə qoşun hissələrinin köməyi lazım idi. Bizim əsgər və zabitlər bir aydan çox müddətdə qarlı dağlarda fasiləsiz olaraq, aramsız döyüşlər aparmışdı. Beləliklə, mühasirədə qalan qüvvələrimiz qeyri-bərabər döyüşlər apararaq geriyə-Murovdağa-çəkilməyə məcbur oldu...”

*Hər kəs əməlinə görə, hər şeydən əvvəl,*
*öz vicdanı qarşısında cavab verməlidir.*
*M ü ə l l i f*

# Fizuli bölgəsində döyüşlər

Biz Qarabağ müharibəsində heç də, məğlub olmamışıq. Qoy məğlubiyyəti Qarabağ müharibəsində döyüşməyənlər öz adlarına yazsınlar! Biz-döyüşənlər hər döyüşdə düşmənə layiqli cavablar vermişik. Bunu ermənilərin özləri də yaxşı bilirlər. Biz-döyüşənlər məğlub olmadığımızı sübut etmək üçün düşmən üzərinə bir daha getməyə hazırıq.Bir neçə gün əvvəl düşmənə qan udduran briqadanın yalnız adı var idi... Bizim briqada Kəlbəcər bölgəsindən geri çəkilərkən Murovdağ silsiləsinin qarlı aşırımlarından keçmiş və çoxlu sayda itki vermişdi. 1000 nəfərədək döyüşçü həlak olmuş, min nəfərədək əsgər və zabit yaralanmış və ya əl-ayağını don vurmuşdu. Sağ qalan zabit və əsgərlər isə nə baş verdiyini anlamadan, ruh düşkünlüyünə qapılmışdılar. Onlar hələ də başa düşmürdülər ki, niyə Kəlbəcəri yenidən-demək olar ki, döyüşmədən-tərk etdilər, kim belə əmr verdi? Niyə kömək gəlmədi? Axı iyirmiyədək yaşayış məntəqəsini azad etmiş və şəhidlər vermişdik...

Bu suallar hələ də bizi düşündürür...

Əfsanəvi Alay Seyfəli təlim mərkəzində yenidən toplaşdı. Əfsanəvi Alay yenidən özünə gəlmək üçün təlimlərə başladı. 13 aprel 1994-cü il tarixədək Seyfəli təlim mərkəzində yeni gəlmiş əsgər və zabitlərlə taborları yenidən təşkil etdik və hazırlıq keçdik. Briqadaya polkovnik Yaşar Aydəmirov komandir təyin edilmişdi.

13 aprel 1994-cü il tarixdə bizi Fizuli bölgəsinə gətirdilər. Məlum oldu ki, burada vəziyyət son dərəcə ağırdır. Ermənilər Aşağı Əbdürəhmanlı və Yuxarı Əbdürəhmanlı, Kərimbəyli, Aşağı Seyidəhmədli, Yuxarı Seyidəhmədli, Kürkan və s. kəndlərini işğal edərək Beyləqan istiqamətində irəliləyirdi. Bizim briqada onların qarşısına çıxarıldı. Ilk günlər düşmən mövqelərinə hücum etsək də müvəffəqiyyət əldə olunmadı. Ikinci gün PDM-in üstündə quraşdırılmış repreduktordan səslənən əsgər marşının sədaları altında hücuma keçən Əfsanəvi Alay ermənilərin mövqelərini darmadağın edərək düşməni pərən-pərən saldı. Düşmən xeyli canlı qüvvə və texnika itirərək geriyə çəkildi. 3-cü tabor düşmənin uzunmüddətli atəş nöqtələrini darmadağın edərək 5 kilometr irəlilədi. 3-cü taborun minaatanları leytenant Əziz Abbasovun komandanlığı ilə düşmən mövqelərini və onun canlı qüvvələrini səngərlərindən çıxarmağa nail oldu. PDM-in üzərində quraşdırılmış səsucaldandan eşidilən əsgər marşının sədaları altında qeyri-adi bir ruh yüksəkliyi ilə hücuma keçən əsgərlərimizi görən ermənilər vahimə



içərisində səngərləri qoyub qaçırdılar. Hücum o qədər sürətlə davam etdirilirdi ki, əsgərləri saxlamaq qeyri-mümkün olmuşdu. Onlar düşmən mövqelərinin içərilərinə tərəf irəliləyirdilər. Düşmən səngərlərində onlarla meyid qalmışdı. Düşmənin uzunmüddətli atəş nöqtəsi ələ keçirilmiş, orada isə Ermənistanın xüsusi təyinatlı polis dəstəsinin 8 nəfərinin, o cümlədən; bir zəncinin də meyidi var idi. Bu döyüşlərdə Fizuli bölgəsinin bir neçə kəndi azad edilmiş, düşmən xeyli itki vermiş, ermənilərdən 4 nəfər əsir götürülmüşdü. Bizim taborlardan da itkilər var idi. Bizim bir tank minaya düşdü və digər tankımız düşmənin uzunmüddətli atəş nöqtəsini susdurdu. Əsgərlərimiz yüksəkliyi ələ keçirdikdə bir erməni əsgərinin iri çaplı (DŞK) pulemyota zəncirləndiyinin şahidi olduq.

4-cü taborun komandir müavini baş leytenant Əhəd İsmayılovun dediklərindən: "Aprelin 15-də biz Aşağı Seyidəhmədli kəndini azad etmək üçün döyüşə atıldıq. Elə ilk hücumda pulemyotçumuz Nəbi Əliyev snayperlə alnından vuruldu və bir neçə nəfər yaralandı. Bizim fasiləsiz hücumlarımızla düşmən mövqeləri içərisinə vahimə düşdü. Bir qədər də irəliləyərək düşmən mövqelərini ələ keçirdik. Ermənilərin uzunmüddətli atəş nöqtəsindən isə bizə qarşı atəş açılır, düşmənin iri çaplı pulemyotu susmaq bilmirdi. Biz sürünərək bunkerə yaxınlaşdıq və onun kiçik pəncərəsindən içəriyə bir neçə qumbara atdıq. Bir azdan biz ora daxil olanda orada düşmənin 8 meyidi qalmışdı. Bunkerdəkilər düşmənin xüsusi təyinatlı dəstəsinin üzvləri imiş. Sonra bizim tabor hücumu Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində davam etdirdi... "

Fizulidə bu cür uğurlu hücumlar birdən-birə dayandırıldı. Çünki Tərtər-Ağdam cəbhəsində vəziyyət ağırlaşmışdı. Düşmən rusların dəstəyi ilə kütləvi hücuma keçmiş, bir neçə yerdən cəbhəni yararaq, Tərtər-Bərdə istiqamətində (Qapanlı-Dördyol-Bərdə) irəliləyib Kür çayına çıxmağa çalışırdı...

*Döyüşdə olduğum günləri və saatları və orduda xidmət etdiyim illəri ömrümün ən şərəfli anları hesab edirəm.*
*M ü ə l l i f*



## ▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN*

***16 aprel 1994-cü il*** - briqada (komandir: polkovnik Y.Aydəmirov) Fizuli bölgəsinə gətirilərək, 2-ci taborla (komandir: kiçik leytenant Bayramov Əli, müavinlər: kapitan Məmmədov Eldar, baş leytenant Zeynalov Gülağa) düşmən mövqeləri üzərinə hücuma keçdi. Döyüş zamanı irəliləyə bilməyən tabor 7 şəhid verdi və 11 nəfər yaralandı.

***18 aprel 1994-cü il*** - 2-ci tabor yenidən hücuma keçdi və 6 nəfər şəhid və 14 nəfər yaralı verərək yenə irəliləyə bilmədi.

***20 aprel 1994-cü il*** - 2-ci tabor çavuş Əliyev Elmir Mürsəl oğlunun komandirliyi ilə 10 nəfərlik dəstəni düşmən arxasına keçirdi. Taborun 2-ci bölüyü (komandir baş leytenant Ramazanov Fazil) tankların köməyi ilə hücuma keçdi. Düşmən cəbhəsi yarıldı və düşmən 14 kilometr geriyə qovuldu. Düşmənin iki tankı və 30 nəfər canlı qüvvəsi məhv edildi və bir topu ələ keçirildi, 4 əsgəri əsir götürüldü. Bizimkilərdən isə 5 nəfər şəhid oldu, 5 nəfər isə yaralandı.

***20 aprel 1994-cü il*** - 3-cü taborun 1-ci bölüyü hücuma keçərək düşmən mövqelərini darmadağın etdi və 14 kilometr irəlilədi. Düşmənin uzumüddətli atəş nöqtəsində 8 meyidi qalmışdı. Düşməndən 5 ədəd 120 mm-lik minaatan ələ keçirildi. 3-cü tabordan 6 nəfər şəhid oldu.

*Bu gün qəlbimdə vətən həsrəti var: zaman dənizləri ardında, orada bircə xoş saat arzulayıram.*
*Rabindranat Taqor*

# Tərtər və Ağdamda düşmən hücumunun qarşısı alınır

28 aprel 1994-cü il tarixdə bizim hərbi hissə təcili olaraq Fizuli bölgəsindən döyüşdən çıxarılaraq Tərtər-Ağdam istiqamətində irəliləyən düşmənin qarşısına çıxarıldı. Bu ərazidə ruslardan xeyli tank və zirehli maşın alan düşmən bizim 777-ci, 888-ci və 190-cı hərbi hissələrini ağır məğlubiyyətə uğradaraq, Ağdamın Baş Qərvənd, Tağıbəyli, Şurabad, Şotlanlı, Nəmirli, Güllücə, Seysulan və s. kəndlərini işğal etmiş, Tərtər və Bərdə şəhərlərini təhlükə altında almışdı. Belə bir vaxtda ehtiyat hərbi qüvvələr də olmadığını nəzərə alan yuxarı komandanlıq, yalnız, əfsanəvi hərbi hissəyə ümid bağlamışdı.

Beləliklə, general N.Sadıqovun taktiki çevikliyi ilə aprelin 30-da Ağdam-Tərtər bölgəsinə gətirilərək əks-hücuma keçən Əfsanəvi Alay ermənilərə divan tutmağa başladı. Bizim tabor-3-cü tabor (Kəlbəcər Batalyonu)-Seysulan istiqamətində əks-hücuma keçərək, kəndə daxil oldu. Yağışlı bir gün idi. Düşmən isə kəndi heç cür əldən vermək istəmir, itki verərək geriyə çəkilir və qüvvələrini cəmləyib yenidən hücuma keçirdi. Ermənilərə mülki geyimli döyüşçülərdən ibarət yeni-yeni qüvvələr köməyə gətirilirdi. Gərgin döyüşlər nəticəsində biz itkilər verərərək vəziyyətimizin ağırlaşdığını görüb yenidən geri çəkilirdik. Sonra qüvvələrimizi cəmləyib yenidən hücuma keçirdik. Beləliklə Seysulan kəndinə bir gündə 5 dəfə hücuma keçdik və hər dəfə itki verərək düşmənin qat-qat çox olan canlı qüvvəsinin və 30-dək tankının əks-hücumunun qarşısında davam gətirə bilməyərək, öz səngərlərimizə qayıdırdıq. Beləliklə bizim tabor Seysulan kəndinin 25-30 metrliyində müdafiə qurmağa məcbur oldu. Sonralar məlum olacaq ki, bu döyüşlər zamanı ermənilər bir neçə gün ərzində minlərlə canlı qüvvə itirmiş, təkcə Seysulandan isə özlərinin 300 meyidini daşımışlar. Bu xəbər Ermənistanı vahiməyə salmış, hətta onlar Türk ordusunun onların qarşısına çıxarıldığını yəqin etmişlər. Bizim döyüşçüləri isə "Dəmiryeyənlər" adlandırırmışlar. Bu məlumatları "atəşkəs"dən sonra Nəmirli kəndi yaxınlığında həlak olan silahdaşlarımızın meyidlərini götürmək üçün ermənilərlə danışıq apararkən bir erməni zabiti mənə danışmışdı. O, hətta əlavə etdi ki, "atəşkəs" olmasaydı biz Qarabağda tab gətirə bilməzdik. Sol cinahımızda isə 2-ci və 1-ci taborlar döyüş aparırdı. Lakin rusların ermənilərə bəxş etdiyi 30-dək tankının qarşısına iki-üç tankla çıxırdıq.



Dağlıq əraziyə nisbətən düzənlikdə texnikasız döyüş aparmaq olduqca çətindir. Buna baxmayaraq düşməni ağır itkilərə məruz qoyur və onları geri çəkilməyə məcbur edirdik. Bununla da düşmənin xeyli canlı qüvvəsi və texnikası məhv edilmiş, düşmən döyüş qabiliyyətini itirmişdir.

May ayının 5-də 3-cü tabor Təzəkənddən Baş Qərvənd istiqamətində hücuma keçdi. Bu döyüşdə bizim briqadanın reaktiv qurğusu-“şturmes”lə ermənilərin 8 tankı vuruldu və 220 əsgəri öldürüldü. Bir neçə gündən sonra “Kəlbəcər batalyonu” Təzəkənd-Baş Qərvənd istiqamətində yenidən hücuma keçdi. Düşmən xeyli canlı qüvvə və iki tank itirərək geri çəkildi. Bu döyüşdə iki tankımız vuruldu. Həmin gün əks hücuma keçən düşmən bir qədər irəliləsə də səngərlərimizdən bizi çıxara bilmədi və yenidən geri oturduldu. Nar bağında yerləşdirilmiş 3-cü taborun minaatan batareyası (komandir baş leytenant Əziz Abbasov) isə düşmənə göz açmağa imkan vermirdi. Ümumiyyətlə “Atəşkəs”ə qədər bu bölgədə apardığımız döyüşlər nəticəsində düşmən 40-dək zirehli texnika və minlərlə canlı qüvvə itirərək çıxılmaz vəziyyətdə qalmışdı. Bizim taborlar da xeyli itki vermişdi. Bu itkilərə baxmayaraq gətirilən yeni əsgərlərlə təchiz edilən taborlar düşmən üzərinə kütləvi hücuma hazırlaşırdı...

Bu döyüşlərdə 3-cü taborun əsgər və zabitlərindən tabor komandiri N.Cəfərov, minaatan batareyasının komandiri leytenant Ə.Abbasov, bölük komandiri Məzahir, bölük komandiri baş leytenant A.Kamalov, leytenant Z.Tağıyev, leytenant Z.Hüseynov, leytenant V.Talıbov, Namiq Şirinov, Məhəmməd Cəfərov, leytenant Hüseyn Nəbiyev, leytenant Elyar Nərimanov, gizir Ş.Bəxtiyarov, Füzuli, Elşad Eyvazov, Nemət Şükürov, İlqar Həsənov, Vüsal Verdiyev, Şahin, İsayev İlham, Mehrəliyev Vəli, Musayev Zahid, Mahir, Nizami, Amil, Eldar, Vəli, o cümlədən; bizim batalyonun sərəncamına verilmiş Laçın batalyonunun əsgər və zabitləri fəallıq göstərərək düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv etdilər. 12 aprel 1994-cü il tarixdə cəbhə boyu üstünlük əldə edən Azərbaycan ordusunun irəlilədiyi bir vaxtda ermənilər üçün əlverişli olan “Atəşkəs” imzalandı.



**▲ *ƏFSANƏVİ ALAYIN DÖYÜŞ SALNAMƏSİNDƏN***

***30 aprel 1994-cü il*** - 1-ci tabor (komandir: mayor Qurbanov Qurban, müavinlər: mayor Hüseynov Zamin, kiçik leytenant Məmmədov Arif) Ağdamın Şurabad istiqamətində hücuma keçdi. Düşmən 21 nəfər canlı qüvvə itirərək 2 kilometrədək geri qovuldu. Tabordan 3 nəfər şəhid oldu, 4 nəfər yaralandı.

***30 aprel 1994-cü il*** - 2-ci tabor (komandir: kapitan Məmmədov Eldar, müavin baş leytenant Zeynalov Gülağa) Nəmirli istiqamətində hücuma keçdi və düşmən 25 nəfər canlı qüvvə itirərək geriyə çəkilməyə məcbur oldu. Bu döyüşdə 8 nəfər, o cümlədən kapitan Eldar Məmmədov qəhrəmancasına həlak oldu, 9 nəfər yaralandı. Kapitan Eldar Məmmədov Azərbaycan Bayrağı ordeni ilə (ölümündən sonra) təltif olundu.

***30 aprel 1994-cü il*** - 3-cü tabor (komandir: leytenant Nadir Cəfərov, bölük komandiri Məzahir, minaatan batareyasının komandiri baş leytenant Əziz Abbasov) sağ cinahdan düşmənin Seysulan kəndindəki mövqelərinə hücuma keçdi və Seysulan kəndini düşməndən azad etdi. Düşmən 300 nəfər canlı qüvvə itirsə də əks-hücuma keçərək yenidən kəndə daxil oldu. Tabor kəndin girəcəyində müdafiə mövqeyi tutmağa məcbur oldu. Tabordan 34 nəfər həlak oldu 23 nəfər yaralandı.

***9 may 1994-cü il*** - sol cinaha gətirilən 3-cü və 1-ci tabor hücuma keçməyə hazırlaşarkən, düşmən 30 ədəd tank və 800 nəfərədək canlı qüvvə ilə hücuma keçdi. Bir saatadək davam edən döyüşdə düşmənin 8 tankı bizim "Şturmes"lə vuruldu. Düşmən 220 nəfər canlı qüvvə itirərək geri çəkildi. Döyüş zamanı hər iki tabor cəmi 28 nəfər şəhid verdi və 55 nəfər yaralandı, iki tankımız vuruldu.

***10 may 1994-cü il*** - 2-ci tabor hücum əməliyyatlarını davam etdirərək düşməni 2 kilometr geri qovdu. Bu döyüşdə düşmən 50 nəfərədək canlı qüvvə itirdi. Tabordan 5 nəfər həlak oldu, 30 əsgər yaralandı.

## АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫНЫН ҺӘРБИ ГУЛЛУГЧУЛАРЫНЫН ОРДЕН ВӘ МЕДАЛЛАРЛА ТӘЛТИФ ЕДИЛМӘСИ ҺАГГЫНДА

## АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫ ПРЕЗИДЕНТИНИН ФӘРМАНЫ

I. Азәрбајчан Республикасынын торпагларынын ермәни ишғалчыларындан азад едилмәсиндә көстәрдикләри шәхси иқидлик вә шүчаәтләрә көрә ашағыдакы һәрби гуллугчулар **«Азәрбајчан Бајрағы»** ордени илә тәлтиф едилсинләр:

Лејтенант **Ширинов** Јусиф Иса оғлу (өлүмүндән сонра).

Лејтенант **Надирли** Самир Мәммәдсәлим оғлу (өлүмүндән сонра).

Кизир **Мәммәдов** Ариф Билал оғлу.

Баш чавуш **Тағыјев** Мәһәд Тағы оғлу.

Чавуш **Һүсејнов** Акиф Кнјаз оғлу (өлүмүндән сонра).

Чавуш **Хаммәдов** Алим Сәттадәвләт оғлу (өлүмүндән сонра).

Чавуш **Аббасов** Абил Исрафил оғлу (өлүмүндән сонра).

Сырави **Садыгов** Еһтибар Рза оғлу.

Сырави **Елјазов** Туран Рөвшәнәли оғлу.

Сырави **Һәсәнов** Кәрај Фејзулла оғлу.

Сырави **Бәдәлов** Филман Мәһәррәм оғлу.

II. Азәрбајчан Республикасынын торпагларынын ермәни ишғалчыларындан тәмизләнмәси уғрунда апарылан дөјүш әмәлијјатларында хүсусилә фәргләнмиш ашағыдакы һәрби гуллугчулар **«Һәрби хидмәтләрә көрә»** медалы илә тәлтиф едилсинләр:

Полковник-лејтенант **Һәсәнов** Елдар Валеһ оғлу.

Мајор **Гәнизадә** Фүзули Тофиг оғлу.

Мајор **Сәид** Таран-Гәдәмәли оғлу.

Капитан **Саваланов** Јусиф Мусејиб оғлу.

Капитан **Һессари** Рза Мәһәммәдрза оғлу.

Баш лејтенант **Алышов** Фејруз Бахыш оғлу.

Баш лејтенант **Ибраһимов** Азәр Әһмәд оғлу.

Лејтенант **Әмиров** Шамил Ағасәф оғлу.

Лејтенант **Аббасов** Һичран Асиф оғлу.

Кичик лејтенант **Дадашов** Илгар Кәлби оғлу.

Кичик лејтенант **Гулијев** Елман Һәсән оғлу.

Кизир **Рәһимов** Фәрзалы Һәтәм оғлу.

Баш чавуш **Абдуталыбов** Телман Һүсејн оғлу.

Чавуш **Әлијев** Шамо Алыш оғлу.

Чавуш **Кәримов** Чејһун Ағабаба оғлу.

Чавуш **Вәлијев** Азәр Нәсрәддин оғлу.

Сырави **Һәсәнәлијев** Елчин Һәсән оғлу.

Сырави **Салаһов** Натиг Садиг оғлу.

Сырави **Сәфәров** Елсевәр Ханкиши оғлу.

Кизир **Ағакишијев** Әләддин Јермак оғлу (өлүмүндән сонра).

**Азәрбајчан Республикасынын президенти**
**Һејдәр ӘЛИЈЕВ.**

Бакы шәһәри, 27 јанвар 1994-чү ил.

**Bir kərə yüksələn bayrag,**
**bir daha enməz**



# Fəxri Fərman

Капитан КАМАЛОВ АСИФ ҺАГВЕРДИ оглу Азәрбајҹан Республикасы Силаһлы Гүввәләринин јаранмасынын 4-чү илдөнүмү мүнасибәтилә вә һәрби хидмәтиндәки наилиј јәтләринә көрә тәлтиф едилир.

051 №-ли һәрби һиссәнин
командири: полковник "К. ВӘЛИЈЕВ"

051 №-ли һәрби һиссәнин командиринин
сијаси вә ичтимаи
ишләр үзрә мүавини: полковник "С. КӘРИМОВ"



*Kəlbəcər batalyonunun döyüşçülərindən:*
*Rzayev Mikayıl və döyüş yoldaşları Murovdağ-1994-cü il*



*Kapitan A.Kamalov 1995-ci il*



*Kəlbəcər batalyonunun döyüşçülərindən:*
*Rzayev Mikayıl(ortada) və döyüş yoldaşları, Murovdağ-1994-cü il*



*Tərtər uğrunda döyüşlər.  Şəkildə: ayaq üstə sağdan baş leytenant Akif kamalov, leytenant Yadigar Ağayev, gizir Şahin Bəxtiyarov, gizir Əlövsət Həsənov, əsgərlər: Qurban Məmmədov və Qadir Babayev*



*3-cü taborun Rabitə tağımı. Qərərgah rəisi kapitan Akif Kamalov, rabitə tağımı komandiri baş leytenant Hüseyn Balakişiyev, əsgərlər: Ramil, Əlövsət, Surxay, Yaşar, Sərdar, Pərviz, Əjdər Cəbhə bölgəsi, Ağdam, Mirəşelli kəndi, 1995-ci il*



*Cəbhə bölgəsi-1996-cı il.  Şəkildə əsgərlər: Yaşar, Surxay. uşaq: Ayaz Kamallı -(kapitan A.Kamalovun oğlu)*



*Minaatan batareyası döyüşdə*
*Komandir: baş leytenant Əziz Abbasov (ayaq üstə)- aprel 1994-cü il*



*Tərtər uğrunda döyüşlər. Şəkildə: bölük komandiri baş leytenant Akif Kamalov, Kiçik leytenant Yadigar Ağayev, gizir Şahin Bəxtiyarov, gizir Əlövsət Həsənov və Qurban Məmmədov, may 1994*



*Minaatan batareyası Döyüşdən sonra, may 1994-cü il*



*Murovdağ-1994-cü il*



*Baş leytenant A.Kamalov - 1994-cü il*



*Şəkildə 3-cü taborun zabitləri: kapitan A.Kamalov, baş leytenant Ə.Abbasov, baş leytenant M.Kərimov. Ağdam bölgəsi 1996-cı il*



*Kapitan Akif Kamalov və əsgər Ramiz Əsədov, Ağdam 1995-ci il*



*Əsgərlər ordu sıralarından tərxis olunur:  Kapitan Akif Kamalov (ortada), mayor Vidadi Xudiyev (solda) Tərtər-1996-cı il*



*Müasir Azərbaycan əsgərləri*

# Şəhidlər unudulmaz!

(Onların çoxu "Kəlbəcər Batalyonu"nda və "Əfsanəvi Alayda" xidmət etmişlər)

1. Alışov Fehruz Bəyiş oğlu
2. Almədətov Natiq Məhəmməd oğlu
3. Allahverdiyev Famil Heydər oğlu
4. Allahverdiyev Famil Abbasəli oğlu
5. Abbasov Nəsimi Təhməz o
6. Atayev İman Mirzə oğlu
7. Abbasov İsgəndər Asif oğlu
8. Alıyev Rizvan Əlif oğlu
9. Aslanov İlyas Xəlil oğlu
10. Atakişiyev Mehdi Şirin oğ.
11. Aydınov Rəfi Telman oğlu
12. Abbasov Müşfiq Dilən oğlu
13. Abdullayev Etibar Əyyub o
14. Ağamalıyev Şakir Yunis o.
15. Atayev Əli Yusif oğlu
16. Alıyev Camal Haqverdi o
17. Alıyev Əkbər Salman oğlu
18. Atayev Mehman Müslüm o
19. Alxanov Vəkil Mirzə oğlu
20. Atayev Namiq Mənsim oğ.
21. Abbasov Arif Saleh oğlu
22. Almasov Tağı Soltan oğlu
23. Almasov Şakir Tağı oğlu
24. Bayramov Çingiz Xanlar o.
25. Babaxanov Surxay Mürsəl
26. Bayramov Rasim Ələmdar
27. Bayramov Vüqar Əsəd oğlu
28. Bayramov Mahir Əli oğlu
29. Babaxanov Şahin Zülfüqar
30. Bağırov Əbdül Məhəmməd
31. Bayramov Aslan Xankişi o.
32. Balacayev Rizvan Misir oğ.
33. Bayramov Altay Kazım oğ.
34. Bəylərov Elman Əvəz oğlu
35. Bağırov Vidadi Yusif oğlu
36. Bəxtiyarov Qahir İsgəndər
37. Bəşirov Hafiz İdris oğlu
38. Bayramov Qaryağdı Haqverdi oğlu
39. Bəylərov Mahir Əmiraslan
40. Baxşəliyev Təhməz Muxtar
41. Baxşəliyev Natiq Xurşud o.
42. Bayramov Qabil İbrahim o.
43. Camalov Ədalət Şükür oğlu
44. Cabbarov Əkbər Ziyad oğlu
45. Cəfərov Ülfət Cəfər oğlu
46. Cəmilov Azad Cəmil oğlu
47. Cəmilov Şükür İbrahim oğ.
48. Camalov Şükür Camal oğlu
49. Cəfərov Şövqü Məhəmməd
50. Cəfərov Vidadi Mərdan oğ.
51. Cabbarov Fazil Yusif oğlu
52. Cəfərov Ədalət Hüseyn oğ.
53. Çıraqov Şahin Əli oğlu
54. Çərkəzov Akif Xançoban o
55. Dünyamalıyev Əfqan
56. Əmirov Rəsul Sultan oğlu
57. Əliyev Vüqar Bahadur oğlu
58. Əsgərov Namiq Xanbaba o.
59. Əliyev Hüsü Əli oğlu
60. Əsgərov Salman Fərman o.
61. Əhmədov Habil Binnət oğ.
62. Əsədov Təvəkkül Yusif oğ.
63. Əliyev Ədalət Veysəl oğlu
64. Əmralıyev Çingiz Məhəmməd oğlu
65. Əmralıyev Surxay Məhəmməd oğlu
66. Əzizov Vəli Asif oğlu

67. Əzimov Yusif İsmayıl oğlu
68. Əliyev Məzahir Fərzalı oğ.
69. Ələsgərov Rövşən Səlim o.
70. Ələsgərov Nəriman Koroğlu oğlu
71. Əliyev Misir Pənah oğlu
72. Əhmədov Qabil Yusif oğlu
73. Qurbanov Zülfüqar Alı oğlu
74. Qurbanov Akif Sabir oğlu
75. Qurbanov Şahin İmran oğlu
76. Quliyev Yusif Gəncəli oğlu
77. Qurbanov Zimistan Səfəralı
78. Quliyev Əkbər Ocaqverdi o
79. Qurbanov Qulu Şabər oğlu
80. Qarayev Qəzənfər Qənbər o
81. Qarayev Qafar Qənbər oğlu
82. Qəhrəmanov Rasim Nemət
83. Quliyev Asif Boran oğlu
84. Qasımov Rayət Behbud oğ.
85. Quliyev Əli Hümbət oğlu
86. Quliyev Mahir İbrahim oğlu
87. Qəhrəmanov Nüsrət Tapdıq
88. Qabilov Sədrəddin Qədir o.
89. Quliyev Məhərrəm Süleyman oğlu
90. Quliyev Namizəddin Oruc o
91. Qasımov Şaiq Şamil oğlu
92. Hümbətov Xalid Əli oğlu
93. Həsənov Nəsimi Zakir oğlu
94. Hacıyev Cahid Bəhrəm oğlu
95. Həsənov Natiq Bəhmən oğ.
96. Həsənov Valeh Əhməd oğlu
97. Həsənov Abil Nurəddin oğl.
98. Hüseynov Saşa Saleh oğlu
99. Hüseynov Qurban Mehdi o.
100. Hüseynov Novruz İsa oğlu
101. Hüseynov İsmayıl Qulu oğ.
102. Hacıyev Mürvət İzzət oğlu
103. Həşimov Vilayət Yunis oğ.
104. Hüseynov Vitali Məhəmməd oğlu
105. Heydərov Aqil İman oğlu
106. Hacıyev Kamal Hüseyn oğ.
107. Heydərov Nadir Heydər oğ.
108. Hümbətov Qorxmaz Mustafa oğlu
109. Məmmədov Faiq Firudin o.
110. Məmmədov Eldar Süleyman oğlu
111. Məmmədov Qəhrəman Ağaməmməd oğlu
112. Məmmədov Bəhram Elbrus oğlu
113. Məmmədov İsbəndiyar Lətif oğlu
114. Məmmədov Oqtay Surxay o
115. Məmmədov Yunis Muxtar o
116. Məmmədov Gürşad Qiyas o
117. Məmmədov Mürşüd Ağa o.
118. Məmmədov Ziyəddin Əlqəmə oğlu
119. Məmmədov Rasim Behbud oğlu
120. Məmmədov Hafiz Qədim oğlu
121. Məmmədov BabəkFərman o
122. Məmmədov Əli Allahverdi oğlu
123. Məmmədov YadigarMirzə o
124. Məmmədov Əli Kamran oğ.
125. Məmmədov Qardaşxan Rəhim oğlu
126. Muxtarov Mayıl Uğurlu o
127. Mehdiyev Mirzəli Yəhya o.
128. Musayev Əyyub Allahverdi oğlu
129. Musayev Mikayıl Muxtar o.
130. Musayev Malik İsa oğlu
131. Mirzəyev Mahmud Əli oğlu
132. Mirzəyev Nüsrət

Mahmud oğlu
133.Muxtarov Qəhrəman Məhəmməd oğlu
134.Mustafayev Ənvər Qənaət oğlu
135.Mustafayev Elçin Məhəmməd oğlu
136.Musayev Yalçın Ələkbər oğlu
137.Musayev Zahid Daşqın oğlu
138.Mehdiyev Soltan Nüsrət oğ.
139.Məhərrəmov Zabil Gəray o.
140.Mirzəyev Qənimət Yeprem
141.Məmişov Etibar Xansuvar oğlu
142.Musayev Mehman Camal o.
143.Məlikov Natiq Səyavuş oğ.
144.Mustafayev Möhübbət Qənimət oğlu
145.Həsənov İlqar Köçəri oğlu
146.Kamalov Habil Kamal oğlu
147.Kərimov Əbülfət Sovet oğlu
148.Kərimov Şahin Heydər oğlu
149.Kərimov Mahir Bəyiş oğlu
150.Kərimov Ülfət Ələkbər oğlu
151.Qaytaranov İlqar Qurbanəli oğlu
152.Orucov Qəzənfər Mədət oğ.
153.Orucov Tapdıq İslam oğlu
154.Xəlilov İmamverdi Nurəddin oğlu
155.Xəlilov Namiq Rəhim oğlu
156.Xudayarov Sabir Daşqın oğ.
157.Xəlilov İlham Kərəm oğlu
158.Səmədov Tahir Yusif oğlu
159.Sadıqov Əsgər İbrahimov o.
160.Sarıyev Fariz Rəşid oğlu
161.Süleymanov Şahin Ənvər o.
162.Səfərov Elbrus İslam oğlu
163.Salahov Araz Oruc oğlu
164.Səmədov Vahid Tanrıverdi oğlu
165.Süleymanov Bəhmən Ələkbər oğlu
166.Salahov Elşad İsa oğlu
167.Sevindikov Yusif Murad o.
168.Sədirov Bəkir Zakir oğlu
169.Süleymanov Əli Sədir oğlu
170.Səfərov Sərdar Mədəd oğlu-Milli qəhrəman
171.Süleymanov Elçin Məhər o.
172.Rüstəmov Vilayət Məmməd oğlu
173.Rəhimov Rüfət Hüseyn oğ.
174.Rəhimov Əhliyət Şahbaz o.
175.Rzayev Akif Əli oğlu
176.Verdiyev Hafiz İman oğlu
177.Həşimov Kərəm Əşrəf oğlu
178.Həsənov Novruz Hacıbaba oğlu
179.Piriyev Rasım İsa oğlu
180.İlyasov Fikrət Bəhmən oğlu
181.İsmayılov Kənan Kalvey o.
182.İbrahimov Vahid Həmid oğ.
183.İbrahimov Vüqar Ələkbər o.
184.İsayev Aqil Xanlar oğlu
185.İbadullayev Nadir Məhəmməd oğlu
186.İbrahimov Xəlil Mirzə oğlu
187.Tağıyev Məzahir Alı oğlu
188.Tülpanov Cəlal Şahməmməd oğlu
189.Tahirov Əlövsət Kamran o.
190.Nəbiyev Habil Nəbi oğlu
191.Nəcəfov Fazil Bəylər oğlu
192.Nəcəfov Şahin Qənaət oğlu
193.Nəsirov Bəhrəm Əkbər oğlu
194.Nəsirov Yaqub İsa oğlu
195.Nuriyev Faiq Mədəd oğlu
196.Nəsirov Məhyəddin

Qənimət oğlu
197.Nəbiyev Adil Nəbi oğlu
198.Nəsirov Əfqan Rəfi oğlu
199.Nəcəfov Yunis İsa oğlu-
Milli qəhrəman
200.Abdullayev Namiq
Qasım oğlu
201.Musayev Malik İsa oğlu
202.Şahnəzərov Süleyman İsa o.
203.Şamilov Rafiq Tahir oğlu
204.Şükürov Ələsgər Fərrux o.
205.Şirinov Nəbi Əkbər oğlu
206.Şükürov Şahlar Əvəz oğlu-
Milli qəhrəman
207.Şükürov Zahid Kamal oğlu
208.Yusifov Soltan Əfqan oğlu
209.Yusifov Rizvan İsa oğlu
210.Abbasov Habil İsrafil oğlu
211.Qasımov Nadir Qara oğlu
212.Rüstəmov Əvəz Salman oğ.
213.Umudov İsmət Həbib oğlu
214.Uğurluyev Habil Əli oğlu
215.Zamanov Məzahir
Mirsəyyaf oğlu
216.Zeynalov Ədalət İsmayıl oğ.
217.Xıdırov Fazil Xankişi oğlu
218.Hümbətov Eldar
Məmməd oğlu

## *Onlar vətən uğrunda şəhid olmuşlar*



*Kamalov Habil*



*Hüseynov İsmayıl*



*Hacıyev Kamal*



*Süleymanov Şahin*



*Məmmədov Gürşad*



*Aydınov Rəfi*

# *Onlar vətən uğrunda şəhid olmuşlar*



*Mehdiyev Mirzəli*



*Musayev Zahid*



*Məmmədov Mürşüd*



*Tahirov Əlövsət*



*Uğurluyev Habil*



*Babaxanov Şahin*



*Alxanov Vəkil*



*Şəmilov Rafiq*



*İbrahimov Vahid*



*Hüseynov Saşa*



*Səfərov Elbrus*



*Məmmədov Qardaşxan*

# *Onlar vətən uğrunda şəhid olmuşlar*





*Mahmud Əli oğlu Mirzəyev* *Nüsrət Mahmud oğlu Mirzəyev*



*İsayev Aqil*



*Alıyev Rizvan*



*Məmmədov Minnət*



*Akif Rzayev*



*Məmmədov Oktay*



*Atayev Mehman*

# *Onlar vətən uğrunda şəhid olmuşlar*



*Əli Quliyev*



*Ülfət Cəfərov*



*Qurbanov Şahin*





*Əli və Yunis (Milli Qəhrəman) Nəcəfov qardaşları*



*Abdullayev Etibar*



*Qaytaranov İlqar*



*Hüseynov Qurban*

# *Onlar vətən uğrunda şəhid olmuşlar*



*Həsənov  İlqar*



*Hümbətov Qorxmaz*



*Bəşirov Hafiz*



*Cabbarov Fazil*



*Mustafayev Yalçın*



*Nəsimi Zakir oğlu*



*Misirov Qaraş*



*İsayev Bəxtiyar*



*Əliyev Ədalət*



*Bəxtiyarov Qahir*



*Zamanov Məzahir*



*Tahirov Əlövsət*

# *Onlar vətən uğrunda şəhid olmuşlar*



*Fazil Xankişi oğlu*



*Şahnəzərov Süleyman*



*Əliyev Vüqar*



*Hümbətov Xalid*



*Alışov Fehruz*



*Atakişiyev Mehdi*



*Məmmədov Qəhrəman*



*Həsənov  Nurəddin*



*Sarıyev  Ərşad*



*Alməddətov Natiq*



*Bağırov Vidadi*



*Sevindikov Yusif*

*Hər bir insanın birinci vəzifəsi-babalarınızdan miras qalmış döyüş ənənələrini davam etdirməkdir. M ü ə l l i f*

# Cəbhə gündəliyindən

***9 avqust 1994-cü il saat 0.20***

Üç aya yaxındır ki, "atəşkəs"dir. Atəşkəsdən sonra məni 5-ci taborun 2-ci bölüyünə komandir təyin etdilər. Bu vaxta qədər mən 3-cü taborda xidmət edirdim. İndi Tərtər bölgəsinin Qazyan kəndinin cənub-qərbində, kənddən iki kilometr aralıda ön mövqedəyik. Bizim səngərlə ermənilərin səngəri arasındakı məsafə 250 metrə qədərdir. Bizim bölüyün sağ cinahında baş leytenant Məhəbbət Qəribovun komandirlik etdiyi üçüncü bölük, sol cinahımzda isə 4-cü tabor mövqe tutmuşdur. 4-cü taborla mənim bölüyümün arasında 500 metrədək qorunmayan minalanmış sahə vardır. Düşmən həmin ərazidən arxamıza keçə bilməməsi üçün sol cinahda "kolluq" adı altında gecələr gizli keşikçilər qoyuram. Bölüyün birinci və üçüncü tağımı ön mövqedə keşik çəkir. Bizdən 800 metr arxada minaatan batareyası yerləşib. Öz səngərlərimizə bitişik olaraq hər manqa üçün daldalanacaq düzəltdirmişəm. Ön səngərlərdən bir qədər arxada bölüyün komanda məntəqəsi və onun yanında isə öz qazmam yerləşir. Bölüyün komanda məntəqəsindən 30 metr sağda isə ehtiyatda olan tağım üçün qazma tikdirmişəm. Bütün bu işləri əsgərlər əl ilə yerinə yetiriblər. Komanda məntəqəsindən iki yüz metr sağda tank tağımı və taborun komanda məntəqəsi yerləşib.

Tabora mayor B.Lazımov komandirlik edir. Taborda keçmiş döyüş yoldaşları çoxdur. Baş leytenantlar Məhəbbət Qəribov, Əli, Şahlar leytenant Kamran, Elşad, gizir Şahin, Əlövsət, kapitan Elşən və çoxlu əsgərlər var ki, onlarla Murovdağ, Füzuli, Ağdam, Tərtər bölgələrində gedən döyüşlərdə birlikdə iştirak etmişik.

Həm ön mövqedə, həm də ehtiyatda olan tağımın əsgərləri yay olduğu üçün açıq havada, çəmənlikdə yatırıq. Ön səngərlərdən təqribən 300 metr arxa tərəfdə cəbhə boyu hündürlüyü iki metrdən çox olan torpaq səddi uzanır. Bu səddi traktorlarla düzəltdirmişik. Bu sədlərin arxasında düşmən gülləsindən qorunmaq və manevr eləmək mümkündür. Bu sədd qonşu bölüklərin qoruduqları ərazilərdə də vardır. Əsgərlərdən bir neçəsi torpaq səddinin arxasında yarım metr hündürlükdə üzüm dirəklərinin üzərində məftildən hörülmüş torun içərisinə saman tökərək özlərinə yataq yeri düzəldiblər. Bir əsgər isə alça ağacında özünə leylək yuvasına oxşayan yataq yeri düzəldib. Biz onlara "quş yuvası" deyirik.

Artıq iki aydan çoxdur ki, ermənilərlə atəşin kəsilməsi razılığına

gəlmişik. Altı il davam edən müharibədə ilk dəfədir ki, ermənilərlə bir-biri görürük, lakin bir-birimizə güllə atmırıq. Tutduğumuz

mövqe Ağdamın Nəmirli kəndi ilə Tərtərin Qazyan kəndinin arasında yerləşir. Nəmirli ermənilərin işğalı altındadır. Atəşkəs olana qədər bu ərazilərdə amansız döyüşlər aparmışıq. Həm ermənilər tərəfdən, həm də biz tərəfdən xeyli sayda itkilərimiz olmuşdu. Ermənilərin səngəri yaxınlığında iki yandırılmış tankımız görünür. Neytral ərazidə isə aprel-may aylarında burada döyüşmüş 190-cı və 777-ci hərbi hissələrin əsgərlərinin meyidləri qalmışdı. Gecələr sürünə-sürünə ermənilərin xəbəri olmadan bir neçə meyidi çıxarıb yiyələrinə təhvil vermişik. Bəzən isə ermənilərlə razılığa gələrək (onlarla danışıq apararaq) həmin meyidləri oradan çıxarmağa nail olmuşuq. Bu gün ermənilərlə danışıq aparıb onların nəzarətində olan yerdə bizim vurulmuş tankımızda meyid olub-olmamasını öyrənmək istəyirdim. Düşmənlə danışığa getməzdən əvvəl bütün əsgərləri səngərlərə düzdüm və atəş açmağa hazır vəziyyətə gətirdim. Məqsədimiz ermənilər tərəfindən vurulmuş və onların nəzarəti altında olan bizim tank ekipajı haqqında məlumat almaqdır. Özüm Allahverdi adlı əsgərlə erməni səngərlərinə tərəf yaxınlaşdım. Ermənilərdən iki nəfər də bizə tərəf gəlməyə başladı. Biz silahsız gedirdik. Təbii ki, ermənilər də silahsız idi. Mən hər dəfə düşmən qarşısına silahsız çıxanda özümü çox pis hiss edirdim. Indi də əliboş düşmənə yaxınlaşanda bu hissi keçirirdim. Onlara yaxınlaşıb 5-7 metr məsafədə dayandıq. Onlar da dayandılar. Ermənilərdən biri-yəqin ki, zabit idi-bizə rus dilində salam verdi. Mən başımla ona cavab verdim və onların boş-boşuna havaya niyə bu qədər güllə atdıqlarını soruşdum və bildirdim ki, əgər bizim əsgərlərdən birinə güllə dəysə, mütləq əvəzini çıxacağıq. Sonra onlardan bizim yanmış tanklarımızın içərisində meyid olub-olmamasını soruşdum. Onlar dedilər ki, tankın işərisində bir nəfər tankla birlikdə yanıb. Mən həmin meyidi çıxarmaq istədiyimizi bildirdim. Onlar min dollar istədilər və sabah pulu gətirsək, meyidi çıxarmağa imkan verəcəklərini bildirdilər. Sonra onlar özlərinin iki nəfər itkin düşənlərinin adları yazılmış bir kağızı bizə verdilər və onlar barədə bizdə məlumatın olub olmamasını soruşdular. Mən onlardan "Niyə bizim torpaqlardan çıxıb getmirsiz"-deyə soruşdum. Erməni zabiti dedi ki, biz özbaşına deyilik, səngərdə əziyyət çəkmək xoşumuza gəlmir. Həmin erməni Bakıda yaşadığını bildirdi və özündən asılı olmadan dedi ki, bizim başımıza bu oyunları açanlar "saqqallılar"dır. Sonra erməni zabiti bizim ordunun Türk ordusu olub-olmamasını soruşdu. Mən bildirdim ki, öz ordumuzdur. O isə davam edərək bir gündə onların 8 tankını vurduğumuz üçün bizim döyüşçüləri "dəmiryeyən" adlandırdıqlarını dedi. Sonra o, bu döyüşlər zamanı xeyli canlı qüvvə və texnika itirdiklərini, təkcə Seysulan kəndindən özlərinin

300 meyidini apardıqlarını, atəşkəs olmasaydı Qarabağdan qaçacaqlarını, onlarla döyüşən ordunun Türk ordusu olduğunu yəqin etdiklərini bildirdi. Sonra erməni zabiti döyüş planlarına əsasən bizim cəbhə xəttini Seysulan-Qazyan istiqamətində yarmaq, Dördyol istiqamətində irəliləyərək Bərdə şəhərinin cənubundan Kür çayına çıxmaq istədiklərini bizə bildirdi. O sonra bildirdi ki, sizin "dəmiryeyən" olmasaydı biz bu planı həyata keçirəcəkdik... Biz sözləşdik ki, sabah yenə görüşək...

Gəncədən, Tərtərdən və digər rayon və şəhərlərimizdən gələn zabit və əsgərlərimiz danışırlar ki, oralarda heç bir müharibə əhval-ruhiyyəsi duyulmur. Elə bil ki, torpaqlarının 20 faizinə qədəri ermənilər tərəfindən işğal edilib, yandırılan bu millətin deyil, elə bil bir milyondan çox azərbaycanlı öz yurdundan, yuvasından qaçqın düşməyib, elə bil on minlərlə vətən uğrunda həlak olan igid oğlanlar bu millətdən deyil, elə bil minlərlə oğulu, qızı, gəlini, uşağı, qocası, qarısı erməni əlində min bir əzab və işgəncəyə, alçaqlıqlara məruz qalan bu millət deyil...

Indi 1-ci tağımın komandiri gizir Əlövsət Həsənov gəldi və ön mövqedəki vəziyyət barədə məlumat verdi. Oturub çay içirik. Gizir Əlövsət Beyləqanda anadan olub, Türkmənistanda yaşayırmış. 1993-cü ilin payızında Azərbaycan Prezidentinin çağırışı ilə Türkmənistandan gələrək Azərbaycan ordusu sıralarına qoşulub və Fizuli, Ağdam və Tərtər ərazilərində gedən döyüşlərdə iştirak edib. Bu döyüşlərdə göstərdiyi igidliklərə görə ona gizir hərbi rütbəsi verilib və tağım komandiri təyin edilib. Döyüşkən və işgüzar oğlandır. Həm döyüşdə, həm də nizam-intizamda nümunəvi olmağa çalışır. Döyüşlər zamanı iki yerdən deşilmiş əsgər dəbilqəsini xatirə kimi saxlayır.

Gecəyarıdır, səssizlikdir. Blindajın qabağında keşik çəkən əsgərin addımlarının və oxuyan böcəklərin aramsız səslərindən başqa heç bir səs eşidilmir. Bir azdan durub ön mövqeyi yoxlayacağam. Atəşkəs olmağına baxmayaraq arxayınlaşmaq olmaz. Düşmən düşməndir... Atalar deyir ki, düşmən yatmır.

Gizir Əlövsət kitab oxuyur, ləqəbi "Koroğlu" olan 2-cü tağım komandiri kiçik leytenant Yadigar Ağayev yatıb. Mən isə... Mən isə indiyədək apardığımız müharibə və döyüşlər barədə yazmaq istəyirəm. Istəyirəm ki, heç nə unudulmasın, döyüşlər zamanı çəkdiyimiz əzab-əziyyətləri (əgər onları olduğu kimi yazmaq mümkündürsə) bir daha xatırlayım və gələcəkdə bu gündəliyi oxuyanlar hər şeyi olduğu kimi dərk etsinlər.

### *9 avqust 1994-cü il saat 22.00*

Bu gün ermənilər danışığa gəlmədilər, üstəlik taxıl və üzümlüklərə od vurdular. Külək bizə doğru əsdiyindən bizim səngərlərin ətrafında olan taxıl zəmiləri və üzümlüklər də yandı. Biz yanğını söndürmək və səngərdən biz tərəfə keçməsinin qarşısını almağa çalışsaq da bir şey edə bilmədik. Yanğın səngərlərimizə çatanda yanan sahədə döyüşlər zamanı atılıb qalmış qumbaralar, qumbaraatan mərmiləri, avtomat və pulemyot güllələri və digər sursatlar alışaraq partlamağa başladı. Güllələr və mərmi qəlpələri alışaraq vızıltı ilə o tərəf-bu tərəfə çovuduğundan mən əsgərlərə səngərlərdən çıxmamağı əmr etdim. Beləliklə biz ətrafımızı bürüyən yanğını söndürə bilmədik və tamaşa etməkdən və tüstü udmaqdan başqa çarəmiz qalmadı. Elə əsəbiləşmişdim ki, az qaldı ki, əsgərlərə hücum əmri verəm. Lakin yuxarı komandanlıq buna heç cür razılıq verməzdi...

Yanğın bizim üçün təhlükə deyildi. Belə yanğınları hər gün görürdük. Ermənilər hər gün işğal etdikləri Ağdam bölgəsinin kəndlərini qarət etdikdən sonra gözümüzün qarşısında yandırırlar. Evlər və bütün kənd gözümüz baxa-baxa yanıb kül olur.

Mən bölüyün döyüş hazırlığı ilə ciddi məşğul oluram. Belə ki, hər gün, çox vaxt isə gecələr ön mövqeyi gəzir, keşikçilərin keşikdə ayıq-sayıq durmalarına nəzarət edir, hər bir əsgərə, çavuşa və tağım komandirlərinə tapşırıqlar verir, onların səngərlərini, silah və sursatlarını yoxlayır, onlarla söhbətlər edirəm. Gündüzlər əsgərləri növbə ilə tağımlarla atəş meydançasında təlimlərə cəlb edirəm. Təşkil etdiyimiz təlim meydançası ön mövqedən 500 metr arxada torpaq səddinin arxasndadır.

Bölükdə xidmət edən əsgərlərin çoxu ailəli, iki-üç uşağı olanlardır. Zakir, Fərman, Süleyman, Bəhmən və s. belələrindəndir. Onların ailələri maddi çətinliklərlə üzləşsələr də əsgərlər vətən qarşısında öz borclarını layiqincə yerinə yetirməyə çalışırlar. Onların əksəriyyəti Qarabağ döyüşlərinin iştirakçılarıdırlar. Elə əsgərlər də var ki, onlar səngər əziyyətlərinə tab gətirə bilmirlər və özbaşına döyüş bölgəsindən çıxıb gedirlər.

Biz komandirlər üçün ən çətin iş: əsgərləri döyüş bölgəsində saxlamaq və mümkün qədər onlara şərait yaratmaqdır. Mən tez-tez əsgərlər arasında dama, şahmat, nərd, futbol yarışları təşkil edir, hətta yaxşı yer tutanlara öz maaşım hesabına cürbəcür şirniyyatlar alaraq mükafatlar da verirəm. Yaxınlıqda torpaq səddinin arxasında futbol meydançası da düzəltdirmişəm. Bu gün 3-cü bölüklə futbol yarışı keçirdik və uduzduq: 0:2. Sonra gəlib yaxınlıqdakı arxda yuyunduq.

<u>*Təhlükənin üzünə cəsarətlə baxmaq, özünü ondan xilas etməyin ən yaxşı vasitəsidir. C o n  L e b b o k*</u>

Mənim müavinim leytenant Şahlar Yusibovla söhbət edirik. Onun 39 yaşı var, 5 ay olar ki, orduya cağırılıb. Ailəlidir, bir oğlu, bir qızı var, Gəncədə yaşayırlar. Şahlar xasiyyətcə mülayim adamdır. Döyüşlərdə səriştəsi azdır. Amma çalışar ki, öz işinin öhdəsindən gəlsin.

Bölüyün baş çavuşu Qurban Məmmədov icazə alaraq içəri girdi. O, ön mövqedəki vəziyyət barədə məlumat verdi. Qurban isə Xaçmazdan orduya çağırılıb, bir il yarımdır ki, xidmət edir. Kəlbəcər, Fizuli bölgələrində gedən döyüşlərdə iştirak edib. 1994-cü ildə Murovdağda yaralanıb.

Gecədir, saat on birdir. Qurban çörək yeyir, Əlövsət yatıb. Qazmanın yaxınlığında əsgərlər çay qaynadırlar. Böcəklər oxuyur. Hərdən bir erməni mövqelərindən atılan güllə səsləri bu səssizliyi pozur. Biz az-az hallarda onların atəşlərinə cavab veririk. Boş yerə güllə atmaqdan nə çıxar. Bir azdan səngərləri yoxlayacağam. Hələlik bu qədər.

***12 avqust 1994-cü il saat 00.45***

Keçən gün səhər bir az yağış yağıb. Torpaqdan nəm qoxusu, təmizlik qoxusu gəlir.

Dünən Müdafiə Naziri cəbhə xəttinə gəlmişdi. Əlbəttə ön mövqedən xeyli arxada yerləşən minaatan batareyasının yanına qədər gəlmiş və oradan da qayıdıb getmişdir. Biz isə onu ön səngərdə gözləyirdik. Amma bizim yanımıza gəlmək və əsgərlərin vəziyyəti ilə tanış olmaq istəyən yoxdur. Hətta jurnalistlər də gələndə arxa cəbhə əsgər və zabitləri ilə görüşüb, müsahibə alıb, oradan da geriyə qayıdırlar.

Axşam tabor komandiri mayor B.Lazımov məni çağırmışdı. Bir saatadək taborun müdafiəsi barədə söhbət etdik. Komandir taborun və o cümlədən, 2-ci bölüyün müdafiə mövqeyi, orada əlavə qazmaların tikilməsi, ön mövqeyin qabağının minalanması və bir çox müdafiə məsələləri barədə tapşırıq verdi. Qərərgahdan qayıdan kimi tağım komandirlərini çağırıb onlara tapşırıqlar verdim. Sabah işimiz çoxdur.

İndi qazmada oturub çıraq işığında gündəliyi yazıram. Tağım komandirləri Şahin və Yadigar radioya qulaq asırlar. 3-cü tağımın komandiri gizir Bəxtiyarov Şahin 1992-ci ildən orduda xidmətə başlayıb. O, Kəlbəcərin Nadirxanlı kəndində doğulub. O mənimlə bərabər 3-cü taborda xidmət edib və 3-cü taborun apardığı döyüş əməliyyatlarında iştirak edib. Məni 5-ci tabora göndərərkən gizir Ş.Bəxtiyarov xahiş edərək mənimlə bərabər xidmət etmək istədiyini bildirdi və onu mənim bölüyümə tağım komandiri vəzifəsinə təyin etdilər. Şahin əvvəllər beş il rus ordusunda xidmət edib, təcrübəlidir. Ailəlidir, bir oğlu, bir qızı var,

ədəbiyyatı xoşlayır. Bəzən özü də şer yazır. Tez-tez Şahinlə keçmiş döyüş xatirələrindən danışırıq...

***14 avqust 1994-cü il saat 22.35***

Bu gün gizir Həsənov ön mövqedə növbədədir. Kiçik leytenant Yadigar Ağayev qazmada mənim yanımdadır. O, 2-ci tağımın komandiridir. Kürdəmirdə anadan olub. 1992-ci ildən orduda xidmətə başlayıb. Bacarıqlı oğlandır, Ağdam və Tərtər bölgələrində gedən döyüşlərdə iştirak edib. Bir ay olar ki, başqa hərbi hissədən bizim bölüyə göndərilib. Bəzən tariximizdən, məşhur adamlardan maraqlı əhvalatlar danışır.

Mənim uçaqlıq dostlarımdan biri olan Şirinov Süleyman Məhəmməd oğlu da mənim bölüyümdə xidmət edir. Onu bir ay əvvəl başqa əsgərlərlə birlikdə bizim tabora göndəriblər. Mən tabor komandirindən xahiş edərək onu öz bölüyümün şəxsi heyətinə daxil etdim. Boş vaxtımızda Süleymanla oturub uşaqlıq xatirələrindən danışır, kəndimizin gözəl yerlərini, sərin bulaqlarını, meşələrini xatırladırıq bir-birimizə...

Radioda atəşin kəsilməsini qeyri-müəyyən vaxtadək uzadıldığını deyirlər. Danışıqlar baş tutsa ermənilər tezliklə işğal etdikləri ərazilərdən çıxmalıdırlar...

***16 avqust 1994-cü il saat 21.10***

Səhər saat 9-da tabor komandiri tərəfindən həyəcan siqnalı verildi. Əvvəlcədən müəyyən etdiyim kimi mən bölüyü döyüş hazırlığı vəziyyətinə gətirdim, keşikləri əlavə əsgərlərlə möhkəmləndirdim, silah və sursatı hazırlatdırdım. Iki saatdan sonra "həyəcanın sonu" komandası verildi. Gizir Həsənovu ön mövqedə növbədə qoyaraq qazmaya qayıtdım. Fikrim var ki, gecə bir daha ön mövqeyi yoxlayam. Çünki, əsgərlərin bir az laqeydliyini hiss etmişəm...

Qazmanın yanındakı tək ağacın altında oturmuşam. Uzaqdan muğam oxuyan əsgərin həzin səsi eşidilir. Səngərdəki əsgərlərdən biri mahnı oxuyur. Gizir Bəxtiyarov dedi ki, şamaxılı Teymurdu. Gizir ona qulaq asmağa getdi.

Gecələr səngərlərə nəzarət etdiyimdən yuxusuz qalıram. Gecələr ağcaqanadlar paltarın üstündən adamı dişləyir. Gündüzlər isə çox isti keçdiyindən yatmaq olmur. Ona görə də nə gecə, nə də gündüz yatmaq olur. Gecəyarıdan sonra bir az sərinlik olur. Onda bir qədər yatıram. Əsgərləri iki-iki hərbi hissə komandanlığının əmri ilə növbə ilə beş günlük məzuniyyətə buraxıram. Bu gün iki əsgəri və növbədənkənar olaraq Şirinov Süleymanı da məzuniyyətə buraxdım.

*Biz onda işğal olunmuş torpaqlarımızı geri qaytararıq ki, qızlarımız vətən uğrunda döyüşməyəni sevməsinlər!*
*M ü ə l l i f*

**_17 avqust 1994-cü il saat 20.54_**

Bu gün tabor komandirindən icazə alaraq hərbi hissənin qərəgahına getmişdim. Orada döyüş yoldaşlarım: briqada komandirinin müavini polkovnik-leytenant Qorxmaz Qarayevlə, 4-cü taborun qərərgah rəisi baş leytenant Hüseyn Nəbiyevlə, tabor komandiri mayor Allahverdi Hacıyevlə, tabor komandirinin silahlanma üzrə müavini baş leytenant Ziyafət Tağıyevlə, baş leytenant Əhəd İsmayılovla, leytenant Zahid Hüseynovla, baş leytenant Əziz Abbasovla, kapitan Hicran Abbasovla, baş leytenant Nizami Bayramovla, kapitan A.Nağızadə ilə və başqa döyüş yoldaşları ilə görüşdüm. Bir qədər onlarla söhbət etdikdən sonra öz "doğma evimə" səngərə qayıtdım.

Tağım komandiri kiçik leytenant Yadigar Ağayev (ləqəbi "Koroğlu"dur) ön mövqedə növbədədir, digər tağım komandiri gizir Əlövsət Həsənov gecə növbədə olduğu üçün yuxusuzdur, indi qazmada dincəlir. 3-cü tağım komandiri gizir Şahin Bəxtiyarov və bölüyün baş çavuşu Qurban söhbət edirlər. Qurbanın kefi yuxarıdır; axı bizim bölüyün futbol komandası minaatanların komandasını udub-6:2. Mən özüm də oynayırdım. Müavinim Şahları kəndə-taborun qərərgahına göndərdim, sənəd apardı.

Bu gün səhər yeməyinə verilən çörək az oldu. Bu barədə tabor komandirinə məlumat verdim.

Bölüyün əsgərlərindən ikisi özbaşına kəndə getmişdi. Mən onları yanıma çağırdım və intizamı pozduqları üçün xəbərdarlıq etdim.

**_18 avqust 1994-cü il saat 21.18_**

Artıq üç aydır ki, ermənilərlə atəşin kəsilməsinə riayət edilir. Bu gün bölüyün müşahidəçiləri düşmən tərəfdə hərəkət aktivliyi xəbərini verdilər. Özüm səngərdə xeyli müşahidə apardım və hər ehtimala qarşı bölüyü döyüş hazırlığı vəziyyətinə gətirdim, silah-sursatımızı bir daha yoxladım. Axşamüstü məlum oldu ki, ermənilər növbəni dəyişirlər.

Ötən gecə oğlanlarım Ayazla Namiqi yuxuda görmüşəm...

Bir neçə gündür ki, ön səngərlərlə əlaqə yollarının qazılması ilə məşğuluq. Əvvəlcə iki ekskvator gətirdim, ikisi də qırıldı. İndi məcbur olub əl ilə qazırıq. Əsgərlər istidə əziyyət çəkirlər. Əsasən axşam və səhərin sərinliyində işləyirik. Kiçik leytenant Yadigar beş günlük məzuniyyətə, getdi. Qurbanı ön mövqeyə növbəyə göndərdim, gizir Əlövsət iki əsgərlə kəndə soğan gətirməyə gedib.

Əsgər Süleyman Şirinov tərxis olunması barədə sənədləri (hərbi xidmətə yararsız olması barədə) gətirib tabor qərərgahına verib.

Bundan başqa biz zabit və gizirlər bir ay qabaq mina partlayışından həlak olan əsgərimiz Əhmədov Allahverdinin yas mərasimi üçün pul topladıq. Əsgər Allahverdi Fizuli rayonundandır, ailəsi Bakı şəhərində yaşayır. Əsgər Raufu bunun üçün Bakıya göndərəcəm.

***22 avqust 1994-cü il saat 23.20***

Bu gün gündüz bir az dincəldim. Səngərlərin yarımçıq qalan yerlərini qazdırmaq üçün tağım komandirlərinə tapşırıqlar verdim.

Günortadan sonra tabor komandirindən icazə alıb sənədlərlə əlaqədar hərbi hissənin qərərgahına getdim. Orada tələbə yoldaşım baş leytenant Adilov Mayılla görüşdüm. O, hərbi hissənin maliyyə şöbəsində xidmət edir.

Oradan qayıtdıqdan sonra gedib arxda yuyunduq. Sonra Şahinlə, Əlövsətlə nərd oynadıq.

Qurban başqa hərbi hissədə xidmət edən qardaşı ilə görüşməyə getmişdi. Gəldikdən sonra ön mövqeyə növbəyə getdi. Gizir Həsənov bir küçük gətirib, ona yer düzəldir. Səngərdə əsgərlərin ən yaxşı köməkçisi itlərdir.

***24 avqust 1994-cü il saat 22.00***

Bu gün qazmaların tikilməsi ilə məşğul olduq. Əsgərlərin müxtəlif döyüş əşyalarına baxış keçirdim. Çatışmayan dəbilqələrin gətirilməsini təşkil etdim. Tağım komandirlərinə bir sıra tapşırıqlar verdim. Gizir Bəxtiyarov növbədədir. Dünən gecə 3-cü taborda xidmət edən döyüş yoldaşım leytenant Zahid Hüseynov mənimlə görüşməyə gəlmişdi. Bir az söhbət etdik. Yemək hazırladıq, yeyib içdik. Gecə saat 2-də Zahid getmək istədi, amma yük maşını işə düşmədi. Yaxınlıqdakı tankçıları köməyə çağırdıq və maşını tanka qoşaraq işə saldıq.

Yadigar Bakıdan qayıdıbdı. Mənə bir dəst hərbi paltar alıb gətirib.

***6 sentyabr1994-cü il saat 11.01***

Iki gündür ki, məzuniyyətdən gəlmişəm. Bakıya gedərkən Sahil qəsəbəsindən olan əsgər Raufu da özümlə götürdüm. Biz mina partlayışı zamanı həlak olan əsgərin ailəsinə baş sağlığı vermək və yardım üçün sahil qəsəbəsinə getdik.

Sentyabrın 1-də oğlanlarım Ayazla Namiqi 1-ci sinfə getdikləri üçün məktəbə apardım. Qayıtdıqdan sonra bölükdəki vəziyyətlə tanış oldum. Qazmalardan səkkizi artıq hazırdır. Ikisini də tikməliyik. Bizə heç bir texnika vermirlər. Bütün işləri əl ilə görürük. Suyu və ərzağı iki kilometr

aralıdakı Qazıyan kəndindən gətiririk. Bizə deyirlər ki, benzin çatışmır. Amma ermənilərin ərzaq və sursatını gözümüzün qabağında səngərlərinədək maşın gətirir. Bəs görəsən ermənilər benzini hardan tapırlar?

Gecələr soyuq olur. Hərdən bir ermənilər tərəfdən atəş səsləri eşidilir. Ermənilər qarşıdakı Ağdamın Nəmirli kəndini yandırırlar. Hər gün gözümüz baxa-baxa bir neçə ev yandırılır.

Uzaqdan başı qarlı Murov dağı görünür...

**_11 sentyabr1994-cü il saat 20.17_**

Bu gün tabor komandiri mayor Bəhrəm Lazımov ön mövqeyə gəlmişdi. O, tikilən 10 ədəd qazmanı görüb bəyəndi və bir neçə tapşırıq verdi. Mən əsgərlərin paltarlarının və ayaqqabılarının cırıldığı barədə məlumat verdim. Komandirin göstərişinə əsasən baş çavuş Qurban Məmmədovu 25 dəst paltar və ayaqqabı gətirdi. Əsgərlərin hamısının qazmalarda yerləşdirdim.

Radioya qulaq asırıq. Sülh danışıqları üçün Moskvada danışıqlar gedir. Biz hərbçılər yekdilliklə torpaqların yalnız müharibə yolu ilə azad edilməsi fikrindəyik. Çünki dünyada heç bir işğalçı dövlət xoşluqla torpağı geri qaytarmayıb. Israilin Fələstini işğal etməsi buna misal ola bilər. Otuz ildən çoxdur ki, danışıqlar aparırlar, amma nə faydası...

Gizir Şahin növbədədir. Əsgər-zərdablı Hidayət çay qaynadır, digər əsgər-göyçaylı Babayev Qadir isə qazmanın yanında keşikdədir...

**_20 sentyabr 1994-cü il saat 21.27_**

Artıq yeddi gündür ki, gündəlik yazmıram. Vaxtım az olur. Tez-tez əsgərlərin döyüş hazırlığını yoxlayır, onların təlimlərini təşkil edirəm.

Bu gün mənim özümü bölük komandirlərinin təliminə aparmışdılar. Saat üçdə briqada qərərgahından qayıtmışam. Mən orda döyüş yoldaşları: baş leytenant Əziz Abbasov, leytenant Hüseynov Zahid, baş leytenant Mirzəliyev Akif, kapitan Nəbiyev Hüseyn, baş leytenant Nağızadə Adil, baş leytenant Ziyafət Tağıyev, baş leytenant Əhəd İsmayılovla və mənimlə döyüşlərə çiyin-çiyinə getmiş əsgərlərlə görüşdüm... Ön mövqedə suyumuz qurtarıb. 3-cü bölük komandiri leytenant Qəribov Məhəbbətdən xahiş etmışəm bizə su göndərsinlər. Onların traktoru var, 1-ci bölükdə isə su çəni olan qoşqusu var. Bir neçə saatdan sonra suyu gətirib qazmanın yanında bir tonluq rezin su qabına boşaltdıq. Əsgərlərə qaynamamış su içməyi qadağan etmişəm.

Şahin gecə növbəsindədir. Gizir Əlövsət kitab oxuyur.

Havalar gündüz isti olur, gecələr isə soyuq. Artıq çöldə yata bilmirik, qazmada yatırıq. Boş vaxtda futbol oynayır, nərd oynayır, kitab oxuyur, radioya qulaq asırıq.

Bizə verilən ərzaq isə azlıq edir. Bu gün öz maaşımla kənddən yumurta, pomidor və digər ərzaq aldıq.

Sabah yenə hərbi hissəyə təlimlərə gedəcəyəm.

***30 sentyabr 1994-cü il saat 22.04***

Bölüyə yeni əsgərlər gətirmişik. Təlimə gedərkən hərbi hissə komandirinin müavini polkovnik-leytenant Qorxmaz Qarayevlə görüşdüm. Murovdağ döyüşlərini, soyuq bir qış gecəsində Susuzluq kəndində bir daxmada odun sobasının yanında kürək-kürəyə söykənərək yatdığımızı xatırladıq...

Qorxmaz Qarayev peşekar hərbçidir. Murovdağ uğrunda gedən döyüşlərdə (1994-cü il) əməliyyat bölməsinin rəhbəri kimi biləvasitə bizə rəhbərlik etmiş və biz bir sıra uğurlu döyüşlər aparmışıq. Sonra o, mənə veriləcək növbəti hərbi rütbənin niyə gecikdiyini soruşdu və öz iş dəftərinə qeydlər etdi.

Bölük komandirlərinin təlimləri dünən başa çatıb. Bu gün mən su isidib paltarlarımı yudum, özüm də "hamam"da yuyundum. "Hamam" dediyimiz yeri gizir Həsənov düzəldib. Kol-kosla örtülmüş balaca bir daldalanacaqdır, biz gülə-gülə "hamam" deyirik.

Gizir Şahin Bəxtiyarovla nərd oynadıq, o uduzdu. İndi də deyir ki, nə yazırsan yaz, amma mənim uduzduğumu yazma.

Indi növbədə gizir Həsənovdur. Gecə yarıdan sonra özüm də keşikçilərin sayıqlığını yoxlamaq istəyirəm...

***3 oktyabr 1994-cü il saat 19.44***

Axşamdır... Havalar sərin keçir. Dünən bərk yağış yağmışdı. Hər tərəf palçıq idi, yerimək mümkün deyildi. Indi hava ayazıyıb, ulduzlar görünür.

Keçən gecə ön mövqedə idim. Gecəyarı həyəcan siqnalı verildi və bölük döyüş hazırlığı vəziyyətinə gətirildi, patron və sursatlar yoxlanıldı. Məlum oldu ki, sursat azlıq edir. Buna görə də əlavə olaraq patron və mərmi gətirilməsini təşkil etdim. Gündüz isə traktor gətirib tank əleyhinə səngərlər qazdırdım, torpaq sədlərini bir az da qaldırdıq. Indi çıraq işığında gündəliyi yazıram. Gizir Həsənov yatıb, xoruldayır, "Koroğlu" növbədədir. Səngər günləri bir-birini əvəz edir. Aylar keçir, lakin torpaqlarımız hələ də düşmən əlindədir. Danışıqların nəticəsi yoxdur. Görünür bu qışı da səngərdə keçirməli olacağıq. Artıq üç ildən çoxdur ki, döyüşlərdəyəm. Bu müddət ərzində çox əziyyətlər çəkmişəm, çox səngərlər görmüşəm, qarda-boranda yol getmişəm, qarın içərisində

yatmışam, dörd dəfə mühasirəyə düşmüşəm, lakin heç vaxt ümidsiz qalmamışam. Həmişə bir ümidlə yaşamışam: torpaqlarımızı azad etmək ümidi ilə...

**_9 oktyabr 1994-cü il saat 23.55_**

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin yarandığı gündür və o gündən 3 il ötür. Müharibə başa çatmasa da üç il əvvəl bünövrəsini qoyduğumuz Azərbaycan ordusu düşmənlə qanlı döyüşlər apara-apara formalaşmışdır. Torpaqlarımızın 20 faizi işğal edilsə də, biz bir sıra uğurlu döyüşlər apararaq Azərbaycan Silahlı Qüvvələrinin üç illik tarixinə unudulmaz səhifələr yazmışıq. Bu ordu 1992-ci ildə Dağlıq Qarabağ adlanan ərazinin tən yarısını, o cümlədən, bütün Ağdərə bölgəsini, bu ilin yanvarında isə bizim 3-cü tabor 701 saylı hərbi hissənin tərkibində Murovdağ silsiləsini aşaraq Kəlbəcər ərazisinin böyük bir hissəsini azad etmişdir. Mən də bölük komandiri olaraq öz bölüyümlə bu döyüşlərdə iştirak etmişəm. Bu döyüşlər zamanı biz çox şəhidlər vermişik, sıramızdan çoxları yaralanaraq getmişdir. Biz sağ qalanlar isə həmin döyüşlərin iştirakçısı olduğumuza görə qürur hissi keçiririk...

Bu gün bayram günü olduğundan bölüyün əsgərlərinin ən yaxşılarına və döyüşlərdə fərqlənmiş əsgərlərə mükafat və təşəkkürlər verildi. Belə ki, əsgər Məmmədov Sahil kiçik çavuş rütbəsinə, Məşədiyev Elmir saat mükafatına layiq görüldü, beş əsgər isə valideynlərinə təşəkkür məktubu göndərilməklə təltif olundular.

Axşamüstü Əlövsətlə Şahin bir dovşan vurdular. Onun ətini bişirib yeyirik. Bölüyə isə kənd camaatı tərəfindən bir qoyun vermişdilər. Qoyunu kəsib tağımlar arasında böldük...

**_27 oktyabr 1994-cü il saat 21.45_**

Dünən günortadan sonra bölüyə çörək göndərilməyib. Axşam bir az çörək göndərmişdilər, o da normanın üçdə biri qədər. Ehtiyat ərzaqla: düyü və vermeşillə dolanırıq. Əsgərlərin çoxunun paltarları cırılıb, bir neçə yerdən yamaq vurublar, ayaqqabılar da cırılıb. Yağışın, qarın altında düşmən qabağında duran əsgərlərə belə münasibət olmaz.

Belə bir vəziyyətdə səngərdəki ac, paltarı və ayaqqabısı cırılmış əsgərləri di gəl düşmən qarşısında saxla görüm, necə saxlayırsan? Biz komandirlər onları səngərdə saxlamaq üçün çox əziyyət çəkirik. Belə olduqda hansı döyüş hazırlığından danışmaq olar?

Yuxarı komandanlığa dəfələrlə məlumat versək də nəticəsi yoxdur. Bir az əvvəl ermənilər tərəfdən qumbaraatanla iki mərmi atıldı, heç kim xəsarət almadı. İki gün əvvəl 3-cü taborla-Kəlbəcər batalyonu

ilə- ermənilər arasında atışma olub. Ermənilər bu gün bir neçə dəfə ağ bayraq qaldırmaqla bizimlə danışmaq istəyiblər. Yəqin ki, onlar atəşkəsin pozulmasından qorxurlar. Mən danışığa getməkdən imtina etdim və əsgərlərə də bunu qadağan etdim.

Gizir Həsənov Əlövsət ön mövqedə növbədədir. Çörək olmadığına görə ikinci eşalonda səngərlərin qazılmasını dayandırmışam...

***29 oktyabr 1994-cü il saat 12.56***

Havalar soyuyub, dumanlı, çiskinli bir gündür. Bu gün üçüncü sutkadır ki, bölüyə çörək gəlmir. Bütün düyü, vermeşil, və digər ərzaqlar tükənib. Qazyan kəndinin camaatı bir az çörək göndərib, o da çox azdır. Əsgərlər arasında narahatlıq və narazılıq var. Tərtər, Bərdə və digər yaxın bölgələrdə çörək bişirilmədiyindən mülki əhali də əziyyət çəkir Ordunun bu vəziyyətə düşməsi barədə qazmada oturub Şahlarla və Yadigarla söhbət edirık.

Bütün bu əziyyət və məhrumiyyətlərə baxmayaraq biz yenə də ön mövqedə, rütubətli səngərlərdə düşmənlə üz-üzə dayanmışıq. Çörəyimiz olmasa belə vətəni qoruyan oğullar var. Mən belə oğlanlarla fəxr edirəm.

***02 noyabr 1994-cü il saat 22.56***

Yenə də çörək az gəlir. Bir az un vermişdilər, onu da kənddə çörək bişirtdirib yemişik. Kənd camaatı da bilir ki, səngərdəki əsgərlərin çörəyi yoxdur. Ona görə imkanları az olsa da, öz çörəklərini əsgərlərlə bölüşürlər. Əsgərlərdən biri kənddə bir evin yanından keçərkən təndir çörəyi bişirən qadınlardan biri əsgərə çörək verir. Həmin əsgər ağlaya-ağlaya çörəyi gətirib yoldaşları ilə bölüşüb yeyirlər. Hər gün olduğu kimi, bu gün yenə səngərləri gəzdim, əsgərlərlə söhbətlər apardım, çətin də olsa onlara ürək-dirək verdim, “yaman günün ömrü az olar”-dedim. Ad günümü qeyd etdik, bir az domino oynadıqdan sonra radioya qulaq asırıq. Aşıq “Koroğlu” dastanını danışır. Mən zarafatla leytenant Ağayev Yadigarı çağırıram: “Aşıq səndən danışır”-deyirəm və gülüşürük. Axı, biz tağım komandiri Yadigara uzun bığı olduğu üçün “Koroğlu” deyirik...

***11 noyabr 1994-cü il gecə saat 2.12***

Gecəyarıdır. Axşam həyəcan siqnalı verildi. Mən bütün əsgərləri qaldırıb səngərlərə düzdüm, əsgər və zabitlərə tapşırıqlar verdim. Yadigar xəstə olduğu üçün onu qazmada qoyduq. Şahinlə və rabitəçi ilə ön mövqeyi gəzdim. Əsgərlərin vaxtında öz səngərlərini tutmalarına nəzarət etdim. İndi qazmada oturub çay içirik. Ratsiyada tabor komandanlığından vəziyyəti soruşurlar.

Artıq soyuqlar düşüb, əsgərlərə qış gödəkcələri paylamışıq. Tağımlardan birini ikinci eşalonda yerləşdirəcəyəm. Onların

qazmaları üçün soba lazımdır. Əvvəlcədən odun tədarükünə başlamışıq. Qurumuş üzüm tənəklərini doğrayıb yandırırıq. 10 gündən çoxdur ki, yenə də çörək az verilir. Yaxın bölgələrin əsgərlərini çörək üçün evlərinə göndərirəm. Dünən iki sutkadan sonra bölüyə-75 nəfərə- dörd ədəd çörək verildi. Hər tağıma bir çörək və dördüncü çörəyi də üç yerə bölüb əsgərlərə göndərdim. Biz zabitlər isə vermeşillə kifayətlənməli olduq. Bütün bu çatışmamazlıqlara baxmayaraq əsgərlərin əksəriyyətini dözmlü olmağa çağırırıq və biz komandirlərin səyi nəticəsində düşmən qarşısındakı səngərlər boşalmır. Bu çətinliklərə dözməyən əsgərlər də olur. Onlar özbaşına çıxıb gedir və bir daha geri qayıtmırlar. Elələri də olur ki, özbaşına çıxıb getdikdən sonra səngərdəki yoldaşlarını tək və ac qoymamaq üçün evdən xeyli ərzaq və çörək götürərək yenidən geri qayıdırlar...

### *2 yanvar 1995-ci il saat 22.43*

Doxsan dördüncü ili də yola saldıq. Yeni ili səngərdə qarşıladıq. Yeni il bayramı üçün əsgərlərə ət gətirdilər. Biz zabit və gizirlər isə öz maaşımız hesabına mağazadan toyuq əti və digər ərzaqlar aldıq. Yeni il gecəsi həm ermənilər, həm də bizim əsgərlər tərəfdən işıqsaçan güllələr atılırdı. Həmin gecə ehtiyat üçün ön mövqedə qaldım.

Gizir Şahin növbədədir. Kiçik leytenant Yadigar Ağayevi başqa hərbi hissəyə dəyişdirdilər. Bu gün əsgər Fərmanı gedib öz kəndlərindən-Bərdənin Yeni Daşkəndindən traktor gətirdi, yandırmaq üçün üzüm tənəkləri daşıdıq. Sonra silah və sursata baxış keçirdim, silah və sursatlarını təmiz saxladıqları üçün dörd əsgərə növbədən kənar məzuniyyət elan etdim. Axşamüstü domino oynadıq. Gecə saat üçdə ön mövqeyi yoxlayacağam...

### *15 fevral 1995-ci il saat 22.29*

Yazmaq istədiyim çox şey var. Lakin, az yazmışam.

Yenə də ön mövqedəyik. Gizir Əlövsət Həsənovu səngərləri yoxlamağa göndərdim. Qadir Babayev adlı əsgərimiz bərk xəstələnib. Yuxarı komandanlığa bu barədə məlumat verdim. Təəssüf ki, hospitala göndərdiyimiz əsgərlərə yaxşı baxmırlar. 2-3 gündür ki, səngərləri təmizləyir, giriş-çıxış yollarını qaydaya salır, müdafiə qurğularını artırırıq. Müdafiə nazirinin gəlişi gözlənilir. Odunumuz qurtarıb. Sabah odun daşımaq üçün kənddən traktor gətirməliyəm. Bu qədər...

*Düşmən qarşısında sayıqlığı itirmək-ölümə bərabərdir.*
*M ü ə l l i f*

**01 mart 1995-ci il saat 19.01**

Yenə ön mövqedə-əvvəlki səngərlərdəyik. Elə mühüm bir hadisə baş verməyib. Özüm soyuqlamışam, boğazım şişib. Soyuq küləklər əsir, yağış yağır. Gecələr keşikləri tez-tez yoxlayır, nəzarəti artırmışam. Atəşin kəsilməsindən doqquz ay keçib, danışıqlar isə nəticəsizdir...

**04 aprel 1995-ci il saat 9.56**

Artıq yaz gəlib, yağışlar başlayıb. Qazmada oturub gündəliyi yazıram. Iki il əvvəl Kəlbəcərin düşmən əlinə keçdiyi günlərdir. Bizim...

Yazmağa əlim gəlmir. Axı nə yazasan? Iki il ərzində danışıqlar gedir, amma torpaqları qaytaran yoxdur. Hər şeydən əlimizi üzürük. Nə döyüş başlamır ki, düşməndən qisas alaq, nə də danışıqlar baş tutmur.

Düşmən öz xoşuna torpaq qaytarmaz!..

**29 may 1995-ci il saat 4.41**

Bir ay olar ki, məni 3-cü tabora qərərgah rəisi təyin etdilər. İndi Ağdamın Təzəkən kəndindəyəm. Tabor ehtiyatda olmaqla təlimlərlə məşğuluq. Taborun zabitləri: kapitan N.Əliyev, kapitan Ə. Əsədov, baş leytenantlar Ə.Abbasov, M.Kərimov, D.Hacıyev, İ.Rəhmanov, V.Talıbov, H.Balakişiyev, leytenantlardan Z.Hüseynov, M.Cəfərov, Osman, F.Hüseynov, gizirlərdən keçmiş kəşfiyyatçı Rafael, V.Əliyev və başqaları da bu taborda xidmət edirlər. Taborda keçmiş döyüşçülər çoxdur.

Vaxtım çox azdır. 3-cü tabor həmin "Kəlbəcər Batalyonu"dur. Burada bir neça zabit yoldaşlar və əsgərlər var ki, onlarla döyüşlərə birlikdə getmişik. Leytenant Zahid Hüseynov, baş leytenant Əziz Abbasov burda qulluq edirlər. Dörd otaqlı bir evdə qərərgahı yerləşdirmişik. Rabitə tağımı da qərərgahda yerləşir. Əsgər Əlizamin qərərgahın kitab və sənəslərini qaydaya salır. Əsgərlərin təminatı pis vəziyyətdədir: ərzaq və geyim çatışmır. Hər gün səhər idmanını tut bağında edir və səhər yeməyimiz də elə tutdur...

**18 iyun 1995-ci il saat 13.42**

Taborun təlimləri ilə məşğulam. Komandir məzuniyyətdə olduğu üçün onu mən əvəz edirəm. Hər axşam qərərgaha iclasa gedir, döyüş hazırlığı barədə məlumat verirəm. Əsgərlərin döyüş hazırlığı orta səviyyədədir. Onların çoxu keçmiş döyüşçülərdir. Atəşkəsdən sonra çağırılanlar da vardır. Yuxarı komandanlığın əmrinə əsasən ehtiyat qazmalara-"Nar bağı"na köçəsiyik. Hələlik bu qədər.

### *16 iyul 1995-ci il saat 16.20*

Bir aya yaxındır ki, gündəlik yazmıram. Işimiz çox olur. Artıq bizim tabor ön mevqeyə-müdafiəyə çıxarıldı. Çıraqlı-Orta Qərvənd-Xaçınçay cəbhə xəttindəyik. Altı kilometrdən çox cəbhə zolağının qorunması bizim öhdəmizdədir. Bölük və əlahiddə tağımların demək olar ki hamısı ön mövqedədir. Təkcə rabitə və təminat tağımından başqa. Qərərgah Mirəşelli kəndindədir. Kəndin kənarındakı yiyəsiz evdə yerləşmişik. Ayın 18-də 35 yaşdan yuxarı əsgərləri tərxis edəcəyik. Dünən bütün günü ön mövqedə oldum, səngərlərə baxdım, ərazi ilə tanış oldum, bölük və tağımları yerləşdirməklə məşğul oldum. Gecələr isə müdafiə sxemlərini çəkdim və xəritələri işlədim. Komandirimiz Nadir Cəfərov döyüşlərdə iştirak etmiş zabitlərdəndir. Gizir Şahin Bəxtiyarov 5-ci tabordan salam göndərib...

### *8 avqust 1995-ci il saat 13.42*

Yenə ön mövqedəyik. Hərbi hissə komandiri polkovnik Ramiz Cəfərovdan xahiş etdim ki, cəbhə zolağı uzun olduğundan ön mövqedə çətinlik çəkirik. Komandir Xaçınçayın sol sahilini 1-ci tabora təhvil verməyi tapşırdı. Artıq cəbhə xətti beş kilometrdir. Buna görə də bölüklərin birini ehtiyata çıxardıq və məktəbdə yerləşdirdik.

### *12 sentyabr 1995-ci il saat 23.00*

Bizim batalyon yenə ön mövqedə müdafiədədir. Işim çox olur. Həm səngərləri yoxlayır, yeni müdafiə qurğuları düzəltdirir, əsgər və zabitlərə ön mövqedə tapşırıqlar verir, ehtiyatda olan bölüyün təlimləri ilə məşğul olur, həm də qərərgahda sənədləri qaydaya salıram. əsgər Əlizamin və Əjdər bu barədə mənə yaxından kömək edirlər. Bir neçə həftə əvvəl tabor komandirini həbs etdilər. Ağdamın işğalı ilə əlaqədar onu günahlandırırlar.

Iki gün əvvəl komandirdən icazə alıb baş minaatan batareyasının komandiri leytenant Ə.Abbasovla Goranboya-əsgər Vüsal Verdiyevin toyuna getmişdik. Yolüstü atam-anamla da görüşdüm. Onlar Xanqərvənddə yaşayırlar...

### *29 sentyabr 1995-ci il saat 10.20*

Bu gün güclü yağış yağdı. Bir neçə gündür ki, komandirlərin döyüş hazırlığı toplanışına gedirəm. Hər gün hərbi hissə qərərgahına gedirəm. Dünən maşının sükanı qırıldı və maşınımız kanala düşdü. Kiçik yaralarla qurtulduq. Başqa maşın olmadığına görə Mirəşelli kənd sakini Şahmarın maşını ilə qərərgaha getdim. Şahmarın qardaşı Cümşüdlə tanış

olmuşam. Adi bir traktorçudur, amma gözəl şerlər yazır. Iki aydır ki, evdən xəbərim yoxdur. Məzuniyyət versələr evə baş çəkərdim...

### *22 dekabr 1995-ci il saat 14.10*

Biz əvvəlki kimi ön mövqedə müdafiədə dayanmışıq. Tabor komandiri olmadığından mən onu əvəz etməklə qərərgahın da işlərini öz qaydasında aparıram. Hər gecə bir bölüyün dayaq məntəqəsin yoxlayır, orada keşik çəkən əsgərlərlə söbətlər aparır, komandirlərə müəyyən tapşırıqlar verir, səngərlərimizdə ayıq-sayıq keşik çəkmələrini tövsiyə edirəm. Düşmən qarşısında sayıqlığı itirmək-ölümə bərabərdir. Düşmən-düşməndir. Düşmənlə hərdən döyüşlərimiz olur. Bu yaxınlarda iki əsgərimizi yaralayıblar. Biz isə ikiqat əvəz çıxmışıq. Ermənilərə bildirmək istəyirik ki, bu torpaq bizimdir və geci-tezi sizi bu torpaqlardan qovacağıq. Bu qədər, salamat qalın...



***Kapitan A.Kamalov 1997-ci il***

# Son söz əvəzi

Döyüşdə olduğum illəri, ayları, günləri, saatları ömrümün ən şərəfli anları hesab edirəm. Düşmənlə döyüşmək-Vətənə məhəbbətdən, torpağa bağlılıqdan doğan elə bir istəkdir, elə bir hissdir ki, bu hissi hətta sözlə də ifadə etmək mümkün deyil...

Qarabağın azad olunması üçün aparılan saysız-hesabsız döyüşlərdə iştirak etdik, dəfələrlə mühasirəyə düşdük, ölümlə üz-üzə gəldik, lakin, heç vaxt ümidsiz qalmadıq. Torpağa, Vətənə olan sevgi hissi bütün ölüm təhdidlərinə üstün gəldi. Vətən sevgisi və yüksək döyüş ruhu, bütün çıxılmaz vəziyyətlərə, mühasirələrə, qarlı dağların ölüm hədələrinə sinə gərməyə bizi vadar etdi və biz bu vətən sevgisi ilə Azərbaycan ordusunun döyüş salnaməsinə şanlı səhifələr yazdıq!!!

Bəzən müharibəyə könüllü gedənləri "fanat" adlandıranlar da olur. Mən isə bu sözü heç cür qəbul edə bilmirəm. "Fanat"-sözü düşünmədən, dərk etmədən edilən hərəkət deməkdir. Lakin, ağlın yerində ola-ola və düşünərək ki, bu yolda ölə bilərsən, yaralana bilərsən, öz doğmalarını gözü yaşlı qoya bilərsən, yenə də dönmədən döyüşə gedəsən –bax belələrini "fanat" adlandırmaq düz olmaz...

Müharibə qurtardı, ya qurtarmadı-aradan çox illər ötdü. Günlər ayları, aylar fəsilləri, fəsillər illəri gətirdi. "Atəşkəs" illəri bir-birini əvəz etdi. Lakin, nə Dağlıq Qarabağı, nə də onun ətrafındakı bölgələri-Kəlbəcəri, Laçını, Şuşanı, Ağdamı, Fizulini, Cəbrayılı, Qubadlını, Zəngilanı azad edə bildik. Bu torpaqlarımız da Göyçə, Zəngəzur, Vedi, Dərələyəz, Ağbaba, Loru, Borçalı, Dərbənd, Kərkük kimi itirilmiş torpaqlarımıza qoşuldu. Qarabağ müharibəsində iştirak etmiş təcrübəli döyüşçülər və komandirlər ordu sıralarından tərxis olundular. Ordu sıralarında onların yerini hərbi məktəbləri bitirmiş gənc zabitlər və 18-20 yaşlı gənc əsgərlər tutdular. Hazırkı ordumuz da nizam-intizamlı, güclü və yenilməz bir orduya çevrilmiş, hər an düşmənə lazımi zərbə vurmaq üçün hazırdır.

Hərdən Qarabağ müharibəsindən sağ qalmış döyüşçü yoldaşlarla görüşür, müharibə günlərini xatırlayırıq. Lakin, qəlbimizin dərinliklərində bizi rahat buraxmayan bir qisas hissi yatır. Biz-Qarabağ müharibəsinin döyüşçüləri- döyüşlər zamanı düşmənə layiqli cavab versək də, hələ də son sözümüzü deməmişik və son sözümüzü deməyin məqamını gözləyirik. Döyüşdə olduğum kimi, bu sətirləri yazanda da həyəcan keçirirəm. Torpağımız düşmən tapdağında ola-ola, ata-baba qəbirləri ermənilər tərəfindən dağıdıldığı halda, qanında babalarımızın döyüş ruhunu gəzdirən hər bir soydaşıma-istər kişi olsun, istərsə də qadın olsun-rahat yaşamağı, sakit oturmağı qəbahət sayıram. Biz-həmin itirilmiş

torpaqları-dədə-babalarımızın min illərlə şərəflə qoruduqları torpaqları-döyüşlə geri qaytarmalı və gələcək nəslimizə töhmət olmamalıyıq.

Qoy məğlubiyyəti döyüşməyənlər öz alınlarına yazsınlar! Biz-döyüşənlər məğlub olmadığımızı sübut etmək üçün düşmən üzərinə bir daha getməyə hazırıq!

Qələbə - elə bir ecazkar nemətdir ki, onun şirinliyini şəkərlə, balla, hətta dünyada olan nemətlərin heç biri ilə müqayisə etmək olmaz. Bu nemətin ləzzətini, yalnız, özün dadandan sonra dərk edirsən. Qarabağ uğrundakı döyüşlərdə həmin qələbə nemətindən çox dadmışıq. Ona görə də qələbənin nə olduğunu biz-keçmiş döyüşçülər-daha yaxşı bilirik və dərk edirik. Döyüşçü dostlarıma və bütün xalqıma torpaqlarımızı azad görməyi və qələbə nemətini dadmağı arzulayıram!

Millətimə ulularımızın bizə miras qoyduqları döyüş ənənələrini davam etdirməyi, Cavanşir, Babək, Bayandur xan, Qazan xan, Koroğlu, Qaçaq Nəbi və yüzlərlə, minlərlə tarixi qəhrəmanlarımız, həmçinin, Qarabağ uğrunda döyüşən qəhrəman oğullarımız kimi, torpaq və vətən qeyrətini çəkməyi arzu edirəm!

Qoy bizim analarımız öz qızlarına daş-qaş əvəzinə qılınc və tüfəng, ev əşyaları əvəzinə müqəddəs bayrağımızı, "Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm"-dastanlarını, cehiz versinlər. Məhz, elə bu dastanlarımızda ən ülvi insani duyğular - torpaq məhəbbəti, vətən həsrəti, yurd sevgisi, ata qeyrəti, oğul şücayəti, ana müqəddəsliyi, qardaş dönməzliyi, bacı namusu vardır.

Qoy bizim hər bir övladımız, Qarabağ uğrunda qəhrəmanlıq göstərmiş oğullarımız haqqında yazılanları dönə-dönə oxusunlar.

Qoy bizim ana və bacılarımız öz övladlarına xalqımızın qəhrəmanlıq ənənələrini öyrətsinlər, onları doğma torpaqların müdafiəçiləri kimi böyütsünlər!

Biz onda böyük millət olarıq ki, analar öz oğullarını döyüşə göndərə bilsinlər! Biz onda böyük millət olarıq ki, ana öz oğlunun vətən uğrunda şəhid olmasına heyifsılənməsin!

Biz onda millətlər içərisində sayılarıq ki, hər bir ata öz oğlunu düşmən qarşısına çıxara bilsin!

Biz onda yenilməz olarıq ki, hər bir oğul vətən harayına qalxa bilsin! Biz onda işğal olunmuş torpaqlarımızı geri qaytararıq ki, qızlarımız vətən uğrunda döyüşməyəni sevməsinlər!

Bizim onda dünya xalqları qarşısında deməyə sözümüz olar ki, torpağımızı düşmən tapdağından azad edək!

**Biz son sözümüzü Qarabağda** - həm də qələmlə deyil-**silahımızla deyəcəyik!**

# SƏNƏDLİ HEKAYƏLƏR



# *Hoçaz dağında bir gün*

Səhərin alatoranında quşların səsi getdikcə artırdı. Onlar sanki bir-biri ilə bəhsə girmişdi. Yamaclara daraşan torağaylar oxuya-oxuya havada dövrə vuraraq göyə qalxır və buludların arasında yoxa çıxırdı. Dağlardan əsən külək dərələrə çökmüş dumanı Həkəri dərəsinə tərəf qovurdu. Dağların zirvələri bu duman "dənizində" adalara bənzəyirdi. Təbiətin nizamını hərdən bir qayalarda əks-səda verən pulemyotların şaqqıltısı pozurdu. Bu zaman quşların da səsi kəsilir, dağlara qısa müddətli bir sükut çökürdü.

Artıq səngərlərə çevrilmiş dağlar, qayalar, ağaclar bir-birindən təbii gözəllikləri ilə deyil, hərbçi nöqteyi-nəzəri ilə fərqləndirilirdi. Yəni, hansı ağacın və ya dağın arxasında, hansı qayalıqda, hansı təpədə daha yaxşı mövqe tutmaq olar? Hansı cığırla, dərə ilə meşəliklə kəşfiyyata getmək olar, düşməni harada qarşılamaq olar? Bəli belə seçilirdi dağlar, daşlar, ağaclar, kollar, cığırlar-təbiətin gözəllikləri. Bu təbiət nizamından ağılla, bacarıqla istifadə etmək, düşmən hücumlarının və fitnələrinin qarşısını almaq, hər bir komandir və əsgər üçün vacib şərtlərdən biri idi.

2-ci tabor ətrafdakı dağların ən hündürü olan Hoçaz dağında müdafiə mövqeyi tutmuşdu. Buradan baxdıqda bütün Həkəri dərəsi, Laçın və Zəngəzur dağları aydın görünürdü. Qarabağı Zəngəzurla birləşdirən yol-dəhliz Laçından keçirdi. Həmin dəhlizin və Laçının düşməndən azad edilməsi üçün "Laçın dəhlizi" əməliyyatı hazırlanmışdı. Bu da düşmən qüvvələrinin parçalanmasına, müharibədə dönüş yaranmasına və son nəticədə qələbəyə aparan yol ola bilərdi. Bir neçə gün əvvəl Hoçaz dağının düşməndən azad edilməsi, həmin "Laçın dəhlizi" əməliyyatının bir hissəsi idi. Düşmən də bunu bildiyindən Hoçaz dağının itirilməsi ilə heç cür razılaşmaq istəmir, tez-tez hücuma keçir, bu mühüm yüksəklikləri ələ keçirməyə çalışırdı. Lakin, düşmən cəsur döyüşçülərimiz tərəfindən, itkilərə məruz qalaraq geri çəkilməyə məcbur olurdu. İki həftə əvvəl düşmənin daha bir hücumunun qarşısını alan tabor, düşmənin 300 nəfərədək canlı qüvvəsini məhv etmiş, 7 tankını, 2 PDM-ni vurmuş, 5 tank, 3 PDM, 3 ədəd 120mm-lik minaatan və çoxlu sursat ələ keçirmişdi.

Kəşfiyyatçıların gətirdiyi məlumatları götür-qoy edən komandir, öz hərbçi təxəyyülü ilə düşmənin yenidən hücuma hazırlaşdığını hiss etmişdi. Buna görə də əvvəlcədən tankların dağ yamaclarında manevr etmələri üçün əlavə döyüş mövqeyi və yollar açdırmış, düşmən mərmilərindən qorunmaq üçün daldalanacaqlar düzəltdirmiş, sursat və mərmi daşıtdırmışdı. Görülmüş müdafiə işlərini bir daha yoxlamaq

qərarına gələn komandir, qərərgah rəisi və müavinlə döyüş mövqelərini gəzməyi qərara aldı. Onlar əvvəlcə müşahidə məntəqəsinə qalxdılar. Müşahidə aparan əsgərlər onlara məlumat verdilər.

-Necəsiz uşaqlar?-deyən komandir əsgərlərlə salamlaşdı.

-Çox sağ ol komandir, vəziyyət hələ ki, yaxşıdır-hamının “Qarabala” çağırdığı əsgər cavab verdi. Komandir həmişə əsgərlərin döyüş əhvalının yüksək olmasına çalışır, döyüşdə əsgərlərə daha yaxın olmaq istəyirdi. Buna görə də onlardan bir daha döyüşə hazır olub-olmamalarını soruşdu, onların səngər həyatı ilə maraqlandı və əlavə etdi:

-O, qarşıdakı təpəni də, yolu da gözdən qoymayın!

-Oldu, komandir.

Oradan aşağıya-tankçıların yanına endilər. Onları tank bölüyünün komandiri qarşıladı və söhbət edə-edə tankın yanına gəldilər. Oradan düşmən tanklarının keçəcəyi bütün yollar aydın görünürdü. Qarşıdakı təpənin yamacı ılə gələn yol sağ tərəfdəki yüksəkliyin ətəyinə çıxır və dərədən keçərək görünməz olur, mövqelərimizin arxasına qədər uzanırdı. Komandir həmin yolu tankçılara göstərib, oranı daimi nəzarətdə saxlamağı tapşırdı.

-Oldu, komandir, amma bircə tankla işimiz çətin olacaq -Xaliq dilləndi. Xəyyam isə ermənilərdən götürülmüş tankların tezliklə təmir ediləcəyini bildirdi. O, tank bölüyünün komandiri idi.

Komandir saatına baxdı. Axşama az qalırdı. O, ön mövqedə hər bir əsgərlə görüşür, söhbət edir, bəzən onlarla zarafat da edirdi. Yaxşı bilirdi ki, döyüşün nəticəsi əsgərlə komandirin ünsiyyətindən və bir-birinə inamından asılıdır. Bu inamı isə o çoxdan qazanmışdı. 2-ci taborda hər bir zabit və əsgəri yaxından tanıyır, onlara qayğıkeşliklə yanaşırdı. Əsgərlər isə bu qayğını həmişə hiss edirdilər. Zenitçilərin yanına qayıtdıqda, komandir dayandı və nə isə fikirləşdi. Baş leytenant Azər Bəkirov komandirin dayandığını görüb soruşdu:

-Nə oldu, komandir?

-Ola bilər ki, ermənilər vertalyotla da hücum etsin-deyərək, öz fikrini bildirdi.

-Onlar belə tezliklə özlərinə gəlməzlər-qərərgah rəisi mayor Lütfü Cəfərov gülümsündü.

-Hər halda ehtiyatlı olmalıyıq-deyərək komandir əlavə etdi.

Tabor kmandiri düşmənin hava hücumunu dəf etmək üçün zenitçilərə də bəzi tapşırıqlar verdi. Axşam onlar qərərgaha qayıtdılar.

Səhər açılar-açılmaz düşmən taborun bütün mövqelərini top və minaatanlarla atəşə tutdu. Baş qaldırmağa imkan olmasa da tabor komandiri əsgər və zabitlərə düşmənin hücuma keçəcəyini bildirdi və

möhkəm durmağı tapşırdı. Artilleriya hazırlığından sonra havada düşmənin səkkiz qırıcı vertalyotu göründü. Mövqelərimiz vertalyotlardan atılan raket və pulemyot güllələri ilə güclü atəşə məruz qaldı. Havada dövrə vuraraq pulemyot və raketlərlə atəş açan vertalyotlar növbə ilə həmlələr edir, mövqelərimizi daim atəş altında saxlamağa çalışır, eyni vaxtda 8 tank, 3 PDM və 1000 nəfərədək canlı qüvvə ilə hücuma keçmiş öz qüvvələrinə irəliləməkdə kömək etməyə çalışırdı. Ölən və yaralananlar var idi. Atəş səslərindən və partlayışlardan qulaq tutulurdu. Zenitçilər yağış kimi yağan güllələrə əhəmiyyət vermədən vertalyotları yaxına buraxıb onları qəflətən atəşə tutdular. Atəşə tutulan vertalyotlar geriyə fırlandılar. Lakin onlardan biri tüstüləyə-tüstüləyə uzaqlaşaraq dərəyə düşdü. Düşmən vertalyotunun vurulması əsgərlərimizi o qədər ruhlandırdı ki, indiyədək raketlərdən qorunmağa çalışan əsgərlər, qəfildən başlarını səngərlərdən qaldırdılar və düşməni hər tərəfdən atəşə tutaraq onları bir-bir yerə sərməyə başladılar. Birdən dağın arxasından çıxan başqa bir düşmən vertalyotu zenitçiləri hədəfə almışdı. Bir neçə raket atan düşmən vertalyotu atəşə tutulduğunu görüb geriyə dönmək istəyərkən zenitçilərin atəşi ilə göydə alışaraq mövqelərimizdən aralanmağa çalışdı, lakin müvazinətini saxlaya bilməyib dağa çırpıldı. Digər düşmən vertalyotları isə qorxudan mövqelərimizdən uzaqlaşdılar. Əsgərlər daha da ruhlanaraq düşmən piyadalarına qan uddurmağa başladılar. Hətta düşmənin 11 ədəd tankı və döyüş maşını da onların gözündə piyadaya çevrilmişdi.

Düşmən tankları qarşıdakı dağın döşü ilə irəliləyirdi. Xəyyam tankı mövqeyə çıxarmaq üçün mexanik Vüqara tapşırıq verdi. Bu vaxt efirdə Qorxmazın səsi eşidildi: “Qabaqda gələni vur”-dedi. Tankçılar qabaqda gələn düşmən tankını nişan aldılar. Ilk mərmi üstdən keçib yamacda partladı. Ikinci mərmi isə hədəfə dəydi, tankın tırtılları yerə töküldü. Düşmən tankı yerində qaldı. Arxadan gələn tanklar və PDM-lər bizim tankı atəşə tutdular. Vüqar tankı geriyə çəkdi və yenidən mövqeyə çıxardı. Elə birinci atəşlə düşmənin ikinci tankı da vuruldu. Tankçılarımız yeni hədəfi nişan almağa macal tapmadılar. Düşmənin digər tankından atılan mərmi bizim tanka çırpıldı, tank yerində silkələndi və üç-dörd metr geriyə hərəkət edib dayandı. Tabor komandiri və bir neçə əsgər tanka tərəf qaçdılar. Xəyyam tankdan çıxmağa çalışırdı. Əsgərlər ona kömək etmək istədilər. O, Xaliqlə Vüqarın yaralandığını dedi. Əsgərlər onları tankdan çıxarıb təhlükəsiz yerə çəkdilər və yaralarını sarıdılar.

Amansız bir döyüş başlamışdı. Lakin nə komandirlər, nə də əsgərlər özlərini itirmir, qumbaraatnlarla vurulan düşmən tanklarının dalbadal yanmasından sevinir, düşmənin say çoxluğu onları qorxutmurdu.

Döyüşdə mütləq qələbə olacağına inanırdılar. Iki saatlıq bir döyüşdə canlı qüvvəsinin demək olar ki, yarısını itirən düşmən, yaralı və meyidləri dağ yamaclarında və dərələrdə qoyub qaçırdı.

Günortaya yaxın döyüş başa çatmışdı. İndi dağların sükutunu avtomat və pulemyotlardan atılan tək-tək atəş səsləri pozurdu.

Hoçaz dağında daha bir gün beləcə başa çatdı.



*Kəlbəcər batalyonunun döyüşçüləri-1992-ci il*

# *Gürşad dastanı*

Dağlara yağan qalın qar yolları, cığırları, dərələri, çayların üstünü örtmüşdü. Dağların küləkdöyən yerlərinin qarını isə külək sovurub aparmışdı. Güneylərin bəzi yerlərində hətta qar ərimiş, novruzgülü çıxmışdı. Çalmalıya qalxan əsgərlər qarı sovrulmuş yerlərlə gedir, dərələrə dolmuş qar yığınlarından yan keçməyə çalışırdılar. Əsgərlər hər gün keşikçi yoldaşlarını əvəz etməyə gedəndə iki-üç yerdə qayaların külək döyməyən tərəfində dinclərini alır, yenidən hərəkətə başlayırdılar.

Artıq Çalmalının zirvəsinə çatmağa az qalmışdı. Bütün gecəni Göyçədən əsən soyuq küləklə üzbəüz növbədə dayanmış əsgərlər səhərin alatoranlığında yoldaşlarının uzaqdan gəldiyini görüb, avtomatlarını götürüb yavaş-yavaş onların dayandığı qayalığa tərəf enməyə başladılar. Qəfil atılan güllələr onları yamacda haqladı. Özlərini itirərək qayalığa və təpələrin arxasına tərəf qaçan əsgərlər, ermənilərin Çalmalı dağının zirvəsindən onları atəşə tutduqlarını gördülər. Gecə ikən keşikçi mövqelərini mühasırıyə almış düşmən, üç tərəfdən atəş açaraq əsgərləri göz açmağa qoymurdu. Özlərinə mövqe tutan Məzahirlə, Gürşad düşməni atəşə tutaraq digər yoldaşlarının atəş altından çıxarmağa çalışırdılar. Ələsgərlə Məmməd də silahlarını işə saldılar. Güclü cavab atəşinə məruz qalan düşmən itki versə də geriyə çəkilmək istəmir, onları daha da güclü atəşə tuturdu. əsgərlərin çoxu düşmən atəşindən yayınmaq üçün geriyə-qayaları arxasına çəkilmişdi. Lakin açıqlıqda qalan Məzahirlə Şahin döyüşü davam etdirir, qorunmaq üçün yaxınlıqdakı qayalığa çəkilməyə imkan axtarırdılar. Onlara tərəf yaxınlaşan bir erməni isə Məzahirin sərrast atəşi ilə yerə sərildi. Cəld yerini dəyişmək istəyən Məzahir bir qədər geri çəkilsə də sağ tərəfdən Şahinə yaxınlaşan erməniləri görüb yerə uzandı və atəş açmaq istədi. Avtomatın darağında güllə qalmamışdı. Darağı dəyişmək istədi, dəyişməyə isə vaxt yox idi, yaxınlıqda gizlənmiş düşmən onu görmüşdü. Darağı dəyişə-dəyişə geriyə sürünmək istədi. Elə bu vaxt düşmən gülləsi onu haqladı...

Qeyri-bərabər bir döyüş gedirdi. Gürşad Məzahirlə Şahini döyüş meydanından çıxarmaq üçün qarşıdakı yüksəkliyə qalxmaq istədi. Lakin düşmənin həmin təpədən qumbaraları dalbadal yağdırması əsgərlərin yuxarı qalxmasına imkan vermədi. Bütün yüksəklikləri ələ keçirən düşmən əsgərlərimizi döyüş meydanından xeyli uzaqlaşdırmağa nail oldu. Yellicə kəndindənköməyə gələn əsgər yoldaşları da heç nə edə bilmədilər. Düşmən Çalmalıdakı mövqelərimizi ələ keçirmiş və hər tərəfi atəş altında saxlayırdı. Tağımın itirilmiş mövqeləri geri qaytarmaq və heç

olmasa, Məzahirlə Şahini döyüş meydanından çıxarmaq cəhdləri baş tutmadı...

Kəndə enəndə bildilər ki, Kəlbəcərin Söyüdlü, Ayrım, Dikyurd sərhəd məntəqələri işğal olunub, düşmən Qarabağ cəbhəsində də irəliləyərək Tuneli ələ keçirib. Murova qalxan yeganə yol düşmən ordusu tərəfindən bağlanmaq üzrədir...

****

Yol boyu susub danışmayan Gürşad Murov yoluna üz tutan qocaları, qadınları, uşaqları görür, öz ata-anası yadına düşürdü. Fikir onu götürmüşdü, görəsən onlar kənddən çıxıblar, yoxsa ermənilərin hücumundan xəbərləri yoxdur? Gürşad mütləq kəndə gedib ermənilərin Kəlbəcərə hücum etdiyini xəbər vermək qərarına gəldi və Əsrik kəndinə gedəcəyini yoldaşlarına bildirdi. Yoldaşları onu bu fikirdən daşındırmaq istəsələr də mümkün olmadı. Necə olursa-olsun o, ata-anasını və həmkəndlilərini erməni quldurlarından xilas etmək istəyirdi.

Gürşad Əsrik kəndinə çatanda gecə idi. Əhali kəndi çoxdan tərk etmişdi. Sonuncu dəfə evlərinə gəldi, qapı bağlı idi, həyətdə quzular mələşirdi. Anasız qalaraq mələşən quzulara necə kömək edəcəyini fikirləşdi. Tayadan onların qabağına quru ot tökdü... Kimsəsizlik bir anlıq onu sıxdı. Gürşad cəld geri qayıtmaq qərarına gəldi.

Ac və yorğun halda bütün gecəni yol gələn Gürşad Çaykəndə çatanda günorta idi. Körpünün yanında hərbi geyimli əsgərlər görünürdü. Onlara yaxınlaşanda qəfildən atəşə tutuldu. Ermənilər imiş. Ermənilərin belə tezliklə Çaykəndi işğal etmələri onun heç ağlına da gəlmirdi. Balaca bir daşı özünə səngər seçən Gürşad atəş açaraq ermənilərin birini yerə sərdi. Ermənilər Tərtərçayın o tayından, evlərin arasından, hasarların arxasından-hər tərəfdən ona atəş açmağa başladılar. Qeyri bərabər bir döyüş gedirdi...

Gürşad güllələrin necə qurtardığını hiss etmədi; artıq avtomat susmuşdu. Düşmən Gürşadın gülləsinin qurtardığını hiss edib ona tərəf yaxınlaşırdı. Birdən gizlətdiyi son güllə yadına düşdü. Bu gülləni o özü üçün saxlamışdı. Gülləni darağa qoyan kimi bir erməni 5-6 addımlıqdan onun üstünə qışqırdı: “silahı at yerə”-dedi. Yəqin ki, ona təslim olmağı deyirdi. Gürşad “Al, əclaf”-deyərək son gülləni ermənin alnına sıxdı...

****

Gürşadı digər əsirlərlə birlikdə Kəlbəcərə gətirdilər. Ermənilərin işgəncələrinə dözmək qeyri-mümkün idi. Gürşad necə olursa-olsun onların əlindən qaçmaq və yüzlərlə əsir düşən və şəhid olan soydaşlarımızın qisasını almaq barədə düşünürdü. Kəlbəcərdə qarətlə

məşğul olan ermənilər gündüzlər onlara qarət daşıdır gecələr isə ağıla gəlməyə işgəncələr verirdilər.

Bir gün Kəlbəcərə gələn erməni jurnalisti çəkiliş aparır, əsirləri danışdırıdı. Hətta əsir düşmüş aşıq Eyvaza saz çaldırıb oxudurdular. Erməni zabiti Gürşadı məcbur edirdi ki, erməınilərin onlara yaxşı baxdığını, incitmədiyini desin...

Günlər ayları əvəz edir, ermənilərin işgəncələri isə bitib-tükənmirdi. Bütün bu əziyyətlərə mərdliklə tab gətirən Gürşad qaçmaq haqqında fikirləşirdi. On ay idi ki, bu fikir onu rahat buraxmırdı. Səkkiz nəfər idilər. Hər gün onları aparıb işlədir, axşam isə bir az çörək və su verirdilər ki, tam taqətdən düşməsinlər. Gürşad yoldaşları ilə qəti qərara gəlmişdilər: sabah erməniləri tərksilah edib əsirlik həyatına son qoyacaqdılar...

* * *

Şərqi Türküstan çinlilər tərəfindən işğal edilmiş, türk xalqları didərgin düşmüş, Vətənini tərk etməyənlər isə əsir aparılmış, qul halına salınmışdı. Axırıncı Şərqi Türk xaqanı Çuluq Xan döyüşdə öldürülmüş, kiçik oğlu Kürşad isə əsir aparılmışdı. Çinlilər Kürşad başda olmaqla 40 nəfər cəsur gənci mühafizə dəstəsinə qəbul etmişdilər. Çinlilər bununla-mədəniyyəti, davranış qaydalarını-məhz türklərdən öyrənir və türklərə oxşamağa çalışırdılar.

Kürşad yoldaşları ilə gizli danışaraq Çin imperatoru Tay Çunqu oğurlayıb Türküstana aparmaq, əsir edilmiş digər soydaşları ilə dəyişmək məqsədi ilə bir tədbir qurmuşdular: axşam imperator bağçada gəzərkən onu qaçırmalı idilər. 40 gənc pusqu qurarkən gözlənilməz bir tufan ucbatından imperator gəzintidən imtina etmişdi. Artıq Kürşad və yoldaşlarının sarayda olmamaları çinliləri duyuq salmışdı. Gecikmək olmazdı, çinlilər onları axtarırdılar. Kürşad və silahdaşları saraya hücum etdilər. Yüzlərlə mühafizəçi öldürülsə də saraydan qaçıb qurtaranlar Çin ordusuna xəbər verdilər. Ordu saraya doldu. Beləliklə imperatoru qaçıra bilmədilər. Kürşad saraydan çıxmaq əmri verdi. Onlar mehtərləri öldürüb atlandılar və saraydan çıxdılar. Ordu onların arxasnca düşmüşdü. Vəy çayına çatanda ordu onları haqlamışdı. Kürşad və 39 igid məcburən dayandılar və döyüşməyə başladılar. Yüzlərlə Çin əsgəri məhv edildi. Lakin, Çin ordusunun sonu tükənmirdi. Türk igidləri son damla qanları qalanadək vuruşaraq azadlıq və Vətən yolunda şəhid oldular.

Üsyan baş tutmadı, amma bu xəbər "Kürşad üsyanı", "Kürşad dastanı" ilə bütün türk ellərinə yayılaraq azadlıq ideyalarını və torpaq sevgisini qan yaddaşında nəsildən-nəsilə ötürərək bu günümüzədək gətirib çıxardı.

* * *

Kürşad üsyanından 1355 il ötəcək, Xaqan oğlu Kürşad kimi Qiyas oğlu Gürşad da düşmən əsarətinə dözməyərək üsyan qaldıracaq. Erməni işğalçılarına qarşı üsyana qalxan Gürşad 7 yoldaşı ilə iki ermənini öldürüb əsirlikdən azad olmağa və düşməndən qisas almağa çalışacaqlar. Lakin emənilər tərəfindən mühasirəyə alınan Gürşad və onun yeddi cəsur yoldaşı güllələri qurtaranadək döyüşəcək, yenidən əsir alınacaq və işgəncələrdən sonra güllələnəcəklər...

Gürşad heç vaxt "Kürşad dastanı" haqqında eşitməmiş və eşitməyəcək də. Lakin, Gürşad və Kürşadın igidlikləri min illərlə qan yaddaşımızda qalacaq, bir adla iki dastan yazılacaq və gələcək nəsillərə örnək olacaq.

Bu türk igidlərinin qəlblərindəki azadlıq atəşi isə böyüyərək bütün türk ellərinə yayılacaq, türk torpaqları düşməndən azad ediləcək!!!



# *“Meydançay” əməliyyatı*

5-ci tabor baş leytenant Gəray Əsədovun komandanlığı altında Murovdağdakı Güzgü aşırımının sağ cinahından-Koroğlu dağı tərəfdən keçərək düşmən arxasına gedirdi. Tabor gecənin qaranlığında qarla örtülmüş Murov dağının yamacları ilə və dərələrlə hərəkət edərək, düşmənin duyuq düşməsinə imkan vermədən Meydançayın sağ sahilindəki qayalıqda mövqe tutmalı idi. Tağım komandiri İbad Vəliyev kəlbəcərlilərdən ibarət 33 nəfərlik tağımı ilə qabaqda irəliləyirdi. Onun qarşısına çox çətin və həm də şərəfli bir tapşırıq qoyulmuşdu...

İbad əvvəllər çox döyüşlərdə olmuşdu. Lakin indiki qədər təhlükəli və çətin əməliyyata getməmişdi. Qalın qarla örtülmüş dərədən keçəndə arxadan ona yaxınlaşan qardaşı Asifi gördü və təəccübləndi. Axı o, Asifi evdə qoyub gəlmişdi. Evdən çıxanda qardaşı Asif də onunla döyüşə getmək istədiyini bildirmiş, lakin İbadı razı sala bilməmişdi: “Mən gedirəm, sən qal evdəki qocalara muğayat ol”-demişdi. O, qardaşına tapşırmışdı ki, ata-anasına həyan olsun. İbad Asifə tərəf dönərək onu məzəmmətedici baxışlarla süzdü, amma döyüşçülər yanında heç nə demədi. Ürəyində isə “Döyüşün nə olduğunu sənə göstərərəm!”-dedi.

Onlar Meydançay dərəsinin sağ tərəfindəki qayalıqlara çatanda İbad tabor komandirinə və bölük komandiri bərdəli Rizvana həmin qayalıqlarda mövqe tutmaq lazım olduğunu bildirdi. Meydançay dərəsi ay və qar işığında aydın görünməsə də, dağların kölgəsi aydın görünürdü. Döyüşçülər hər qayanın, hər daşın və ya təpənin arxasından hər an düşmənin çıxmasından ehtiyat edərək, son dərəcə səssizliyə riayət edirdilər. Tamamilə səssizlik idi. Meydançaya yaxınlaşanda, İbad burdan o yana, yalnız, öz tağımı ilə gedəcəyini bildirdi, komandir isə etiraz etmədi. Tabor yolun qərbindəki dağda mövqe tutdu. İbad və silahdaşları ehtiyatla üstü buz bağlamış çayın kənarına endi. O, burada dayandı və özüylə dörd nəfəri-Vilayəti, Rəfini, Səfiyarı, və Mübarizi gütürəcəyini bildirdi. Tağımın digər əsgərlərinin onları qorumaları üçün burada mövqe tutmalarını tapşırdı.

Çaylağa çatdıqda iri daşların arxasında mövqe tutdular və ətrafı dinləməyə başladılar: tam sakitlik idi. İbad onları orada qoyub təkbaşına üç ədəd tank əleyhinə mina götürüb əyilə-əyilə çayı keçib yola yaxınlaşmağa başladı. Döyüş yoldaşlarımdan xeyli aralanmışdı. Mümkün qədər səs salmadan minaları basdırmaq üçün yolu qazmağa başladı. Torpaq donduğundan qazmaq çətin idi. Birtəhər yeri qazıb minaların üçünü də basdırdı. Sonra onların üstünə torpaq və qar tökdü. Ətrafa qulaq

asdı; səssizlik idi. Geriyə-yoldaşlarının yanına qayıtmağa başladı. Çayı keçib yamacla qalxmaq istəyərkən ayağı nəyəsə ilişdi və özünü saxlaya bilməyərək, üzü üstə qarın içinə yıxıldı və daşların arasına yumalandı. Daşlara dəyən avtomatın və istehkamçı belinin cingiltiləri dərənin səssizliyini pozdu. O qalxıb əvvəlcə ətrafa qulaq asdı. Səsə-küyə düşmənin duyuq düşüb-düşmədiyini yəqinləşdirmək istədi. Lakin, yenidən dərəyə səssizlik çökmüşdü. Dizləri daşlara dəydiyindən bərk ağrıyırdı, yəqin ki, yaralanmışdı... Əvvəlcə silahını axtarıb tapdı. Sonra isə ayağına ilişən məftili tapdı. Sən demə bu düşmənin rabitə xətti imiş: Yanşaq kəndindən Murovdağdakı düşmən mövqelərinə doğru çəkilmişdi. İbad mümkün qədər səs salmadan xətti bir daşın üstünə qoyub əlinə götürdüyü daşla kəsdi. Qalxıb yavaş-yavaş döyüşçü dostlarının yanına qalxdı. Döyüşçü yoldaşları onu səbirsizliklə gözləyirdilər. Onlar komandirin sağ-salamat qayıtmağına sevindilər. İbad yuxarı komandanlığa məlumat verdi:

-“Koroğlu” “Koroğlu”-mən “İbad”am-qəbul.

-“İbad” “İbad” -mən “Koroğlu”-yam, eşidirəm.

-“Tapşırıq yerinə yetirildi, əmrinizi gözləyirəm”.

-“ İbad” sizi başa düşdüm, orada gözləyin, heç hara tərpənməyin.

Həm Murova qalxan yeganə yol minalanmış, həm də düşmənin Yanşaq kəndi ilə Murovdağ mövqeləri arasındakı telefon xətti kəsilmişdi. Yuxarı komandanlıqdan onlara yerlərindən tərpənməməyi tapşırdılar. Əsgərlər konserv açıb yeməyə başladılar. Qayanın yanında qarın üzərində uzanmış tağım komandirini isə çoxdan yuxu tutmuşdu...

Artıq səhər açılmaq üzrə idi. Qəfildən başlayan döyüş dağı-daşı lərzəyə gətirdi. Topların, qumbaraların, avtomat və pulemyotların səsindən qulaq tutulurdu. Səhərəyaxın artilleriya hazırlığından sonra bizimkilər Güzgü və Ömər aşırımlarından ermənilərin mövqelərinə hücuma keçdilər. Amma, orada-Murovdağda-nə baş verdiyindən 5-ci tabor döyüşçülərinin xəbəri yox idi. Buradan heç nə görünmədiyindən onlar, ancaq topların dağı-daşı silkələyən səslərinə qulaq asırdılar. Ağ geyimdə qarın içərisində uzanmış tağımın əsgərləri şaxtadan donmaq dərəcəsinə çatmışdılar. Yuxarı komandanlıqdan isə qəti olaraq bildirirdilər ki, orada gözləsinlər, tərpənməsinlər.

Bir saatdan çox idi ki, döyüş başlamışdı. Artıq səhər açılmış, günəş şüaları döyüşçüləri az da olsa isitməyə başlayırdı. Meydançay dərəsi buradan aydın görünürdü. Dərədə kəşfiyyatçıların verdiyi məlumatın əksinə olaraq nə düşmənin ehtiyat qüvvəsi var idi, nə də bir düşmən əsgəri gözə dəyirdi. İbad qardaşı Asifi, Aydınov Rəfini, Elxanı, Səfiyarı, Zabili, İlahimi, Şahini, Nurunu, Səxavəti, Firudini, Əsgəri,

Vilayəti, Mübarizi, pulemyotçu Sərxanı, qumbaraatan Şahvələdi götürüb yenidən Meydançay dərəsinə endilər. Yavaş-yavaş "İbrahimin damı" adlanan tək evə yaxınlaşmağa başladılar. Evdə heç kəs yox idi. Murova qalxan yeganə yol "tək ev"in yanından keçirdi. Taborun digər döyüşçüləri isə Meydançayın sağ tərəfindəki yüksəklikdə-mövqe tutduqları yerdən onları izləyirdilər. Həm yorulmuş, həm də ac idilər. Tək evə girən döyüşçülər konserv açıb quru spirtlə isidərək yemək yedilər və özləri ilə gətirdikləri spirtdən bir az da içdilər.

Artıq gün xeyli qalxmış, Murovdakı döyüşdən isə bir xəbər yox idi. İbad pəncərədən çölə-üzü aşağı Meydançay dərəsinə baxırdı. Aşağıda Yanşaq kəndinin mal-qara fermaları görünürdü. Elə bu zaman tağım komandiri beş-altı yüz metr aşağıdakı yol döngəsindən bir dəstə erməninin onlara  tərəf qalxdığını gördü. Onlar 15 nəfər idilər. Ermənilərin 9 nəfəri yol ilə, 6 nəfəri isə qarlı dərə ilə telefon kabelindən tuta-tuta Meydançay boyunca yuxarı qalxırdılar. Yəqin ki, onlar kabelin harada sıradan çıxdığını bilmək istəyirdilər. Ibad əli ilə döyüşçülərə evdən çıxmamaq və sakit olmaq işarəsi verdi. Hamı silahlarını hazır vəziyyətə gətirərək evin döşəməsinə tərəf əyilərək gözləyirdi. Ermənilər əvvəlcə tək evdən bir qədər aşağıda İbadın gecə yola basdırdığı minaları tapıb zərərsizləşdirdilər. Onlar minaların üçünü də çıxarıb yolun üstünə qoydular. Ermənilərin digər dəstəsi isə telefon xəttinin kəsilmiş yerini tapdılar və onu bərpa etməyə başladılar. Düşmən yəqin etmişdi ki, Azərbaycan kəşfiyyatçıları tərəfindən gecə kabel kəsilmiş, yol minalanmış, sonra onlar çəkilib getmişlər. Onlar heç vaxt ağıllarına gətirməzdilər ki, bizimkilər onların bir neçə addımlığndadırlar. Artıq düşmən əsgərləri bizimkilərin gizləndiyi tək evin 30-40 metrliyinə qədər yaxınlaşmışdılar. İbad əvvəlcə erməniləri əsir götürmək istədiyini işarə ilə yoldaşlarına başa saldı. Lakin, qəflətən hövsələsiz döyüşçülərdən biri evdən bayıra tullanaraq düşmənə tərəf qışqırıb təslim olmalarını əmr etdi. Ermənilər çaş-baş qalaraq hərə bir tərəfə qaçdı və eyni vaxtda onu atəşə tutdular. Artıq vaxt itirmək olmazdı; tağım komandiri düşməni atəşə tutmaq əmri verdi. Bizimkilərin açdığı atəşlə düşmən əsgərləri bir-bir yerə sərilməyə başladılar. Onların sağ qalanları isə çaylaqla üzü aşağı qaçmağa başladılar. Lakin qaçanların da bir neçəsi döyüşçülərimizin atəşi ilə bir-bir qarın üstünə yıxılırdılar. Qayalıqdakı taborun döyüşçüləri də öz atəşləri ilə tağıma dəstək verirdilər. Bir neçə dəqiqə ərzində düşmən əsgərlərinin on nəfəri məhv edildi. Lakin, qaçanlardan sağ qalmış tək bir erməni snayperi xeyli aşağıda-çay dərəsindəki daşların arxasında gizlənərək tağımın döyüşçülərinə atəş açır, onları hərəkət etməyə qoymurdu.  Bu vəziyyəti görən Aydınov Rəfi "Mən ermənini görürəm"-

deyərək yamacla aşağı enərək qayaların, daşların arası ilə ermənıyə tərəf gedirdi. İbadın “geriyə qayıt” qışqırtısına isə əhəmiyyət vermirdi. Rəfi demək olar ki, gizlənmədən, qaça-qaça erməniyə tərəf gedirdi. Bu bizim döyüşçülərin erməni üzərinə qorxmadan getdiyi çoxsaylı hadisələrdən biri idi. Rəfi ilə düşmən arasında məsafə getdikcə qısalırdı. Ibad düşmən snayperini atəş altında saxlamaqda davam edirdi. Düşmənlə Rəfinin arasındakı məsafə 15-20 metr olardı. Rəfi iri bir daşın arxasından qəflətən açdığı atəşlə düşmən snayperini susdurdu. O, gizləndiyi yerdən çıxaraq öldürdüyü düşmənə yaxınlaşmağa başladı. Elə bu vaxt başqa bir daşın arxasında gizlənmiş bir yaralı erməni üç-dörd metrlikdən Rəfiyə atəş açdı. Rəfi qarla örtülmüş daşların arasına yıxıldı. Bizimkilərin atdığı güllələrlə düşmən susdurulsa da artıq gec idi. Döyüş yoldaşları Rəfinin yıxıldığı yerə yaxınlaşanda o, gözlərini əbədi olaraq yummuşdu...

* * *

Üç saatdan çox idi ki, Murovdağda amansız döyüş gedirdi. Taborun döyüşçüləri qaçan və köməyə gələcək düşməni Meydançayda qarşılamalı idi. Ermənilər bizimkilərin burada olmağını bilmirdilər. Amma, nə Murovdağdan qaçan düşmən gözə dəyirdi, nə də Yanşaqdan köməyə gələcək düşmən. Birdən Murovdağdan mövqelərini tərk edərək dərələrlə üzü aşağı, onlara tərəf qaçan düşmənlər görünməyə başladı. Onlar İbad və onun tağımının 80-100 metrliyində idilər. İbadgil onları bir qədər də yaxına buraxdı. Düşməni atəşə tutmağa tələsən döyüşçü dostlarını tələsməyə qoymadı. Ermənilər bir qədər də yaxınlaşdıqda İbadın gülləsi qabaqdakı ermənini yerə sərdi. Qaçan ermənilərdən dördü elə orada öldürüldü, iki erməni isə silahlarını yerə ataraq əllərini qaldırdılar. Ermənilərdən biri isə qayıdıb Murova doğru qaçdı...

Döyüş qurtarmaq üzrə idi. Elə bu zaman Murovdağdan qaçan piyada ermənilərin arxasınca bir döyüş maşını da ağ bayraq qaldıraraq tək evə yaxınlaşmağa başladı. PDM-in üstündə 15-16 nəfər düşmən əsgəri var idi. Bizim döyüşçülər onların təslim olduqlarını zənn edib mövqelərini tərk edərək düşmən maşınına tərəf getməyə başladılar. İbad döyüşçülərə qışqıraraq “yaxınlaşmayın”-dedi. O, döyüş təcrübəsindən bilirdi ki, ermənilər hər cür fırıldağa əl ata bilərlər. Ona görə də düşmənə yaxnlaşmamağı lazım bildi və ermənilərə tərəf qışqıraraq təslim olmalarını tələb etdi. Elə bu zaman qəflətən düşmən PDM-dən onlara tərəf dalbadal atəş açıldı və PDM böyük sürətlə yerindən götürlüb yolla üzü aşağı hərəkətə başladı. Bir neçə saniyənin içərisində baş verən bu hadisə döyüşçüləri çaş-baş salsa da onlar çaylaqda özlərinə mövqe seçməyə macal tapdılar və düşmən maşınını atəşə tutdular. Düşmən PDM-i onların lap yaxınlığından keçirdi. Tağımın döyüşçüləri düşmən

əsgərlərini bir-bir PDM-dən yerə salmağa başladılar. Şahvəlǝdin qumbaraatanla atdığı mərmi PDM-in üstündəki ermənilərin sonuncularını yerə töksə də maşına dəyərək çovudu. Onlardan bir qədər aralanmış PDM qəflətən dayandı və lüləsini geri döndərərək döyüşçülərimizi güclü atəşə tutdu. Gizlənməyə yer tapa bilməyən döyüşçülər özlərini yenidən xırda daşların arxasına yıxdılar. Bu döyüş bir qədər də davam etsəydi, döyüşçülərimiz itkiyə məruz qalacaqdı. Bu zaman Murovdağ silsiləsindən düşməni tamamilə qovaraq döyüşü uğurla başa çatdıran briqadanın tankları və minaatanları düşmən maşınına atəş açdılar. Murovdağdan atılan mərmilər PDM-i məhv edə bilməsə də onun ətrafına düşməyə başladı. Bunu görən düşmən maşını atəş aça-aça Yanşaq kəndinə doğru hərəkət edərək gözdən itdi...



# *Palıd ağacı*

Boyunun balaca olmasına baxmayaraq qalın qarı yara-yara hamıdan qabaqda irəliləyən əlində avtomat, çiynində çanta, gödəkcəsinin ciblərində isə patron daraqları və əl qumbaraları olan əsgərin kim olduğunu soruşdum. Əsgərlərdən biri dedi ki, Bozlu kəndindəndir, adı Həsəndir. Xatırladım. Əvvəllər mənim bölüyümdə xidmət etmişdi. Indi qış geyimində, həm də məndən xeyli qabaqda olduğu üçün səhərin alatoranında tanıya bilməmişdim. Qapalı bir adam kimi tanıdığım Həsən bədəncə arıq və boyca balaca olsa da həmişə qoçaqlığı ilə seçilərdi. Bəzən onun əsgər yoldaşları ona ləqəb qoşub gülüşərdülər. Həsən də qarşıdakı kənddən idi. O, boya-başa çatdığı dağ yamacında mürgüləyən, meşələrin qoynuna sığınan, büllur bulaqlı doğma kəndinə tələsirdi. Ürəyindən nələr keçirdi? Onu hansı qüvvə idi kəndə çəkən? Hansı qüvvə idi qarlı Murov dağlarını aşaraq, ac, yuxusuz, yorğun hamıdan qabaqda getməyə məcbur edən? Kəndi görmək arzusumu, yoxsa adi bir maraq idi? Hələ heç kim onun ürəyindən keçənləri bilmirdi, hələ heç kəs onun nələr düşündüyünü bilmirdi.

Səhər yenicə açılırdı. Aşağıda qarlı meşədə qaratoyuğun qaqqıltısından başqa bir səs-səmir eşidilmirdi. Dağ yamacındakı cığırla irəliləyən əsgərlərin sırası xeyli uzun idi. Onlar köhnə maşın yolunun kənarı ilə-qar yığınının az olduğu yerlə tək sıra ilə addımlayır, mümkün qədər səs salmamağa çalışırdılar. Lap axırda biz-minaatanlar gedirdik. Biz çiynimizdə minaatan və onun xeyli sayda mərmilərini iki-iki, üç-üç yük çantalarında 80 kilometr qarla örtülmüş Murov dağını bu gecə aşmışdıq. Murovdağın bəzi yerlərində 50-60 metr qalınlığında qarla örtülü dərələrdən çox çətinliklə keçmişdik. Minaatanı və onun mərmisini daşımaq isə demək olar ki, işgəncə idi...

Kəndə tez çatmağa tələsirdik. Əməliyyat planına əsasən kəndi mühasirə etməli və kənddə olan düşmənlərin birini də sağ buraxmamalı idik. Kəndə yaxınlaşanda hava işıqlanırdı. Ermənilər kəndin sonuncu evinin qabağında odun doğrayırdılar. O qədər səssiz gedirdik ki, hətta dağın yamacı ilə kəndə tərəf gedərkən düşmən mövqeyinin lap yaxınlığından keçmişdik. Bundan isə nə düşmən xəbər tutmuşdu, nə də özümüzün xəbərimiz var idi...

Üç dəstəyə bölünmüş əsgərlər kəndi mühasirəyə almaq üçün kəndin sağ və sol tərəfindən qara bata-bata aşağı enməyə başladılar. Elə bu vaxt bir evin qabağında balta ilə odun doğrayan erməni onları gördü və nə isə qışqıraraq evə tərəf qaçdı. Duyuq düşən düşmənlər evlərdən çıxaraq bizi atəşə tutdu. Artıq səssizliyə son qoyulmuş, avtomat və

pulemyotların şaqqıltısından qulaq tutulurdu. Kəndi mühasirə etməyə vaxt çatmadı və əlverişsiz bir yerdə-dağ yamacında-açıqlıqda qalan əsgərlərə kəndə daxil olmaq əmri verildi. “Ura” və “Allah Əkbər” sədaları altında hücuma keçən əsgərlər yamacla aşağı yumalanaraq və qaçaraq kəndə girirdilər. Gizir Telman və əsgər Qabil ermənilərə atəş açaraq döyüşçülərin irəliləməsini asanlaşdırırdılar. Evlərin arasında və tövlələrin yaxınlığında meşə talasında döyüş gedirdi. Həsən yenə hamıdan qabaqda idi. Bayaqdan onlara güllə atan erməniyə tərəf atəş aça-aça qaçırdı. Palıd ağacının arxasına özünü çatdıran Həsənin yanında əl qumbarası partladı. Qəlpələr ağacın gövdəsinə dolaraq qabığını qopardı, Həsənə isə bir qəlpə belə dəymədi. Özünə səngər seçdiyi palıd ağacının arxasından ermənini nişan aldı. Tətiyi çəkən kimi düşmən əsgəri qarlı dərəyə yuvarlandı. O, əsgərlərimizə atəş açan digər düşməni axtarmağa başladı. Erməni bir evin tinində gizlənmişdi. Hərdən qalxıb atəş açır və yenidən gizlənirdi. Həsənin nişan almağı ilə erməninin qışqırmağı bir oldu... Yarım saatlıq döyüşdə Həsənə yüzlərlə güllə və qumbara atılsa da iri gövdəli palıd ağacı onu qoruyurdu. Həsən isə öz atəşi ilə əsgərlərimizin kəndə tərəf irəliləməsinə imkan yaradırdı. Döyüşə-döyüşə irəli sürünən əsgələrimiz artıq kəndi düşməndən azad etmişdilər. Onlarla erməni meyidi evlərin arasında və meşə talasında qalmışdı. Bir neçə erməni isə meşə ilə qaçaraq canını qurtara bilmişdi. Döyüş bir az səngimişdi. Buradan kəndin yuxarısındakı yandırılmış evlər yaxşı görünürdü. Böyüyüb boya-başa çatdığı, indi isə ermənilər tərəfindən qarət edilərək  yandırılmış evlərini uzaqdan gördükdə Həsən gövrəldi və palıd ağacını qucaqlayaraq hönkür-hönkür ağladı. Bu həm qələbə, həm də kədər yaşı idi. Axı onun doğma kəndi düşməndən azad edilmişdi. Yoldaşları onun yanına gələrək onu təbrik etdilər. Həsən isə hələ də palıd ağacını qucaqlamışdı. O sanki ağacla pıçıldaşır, ağacla danışırdı. Ona qovuşduğuna hələ də inanmırdı. Onun bütün uşaqlıq dünyası və yaddaşındakı xatirələrin çoxu bu ağacla bağlı idi. Onun ilk sevgisinə də bu palıd ağacı şahidlik etmişdi. Həsən bu qocaman palıd ağacını öz doğma anasını, kəndini, obasını sevdiyi qədər sevirdi. Döyüş demək olar ki, qurtarmışdı. Tək-tək avtomat və pulemyotların səsi gəlirdi. Qəfildən atılan düşmən gülləsi palıd ağacının gövdəsinə dəyib çovudu və Həsənin yanındakı döyüşçülərdən birini yaraladı. Əsgərlər cəld yerə uzanaraq silahlarını atəş açılan səmtə yönəltdilər. İri bir daşın arxasında gizlənən düşmən onları nişan alımışdı. Nadir bircə atəşlə düşməni məhv etdi. Həsənə atılan güllələrin qarşısını isə öz nəhəng gövdəsi ilə yenə də palıd ağacı kəsmişdi. Ağacın gövdəsinə sancılan güllələrin yeri hələ də tüstülənirdi.

# *Məxfi tapşırıq*

1992-ci ilin may ayının sonu idi. Hərbi hissə komandirindən tapşırıq alan kəşfiyyat dəstəsi artıq son hazırlıqlarını başa vurmaqda idi. Yeddi nəfərdən ibarət kəşfiyyat dəstəsi yola düşməyə hazırlaşırdı. Komandir kəşfiyyatçıların geyimləri, silah və sursatlarını bir daha gözdən keçirdi. Ordu komandanlığından alınan mühüm tapşırığı bir daha döyüşçülərin nəzərinə çatdırdı.

Tapşırıq belə idi: işğal olunmuş Laçın bölgəsindəki düşmən qüvvələri haqqında dəqiq-düzgün məlumat əldə etmək. Düşmən texnikasının, xüsusilə artilleriyasının harada yerləşməsi, əsgərlərinin sayı və silahları, Laçın kəndlərinin hazırkı vəziyyəti, evlərin yandırılıb-yandırılmaması və s. məlumatlar bizim ordu komandanlığı üçün vacib idi. Bu məlumatların gələcəkdə Laçın bölgəsində düşmən qüvvələrinin darmadağın edilməsində böyük əhəmiyyəti olacaqdı.

Kəşfiyyat dəstəsi yeddi nəfərdən ibarət idi: Rəhimov İlqar Ələmdar oğlu, Ələkbərov Ələkbər Vəli oğlu, Göyüşov Vidadi Rüstəm oğlu, Hüseynov Yaşar Həmid oğlu, Abışov Ramiz Abdulla oğlu, Cabbarov Fazil Yusif oğlu, Hüseynov Köçəri Əhəd oğlu.

Müasir silah-sursatla təchiz olunmuş kəşfiyyat dəstəsi Kəlbəcərdən yola düşəndə səhər açılırdı. Sürücü Köçəri dolama yolları sürətlə və ehtiyatla keçirdi. Axşama yaxın Qazıxanlı binəsinə çatan dəstə orada da dayanmayıb Çilgəz dağına qalxdı. Dağdan Laçın bölgəsinin böyük bir hissəsi-Şamkənd, Ərikli, Bağırlı, Şəlvə və s. kəndlər aydın görünürdü. Çilgəzdə xeyli müşahidə aparan kəşfiyyatçılar bütün gecəni də gecəgörən cihazla müşahidə apardılar. Yaxın kəndlərdə düşmən qüvvələri demək olar ki, yox idi. Gecəni orada qaldılar. Səhər açılmamış onlar sürücünü Çilgəzdə qoyub iki dəstəyə ayrıldılar və Ərikli kəndinə doğru iki istiqamətdən hərəkətə başladılar. Onlar Əriklidə əvvəlcədən müəyyən edilmiş yerdə görüşməli idilər. Axşamüstü dəstələr Ərikli kəndində yenidən birləşdilər və ratsiya ilə sürücünü də maşınla Ərikliyə çağırdılar. Köçəri gecə maşının işıqlarını yandırmadan ustalıqla və hədsiz çətinliklə Ərikli kəndinə endi. Səhərəyaxın Ərikliyə çatan kimi onlar müəyyən edilmiş yerdə görüşdülər və kənddən bir qədər aralıda meşədə ağac budaqlarını qırıb maşını gizlətdilər. Həmin gecə kəndin kənarındakı meşədə gizlənmiş 3 kişi və bir qadının olduğunu müəyyən edən kəşfiyyatçılar gizlicə onlara yaxınlaşaraq bizimkilər olduğunu müəyyən etdilər və onlarla görüşdülər. Onlar öz evlərində deyil, meşədə yaşayırdılar. İlk kəşfiyyat məlumatlarını bu qoçaq insanlardan alan kəşfiyyatçılar, digər kəndlərə getməyi qərara aldılar. Güclü yağan yağış

xeyli çətinlik yaradırdı. Buna baxmayaraq tapşırıq yerinə yetirilməli idi. Onlar irəliləyərək, Şəlvə kəndi və onun ətrafındakı kəndlərdə ermənilərin olmadığını müəyyən etdilər. Növbəti istiqamət: Taxta zavod ətrafı idi...

* * *

Altı gün idi ki, düşmən haqqında mühüm məlumatlar əldə edən dəstə yavaş-yavaş Piçəniç kəndinə doğru irəliləyirdi. Meşə ilə hərəkət edən kəşfiyyatçılar arabir dayanıb ətrafı dinləyir və yenidən irəliləyirdilər. Kəndə yaxınlaşan dəstə üzvləri bir qədər də müşahidə aparıb, kəndə girməyi qərara aldılar. Kəndin kənarındakı evlərə baxdıqdan sonra məlum oldu ki, kənd əhalisi evlərindən heç nə aparmayıblar. Aptekə baxan Fazil oradan bir xərək çıxardı və dedi ki, lazım olar. İlqar ona bildirdi ki, xərəyi neynirsən at yerə. Fazil isə yenə dedi ki, lazım olar.

Fazil və onun 3 nəfərlik qrupu kəndin aşağı hissəsinə doğru getdilər, İlqargil isə yaxınlıqdakı evlərə yaxınlaşdılar. Bir azdan Fazil ratsiyada məlumat verdi ki, kənddə ermənilər var. Tezliklə Fazilgilin yanına enən dəstənin digər üzvləri uzaqdan müşahidə apardılar ki, 11 nəfər hərbçi erməni evləri qarət edib maşına yükləyirlər. Fazil təklif etdi ki, erməniləri atəşə tutaq. İlqar və Ramiz buna razı olmadılar. Çünki, onların kəşfiyyatı uğursuzluqla nəticələnə bilərdi. Bu vaxt arxa tərəfdə müşahidə aparan Ələkbər bildirdi ki, arxadan onlara tərəf 4 nəfər hərbçi gəlir. Tez pusqu quruldu və həmin hərbçilərin bizim xüsusi təyinatlı polislər olduğu aşkar edildi. Onlarla görüşən kəşfiyyatçılar həmin polislərin də kəşfiyyata göndərildiklərini yəqin etdilər. Onlar da UAZ markalı maşını meşədə gizlətmişdilər.

* * *

Ermənilər isə öz işlərində idilər. Evlərdə olan lazımlı əşya və avadanlıqları qarət edib bir yerə toplayır, sonra isə maşına yükləyirdilər. Fazil döyüş yoldaşlarını yola gətirməyə çalışırdı ki, erməniləri atəşə tutaq, ya da onları mühasirə edib əsir götürək. Bu zaman polislərdən bir nəfər ehtiyatsız hərəkət etdi və ermənilər onlar tərəfə atəş açmağa başladılar. Ramiz dedi ki, ermənilərin mövqe tutduğu evi mühasirəyə almaq lazımdır. Döyüşçülərin bir neçəsi sürünərək və əyilə-əyilə evin ətrafını tutdular. Aramsız olaraq şaqqıldayan avtomat səsləri ətrafın sükutunu pozmuşdu. Vaxtında erməniləri məhv edib meşəyə çəkilmək lazım idi. Üç tərəfdən mühasirəyə alınmış ermənilərin demək olar ki, qaçmaq ümidləri kəsilmişdi. Onlar evin pəncərəsindən və ya qapısından bayıra çıxmağa çalışır, lakin kəşfiyyatçıların güllələrinə tuş gəlirdilər. Fazil xeyli irəliləyərək evə yaxınlaşdı və içəriyə qumbara atdı. Güllə səslərinin arasından erməninin bağırtısı eşidildi. Polislərdən Aqil adlı

döyüşçü yerindən qalxaraq, atəş aça-aça evə girdi. Lakin, ermənilərin atdığı əl qumbarası onun ayağının altına düşdü. Aqilin qışqırtısı eşidildi; o yaralandığını bildirirdi. Ona kömək lazım idi. İlqarla Ələkbər digər yoldaşlarının atəşinin köməyi ilə evə girməyə çalışdılar. Lakin ermənilərin atdığı qumbaralardan güclə yayına bildilər. Buna baxmayaraq onlar Aqili evdən bayıra çıxara bildilər və təhlükəsiz yerdə İlqar ona ağrıkəsən iynə vurdu və qılçasını sarımağa başladı. Ayağı parçalanmış Aqil özünü öldürməyə çalışırdı. Bir saata qədər davam edən döyüşdə ermənilərə təslim olmaları bildirildi, lakin, onlar bu təkliflərə atəşlə cavab verdilər. Ramizin atdığı qumbaraatan onları daha da vahiməyə saldı. Ermənilər qaçmağa can atsalar da hər cəhdləri onların itkisinə səbəb olurdu. Bu arada Ərikli kəndində gözləyən Köçərini maşınla Piçəniçə çağıran kəşfiyyatçılar ermənilərin arxa pəncərədən qaçmağa hazırlaşdıqlarını yəqin etdilər. Vidadi ilə Yaşar evin başqa bir pəncərəsindən içəriyə iki qumbara atdılar. Ermənilərin bir neçəsi də öldürüldü. Ermənilərdən 5 nəfəri sağ qalmışdı. Lakin, ayrı-ayrı otaqlarda gizlənmiş ermənilərin təslim olmaq fikirləri yox idi. Fazil əks tərəfdən evə yaxınlaşmaqda davam edirdi. Birdən Fazil ermənilərdən birinin pəncərənin cağlarını sökdüyünü gördü. Qəfil atəş açmağı ilə ermənin pəncərə cağından asılı qalmağı bir oldu. Fazil bir az da yaxınlaşıb içəri bir əl qumbarası atdı və bu zaman özü də üzü üstə yerə yıxıldı. Ramiz elə bildi ki, Fazil özü yerə uzandı. Ona yaxınlaşdıqda, Fazili qanın içində gördü...

* * *

Bir azdan Ərikli kəndindən olan kişilər də öz beşaçılan silahları ilə döyüşçülərimizə köməyə gəldilər. Ramizlə Ələkbər evə girdilər və ermənilərin gizləndiyi otağa iki əl qumbarası atdılar. Sonuncu ermənilər də öldürüldü.

Fazilin meyidini özünün kənd aptekindən götürdüyü xərəyə qoydular və xərəyi maşına qaldırdılar. Fazil sanki bu xərəyi kənd aptekindən özü üçün götürmüşdü. Döyüşçülər yaralı Aqili də maşına qoydular. Onun yarası çox ağır idi.

Ərikliyə getmək lazım idi. Elə bu zaman üstünə zenit tipli pulemyot qoyulmuş iri təkərli K-700 traktorunun kəndə yaxınlaşdıqlarını gördülər. Traktorun üstündə oturmuş 4 erməni silahlısı var idi. Kəşfiyyatçılar yenidən mövqe tutmalı oldular. Onlar traktoru bir az yaxına buraxmağı qərara aldılar. Bu zaman Ərikli kənd sakini beşaçılanla traktorçunu nişan aldı və atəş açdı. Atəşin açılmağı ilə traktorun dərəyə yumalanması bir oldu. Onlar dərədə dörd erməninin meyidini gördükdən sonra yenidən maşına qalxdılar və Ərikliyə doğru hərəkətə başladılar.

Meşənin içərisində torpaq yolla hərəkət edən maşın kəşfiyyatçıları atıb-tuturdu. Onlar həm yorulmuş, həm də Fazilin ölümünə görə özlərini günahkar sayaraq dillənmirdilər.

Kəşfiyyatçılar bir qədər də getdikdən sonra yolda atla və MAZ maşınla qarət daşıyan daha altı erməniyə rast gəldilər və yenidən döyüşə atıldılar. Bir neçə dəqiqə ərzində ermənilərin üçünü məhv etdilər, üçünü isə əsir götürdülər...

Kəlbəcərə qayıdan kəşfiyyatçılar arasında isə nə Fazil var idi, nə də polis Aqil.








# *“25-68”-ci yüksəklik*

Bir neçə gün əvvəl Murovdağ və Meydançaydakı uğurlu əməliyyatdan sonra tabor Şişqaya istiqamətində irəliləyirdi. Lakin düşmən bu dağı alınmaz qalaya çevrirmişdi. Çünki bu yüksəklikdə mövqe tutan düşmən Murovdağdan Yanşaq kəndinə enən yeganə yolu nəzarətdə saxlayır, döyüşçülərimizin irəliləməsinin qarşısını alırdı. Döyüşçülərimiz hər dəfə irəlilədikcə itkilər verərək geriyə-əvvəlki mövqelərinə çəkilirdilər. Şişqaya tanklar və toplarla parça-parça sökülsə də, düşmən bu əhəmiyyətli yüksəkliyi nəyin bahasına olursa-olsun əldən vermək istəmirdi.

Bölük komandiri yaralandığı üçün İbad bölüyə komandir təyin edilmiş və ona “25-68”-ci yüksəkliyi götürmək tapşırığı verilmişdi. Ibad öz qoçaq döyüşçüləri ilə yüksəkliyin ətəyinə doğru irəliləyir, qayalıq və keçilməz yerlərdən əsgərləri keçirməklə düşmən gözündən yayınmağa çalışırdı. Bu gün onlar mütləq yüksəklikdən düşməni qovacaqlarına əmin idilər. Dağın ətəyinə yenicə çatmışdılar ki, düşmən gülləri od kimi onlara tərəf yağmağa başladı. İbad əvvəlcə güllələrin haradan atıldığını müəyyən edə bilmədi. Artıq əsgərlərdən bir neçəsi yaralanmışdı. Artıq, nəinki irəliləmək, hətta düşmən güllələrindən gizlənmək belə mümkün deyildi. Qayalıqlara çəkilən və geriyə sürünən əsgərlər güllələrə tuş gəlirdi. Vəziyyətin son dərəcə çətin olduğunu görən İbad rabitəçi ilə yamacdakı böyük qayanın arxasına çəkilərək, oradan komanda verirdi. Bir qədər yuxarıda qayaların yarıqlarında özlərinə möhkəm mövqe seçmiş düşmən əsgərləri döyüşçülərimizə başlarını qaldırmağa imkan vermirdi. Artıq axşam düşürdü. Hücumu davam etdirmək daha da çətinləşmişdi. Bölükdən 17 nəfər yaralanmışdı. Tabor komandiri hücumu dayandırmağı lazım bildi və orada mövqe tutmağı tapşırdı. Yaralıları Meydançay dərəsinə tərəf çıxardıqdan sonra, gecə həmin qayalıqda qaldılar. İbad fikirləşirdi ki, sabah “25-68”-i ala bilməsələr, bölüyün itkiləri çoxalacaq və nəinki bölük, hətta tabor döyüş qabiliyyətini itirəcək...

* * *

Səhər açılar-açılmaz, İbad artilleriyasız keçinə bilməyəcəklərini yəqin etdi və ratsiya ilə topçuları köməyə çağırmağı lazım bildi. Bu isə olduqca qorxulu idi-mərmilər onların öz üstünə düşə bilərdi. Çünki atılan mərmilər bölüyün gizləndiyi qayalıqdan on-on beş metr yuxarıya düşəcəkdi. İbad əsgərlərə tamamilə gizlənməyi əmr etdi və ratsiyada yuxarı komandanlığa bu barədə məlumat verdi. Onlar bildirdilər ki, topçulara özünüz kordinatları göstərin. İbad artilleriaçıları çağırmağa

başladı. Əlaqə yaranan kimi o, "25-68-ci kvadrat bölmə-1"-in vurulmasını xahiş etdi.

Iki dəqiqədən sonra İbad və rabitəçinin gizləndiyi qaya bizimkilərin atdığı top mərmisi ilə vuruldu. Mərmi onların 20-30 metrliyində partlamışdı. Hər tərəfə səpələnən qəlpələr və daş qırıntıları bölük rabitəçisinin ayağını yaraladı və o, gizləndiyi qaya arxasında özünü saxlaya bilməyərək aşağı yumalandı. Döyüşçülər tez onu arxaya çəkib yarasını sarımağa başladılar.

İbad topçulara bir qədər qayanın yuxarısını vurmaq lazım olduğunu bildirdi. Növbəti mərmilər düşmənin gizləndiyi qayaların zirvələrində partlamağa başladı. Mərmilər qayalara çırpılır, bəzən isə Şişqayanın başı üstündən aşaraq onun arxasında partlayırdı.

Nəhayət, qayanın ən hündür zirvəsinə dəyən mərmilərdən biri qayanı parçaladı və qayadan qopan iki böyük daş parçası gurultu salaraq dərəyə yumalandı. İbad topçulara hədəfi dəqiq vurmaq üçün ratsiya ilə düzəliş verirdi.

* * *

Yarım saatlıq top atəşindən sonra İbad Elxanla düşmənin gizləndiyi yüksəkliyə-qayaların lap yaxınlığına qalxmağa başladı. Birdən yuxarı qayalıqdan onlara tərəf bir neçə əl qumbarası atıldı. Qumbaralar onların başının üstündən keçərək aşağıdakı dərədə partladı. Onlar düşmən mövqelərinə bir neçə metr də yaxınlaşaraq qayaların o biri üzünə qumbara atmağa başladılar. Düşmən də onlara qumbara atırdı. Lakin ermənilərin atdığı qumbaralar ya onların qarşısındakı qayaya dəyir, ya da başlarının üstündən keçərək aşağıda-yamacda partlayırdı; əsl qumbara döyüşü başlamışdı. Bir neçə dəqiqə davam edən qumbara döyüşü də bir nəticə vermədi. Artıq qumbaralar da qurtarmışdı. Hərədə bircə qumbara qalmışdı. Nisbi sakitçilikdən istifadə edən İbad Elxanla düşmənin gizləndiyi yüksəkliyə qalxmağa başladılar. Bölüyün digər döyüşçüləri onları izləyirdilər. Top mərmiləri qayanı iki yerə bölmüş, qaya haçalanmışdı. Onlar sakitcə qayanın haçasından düşmən tərəfə boylandılar. Lakin onlar gördüklərinə inana bilmirdilər. Qəribə bir mənzərə ilə qarşılaşdılar. Ermənilər yüksəklikdəki mövqelərini tərk edərək pərakəndə şəkildə qaçırdılar. Qayalığın arxasında düşmənin çoxlu sayda çadırı və qazma daldalanacağı var idi. Qayanın arxasına və çadırların ətrafına düşmən meyidləri səpələnmişdi. Ermənilər yaralılarını və meyidlərini qoyub qaçırdılar.

Bölüyün döyüşçüləri İbadgilin yanına qalxmışdılar. Komandir əsgərlərə hücum əmri verdi. Qayaların arasına qalxaraq yeni mövqe tutan bölük, avtomat və pulemyotlarla qaçan düşmən əsgərlərini bir-bir yerə

sərirdi. Qobu və dərələrə xeyli düşmən meyidi səpələnmişdi. Düşmən çadırlarına tərəf irəliləyən əsgərlər çoxlu ərzaq, çadır, silah və sursat ələ keçirdilər.

300-dək yaralısını və meyidini qoyub qaçan düşmən artıq dağların arxasında görünməz olmuşdu. “25-68”-ci yüksəklik düşməndən təmizlənmişdi.



# *Səngərdə bitən ömür*

Briqada qərərgahından vacib bir məlumat daxil olmuşdu. Onda mən taborun qərərgah rəisi vəzifəsində xidmət edir, eyni zamanda tabor komandiri vəzifəsini də icra edirdim. Həmin axşam bölük və tağım komandirlərini qərərgaha çağırıb məlumatı onlara çatdırdım. Əsgərlərin gecələr keşikdə ayıq-sayıq durmalararı üçün nəzarəti artırmağı və bütün komandirlərə gecələr yatmamağı əmr etdim. Özüm isə bir daha səngərlərə baş çəkdim. Əvvəlcə birinci bölüyün səngərlərini gəzdim, əsgər və zabitlərlə bir daha görüşüb söhbət etdim. Səngərlərin qarşısındakı kol-kos və cəngəllərin təmizlənməsi, ön mövqeyin qaydaya salınması üçün əlavə tapşırıqlar verdim. İstehkam tağımı komandirinə isə minalı sahələrin yenidən minalanmasını tapşırdım. Çünki bəzi yerlərdə minaları çöl heyvanları partlatdığı üçün minalı sahələr bərpa olunmalı idi. 1-ci bölüyün səngərlərinin qarşı tərəfləri kolluq və su arxları ilə əhatə olunduğundan düşmən kəşfiyyatının hərəkəti üçün ən əlverişli yerlər sayılırdı. Xisusilə sağ cinahdakı “Ağ ev”in (əvvəllər tarla düşərgəsi olan evi şərti olaraq “Ağ ev” adlandırırdıq) ətrafında keşikçilərin sayının artırılmasını bölük komandirinə tapşırdım. Düşmən bu kolluqlardan istifadə edib səngərlərimizə yaxınlaşa bilərdi. Çünki bizim kəşfiyyatçılar düşmən səngərlərinə qədər, hətta düşmən mövqelərinin içərilərinə də sərbəst gedib-qayıdırdılar. Sonuncu dəfə qonşu taborun kəşfiyyatçıları düşmən qazmasını partlatmış və bir düşmən əsgərini əsir götürmüşlər. Elə briqada qərərgahından daxil olan məlumat da bununla əlaqədar idi: düşmən kəşfiyyatçılarının əvəz çıxmaq üçün səngərlərimizə soxulmasına imkan verilməməlidir. Bunun üçün ehtiyatlı olmaq vacib idi.

Iki il idi ki, düşmənlə “atəşkəs” imzalanmışdı. Bi illər ərzində düşmən dəfələrlə atəşkəsi pozsa da yenidən müharibənin başlanması ehtimalı az idi. Çünki düşmən istəyinə çatmış, Dağlıq Qarabağı tamamilə işğal etmiş, üstəlik də ətraf bölgələrin böyük bir hissəsini işğal altında saxlayırdı...

Artıq bizimkilərin düşmən əsgərinin əsir götürməsindən düz iki həftə keçmişdi. Mənim ehtimalıma görə düşmən bir həftədən tez olmayaraq bir “iş” görməzdi. Lakin, iki həftə keçdiyinə baxmayaraq hələ də rahat ola bilmirdim. Öz-özümə fikirləşirdim ki, düşmən mütləq əvəz çıxmağa çalışacaq. Məndə nə isə bir narahatlıq var idi. Hər dəfə briqada qərərgahına gedəndə əməliyyat bölməsindən qonşu taborların və ya hərbi hissələrin ön mövqelərindəki vəziyyətlə maraqlanır, bir hadisənin baş verib-verməməsini öyrənirdim. Hələlik nisbi sakitlik idi.

* * *

Sərin yaz gecələrindən biri idi. Birinci bölüyün ön mövqelərini yoxlayarkən keşikdəki əsgərlərlə salamlaşır, onların əhvallarını soruşur və bəzən onlara iradlarınmı bildirirdim. Bölük komandiri baş leytenant Zakir Qocayev bu tapşırıqları yerindəcə həll etməyə çalışırdı. Mən həmin tapşırıqlarının yerinə yetirilməsini yoxlamaq üçün iki gündən sonra bir daha gələcəyimi baş leytenant Z.Qocayevə bildirdim. Qəbirstanlığın sol tərəfindəki səngərlərə yaxınlaşanda bizi manqa komandiri çavuş Canbaxışov Camal və Musayev Zahid qarşıladı. Onlar məlumat verərək ermənilər tərəfdə nə isə bir sakitlik olduğunu bildirdilər. Onlar həmişəkindən daha az səslərin eşidildiyini, düşmən əsgərlərinin isə daha tez-tez göründüyünü bildirdilər. Mən düşmən mövqelərinin hər an nəzarətdə saxlamağın və keşikdə ayıq-sayıq olmağın vacibliyini dedim. əlavə etdim ki, düşmən əvəz çıxmaq üçün nə isə edəcəkdir. Həmçinin yuxarı komandanlıqdan alınmış məlumatları bir daha onların yadına saldım və əsasən gecələr ehtiyatlı olmağı tapşırdım.

Üçüncü bölüyün səngərlərini yoxlamaq daha uzun çəkdi. Bölüyün sağ cinahı həm də taborun sağ cinahı idi. Xaçınçay sahilindəki axırıncı mövqedən-"Çınqıl təpə"dən-qayıdanda artıq gecə yarıdan keçmişdi. Burada da əsgər və zabitlər bildirdilər ki, iki gündür ki, düşmən tərəfdə qeyri-adi bir sakitlik hökm sürür. Hər gün ara-sıra səngərlərimizi atəşə tutan düşmən nədənsə cəbhəboyu susurdu. Kəşfiyyatçıların və keşikdə duran əsgərlərin dedikləri bu "susmaq" mənim şübhələrimi daha da artırmışdı. Bu o demək idi ki, düşmən nə isə ciddi bir iş üçün hazırlıqdadır. Amma nəyə hazırlaşır, necə hazırlaşır, düşmənin məqsədi nədir? Bu suallar bir an belə məni rahat buraxmırdı. Buna görə də hər gecə səngərlərdə olur, əsgərlər və zabitlərlə söhbətlər aparır, onlara dönə-dönə ehtiyatlı olmağı və keşikdə ayıq-sayıq durmağı tapşırır, silah və sursatın vəziyyəti ilə maraqlanır, telefon və ratsiyalarla bölüklərin tam təmin olunmasına çalışır, bəzən əsgərlərlə səhərədək keşikdə qalırdım...

Mən rabitəçi əsgərlər-Ramil və Yaşarla-bütün gecəni səngərləri gəzdiyim üçün bərk yorulmuşdum. idman kostyumunun dizləri və ayaqqabılarım islanmışdı. "Ağ ev"in yaxınlığındakı bataqlıqdan keçərkən hər üçümüzün ayaqlarına su dolmuşdu. Təpənin yanı ilə minaatan batareyasının mövqelərinə tərəf yaxınlaşmağa başladıq. Gecənin qaranlığında keşikdəki əsgər "Dur, kimdir gələn?" komandası verdi. Mən "Qərərgah rəisi kapitan Kamalovdur"-dedim və əl çırağını üzümə tutdum ki, əsgər məni tanısın. Keşikçi məni tanıyan kimi, o, batareya komandiri baş leytenant Ə.Abbasovu çağırmaq istədi, lakin mən ehtiyac olmadığını bildirdim və biz oradan qərərgaha qayıtdıq.

* * *

Qərərgaha qayıdanda saat 3 olardı. Mən qərərgahda-öz otağımda bir az yatıb dincəlmək istədim. Təzəcə uzanmışdım ki, bu zaman ön mövqelərdən güclü atəş səsləri eşidilməyə başladı. 1-ci bölüyün mövqelərindən - qəbirstanlıq tərəfdən güllə səsləri eşidilirdi. Səsləri ayırd etmək üçün başımı pəncərədən çölə çıxardım. Taborun qərərgahı kəndin mərkəzində uşaq bağçasında yerləşirdi. Qərərgahla ön mövqe arasında 800-850 metrədək məsafə olduğundan atılan bəzi güllələr ətrafdakı evlərin divarlarına dəyib ora-bura çovuyurdu. Atəş avtomat və pulemyotlardan atılırdı. Birinci bölüyün dayaq məntəqəsi atəşə tutulmuşdu. Həm düşmən silahlarının səsi gəlirdi, həm də bizimkilərin avtomatları şaqqıldayırdı. Belə atışmalar son vaxtlar tez-tez baş verirdi. Ona görə də əvvəlcə buna əhəmiyyət vermədim, elə-belə mövqe atışması olduğunu zənn etdim. Birdən müxtəlif səslər içərisindən qumbara partlayışının səsini eşidən kimi cəld rabitəçi əsgərlərə həyəcan siqnalı vermələrini əmr etdim. Çünki, indiyədək qumbara və digər iri çaplı silahlardan- həm düşmən tərəf, həm də biz tərəf -istifadə etmirdik. Əliyev Yaşara birinci bölüyə zəng etməyi və nə baş verdiyini öyrənməyi əmr etdim. Keşikdəki əsgərlərin birini isə həyəcan siqnalı ilə zabitləri və ehtiyatda olan bölüyü qaldırmağı əmr etdi. Rabitəçi birinci bölüklə telefon rabitəsinin kəsildiyini bildirdi. Ratsiya ilə əlaqə yaratmaq istədik. Oradan bildirdilər ki, birinci bölükdə, qəbirstanlıqda döyüş gedir. Mən 1-ci bölüyün rabitəçisinə qaçaraq döyüş gedən tərəfə (qəbirstanlığa tərəf)- bölük komandiri baş leytenant Qocayevin yanına-qaçmağı və təcili məlumat verməyi əmr etdim. Eyni vaxtda briqada qərərgahına da döyüş barədə məlumat verdim. Yuxarı komandanlıq kömək lazım olub-olmadığını soruşdu, lakin mən hələlik kömək lazım olmadığını bildirdim.

Həyəcan komandası nəticəsində ikinci bölük on dəqiqə ərzində döyüşə hazır vəziyyətə gətirilən kimi, cəld bir neçə mühüm tapşırıq verdikdən sonra həmin bölüyün ikinci tağımını baş leytenant Kazımın komandası altında birinci bölüyə köməyə göndərdim. Digər iki tağımı isə hər ehtimala qarşı yenə ehtiyatda saxladım. Ola bilərdi ki, düşmən bir tərəfdən mövqelərimizi atəşə tutar, digər tərəfdən isə hücum edər. Döyüş vaxtı düşmənin fikirini öyrənmək-hər bir komandir üçün vacib şərtdir. İndi isə ön mövqedə nə baş verdiyini bilmirdim. Bölük komandiri ilə hələ də əlaqə yarada bilməmişdik. Bu müddətdə mən bütün taboru döyüşə hazır vəziyyətə gətirərək, vacib mövqeləri, o cümlədən, tank əleyhinə tağımı PTURS-larla səngərlərdə yerləşdirdim, tank tağımını, minaatan batereyanı döyüşə hazırladım.

On beş dəqiqədən sonra baş leytenant Zakir Qocayevlə danışa bildim. Qocayev məlumat verdi və bildirdi: “Düşmən hər tərəfdən

mövqelərimizi atəşə tutub, PDM və qumbaraatanla bizə atəş açılır, əsgər Zahid Musayev yaralanıb, onu sol cinahımızdakı kəndə-Çıraqlıya-çıxardırıq. Maşın göndərin”. Mən bölük komandirindən düşmənin hücuma keçib-keçmədiyini soruşdum. O isə bildirdi ki, hücum yoxdur. Artıq hər şey aydın idi: iki həftə əvvəl briqada komandiri polkovnik Ramiz Cəfərovun tapşırığı yadıma düşdü. Mən yəqin etdim ki, düşmənin hücum etmək fikri yoxdur, bu düşmən kəşfiyyatı ola bilər, onlar əvəz çıxmaq istəyirlər. Mən tez briqada komandirinə qısa məlumat verdim və bildirdim ki, döyüşü davam etdiririk, ehtimal ki, düşmən kəşfiyyatı ilə döyüşürük. Komandir kömək lazım olub-olmamasını soruşdu və mən hələlik heç bir kömək lazım olmadığını bildirdim.

Həyəcan siqnalı ilə ayağa qalxan taborun əsgərləri iki illik atəşkəsdən sonra müharibənin başlandığını zənn edərək döyüşə atılmış, nəhayət düşmənin dərsini verəcəkləri günün gəldiyini yəqin etmişlər. Qumbaraların partlayışından qəbirstanlıqdakı bozarmış otlar alışmış, gecəyarısı qəfil başlanan döyüşə bir az da vahimə qatmışdı...

* * *

Qazmanın yaxınlığında növbə çəkən əsgər Zahid Musayev səngərin üstü ilə o tərəf-bu tərəfə gedir, hərdən dayanıb gecənin səslərinə qulaq asır, mümkün qədər digər yoldaşı ilə danışmamağa çalışırdı. Səngərin bir az sol tərəfi 5-6 metr məsafədə kolluq olduğundan keşikdə duran əsgərlər həmişə oranı diqqətdə saxlayırdılar.

Növbəni 10-15 dəqiqə idi ki, dəyişmişdilər. Səngərin qarşısında otların xışıltısını eşidən Zahid dayanıb bir daha diqqətlə qulaq asdı və heç nə eşitmədi. Amma şübhələnmişdi. Külək də əsmirdi ki, otları xışıldatsın. Tülkü-dovşan da ola bilərdi, lakin onlar adamlara bu qədər yaxınlaşmazlar. Bir az aşağı əyilərək gecənin qaranlığında ayazda ətrafa bir daha nəzər saldı: qarşıda yaxşı tanıdığı səngərin qabağında kiçik torpaq təpələri, kollar, arxların kənarları, ağaclar, bütün relyef tanış idi, tanış olmayan heç bir qaraltı gözə dəymirdi. Lakin maraq onu rahat buraxmadı. Avtomatı hazır vəziyyətə gətirib səngərdən ehtiyatla tullanıb qabağa çıxaraq torpaq yığınının arxasına baxmaq istədi. Yenə də heç nə görmədi. Birdən lap onun ayaqlarının altında gizlənmiş düşmən kəşfiyyatçısı onun üstünə tullandı. Barmaqları tətikdə olan Zahid qeyri-iradi olaraq atəş açdı və özünü geriyə-səngərə yıxdı. Qaranlıqda zarıltı və astadan anlaşılmaz səslər eşidildi.

Zahid ”ermənilər”-deyərək qışqırdı və kolluğu atəşə tutdu. Zahidin hərəkətlərini izləyən əsgər yoldaşı da hara gəldi atəş açmağa başladı. O, düşmənin harada olduğunu bilmirdi, elə kor-koranə atəş açırdı. Elə bu vaxt qəfil yaxalandıqlarını hiss edən erməni kəşfiyyatçıları

səngərlərimizdən uzaqlaşmaq istədilər, lakin hər tərəfdən atəşə tutulduqları üçün çıxılmaz vəziyyətə düşdülər. Indiyədək atəş açmadan hərəkət edən düşmən kəşfiyyatçıları yeganə çıxış yolunun döyüşərək geriyə sürünmək olduğunu dərk etdilər və sonra əl qumbaralarını səngərlərimizə yağdırmağa başladılar. Qumbaralar səngərdə və qazmanın qapısı ağzında partladığından manqa komandiri və digər əsgərlər qazmadan çıxmağa imkan tapmadılar. Düşmən qazmanı tam güllə altında saxlamağa çalışırdı. Sağ və sol tərəfdəki keşikçilər artıq pulemyot və avtomatlarla düşmənə atəş açmağa başlamışdılar. Bizim əsgərlər nə baş verdiyindən xəbərsiz olduqları üçün hara gəldi atəş açırdılar. Ermənilər isə öz kəşfiyyatçılarını döyüş meydanından çıxarmaq üçün hər tərəfdən səngərlərimizi atəşə tutdular.

Atəşə ara verməyən Zahid, yoldaşlarının qazmadan çıxmalarına kömək etdi. Artıq qazmadan çıxan Camal və onun yoldaşları ermənilərə atəş açırdılar. Düşmənin lap səngərlərimizə qədər yaxınlaşması Zahidi çox narahat edirdi. Necə olub ki, onları bir belə yaxına buraxıblar? Necə olub ki, düşmənin gəlişini bilməyiblər? Döyüşə-döyüşə bunları fikirləşirdi. Elə bu an düşmən qumbarası onun ayağının altına düşdü. O, qumbaranı yerdən götürüb düşmənə atmaq istədi, lakin qaranlıqda tapa bilmədi, yerini dəyişməyə isə macal tapmadı. Partlayış onu səngərə yıxdı. Qalxmaq istədi, lakin, sinəsindəki dəhşətli ağrıdan huşunu itirdi. Bir neçə dəqiqədən sonra döyüş yoldaşları Zahidi yaralı halda səngərdə tapdılar və yarasını sarımağa çalışdılar...

* * *

Səhərəyaxın döyüş dayanmışdı. Yaralanmış əsgəri-Zahid Musayevi hospitala çatdırsaq da artıq gec idi; o, həlak olmuşdu. Briqada komandirinin müavini polkovnik-leytenant İ.Ramaldanov da tabora gəlmişdi. Mən məlumat verdim. Səhər açılanda isə briqada komandiri polkovnik R.Cəfərov özü də gəldi. Biz döyüş baş verən ərazini gəzdik və döyüşün baş verdiyi yerdə düşmən kəşfiyyatçılarının bizim səngərin 5-6 metrliyinədək yaxınlaşdıqlarının şahidi olduq. Hətta düşmənlərdən birinin bizim səngərə girməsini yəqin etdik, çünki düşmən ayaqqabısının izləri yaş torpaqda qalmışdı. Yəqin ki, düşmən kəşfiyyatçıları bizim əsgərlərdən birini əsir götürmək istəmiş, lakin buna nail ola bilməmişlər. Zahid onları gördükdən və atəşə tutduqdan sonra ermənilər səngərlərimizə dalbadal qumbaralar yağdırmış, və bütün cəbhə boyu səngərlərimizi atəşə tutmuşdu. Bizim əsgərlər isə özlərini itirmədən düşmən kəşfiyyatçılarını  darmadağın etmişdi. Düşmən kəşfiyyatçıları özlərinin ölən və yaralanan kəşfiyyatçılarını götürüb geriyə sürünmüş və gecə qaranlığında arxın içi ilə çəkilib getmişdilər. Düşmənin cəbhə boyu

səngərlərimizi atəş altında saxlamaları nəticəsində onların kəşfiyyatçıları çəkilməyə imkan tapmışlar. Döyüş meydanında əzilmiş otların üzərində ölmüş və yaralanmış düşmən əsgərlərinin laxtalanmış qanları qalmışdı. Cəngəllik və kolluqda isə düşmənlərin bir neçə güllə daraqları, əl qumbaraları, qumbara həlqələri, avtomat güllələri və digər döyüş ləvazimatları atılıb qalmışdı. Mən Zahidin qumbara qəlpələri ilə qundağı parçalanmış avtomatını əlimə aldım və darağını çıxardım. Daraqda bircə güllə qalmışdı...

Polkovnik əvvəlcə ön mövqedəki əsgər və zabitlərin keşikdə ayıq-sayıq durmadıqları üçün mənə irad tutdu. Bildirdi ki, düşmən kəşfiyyatının bu qədər yaxınlığa gəlmələri səhlənkarlıqdan başqa bir şey deyil. Mən isə komandiri inandırmağa çalışırdım ki, əsgərlər ön mövqedə səhlənkarlıq deyil, qoçaqlıq göstəriblər. Bildirdim ki, məhz həmin əsgərlərin yaxşı döyüşü nəticəsidə düşmən səngərlərimizdən qovularaq çıxarılmışdı.

...Bir gün sonra məlum olacaq ki, həmin döyüşdə Zahid üç düşmən kəşfiyyatçısını məhv etmişdir. Bu məlumatı qonşu hərbi hissənin rabitəçiləri bizə vermişlər. Onlar döyüş gecəsi düşmənin ratsiya ilə danışıqlarına qulaq asmış və düşmən kəşfiyyatçılarından üç nəfərinin öldürüldüyünü öyrənmişlər. Bundan sonra briqada komandiri inandı ki, həqiqətən 1-ci bölüyün əsgərləri qoçaqlıq göstərmişlər.

Yaz günlərinin birində Bərdənin şəhidlər xiyabanında daha bir şəhid-Zahid Daşqın oğlu Musayev torpağa tapşırıldı. Onun ən yaxın dostu Mahiri ovundurmaq, sakitləşdirmək mümkün deyildi. O, döyüş gecəsi Zahidin yanında olmamasına heyfsilənirdi. Dostları-Mahir, İlham, Nizami, Camal və bölük  komandiri Zakir Qocayev Zahidin qəbri üzərində onun qisasını alacaqlarına and içdilər.

Amma, Zahid ölümündən əvvəl öz qisasını özü almışdı.





KİTABIN İÇİNDƏKİLƏR

Ön söz............................................................... 3
Müəllifdən.......................................................... 5
Kəlbəcər müdafiədə: 1988-1991-ci illər............ 9
Özünümüdafiə Batalyonu yaradılır........... ....... 13
Kəlbəcər batalyonunun komanda heyəti.......... 21
"Əfsanəvi Alay" və ya "Birinci Batalyon"....... 49
"Çapar" əməliyyatı......................................... 54
Sərhədləri milli ordu qoruyur......................... 59
Kəlbəcər batalyonunun könüllü döyüşçüləri.... 62
Ağdaban faciəsi.............................................. 76
"Əfsanəvi Alay"nin tərkibində........................... 79
Qərərgah İstisuya köçürülür............................... 80
Aşağı Ayrımda 3 gün........................ ................ 83
Sarıyer yaylağında.......................................... 85
1-ci Çərəkdar döyüşü..................................... 95
Ağdərədə düşmənə divan tutulur................... 97
Laçın uğrunda döyüşlər.................................. 105
Kəlbəcər batalyonunun ilk əsgərləri................. 108
Göyçə sərhəddində.......................................... 122
Kəlbəcər işğal ərəfəsində................................. 128
2-ci Çərəkdar döyüşü..................................... 130
Qara Qayanın itirilməsi.................................. 161
Kəşfiyyat......................................................... 167
Kəlbəcər uğrunda son döyüş........................... 169
Murovdağa doğru.......................................... 178
Kəlbəcərin işğal səbəbləri................................ 186
Dağlara sığınan döyüşçülər............................ 189
Əfsanəvi yürüş............................................... 194
Murovdağ əməliyyatı..................................... 207
Yenidən düşmən arxasına.............................. 211
"Çəpli" əməliyyatı......................................... 221

At daşında mühasirə.................................... 226
Uğurlu əməliyyatların uğursuz sonluğu...... 242
Fizuli bölgəsində döyüşlər.......................... 249
Tərtər və Ağdamda düşmən hücumunun
qarşısı alınır............................................. 252
Şəhidlər unudulmaz.................................. 272
Cəbhə gündəliyindən................................ 281
Son söz əvəzi.......................................... 297
Sənədli hekayələr.................................... 299
Hoçazda bir gün...................................... 300
Gürşad dastanı........................................ 304
“Meydançay” əməliyyatı............................. 308
Palıd ağacı ..............................................313
Məxfi tapşırıq.......................................... 315
“25-68”-ci yüksəklik................................ 319
Səngərdə bitən ömür................................ 322



**Akif Kamal**

*"KƏLBƏCƏR BATALYONU VƏ ƏFSANƏVİ ALAY"*

*Bədii tərtibat: Bənövşə Kamallı*
*Məsləhətçi: polkovnik-leytenant Eldar Həsənov*



***KAMALOV AKİF HAQVERDİ OĞLU***

2 noyabr 1960-cı ildə Kəlbəcərin Aşağı Ayrım kəndində anadan olmuşdur. 1977-ci ildə 2 saylı orta kəktəbi, 1987-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun İqtisadiyyat fakültəsini bitirmişdir. 1979-1981-ci illərdə Uzaq Şərqdə hərbi xidmətdə olmuşdur. 1991-ci ilədək Kəlbəcər rayon İcra hakimiyyətində işləmişdir. Kəlbəcər Ərazi Müdafiə Batalyonunun yaradıcılarından biridir. Ehtiyatda olan leytenant Azərbaycan Ordusunu ilk bölmələrindən olan Kəlbəcər Batalyonunda komandir müavini vəzifəsində xidmətə başlamış, sonralar bölük komandiri, taborun qərərgah rəisi, tabor komandiri vəzifələrində xidmət etməklə Kəlbəcər, Laçın, Ağdərə, Murovdağ, Fizuli, Ağdam, Tərtər bölgələrində erməni işğalçılarına qarşı aparılan çoxsaylı döyüş əməliyyatlarında iştirak etmişdir. 1997 – ci ildə kapitan rütbəsində ordu sıralarından tərxis olunmuşdur.